**Ilham Rəhimli**

# ÜÇ ƏSRİN YÜZ OTUZ İLİ.

**(Akademik Milli Dram Teatrı bu gün).**

Redaktor

**TİMURÇİN ƏFƏNDİYEV**
əməkdar incəsənət xadimi,
professor

Rəhimli Ilham.

R55 **ÜÇ ƏSRİN YÜZ OTUZ İLİ. (Akademik Milli Dram Teatrı bu gün**).
Bakı, "**QAPP-POLİQRAF**" Korporasiyası, 2003, 264 s.

"Üç əsrin yüz otuz ili" kitabı görkəmli teatrşünas-alim, sənətşünaslıq doktoru, professor İlham Rəhimlinin "Azərbaycan teatrı" silsiləsindən növbəti kitabıdır. Kitab Akademik Milli Dram Teatrının keçdiyi 130 illik yaradıcılıq yolunu qısaca təcəssüm etdirməklə kollektivin çağdaş həyatı barədə ətraflı məlumat verir.

Ayrı-ayrı sənətkarlar barədə yazılmış portret-oçerklər fəxri adlara və yaş ardıcıllığına əsasən düzülüb. Hər oçerkdə sənətkarın yaradıcılığının bütün sahələri (teatr, kino, televiziya) elmi-nəzəri formada, faktoloji prinsiplər əsasında qələmə alınıb.

© **"QAPP-POLİQRAF", 2003**

# AKADEMİK MİLLİ DRAM TEATRI

(Qısa tarixçə)

Azərbaycanda lap qədimlərdən elə xalq mərasimləri, el şənlikləri vardı ki, orada çağdaş teatrın estetik prinsiplərini təcəssüm etdirən oyunlar mövcud idi. “Sayaçı”, “Yuğlama”, “Yel baba”, “Cütçü şumu”, “Kəvsəc”, “Kosa-kosa”, “Qaravəlli” və bu kimi xalq mərasim və oyunları milli xalq teatrımızın inkişaf mərhələlərini təminatlandırıb. Haqqında söhbət gedən oyunların zəminində xalq dramları yaranıb. Həmin dramların əsas mövzusu məişətdən götürülüb və xeyrin şərə, haqqın nahaqqa, düzlüyün yalana qələbəsini təcəssüm etdirib.

Bütövlükdə “Kilimarası” kimi ümumiləşdirilən xalq oyunlarının çağdaş Kukla teatrının peşəkar səviyyəyə çatmasında böyük əhəmiyyəti olub. Kilimarasının “Şah Səlim”, “Qaragöz”, “Maral oyunu”, “Kaftarkus”, “Keçəl pəhləvan” kimi məşhur oyunları var. Bunların arasında kölgə-xəyal tamaşaları da göstərilib.

Orta əsrlərdə Azərbaycanda “Şəbih” tamaşaları geniş intişar tapıb. Şəbih oyunları məhərrəm ayında göstərilib və Aşura günü daha təntənəli kütləvi şəkil alıb. Şəbih tamaşaları müsəlmanlığın şiə qolunun təmsilçilərinin yaşadıqları ərazidə daha geniş intişar tapıb. Şəbih tamaşalarında Həzrət Əlinin kiçik oğlu, imam Hüseynin və onun ailəsinin başına gələn faciəli hadisələrdən bəhs edilir. Müxtəlif süjetli pyeslər, əsasən Kərbəla şəhəri yaxınlığındakı tarixi hadisənin başqa-başqa bədii yozumlarından ibarətdir.

Azərbaycan milli xalq teatrında müxtəlif maskalardan istifadə edilib. Bunların da arasında ən məşhurları “keçəl”, “kosa” və “keçi” maskalarıdır. Xalq oyunlarını təşkil edib keçirənə baş oyunbaz, şəbihlərin təşkilatçısına, başqa sözlə rejissoruna, şəbihgərdan deyilib.

Daha çox komediya, məsxərə, məzhəkə, satira əsasında hazırlanan xalq tamaşaları və faciə janrlı şəbih tamaşaları bütövlükdə meydan teatrı adlanır. Meydan teatrının öz estetikası, öz ifadə vasitələri, öz forma orijinallığı, bütövlükdə bənzərsiz poetika özəllikləri var. Elə poetika göstəriciləri ki, həmin sənət amilləri çağdaş Azərbaycan peşəkar milli teatrının təşəkkülündə, inkişafında və formalaşmasında əsaslı rol oynayıb.

* * *

On doqquzuncu əsrin qırxıncı və əllinci illərində Azərbaycanın Şuşa və Şamaxı şəhərlərində teatr binaları tikilib. Həmin binalarda müxtəlif müsamirələr keçirilib. Ancaq təəssüflər olsun ki, bu teatr binalarında göstərilən tamaşalar barədə əldə heç bir tarixi sənəd (məsələn, afişa, elan, tamaşa proqramı və sairə) yoxdur. Məhz buna görə də tarixi fakt - sənədə əsaslanaraq milli peşəkar (professional) teatrımızın təşəkkül tarixini 10 mart 1873-cü ildən götürürük.

Qafqazın XIX əsrdə siyasi və mədəniyyət mərkəzlərindən sayılan Tiflisdə yaşayan on minlərlə azərbaycanlıdan biri də Mirzə Fətəli Axundzadə idi. Canişinliyin dəftərxanasında qulluqda olan kapitan Mirzə Fətəli Axundzadə 1850-

1852-ci illərdə “Molla İbrahimxəlil kimyagər”, “Lənkəran xanının vəziri”, “Müsyö Jordan və dərviş Məstəlişah”, “Hacı Qara”, “Xırs Quldurbasan”, 1855-ci ildə “Mürafıə vəkilləri” komediyalarını yazıb oxuculara təqdim etmişdi. “Təmsilat” adlanan bu altı əsər qısa müddətdə fars, fransız, rus, alman, gürcü... dillərinə tərcümə edilmişdi. Hətta Tiflisin ev teatrlarında rus dilində göstərilmişdi. Peşəkar dramaturgiyamızın təşəkkülü milli peşəkar teatrın doğuluşundan 23 il əvvəl baş verib.

Bakı realnı məktəbin müəllimi, görkəmli maarifpərvər, Azərbaycanda ilk mətbu orqanı olan “Əkinçi” qəzetinin naşiri (1875) Həsən bəy Zərdabi öz şagirdləri Nəcəf bəy Vəzirovun və Əsgər bəy Adıgözəlov Goraninin rəhbərliyi ilə tamaşa hazırladılar və Novruz bayramında “Nəciblər” klubunda göstərdilər. Tamaşa Mirzə Fətəli Axundzadənin “Lənkəran xanının vəziri” komediyası idi və 10 mart 1873-cü ildə oynanıldı. Ona görə də milli peşəkar teatrımızın tarixi həmin gündən hesablanır.

Bir müddət sonra, aprelin 17-də həmin dəstə dramaturqun “Hacı Qara” komediyasını da oynadı. Bunun ardınca Tiflisdə (1873), Qubada (1875), Şəkidə (1879), Şuşada (1883), Naxçıvanda (1883), İrəvanda (1882) teatr həvəskarları, yəni yerli ziyalılar və məktəb şagirdləri tamaşalar hazırlayıb göstərirdilər.

1880-ci illərin ikinci yarısından Bakıda teatr həyatı bir qədər canlanıb. Tiflisdə Aleksandrinski ali məktəbində təhsil alıb Bakıya göndərilmiş müəllimlərdən Həbib bəy Mahmudbəyov, Sultanməcid Qənizadə və Nəcəfqulu Vəliyev, Novruz, Orucluq, Qurban bayramlarında tamaşalar hazırlayıb teatrsevərlərə təqdim edirdilər.

**10 mart 1873-cü il** həm milli peşəkar teatrımızın və eyni zamanda həm də bugünkü Akademik Milli Dram Teatrının tarixidir.

* * *

Azərbaycanda peşəkar teatrın təşəkkülündən iyirmi üç il əvvəl milli dramaturgiyamız və həmin vaxtdan (1850) başlayaraq ədəbiyyatşünaslığımız pyes (faciə, məzhəkə, dram) janrının nəzəri prinsiplərinin elmi əsaslarını öyrənərək çağdaş səviyyəyə gətirmişdir. “Azərbaycan dramnəvisliyinin banisi” fəxri tacını daşımaq və bununla böyük bir ədəbi məktəbin bünövrəsini qoymaq səadəti Mirzə Fətəli Axundzadəyə (1812-1878) nəsib olmuşdur.

Ötən əsrin ortalarında ön Qafqazın inkişaf etmiş mədəni-maarif mərkəzlərindən biri Tiflis şəhəri idi. Burada azərbaycanlı ziyalıların öz yeri, xalqa mədəniyyət aşılamaqda öz xidmət üsulu, maarifdə öz məfkurə istiqaməti vardı. Onlardan biri də filosof-maarifçi, Qafqaz canişinliyində tərcüməçi işləyən Mirzə Fətəli Axundzadə idi. Tiflisin teatral iqlimi, Rusiyanın müxtəlif səhnə ustalarının şəhərə qastrolları, Qərb ədəbiyyatına, onun dramaturgiya qoluna, xüsusən Jan Batist Molyer irsinə bələdlik və ilk növbədə milləti nadanlıqdan xilas etmək yollarını araması Mirzə Fətəlini pyes yazmağa vadar etmişdir. Özü də məhz məzhəkə (komediya) yazmağa. Çünki Axundzadə mənəviyyatları sıxıb məhvə çəkən buxovlardan xilas yolunun vacib cığırlarından birini teatrda, səhnə gülüşündə görürdü.

Mirzə Fətəli Axundzadənin "Təmsilatı"nı "Molla İbrahimxəlil kimyagər", "Müsyö Jordan və dərviş Məstəlişah", "Lənkəran xanının vəziri", "Xırs quldurbasan", "Hacı Qara" və "Mürafiə vəkilləri" pyesləri təşkil edir. Bədii məntiqin dayağı üçün milli ənənə olmadan belə qısa müddətdə bu cür dəyərli sənət inciləri yaratmaq yalnız mütəfəkkirlərin qismətindədir.

Sadə, bədii kompozisiyalı, həyati mövzusu və obrazlı dili, tez anlaşıqlı, mənası, güclü tərbiyəvi təsiri, tipik koloriti, duzlu-dadlı obrazları olan təmsilat toplusu Azərbaycan milli teatrının doğuluşunu təmin etmişdir. Həm oxu, həm də səhnə üçün yazılmış komediyalar yalnız Akademik Milli Dram Teatrının deyil, həmçinin Gəncə, Naxçıvan, Şuşa, Tiflis, Quba, İrəvan, Şəki... teatrlarının da bünövrə sütunu olub.

Mirzə Fətəli Axundzadənin komediyaları Akademik teatr "aktyor məktəbi"nin formalaşmasında misilsiz xidmətlərə malikdir. Azərbaycanın, o cümlədən haqqında söhbət gedən sənət ocağının demək olar bütün rejissorları bu irsdən daima bəhrələnirlər. Xüsusilə ədibin "Hacı Qara" tamaşası onlarca quruluşda oynanılmış, qabil komediya ustadlarımız Hacı Qaranın ifasına səhnə gülüşünün meyarı kimi qiymət vermişlər. Komik aktyorlar Hacı Qaranı ustalıqla oynamağı sənət zirvəsi saymışlar. Ən rəngarəng səhnə təfsirləri, ən "partlayan" gülüş, ən şux tərtibat, ən məzəli oyun... məhz "Hacı Qara" tamaşalarına məxsusdur. "Qaravəlli", "Kosa-kosa" xalq oyunlarından, meydan teatrı prinsiplərindən, dərviş rəqslərindən, meyxana məclisi elementlərindən... ilk dəfə məhz "Hacı Qara" komediyasının müxtəlif illərdəki quruluşlarında istifadə olunmuşdur.

Nəhayət, Mirzə Fətəli təməlini qoyduğu dramaturgiyanın bugünkü ənənəsi üçün geniş yol açmışdır. Həmin yola ilk qədəmi Nəcəf bəy Vəzirov (1854-1926) qoymuşdur.

Yaradıcılığa komediya ilə başlayan Nəcəf bəy ilk Azərbaycan faciəsi "Müsibəti Fəxrəddin"in müəllifidir. Əgər Mirzə Fətəlinin dramaturgiyası realist aktyor məktəbinin yönünü müəyyənləşdirdisə, "Müsibəti Fəxrəddin" (eyni zamanda sonrakı milli tərcümə və faciələr) romantik aktyor oyununun istiqamətinə çıraq tutdu.

Nəcəf bəy Vəzirov Moskva Petrovskaya-Razumovskaya Kənd Təsərrüfatı Akademiyasında təhsil aldığı illərdə (1874-1878) teatr və dramaturgiya ilə daha dərindən məşğul olub. Xatırladım ki, ədib bir il əvvəl realnı məktəbin şagirdi kimi ilk Azərbaycan teatr tamaşasının hazırlanması ilə tarixə düşüb. Moskvadan müəllimi Həsən bəy Zərdabi ilə məktublaşan, təzəcə işıq üzü görən "Əkinçi"yə publisist məqalələr göndərən tələbə Vəzirov "Ev tərbiyəsinin bir şəkli" (1875), "Gəmi lövbərsiz olmaz" (1876) məzhəkələrini yazıb hasilə gətirməklə dramaturji yaradıcılığa ömürlük bağlanıb.

Bakı neft sənayesindən, milli burjuaziyanın təşəkkülündən bəhs edən ilk pyes "Pəhlivanani zəmanə" (1898-1900) də Nəcəf bəy Vəzirova məxsusdur.

Akademik Milli Dram Teatrı bir əsrdən çoxdur repertuarında vaxtaşırı Vəzirov irsinə müraciət edir. Ədibin "Ev tərbiyəsinin bir şəkli", "Daldan atılan daş topuğa dəyər", "Sonrakı peşmançılıq fayda verməz", "Pəhlivanani zəmanə", "Vay şələküm-mələküm" və digər əsərlərinin tamaşası teatrımızın peşəkarlığa yön

götürməsində əhəmiyyətlidir. “Müsibəti Fəxrəddin” faciəsi və “Yağışdan çıxdıq, yağmura düşdük” (“Hacı Qəmbər”) komediyasının müəyyən tamaşaları xüsusi mərhələlər təşkil edir.

Milli romantik aktyor məktəbinin banisi Hüseyn Ərəblinski Fəxrəddin obrazını səhnədə ilham və şövqlə oynayırdısa, Azərbaycan realist aktyor oyun-üslubunun yaradıcısı Cahangir Zeynalov Hacı Qəmbəri hərarətli vurğunluqla və yumorlu heyranlıqla canlandırırdı.

Azərbaycanın ilk qadın dramaturqu Səkinə xanım Axundzadə (1865-1927) Qubada və Bakıda təhsil alıb, müəllimlik edib, ədəbiyyatla, teatrla dərindən maraqlanıb, “Elmin bəhrəsi”, “Gəlin və qaynana”, “Bəxtsiz bala”, “Zülmün səmərəsi”, “Haqq söz acı olar”, “Şahzadə Əbülfəz”... pyeslərini yazıb, iqtibas edib. “Zülmün bəhrəsi”ni Hüseyn Ərəblinski 1914-cü ildə Tiflisdə, Abbas Mirzə Şərifzadə 1917-ci ildə və 1922-ci ildə Bakıda tamaşaya qoyublar. Əsas rollarda özləri və Kazım Ziya, İsmayıl Talıblı, Yeva xanım Olenskaya, Yunis Nərimanov oynayıblar. “Bəxtsiz bala” da bu dəstələrin, digər əsərlər isə qız gimnaziyası tələbələrinin iştirakı ilə göstərilib.

Teatr sənəti ilə ilk tanışlığı on dörd yaşında (1884), Şuşada oynanılan “Xırs quldurbasan” (Mirzə Fətəli Axundzadə) tamaşasından başlayan Əbdürrəhim bəy Haqverdiyev (1870-1933) yaradıcılığa məhz dramla qədəm basıb. Tiflis realnı məktəbini bitirib (1891) Peterburq Yol Mühəndisləri İnstitutunda oxuyarkən tez-tez, özünün etiraf etdiyi kimi, həftədə azı bir dəfə Aleksandrinski teatrının tamaşalarına baxıb. Tələbə ikən “Yeyərsən qaz ətini, görərsən ləzzətini” məzhəkəsini və “Dağılan tifaq” faciəsini yazıb. 1900-cu ildə Şuşada yazdığı “Bəxtsiz cavan” elə həmin ildə tamaşaya qoyulub. Bu faciə sənətkarın səhnədə göstərilən ilk pyesidir və Azərbaycan teatrında ən çox tamaşaya qoyulan əsərlərdəndir.

Son yüz üç ildə görkəmli dramaturqun əsasən “Ac həriflər” komediyasının, “Bəxtsiz cavan”, “Ağa Məhəmməd Şah Qacar”, “Dağılan Tifaq”, “Pəri cadu” faciələrində, “Köhnə dudman”, “Millət dostları”, “Baba yurdunda”... dramlarının tamaşalarında Akademik Milli Dram Teatrının yüzdən çox sənətkarı nailiyyətlər qazanmışdır.

İlk tamaşasının gurultulu nümayişi milli teatr tariximizdə dönüş yaradan (1916-cı il, 29 aprel), fikir yükü, məna dərinliyi, ictimai-sosial dərdləri, mənəvi göynərtiləri ilə bu gün də rejissorların diqqət mərkəzində duran “Ölülər” tragikomediyasının müəllifi Cəlil Məmmədquluzadə (1862-1932) dramaturgiyamıza fəlsəfi reallıq, püskürən qəzəb, həlim yumor, hayqıran satira... gətirib. Felyetonları ilə “Molla Nəsrəddin”i Hindistanda, İranda, Turanda, Orta Asiyada... şöhrətləndirən dahi eyni zamanda səhnəmizin “Molla Nəsrəddin”i idi.

Mirzə Cəlilin “Anamın kitabı”, “Ölülər”, “Dəli yığıncağı” faciələri səhnə sənətimizdə janr rəngarəngliyi axtarışlarına, oyun-üslub istiqamətinə, təfəkkürləri silkələmək, vicdanları mizan-tərəziyə qoymaq baxımından həmişə səmərəli, geniş imkanlıdır.

Mübaliğəsiz demək olar ki, təkcə Tofiq Kazımovun quruluş verdiyi və 1966-cı il noyabrın 12-də premyerası oynanılan “Ölülər” tamaşası ilə Azərbaycan

Akademik Milli Dram Teatrını dünyada təmsil etmək olar. Bu, nə qədər cəsarətli fikir olsa da, bir o qədər real gerçəklikdən şirələnən qənaətdir.

Odessada ali tibb təhsili almış tanınmış ictimai xadim, maarifçi Nəriman Nərimanov (1870-1925) milli teatrın inkişafinda (həmçinin Tatarıstanda səhnə sənətinin təşəkkülündə) müəyyən səmərəli xidmətlər göstərib. "Nicat" və "Səfa" mədəni-maarif cəmiyyətlərinin nəzdindəki teatr dəstələrinin fəaliyyətinə qayğıkeşlik edib. Nəcəf bəy ("Dağılan tifaq", Əbdürrəhim bəy Haqverdiyev), Qorodniçi ("Müfəttiş", Nikolay Qoqol) və digər rollarda çıxış edib. Özünün "Dilin bəlası" ("Şamdan bəy") komediyasını Cahangir Zeynalovla birgə tamaşaya hazırlayıb.

XX əsrin birinci qərinəsində ayrı-ayrı truppaların, dəstələrin bir ildə bəzən iki-üç dəfə müraciət etdikləri pyeslər arasında Nəriman Nərimanovun "Nadir şah Əfşar", "Nadanlıq", "Bahadır və Sona" faciələrini, "Dilin bəlası" komediyası ayrıca qeyd edilməlidir. "Nadir şah Əfşar" ilk milli tarixi faciəmizdir.

1930-cu ilədək teatr öz repertuarında maarifləndirmə, didaktika mövzulu əsərlərin tamaşasını, onların oynayacağı tərbiyəvi əhəmiyyəti vacib sayırdı. Təbii ki, bu istək ilk növbədə cəmiyyətin ictimai, sosial-mənəvi durumundan irəli gəlirdi. Ona görə teatr həvəskarları yeri gəldikcə Sultanməcid Qənizadənin, Mehdi bəy Hacınskinin, Rəşid bəy Əfəndiyevin, Səməd Mənsurun pyeslərinə, təbdil və iqtibaslarına müraciət edirdilər.

Yazıçı-pedaqoqların arasında teatra rəğbətiylə seçilən Süleyman Sani Axundovun (1875-1939) "Tamahkar" komediyası, "Eşq və intiqam", "Laçın yuvası" faciələri daha çox oynanılırdı.

Bədii yaradıcılığa şer, hekayə, o cümlədən dramaturgiya ilə erkən yaşlarından başlayan Cəfər Cabbarlı (1899-1934) otuz beşillik ömründə melodrama, vodevil, sentimental dram, tarixi dram, faciə janrlarında yumordan böyük ustalıqla istifadə edərək silsilə səhnə əsərləri yazmışdır. "Vəfalı Səriyyə", "Yaylağa gedir", "Solğun çiçəklər", "Ulduz, yaxud Ədirnə fəthi müharibəsi", "Bakı müharibəsi", "Ədirnə fəthi", "Nəsrəddin şah", "Aydın", "Oqtay Eloğlu", "Od gəlini", "Sevil", "Yaşar", "1905-ci ildə", "Almaz", "Dönüş"...

Cəfər Cabbarlının dramaturgiyası teatrı xarakterlər dramaturgiyası kimi daha çox maraqlandırıb. Səriyyə, Əbdül kişi, Aydın, Oqtay, Dövlət bəy, Böyükxanım, Qurban, İmamyar, Hacı Əhməd, Şərif, Baloğlan, Ocaqqulu, Elxan, Altunbay, Aqşin, Oddamdı, Əbdüləli bəy, Balaş, Dilbər, Gültəkin, Almaz, Mirzə Səməndər, Sevil, Salamov, General qubernator, Yaşar... obrazlarının ifası Mirzağa Əliyev, Sona Hacıyeva, Mərziyə Davudova, Abbasmirzə Şərifzadə, İsmayıl Osmanlı, Ələsgər Ələkbərov, Məmmədəli Vəlixanlı, Rza Təhmasib, İsmayıl Hidayətzadə, Möhsün Sənani, Ağasadıq Gəraybəyli, Rza Əfqanlı, Əliağa Ağayev, Həsənağa Salayev, Həsən Turabov kimi aktyorlarımızın yaradıcılığında silinməz izlər qoyub.

1920-ci il dekabr ayının 21-də Akademik Milli Dram Teatrı tamaşaçılara Hüseyn Cavidin (1883-1941) səhnədə ilk pyesini - "İblis" faciəsini nümayiş etdirdi. Bununla da, səhnə sənətimizdə yeni janrın - P o e t i k   t e a t r ı n təməl daşı qoyuldu.

Əsasən tarixi hadisələrə poetik-dramatik yöndən yanaşmaqla cəmiyyət və insan, şəxsiyyət və zaman problemləri məhvərində güclü konflikt quran Hüseyn

Cavid dramaturgiya ilə əsrin əvvəllərində məşğul olsa da, pyesləri uzun illər tamaşaya qoyulmayıb.

"İblis" qısa müddətdə dəfələrlə oynanılandan sonra sənətkarın "Uçurum", "Şeyda", "Afət", "Şeyx Sənan", "Maral", "Knyaz", "Səyavuş", "Topal Teymur" dramları tamaşaçılara göstərilib. 1921-ci ildən 1935-ci ilədək "Şeyx Sənan" faciəsi səhnədən düşməyib, repertuarın incilərindən sayılıb.

Hər yeni pyesinin tamaşasından sonra güclü təzyiqlərə, qərəzli tənqidlərə (hətta təhqirlərə) məruz qalan Hüseyn Cavid 1937-ci ildə həbs edilib. O, sürgün olunaraq Sibir meşələrində dünyasını dəyişib.

Onun 1935-ci ildə tamamladığı və müsabiqədə birincilik qazanan "Xəyyam" faciəsi yalnız 1970-ci il martın 2-də Mehdi Məmmədovun quruluşunda oynanıldı və "Cavid teatrı"nın nailiyyətləri silsiləsində təzə söz kimi səsləndi, teatrın həyatında hadisəyə çevrildi.

"İblis"də İblis (Abbasmirzə Şərifzadə, Rza Təhmasib, Həsən Turabov, Hamlet Xanızadə), Arif (Rza Təhmasib, Kazım Ziya), Xavər (Mərziyə Davudova), Rəna (Vəfa Fətullayeva), "Şeyx Sənan"da Şeyx Sənan (Ülvi Rəcəb, Abbasmirzə Şərifzadə), Xumar (Mərziyə Davudova, Hökümə Qurbanova), Şeyx Kəbir (Mirzağa Əliyev), Dərviş (Kazım Ziya), "Knyaz"da Knyaz (Rza Darablı, Abbasmirzə Şərifzadə, Rza Təhmasib), Jasmen (Qəmər Topuriya), Lena (Sona Hacıyeva, Yeva Olenskaya), Solomon (Mirzağa Əliyev), Şakro (İsmayıl Hidayətzadə), Anton (Ülvi Rəcəb), "Səyavuş"da Səyavuş (Ülvi Rəcəb, Abbasmirzə Şərifzadə, Ağadadaş Qurbanov), Keykavus (Rza Təhmasib), Kosa (Məmmədəli Vəlixanlı), "Xəyyam"da Xəyyam (Mehdi Məmmədov, Həsən Turabov), Sevda (Şəfiqə Məmmədova), Müfti (Məmmədrza Şeyxzamanov, Bağban (İsmayıl Osmanlı), Xacə Nizam (Səməndər Rzayev), Həsən Sabbah (Hamlet Xanızadə) obrazlarının ifası neçə-neçə aktyorun yaradıcılıq tərcümeyi-halına iri hərflərlə yazılıb.

Poetik teatrın davamçısı Səməd Vurğunun (1906-1956) "Vaqif" pyesinin ilk tamaşası 1938-ci il oktyabrın 5-də göstərilsə də, səksəninci illərin ortalarınadək min dəfədən çox oynanılıb. Ələsgər Ələkbərovun Vaqif rolu əbədiyyət yaddaşına qovuşub. Dünya şöhrətli şairin "Xanlar", xüsusilə "Fərhad və Şirin" dramları teatrın monumental tamaşalar yaratmaq yolunda müsbət nəticələr verib.

Otuzuncu illərin sonunda yazdığı və Akademik teatrda uğurla tamaşaya qoyulan "Toy" əsəri ilə milli komediyanəvisliyimizin yeni mərhələsinə körpü salan Sabit Rəhman (1910-1970) səhnəmizi təzə komik personajlarla zənginləşdirdi. Onun "Xoşbəxtlər", "Aydınlıq", "Aşnalar", "Nişanlı qız", "Yalan", "Əliqulu evlənir", "Küləklər" komediyaları Ədil İsgəndərov, Məhərrəm Haşımov, Mehdi Məmmədov, Şəmsi Bədəlbəyli, Tofıq Kazımov kimi qüdrətli və müxtəlif yaradıcılıq dəst-xətli rejissorlarımızın maraq dairəsində olub.

İdeya-bədii dəyəri, mövzu təzəliyi, konfliktin sosial mahiyyəti ilə Mirzə İbrahimovun (1911-1993) "Həyat", "Madrid", "Məhəbbət", "Yaxşı adam", "Közərən ocaqlar" dramlarının, "Bəşərin komediyası, yaxud Don Juan" və "Kəndçi qızı" komediyalarının tamaşaları teatrın repertuar tərtibində səmərəli nəticələr verib.

Akademik teatr tarixi hadisələrə çağdaş estetik münasibətlərini təcəssüm etdirmək, mövzuya yeni münasibət baxımından Abdulla Şaiqin “Nüşabə”, Məmməd Səid Ordubadinin “Dumanlı Təbriz”, “Qılınc və qələm”, Mehdi Hüseynin “Nizami”, “Cavanşir”, Süleyman Rüstəmin “Qaçaq Nəbi”, Zeynal Xəlilin “Qatır Məmməd”, Ənvər Məmmədxanlının “Şərqin səhəri”, İmran Qasımov və Həsən Scyidbəylinin “Uzaq sahillərdə”, Nəriman Həsənzadənin “Atabəylər”, Kamil Abdullayevin “Qeys və Leyli”, Kamal Abdullanın “Hərdən mənə mələk də deyirlər...” dramlarının, onların yaradıcılıqlarının dramaturji qolundan bəhrələnib.

Qocaman kollektiv günümüzün aktual məsələlərinə cavab aramaq, müasirlərimizin ruhunu, duyğusunu, zövqünü, nəfəsini səhnəyə gətirmək niyyətilə Cabbar Məcnunbəyovun “İldırım”, Rəsul Rzanın “Vəfa”, Adil Babayevin “Dağlar qızı”, Məmmədhüseyn Təhmasibin “Bahar”, İmran Qasımovun “Arzu”, “Nağıl başlananda”, İslam Səfərlinin ”Göz həkimi”, “Yol ayrıcında”, Seyfəddin Dağlının “Mənziliniz mübarək”, Şıxəli Qurbanovun “Sənsiz”, Maqsud İbrahimbəyovun “Ümid”, “Kərgədan buynuzu”, Qeybulla Rəsulovun “Qarabağ əfsanəsi”, Ramiz Fətəliyevin “Vəkil neyləsin”, Əkrəm Əylislinin “Quşu uçan budaqlar”, “Yastı təpə”, Nahid Hacızadənin “Qisas qiyamətə qalmaz”, “Məhəbbət yaşadır”, Rüstəm İbrahimbəyovun “İstintaq”, Əli Əmirlinin “Ağqoyunlular və qaraqoyunlular”, “Varlı qadın”, Elçinin “Ah, Paris... Paris!..”, “Mənim ərim dəlıdir”, “Poçt şöbəsində xəyal” pyeslərinə müraciət edib.

Lirik-psixoloji aktyor oyun-üslubunun milli teatrda təşəkkülü və inkişafı ilk növbədə İlyas Əfəndiyevin dramaturgiyası ilə bağlıdır. Yazıçı hələ 1940-1950-ci illərdə qələmə aldığı “Atayevlər ailəsində”, “Bahar suları”, “İşıqlı yollar” dramları ilə səhnəmizə realistik psixoloji iqlim gətirdi. “Sən həmişə mənimləsən” (1964) tamaşasının yaranışı ilə lirik-psixoloji oyun tərzinin işıqlı yolu başlandı.

Qırx ilə yaxındır İlyas Əfəndiyev pyesləri Akademik teatrda ən çox oynanılan sənətkardır. Onun “Sən həmişə mənimləsən” (1964), “Mənim günahım” (1965), “Unuda bilmirəm” (1968), “Məhv olmuş gündəliklər” (1969), “Mahnı dağlarda qaldı” (1971), “Qəribə oğlan” (1973), “Bağlardan gələn səs” (1975), “Xurşid banu Natəvan” (1981), “Büllur sarayda” (1983), “Şeyx Xiyabani” (1986), “Bizim qəribə taleyimiz” (1988), “Sevgililərin cəhənnəmdə vüsalı” (1989), “Tənha iydə ağacı” (1991), “Dəlilər və ağıllılar” (1992), “Hökmdar və qızı” (1996) tamaşaları çağdaş aktyor nəslinin formalaşmasında mühüm rol oynayıb.

Şair-dramaturqlardan Bəxtiyar Vahabzadənin “İkinci səs”, “Fəryad”, “Yağışdan sonra”, “Yollara iz düşür”, “Hara gedir bu dünya?”, “Özümüzü kəsən qılınc” (“Göytürklər”); Nəbi Xəzrinin çağdaş mövzulu “Sən yanmasan...”, “Əks-səda”, tarixi keçmişimizi təcəssüm etdirən “Mirzə Şəfi Vazeh”, “Mənsiz dünya”, “Torpağa sancılan qılınc”, “Burla xatun”; nasir-dramaturq Anarın “Şəhərin yay günləri”, “Təhminə və Zaur”, “Səhra yuxuları”, “Sizi deyib gəlmişəm...”, “Adamın adamı” pyeslərinin tamaşaları rejissorların üslub axtarışlarında, janr və mövzu rəngarəngliyində əhəmiyyətli olmuşdur.

* * *

Ötən əsrin sonlarında səhnə sənətimizin öndərləri, maarifçi ziyalılarımız milli və əcnəbi mədəniyyətlərin qarşılıqlı təsirini gücləndirmək, repertuarda mövzu rəngarəngliyi, janr müxtəlifliyi yaratmaq, teatr həvəskarlarında aktyorluq vərdişlərini formalaşdırmaq üçün dünya klassiklərinin, çağdaş Qərb və rus yazıçılarının pyeslərini tərcümə etməyə başladılar. Tərcümə ilə təkcə yazıçılar, pedaqoqlar deyil, aktyor və rejissorlar da məşğul olublar. Bu ənənə indiyədək davam edir. Eyni əsəri, məsələn, “Otello”, “Hamlet”, “Müfəttiş”... pyeslərini dilimizə müxtəlif müəlliflər tərcümə ediblər.

Əsrimizin əvvəllərindən başlayaraq Bakıda müxtəlif dilli, o cümlədən Azərbaycan teatr tamaşalarının repertuarına Dövlət ciddi nəzarət qoymuşdu. Oynanılmasına icazə verilmiş əsərlərin siyahısı hər il Peterburqdan və Tiflisdən xüsusi möhürlü icazə kağızında gəlirdi. Onlardan kənara çıxmaq çox müşkül idi. Tərcüməçilər də yalnız həmin siyahıdakı pyesləri dilimizə çevirə bilərdilər. Sərbəst tərcümə olanda, yəni siyahıdan kənar müəllifin əsərini azərbaycancaya çevirən şəxs və ya onu tamaşaya qoymaq istəyən teatr dəstəsi mütləq Bakıda oturan Qalabəyindən icazə almalıydı. Yalnız Qalabəyi pyesin bütün vərəqlərinə “icazə” möhürü vurandan sonra o əsər tamaşaya qoyula bilərdi. Qalabəyilər də bir qayda olaraq gəlmə ruslardan təyin edilirdi. Ümid qalırdı onun yanındakı azərbaycanlı dilmancın həmin əsəri (azərbaycanca mətni) Qalabəyiyə necə təqdim etməsinə. Bəzən razılıq almaq üçün aylarla vaxt gedirdi.

Bütün bu çətinliklərə baxmayaraq, Akademik teatrın yaradıcılığının inkişafda olan bir şaxəsi məhz tərcümə pyeslərinin tamaşalarından ibarətdir. Tərcümələri Akademik teatrın səhnəsində uğurla oynanılan, müəyyən nailiyyətlərə səbəb olan müəlliflərin adını və əsərlərin siyahısını yığcam halda nəzərinizə çatdırıram:

**Haşım bəy Vəzirov:** “Otello” (Vilyam Şekspir), “İvan Qroznının ölümü” (Aleksey Tolstoy).

**Nəcəf bəy Vəzirov:** Jan Batist Molyerin “Xəsis” komediyasını 1902-ci ildə “Ağa Kərim xan Ərdəbili” adı ilə təbdil, fransız məzhəkəsi “Vəkil Pantaleni”ni iqtibas edib.

**Əbdürrəhim bəy Haqverdiyev:** “Hamlet” (Vilyam Şekspir), “Soltan Osman” (Fransua Volter), “Qəzavat” (S.Lonskoy), “Qazmaçılar” (Emil Zolya), “Yəhudilər” (Yevgeni Çirikov).

**Sultanməcid Qənizadə:** “Əvvəlinci şərabçı” (Lev Tolstoy);

**Abdulla Şaiq:** “Maqbet” (Vilyam Şekspir).

**Nəriman Nərimanov:** “Müfəttiş” (Qoqol). Bu əsəri Mehdi Məmmədov, M.Səlimbəyov, Sabit Rəhman, Kazım Ziya... da tərcümə ediblər.

**Süleyman Sani Axundov:** “Dəmirçi Gavə” (Şəmsəddin Sami), “Kapitan Qrantın cocuqları” (Jül Vern), “Tom dayının koması” (Biçer Stou), “Kreçinskinin toyu” (Nikolay Suxovo-Kobılin).

**Ceyhun Hacıbəyli:** “Pulsuzluq” (İvan Turgenev).

**Mehdi bəy Hacınski:** “Qaçaqlar” (Fridrix Şiller), “Evlənmə” (Nokolay Qoqol).

**Əli Səbri:** “Əl Mənsur” (Henrix Heyne), “Əvvəlinci şərabçı” (Lev Tolstoy).

**Hacıbaba Nəzərli:** “Maqbet” (Vilyam Şekspir)

**Cəfər Cabbarlı:** “İntervensiya” (Lev Slavin), “Hamlet”, “Otello” (Vilyam Şekspir), “Fiqaronun toyu” (Pyer Bomarşe), “Qorxu” (Aleksandr Afinogenov).

**Mustafa Mərdanov:** “Özgə uşağı” (Vasili Şkvarkin), “Polad qartal” (Aleksandr Korneyçukun “Platon Kreçet” pyesi bu adla tərcümə edilib), “Dubrovski” (Aleksandr Puşkin).

**Əhməd Cavad:** “Otello”, “Romeo və Cülyetta” (Vilyam Şekspir), “Hind qızı” (Əbdülhəq Hamid).

**Rza Təhmasib:** “Günahsız müqəssirlər” (Aleksandr Ostrovski), “Qaliblər” (Boris Çirsikov).

**Əvəz Sadıq:** “İki qardaş” (Mixail Lermontov).

**Mikayıl Rəfili:** “Ögey ana” (Onore de Balzak), “Gizli döyüş” (Tur qardaşları və Lev Şeynin).

**Süleyman Rüstəm:** “Vətən oğlu” (Georgi Mdivani).

**Nigar Rəfibəyli:** “Məkr və məhəbbət” (Fridrix Şiller), “Vanya dayı” (Anton Çexov).

**Mehdi Hüseyn:** “Vətən oğlu” (Konstantin Simonov), “Köç” (Cavad Fəhmi Başqut).

**Mirzə İbrahimov:** “Kral Lir”, “On ikinci gecə”, “Heç nədən hay-küy” (Vilyam Şekspir), “Şeytanın şagirdi” (Bernard Şou), “Müdriklər” (Aleksandr Ostrovski).

**Rəsul Rza:** “Rəqs müəllimi” (Lope de Veqa).

**Sabit Rəhman:** “Romeo və Cülyetta” (Vilyam Şekspir), “Məzəli hadisə”, “Mehmanxana sahibəsi” (Karlo Haldoni), “Dərin köklər” (Ceyms Qou və Arno DNyusson).

**Mehdi Məmmədov:** “Mariya Tüdor” (Viktor Hüqo), “Qaçaqlar” (Fridrix Şiller), “Prokuror qızı” (Yuri Yankovski), “Şadlıq sorağında” (Viktor Rozov).

**Mikayıl Rzaquluzadə:** “Zıkovlar” (Maksim Qorki).

**Ənvər Məmmədxanli:** “Skapenin kələkləri” (Jan Batist Molyer), “Cehizsiz qız” (Aleksandr Ostrovski), “Şəxsi iş” (Aleksandr Şteyn), “Palata” (Samuil Alyoşin), “İkinci cəbhə arxasında” (Vadim Sobko), “Canlı meyit” (Lev Tolstoy), “Adsız ulduz” (Mixail Sebastian), “Gözəllik və sevgi adası” (Aleksandr Parnis).

**Tələt Əyyubov:** “İki veronalı”, “Hamlet”, “Qış nağılı”, “Antoni və Kleopatra” (Vilyam Şekspir), “Orlean qızı” (Fridrix Şiller), “Sevilya ulduzu” (Lope de Veqa), “Xanuma” (Avkisenti Saqareli), “Gənc qvardiya” (Aleksandr Fadeyev).

**Adil Babayev:** “Darıxma, ana!” (Nodar Dumbadze).

**Ənvər Ülvi:** “Həyatın dibində” (Maksim Qorki).

**Tofiq Kazımov:** “Nazirin xanımı” (Brotislav Nuşiç), “Bu qadın mənimdir” (Raymondo Juniyor), “Yad adam” (Leonqard Frank), “Falçı” (Stefan Kostof), “Çarəsiz dələduz” (Raffalle Viviani), “Qızıl” (Yucin ONil).

**İslam İbrahimov:** “Şüşə heyvanxana” (Tennessi Uilyams), “Kəllə” və “Şöhrət və ya unudulan adam” (Nazim Hikmət).

**Ələkbər Seyfi:** “Məhəbbət və azadlıq” (“Ezop”, Gilerma Fiqereydu).

**Hüseyn Şərif:** “Füsunkar qız” (Mikolaş Dyarfaş).

**Ələsgər Şərifov:** “Karıxmış sultan” (Taufıq əl Hakimi), “Görünməmiş toy” (Arkadi Arkanov, Qriqori Qorin).

**Teymur Elçin:** “Ana torpağı” (Çingiz Aytmatov), “Dişi canavar”, “Qadın faciəsi” (Federiko Qarsia Lorka).

**Anar:** “Fırtına” (Vilyam Şekspir).

**Tofiq Rüstəmov:** “Böyük Romul” (Fridrix Dürrenmatt);

**Vaqif Səmədoğlu:** “Üç quruşluq opera” (Bertolt Brext və Kurt Vayl).

**Rəfiq Zəka Xəndan:** “Dəfn edilməmiş ölülər” (Jan Pol Sartr).

**Natiq Səfərov:** “Medeya” (Jan Anuy).

**Bəhram Osmanov:** “Qarağaclar altında ehtiraslar” (Yucin ONil).

**Rafiq Rəhimli:** “Şah Edip” (Sofokl).

... Bu tərcümə pyeslərinin tamaşaları müxtəlif dünya xalqlarının ictimai-sosial, məişət həyatı ilə azərbaycanlı tamaşaçıların tanışlığı, aktyorların səhnə ədalarını, davranış tərzini, geyimini-kecimini, hərəkətlərinin ölçülərini dəyişmək, yeniləşdirmək baxımından da faydalıdır, davam etdirilməlidir.

* * *

Milli teatrımız hələ tam peşəkarlığa çatmamış onun fəaliyyətində sonradan qüdrətli sənətkarlar səviyyəsinə yüksələnlərlə yanaşı, özünü, ömrünü, taleyini səhnəyə həsr etmiş fədailər də səmərəli, o dövr üçün böyük işlər görürdülər. Onların zəhmətlərini, xidmətlərini, layiq olduqları qiymətlərini ehtiramla təsdiqləyirəm. Unudulmaz, əziz xatirələrini aşağıdakı siyahıda adlarını verməklə yad edirəm.

Həbib bəy Mahmudbəyov, Cəlil Bağdadbəyov, Həbib Köçərli, Xəlil Hüseynov, Yunis Nərimanov, Ələkbər Hüseynzadə, Mərəndi, Əbülhəsən Anaplı, Hacağa Abbasov, Mir Paşa, Əbülfət Vəli, Mehdi bəy Hacıbababəyov, Əliabbas Rzayev, Sürəyya xanım, Lizina (Natalya İsmayılzadə), Mirmahmud Kazımovski, Mahmud Bədəlbəyli, Bədəl bəy Bədəlbəyli, Rüstəm Kazımov, Əhməd Qəmərlinski, Süleyman Səlimbəyov, Qəmər xanım Topuriya, Ələkbər Süheyli, Fərəc Süheyli, Musa Hacızadə, Ağabala Dadaşov (son üç nəfər müharibədə həlak olub), Murad Muradov, Mehdi bəy Hacınski, Ağalar Gəraybəyov (Ağasadıq Gəraybəylinin böyük qardaşı **- İ.R.**), Əlvendi (Məhəmməd bəy Məlikov), Kərim Məlikov, Rəhim Məlikov, Mirzə Muxtar Məmmədov, İsgəndər bəy Məlikov, Hacı bəy Axundov, Hənifə Terequlov, Yusif Ağayev, Hüseynağa Hacıbababəyov, Tamara Paşazadə...

Teatr sənətinə həqarətlə baxıldığı, aktyorun “mütrüb”, “mürtəd”, “cüvəllağı” adlandırıldığı dövrdə bütün məşəqqətlərə dəyanətlə dözüb, “Realist aktyor məktəbi”ni yaradan Cahangir Zeynalov (xalq artisti Nəsibə xanım Zeynalovanın atası - **İ.R**.) və “Romantik aktyor məktəbi”nin banisi kimi tarixləşən Hüseyn Ərəblinski bütövlükdə bütün Azərbaycan səhnə mədəniyyətinin dühaları kimi xatırlanır və təsdiqlənirlər.

Akademik Milli Dram Teatrı yüz otuz illik dövrdə nə qədər güclü rejissorlarla qarşılaşsa da, həmişə ilk növbədə “aktyor teatrı” olmuşdur və bu ənənə

indi də ləyaqətlə davam etdirilir. Həmin məktəbin elə sənətkarları var ki, barələrində elmi-nəzəri əsərlər, monoqrafiyalar, kitablar, dissertasiyalar yazılıb, yaradıcılıqları ali məktəbdə tədris edilir.

O dövrün ən böyük fəxri adı "SSRİ xalq artisti" ilə təltiflənən, ölkənin yüksək ordenlərinə layiq görülən aktyorlardan Mirzağa Əliyevin, Sidqi Ruhullanın, Mərziyə xanım Davudovanın, Hökümə xanım Qurbanovanın, Ələsgər Ələkbərovun, İsmayıl Osmanlının, İsmayıl Dağıstanlının, rejissorlardan Ədil İsgəndərovun, Mehdi Məmmədovun yaradıcılıqları gənclərə örnəkdir.

* * *

Bugünkü Akademik teatr 1901-ci ildə tamam dağılmaq təhlükəsi qarşısında qalmışdı. Onda iki il əvvəl Sankt-Peterburqda ali təhsil alıb doğma şəhəri Şuşada yaşayan Əbdürrəhim bəy Haqverdiyev Bakıya gəldi. O, bütün teatr həvəskarlarını bir dəstədə birləşdirdi və ilk milli baş rejissor funksiyasını üzərinə götürərək, Mirzə Fətəli Axundzadənin, Nəcəf bəy Vəzirovun, Nəriman Nərimanovun və özünün pyeslərini tamaşaya hazırladı. Dörd ildən çox teatr prosesinə rəhbərlik etdi. Artıq bu illərdə dünya dramaturgiyası nümunələri də tərcümə edilib milli səhnəmizdə oynanılırdı.

1901-1919-cu illərdə Bakıda "Müsəlman (Azərbaycan - **İ.R.**) dram artistləri", "Nicat" və "Səfa" mədəni-maarif cəmiyyətlərinin teatr dəstələri, "Həmiyyət" truppası, müəyyən fasilələrlə "Nəşri-maarif", "İttihad" cəmiyyətinin teatr həvəskarları, "Müsəlman artistləri ittifaqı", "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" truppaları fəaliyyət göstəriblər. Həmin truppalara baş rejissorluğu əsasən Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Üzeyir Hacıbəyov, Abbasmirzə Şərifzadə ediblər.

1919-cu ildə Azərbaycan Demokratik Respublikası (Cümhuriyyəti) bütün truppaları birləşdirərək "Hökumət Teatrosu" yaratdı. Bəzi afişalarda adı "Dövlət Teatrosu" kimi də yazılan kollektiv ilk tamaşasını 24 oktyabr 1919-cu ilə göstərdi. Bu tamaşa Müsavat Partiyasının liderlərindən sayılan İsa bəy Aşurbəylinin "Azərbay - Can" dramı idi. Həmin kollektiv dram, opera və operetta tamaşaları göstərirdi.

Bu kollektiv 2003-cü ilə qədər müxtəlif adlar daşıyıb. Tarixi dəqiqlik üçün həmin adları sıra düzümü ilə xatırlatmaq lazımdır. 1920-ci ilin mayında kollektiv Müstəqil Azərbaycan Hökumətinin Teatr Truppası adlandı. Bir il sonra teatra Dadaş Bünyadzadənin adı verildi. 1922-ci ildə Bakıdakı bütün teatrlar (rus, gürcü, yəhudi...) birləşdirildi və ona Birləşmiş Dövlət Teatrı adı verildi. Dadaş Bünyadzadə adına Türk (Azərbaycan - **İ.R.**) Dövlət Teatrosu onun nəzdinə keçdi. İki il sonradan ta 1933-cü ilə qədər teatr "Dövlət Türk Akademik Dram Teatrosu", "Türk Bədaye Teatrosu" adlandı. 1933-cü ildə teatra Məşədi Əzizbəyovun adı verildi. 1959-cu ildən kollektiv Azərbaycan Dövlət Akademik Dram Teatrı adlandı. 1991-ci ildən isə sənət ocağı Akademik Milli Dram Teatrı kimi fəaliyyətdədir.

Dövlət statusu aldığı ilk illərdə teatra Abbasmirzə Şərifzadə, Aleksandr İvanov baş rejissorluq ediblər. Müxtəlif illərdə kollektivə Aleksandr Tuqanov

(1924-1931 və 1935-1937), Vladimir Lütse, Vladimir Uqryumi (Kasabov), Aleksandr Varşavski, Daşkovski, Yusif Yulduz, (1932-1934), Ədil İsgəndərov (1938-1960), Mehdi Məmmədov (1960-1963), Tofıq Kazımov (1964-1980), Hüseynağa Atakişiyev (1985-1988), Həsən Turabov (1988-2001) bədii rəhbərlik ediblər. Hazırda teatrın bədii rəhbəri xalq artisti Əliabbas Qədirovdur.

Teatrın tarixinə silinməz səhifələrlə yazılmış yüzlərlə tamaşa içərisində Mirzə Fətəli Axundzadənin komediyalarını, Nəcəf bəy Vəzirovun "Müsibəti Fəxrəddin", "Hacı Qəmbər", Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar", "Bəxtsiz cavan", "Pəri Cadu", Nəriman Nərimanovun "Nadir şah Əfşar", "Şamdan bəy", Süleyman Sani Axundovun "Tamahkar", Mirzə Cəlil Məmmədquluzadənin "Ölülər", "Dəli yığıncağı", Hüseyn Cavidin "Şeyx Sənan", "İblis", "Səyavuş", "Knyaz", "Xəyyam", Cəfər Cabbarlının "Od gəlini", "Solğun çiçəklər", "Aydın", "Oqtay Eloğlu", "Sevil", "Yaşar", "Almaz", Səməd Vurğunun "Vaqif", "Fərhad və Şirin", Mirzə İbrahimovun "Həyat", "Kəndçi qızı", Mehdi Hüseynin "Cavanşir", Ənvər Məmmədxanlının "Şərqin səhəri", İlyas Əfəndiyevin "Atayevlər ailəsində", "Sən həmişə mənimləsən", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Hökmdar və qızı", "Mahnı dağlarda qaldı", Bəxtiyar Vahabzadənin "Yağışdan sonra", Nəbi Xəzrinin "Sən yanmasan...", Sabit Rəhmanın "Toy", "Xoşbəxtlər", "Əliqulu evlənir", Anarın "Şəhərin yay günləri", Elçinin "Ah, Paris... Paris!..", "Mənim ərim dəlidir", "Poçt şöbəsində xəyal" dramlarının səhnə təcəssümünü xüsusi qeyd etmək olar.

Yüz ildən çoxdur teatr dünyanın şöhrətli dramaturqlarının dram, faciə və komediyalarını orijinal quruluşlarda tamaşaçılara göstərib. Vilyam Şekspirin "Otello", "Hamlet", "Kral Lir", "Maqbet", "Fırtına", "Romeo və Cülyetta" faciələri, "Qış nağılı" dramı, "Heç nədən hay-küy", "Şıltaq qızın yumşalması", "On ikinci gecə" komediyaları, Fridrix Şillerin "Qaçaqlar", "Məkr və məhəbbət", "Vilhelm Tell", Jan Batist Molyerin "Zorən təbib", "Xəsis", "Jorj Danden", "Skapenin kələkləri", Henrix Heynenin "Əl Mənsur", Fransua Volterin "Sultan Osman", Aleksandr Dümanın "Qanlı qala" ("Nel qülləsinin sirri"), Karl Qutskavın "Uriel Akosta", Jül Vernin "80 gün dünya səyahətində", "Kapitan Qrantın çocuqları", Biçer Stounun "Tom dayının koması", Onore de Balzakın "Ögey ana", Pyer Bomarşenin "Fiqaronun toyu", Viktor Hüqonun "Gülən adam", "Mariya Tüdor", Əs Həbib Vəfanın "Bombey", Aleksandr Ostrovskinin "Tufan", "Cehizsiz qız", Nikolay Qoqolun "Müfəttiş", "Evlənmə", Aleksandr Puşkinin "Dubrovski", Anton Çexovun "Vanya dayı", Maksim Qorkinin "Həyatın dibində", "Vassa Jeleznova", Nikolay Suxovo-Kobılinin "Kreçenskinin toyu", Ceyms Qou və Arno DNyussonun "Dərin köklər", Lope de Veqanın "Rəqs müəllimi", "Sevilya ulduzu", Karlo Haldoninin "Mehmanxana sahibəsi", "Məzəli hadisə" Branislav Nuşiçin "Nazirin xanımı", Bertolt Brextin "Üç quruşluq opera", Qarsia Lorkanın "Qadın faciəsi", Gilerma Fiqeyredunun "Ezop", Raffaele Vivianinin "Çarəsiz dələduz", Nodar Dumbadzenin "Darıxma, ana!", Avkisenti Saqarelinin "Xanuma" tamaşaları bədii-estetik həllinə, rejissor üslubuna, aktyor ifalarının rəngarəngliyinə görə seçilib.

Nobel mükafatı laureatlarından Yucin ONilin "Qızıl", "Qarağaclar altında məhəbbət", Bernard Şounun "Şeytanın şagirdi", Jan Pol Sartrın "Dəfn edilməmiş

ölülər", Herhart Hauptmanın "Elqa" ("Dəhşətli röya"), Moris Meterlinqin "Göy quş" pyesləri tərcümə edilərək, müxtəlif yaradıcılıq dəst-xətti olan rejissorlar tərəfindən tamaşaya qoyulub.

Osmanlı ədiblərindən Namiq Kamalın "Vətən", "Zavallı cocuq", "Qara bəla" ("Əkbər şah hindu"), Əbdülhəq Hamidin "Tariq ibn Ziyad, yaxud Əndəlis", Şəmsəddin Saminin "Dəmirçi Gavə", "Əhdə vəfa, yaxud arnaudlar", Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla", "İbrahim bəy", Nazim Hikmətin "Türkiyədə", "Kəllə", "Unudulan adam", Cavad Fəhmi Başqutun "Köç" pyesləri dəfələrlə Azərbaycan teatrında oynanılıb.

Akademik teatrda üç aktyor məktəbi var:

**Romantik aktyor məktəbi;**

**Realist aktyor məktəbi;**

**Lirik-psixoloji üslublu aktyor məktəbi.**

Romantik aktyor məktəbinin ən görkəmli nümayəndəsi və yaradıcısı Hüseyn Ərəblinski sayılır. Abbasmirzə Şərifzadə, Sidqi Ruhulla, Ülvi Rəcəb, Rza Təhmasib, Rza Əfqanlı, Kazım Ziya, Ələsgər Ələkbərov, Mərziyə Davudova, Hökümə Qurbanova, Ağadadaş Qurbanov, Əjdər Sultanov, Rza Darablı, Fatma Qədri, Leyla Bədirbəyli, Əli Zeynalov, Məmmədrza Şeyxzamanov, Əli Qurbanov həmin məktəbin layiqli davamçılarıdır.

Realist aktyor məktəbinin banisi Cahangir Zeynalov, təmsilçiləri Mirzağa Əliyev, Əbülhəsən Anaplı, Möhsün Sənani, Mustafa Mərdanov, Əzizə Məmmədova, Barat Şəkinskaya, Əliağa Ağayev, Məmmədəli Vəlixanlı, İsmayıl Osmanlı, Ağasadıq Gəraybəli, Səyavuş Aslan və bu səpkili aktyorlar sayılırlar.

Lirik-psixoloji üslubun dramaturgiyamızda banisi İlyas Əfəndiyev, rejissurada Tofiq Kazımov, aktyor yaradıcılığında Həsən Turabov sayılırlar. Şəfiqə Məmmədova, Səməndər Rzayev, Hamlet Xanızadə, Vəfa Fətullayeva, Fuad Poladov, Kamal Xudaverdiyev, Yaşar Nuriyev, həmçinin Akademik teatrın çağdaş truppasının aparıcı aktyorlarının əksəriyyəti həmin üslubun inkişafında müstəsna xidmətlər göstəriblər.

Akademik teatrın rejissorlarından Hüseyn Ərəblinski, Abbasmirzə Şərifzadə, Mirseyfəddin Kirmanşahlı romantik pafosları, İsmayıl Hidayətzadə, Ələsgər Şərifov, Səftər Turabov, Əlihüseyn Rzayev, Yusif Yulduz realist ifadə vasitələrinə cəhd göstərmələri, Şəmsi Bədəlbəyli, Məhərrəm Haşımov, Əliheydər Ələkbərov, Ələsgər Şərifov janr əlvanlığına can atmaları, Ağəli Dadaşov, Nəsir Sadıqzadə, Əşrəf Quliyev, Ağakişi Kazımov qarışıq üslubda işləmələri ilə diqqəti cəlb ediblər.

Qüdrətli rejissor Ədil İsgəndərov səhnədə aktyorun suflyora möhtac olmasına son qoydu. O, romantizmə əzəmətli və əlvan monumentallıq gətirdi. Qərbi Avropa teatrı köklərindən şirələnmiş sənət ocağına güclü milli ruh aşıladı. Onların üzvi vəhdətinin estetik əsasını qoydu. Teatrın repertuarı ətrafında güclü çağdaş müəlliflər toplaya bildi. Ən əsası isə "Ədil İsgəndərov teatrı" ifadəsinin elmi-nəzəri əsasında duran canlı teatrın fəaliyyətinə nail oldu. Ədil İsgəndərovun "Vaqif" (Səməd Vurğun), "Otello" (Vilyam Şekspir), "Aydın" (Cəfər Cabbarlı), "Türkiyədə" (Nazim Hikmət), "Bahar suları" (İlyas Əfəndiyev), "Nişanlı qız" (Sabit Rəhman) əsərlərinə verdiyi səhnə quruluşları teatr tariximizdə layiqli yer tutur.

Mehdi Məmmədov həm romantik, həm də realist səpkili tamaşalara quruluşlar verib. O, rejissor-pedaqoq kimi aktyorun rol-obraz üzərində analitik təhlilini əsas, mühüm prinsip kimi götürürdü. Pauzaların psixoloji nöqtəsini tamaşanın əsas akkordu ilə ustalıqla birləşdirirdi. Məzmun və forma vəhdətini möhtəşəm monumentallıqda təcəssüm etdirirdi. Janr əlvanlığına xüsusi meyl edən rejissor fəlsəfi dərinliyə meydan açır, cəmiyyətin ictimai-sosial, mənəvi-əxlaqi problemlərini qabarıq bədii-estetik ifadə vasitələri ilə verirdi.

Mehdi Məmmədov Akademik teatrda "On ikinci gecə" (Vilyam Şekspir), "İblis" və "Xəyyam" (Hüseyn Cavid), "Dəli yığıncağı" (Cəlil Məmmədquluzadə), "Canlı meyit" (Lev Tolstoy), "Yaşar" (Cəfər Cabbarlı), "Dağılan tifaq" (Əbdürrəhim bəy Haqverdiyev), "Müfəttiş (Nikolay Qoqol)", "Əliqulu evlənir" (Sabit Rəhman), "Alov" (Mehdi Hüseyn), Opera və Balet teatrın da "Toska" (Cakomo Puççini), "Lakme" (Leo Delib), "Leyli və Məcnun", "Koroğlu" (Üzeyir bəy Hacıbəyov), Gəncə teatrında "Məşədi İbad" (Üzeyir bəy Hacıbəyov), "Nə yardan doyur, nə əldən qoyur" (Lope de Veqa), "Vasvası xəstə" (Jan Batist Molyer) kimi maraqlı tamaşaların quruluşçu rejissoru olub.

Tofiq Kazımov bir rejissor kimi ilk növbədə novator sənətkar idi. O, milli teatr poetikamıza ciddi yeniliklər gətirdi. Səhnəni maksimum dərəcədə boşaltmaq və bununla fəza (məkan) genişliyinə nail olmaqla dinamik sürət-ritm yaratdı. Köhnəlmiş səhnə şərtiliklərini cəsarətlə sındırdı və ilk dəfə olaraq pərdəni öz tamaşalarında obraz-rəmzə çevirdi. İmprovizələr etməyi çox xoşlayır, səhnə tərtibatında "xəsisliyə" üstünlük verməklə əsas diqqəti aktyora yönəldirdi. "Özgələşmə" effektinin milli formasını yaratmaq üçün epik teatrın ünsürlərindən bəhrələnirdi.

Akademik teatrın yaradıcılıq nailiyyəti sayılan "Lənkəran xanının vəziri" (Mirzə Fətəli Axundzadə), "Dəlilər" (Lope de Veqa), "Atayevlər ailəsində", "Sən həmişə mənimləsən", "Unuda bilmirəm" (İlyas Əfəndiyev), "Şəhərin yay günləri" (Anar), "Antoni və Kleopatra", "Fırtına", "Hamlet" (Vilyam Şekspir), "Aydın" (Cəfər Cabbarlı), "Pəri cadu" (Əbdürrəhim bəy Haqverdiyev), "Ölülər" (Mirzə Cəlil Məmmədquluzadə), "Gözəllik və sevgi adası" (Aleksis Parnis), "Mariya Tüdor" (Viktor Hüqo), "Karıxmış Sultan" (Taufiq əl Hakimi), "Qızıl" (Yucin ONil), "Sənsiz" (Şıxəli Qurbanov) tamaşalarına quruluşu Tofiq Kazımov verib.

Bu gün teatrda Azər Paşa Nemət (Nemətov), Ağakişi Kazımov, Mərahim Fərzəlibəyov, Bəhram Osmanov, Mehriban Ələkbərzadə kimi məşhur və istedadlı rejissorlar çalışırlar. Onların yaradıcılığı daha çox yenilik ruhu, üslub axtarışları, dünya teatrının yaradıcı ənənələrindən bəhrələnmə xüsusiyyətləri və milliliyə bağlılığı ilə seçilir. Azər Paşa Nemət keçən il "Hamlet" faciəsi üzərində işini uğurla başa çatdırıb. Bu tamaşa milli teatr tariximizdə hadisə kimi dəyərləndirilib.

Təşəkkül tapdığı ilk illərdə milli teatrımızda səhnə tərtibatı müəyyən mənada ikinci dərəcəli əhəmiyyət daşıyıb. Əsərin bütün hadisələri bəzən bircə "otaqda" baş verib. Ancaq iyirminci illərdən başlayaraq Akademik teatrda səhnəqrafiya inkişaf edib, böyük sənət uğurları qazanıb. Əzim Əzimzadə, Rüstəm Mustafayev, Nüsrət Fətullayev, Ismayıl Axundov, Bədurə Əfqanlı, Kazım Kazımzadə, Böyükağa Mirzəzadə, Sadıq Şərifzadə, Əsgər Abbasov, Kamil Nəcəfzadə, Tahir Salahov, Elçin Aslanov, Rasim Babayev, Elçin Məmmədov, Solmaz Haqverdiyeva, Sənan

Qurbanov kimi istedadlı rəssamlar teatrın ən maraqlı tamaşalarının bədii tərtibatını veriblər. Hazırda teatrın baş rəssamı Nazim Bəykişiyevdir. Tanınmış rəssamlardan Tahir Tahirov, İsmayıl Məmmədov teatrın forma axtarışlarında səmərəli işlər görürlər.

Ötən əsrin iyirminci illərinin ortalarına qədər teatrın tamaşalarında klassik üçlükdən (tar, kaman, qaval) istifadə olunub. Bir qədər sonra kiçik ansambllar yaranıb. Qırxıncı illərdən isə teatrda bitkin orkestr fəaliyyət göstərib. Azərbaycanın tanınmış bəstəkarları Müslüm Maqomayev, Asəf Zeynallı, Əfrasiyab Bədəlbəyli, Niyazi, Qara Qarayev, Səid Rüstəmov, Soltan Hacıbəyov, Tofıq Quliyev, Cahangir Cahangirov, Fikrət Əmirov, Zakir Bağırov, Süleyman Ələsgərov, Rauf Hacıyev, Arif Məlikov, Xəyyam Mirzəzadə, Vasif Adıgözəlov, Emin Sabitoğlu, Şəfıqə Axundova, Polad Bülbüloğlu, Nazim Əliverdibəyov, Oqtay Kazımov, Ramiz Mirişli, Aqşin Əlizadə, Fərəc Qarayev, Aydın Əzimov, Səyavuş Kərimi, Eldar Mansurov və başqaları teatrın tamaşalarına obrazlı musiqilər bəstələmişlər. Hazırda teatrın musiqi hissə müdiri istedadlı bəstəkar Cavanşir Quliyevdir.

Teatr hələ müxtəlif truppalar şəklində fəaliyyət göstərdiyi vaxtlarda, 1906-cı ildən başlayaraq daha müntəzəm şəkildə başqa ölkələrə qastrol səfərlərinə çıxıb. Bu qastrolları əvvəllər Hüseyn Ərəblinski, Sidqi Ruhulla, Mirseyfəddin Kirmanşahlı, Mustafa Mərdanov, Əhməd Qəmərli, Abbasmirzə Şərifzadə, Cəlil Bağdadbəyov... kimi aktyorlar təşkil edirdilər. Onlar müxtəlif truppalar şəklində İranın Tehran, Rəşt, Təbriz, Ənzəli, Xoy... Orta Asiyanın Buxara, Mərv, Aşqabad, Rusiyanın Orenburq, Hacıtərxan, Tatarıstanın Kazan şəhərlərində, Tiflisdə, İrəvanda, Türkiyənin İstambul, Trabzon, Qars şəhərlərində qastrollarda olublar. Akademik teatr bütöv truppa halında və zəngin repertuarla dəfələrlə Rusiyanın Moskva, Sankt-Peterburq, Kazan, Ozbəkistanın Daşkənd, Türkmənistanın Aşqabad, Gürcüstanın Tiflis, Almaniyanın Berlin, Türkiyənin Ankara, İstambul, Qars, Ərzurum, Kayseri, Sivas, Bayburt, Başqırdıstanın Ufa şəhərlərinə qastrol səfərlərinə çıxıb.

* * *

Bakıda ilk teatr binasını Zeynalabdin Tağıyev 1883-cü ildə özünün taxıl anbarı yerləşən binasının üstündə tikdirib. Həmin bina Bakı milyonçusunun, tanınmış messeanatı şərəfinə “Tağıyev teatrı”, bəzən isə “Şəhər teatrı” adlanıb. Akademik Milli Dram Teatrı ilin müxtəlif vaxtlarında, 1922-ci ilin 17 yanvarından isə müntəzəm şəkildə həmin binada fəaliyyət göstərib. Teatr 1960-cı ilin yayından Füzuli meydanında qərar tutan indiki binasında yerləşir.

1890-1920-ci illər arasında Azərbaycanın müxtəlif teatr dəstələri Bakıda Musa Nağıyev teatrında, Mayılov qardaşlarının teatrında, Nikitin qardaşlarının sirkində, Dənizçilər evində, İnsanpərvərlər klubunda, Haşımovun evində, “Forrer” sirkində, “İsmailiyyə” binasında, Tağıyev pasajında, Lalayev pasajında (“Qran vio” salonu) tamaşalar oynayıblar.

Bu gün Akademik teatrın repertuarında Sofoklun “Şah Edip”, Vilyam Şekspirin “Kral Lir” və “Hamlet”, Çingiz Aytmatovun “Sokratı anma gecəsi”, İlyas Əfəndiyevin “Hökmdar və qızı”, “Dəlilər və ağıllılar”, Bəxtiyar

Vahabzadənin “Özümüzü kəsən qılınc” (“Göytürklər”), Süleyman Sani Axundovun “Eşq və intiqam”, Cəfər Cabbarlının “Aydın”, “Ulduz, yaxud Ədirnə fəthi”, Hüseyn Cavidin “Afət”, Nəbi Xəzrinin “Burla xatun”, Elçinin “Ah, Paris... Paris!..”, “Mənim sevimli dəlim”, “Mənim ərim dəlidir”, “Poçt şöbəsində xəyal”, Hidayətin “Bu dünyanın adamları”, Ramiz Novruzun “Hələ “sevirəm” deməmişdilər...”, Əli Əmirlinin “Köhnə ev” və “Varlı qadın”, Xeyrəddin Qocanın “Hərənin öz payı” pyeslərinin tamaşaları oynanılmaqdadır.

**17 fevral 2003-cü il.**

# RƏHBƏRLİK



**Əliabbas QƏDİROV**
Bədii rəhbər və direktor, xalq artisti

Yaradıcılıq imkanları romantik və realist aktyor məktəblərinin estetik göstəricilərinə, psixoloji mahiyyətinə, fəlsəfi dərinliyinə uyğundur. Daxilən hərarətli və ehtiraslı temperamentə, dinamik plastikaya malik aktyordur. Oynadığı rollar janr xüsusiyyətlərinə görə fərqli, əlvan və bədii cəhətdən bitkin təsir bağışlayır. Aktyor təbiətində ilk baxışda “gizli” görünən, ancaq duzlu və cazibəli yumor var. O, bu yumordan həssaslıqla, yığcam “xəsisliklə”, lakin bədii məziyyətləri cazibəli, könüloxşayan, müəyyən estetik meyar çərçivəsində peşəkar görünən bacarıqla istifadə edir.

Əliabbas Qədirov oynadığı obrazlara ilk növbədə elmi-nəzəri əsaslarla yanaşır, xarakterin əsərdə kəsb etdiyi psixoloji-fəlsəfi qənaətlərin mahiyyətini müəyyənləşdirir. Səhnə surətinin dramatik kolliziyalarındakı yerini daha qabarıq bədii vasitələrlə canlandırmaq üçün “ikinci plan” estetik anlayışının əyani və təcrübi təzahürünü bütün incəliklərinə kimi tamaşaçılara çatdırmağa çalışır. Səhnədə diqqətcil və həssasdır, mürəkkəb mizanlar toplusunda oynamağı xoşlayan aktyordur. Azərbaycanın məşhur qiraət ustalarından biridir, onun ifasında Füzuli, Vaqif, Nəsimi, Sabır... kimi noeziva korifeylerinin poetik nümunələri lentə alınıb.

Əliabbas Gülabbas oğlu Qədirov 13 fevral 1946-cı ildə Bakıda dogulub. Şəhərdəki 31, 176, 43, 36, 105 saylı orta məktəblərdə təhsil alıb. On birinci sinfı 105 saylı məktəbdə bitirib. Səhnə sənətinə səkkizinci sinifdən başlayaraq maraq göstərib. Dəmirvolcular klubunda xalq artisti Ağadadaş Qurbanovun rəhbərlık etdiyi dram kollektivinin üzvü olub. Romantik monumental tamaşalarda rolları oynamaq vərdişlərinin ibtidai əsaslarını həmin dram dərnəyində öyrənib. Aktyor olmağı da burada qətiləşdirib.

O, 1965-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Sənət müəllimi, ixtisas kurs rəhbəri xalq artisti, professor Mehdi Məmmədov, səhnə danışığı müəllimi əməkdar artist, qiraət ustası Müxlis Cənizadə olub. Tələbəlik illərində institutun Tədris teatrının ştatlı aktyoru kimi burada Cəfər Cabbarlının "Aydın" (Surxay), Hüseyn Cavidin "Azər", Afanasi Salinskinin "Təbilçi qız" (Fyodr) əsərlərinin tamaşalarında maraqlı rollar oynayıb. Elə buna görə də Əliabbas Qədirov son kursda oxuyanda Mehdi Məmmədov onu Akademik teatrda quruluş verdiyi Hüseyn Cavidin "Xəyyam" faciəsində Yusif roluna dəvət edib. Ancaq tamaşanın premyerası uzanıb və 12 mart 1970-ci ildə göstərilib. Elə bu səhnədə ilk addımından teatr ictimaiyyətinin nəzər diqqətində olub. O, 1970-ci il aprel ayının 6-dan Milli Dram Teatrının aktyorudur. Məşhur aktyor 26 dekabr 2001-ci ildə teatrın bədii rəhbəri və direktoru təyin olunub.

Əliabbas Qədirovun 1970-ci ildən bugünədək Milli Dram Teatrında oynadığı rollar zaman ardıcıllığı ilə aşağıdakı kimi sistemləşdirilə bilər.

**Yusif.** "Xəyyam", Hüseyn Cavid.
**Pronya.** "Zamanın hokum", Nikolay Poqodin.
**Xosrov.** "Küləklər", Sabit Rəhman.
**Vəli.** "Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə.
**Givi.** "Darıxma, ana!", Nodar Dumbadze.
**Leytenant və Nicat.** "Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev.
**İlyas.** "Aydın", Cəfər Cabbarlı.
**Fateh.** "Yol ayrıcında", İslam Səfərli.
**Qlumov.** "Müdriklər", Aleksandr Ostrovski.
**Kürd Musa və Vaqif.** "Vaqif", Səməd Vurğun.
**Fotoqraf.** "Şöhrət və ya unudulan adam", Nazim Hikmət.
**Alman oğlu.** "İnsan", Səməd Vurğun.
**Məğrur.** "Əks-səda", Nəbi Xəzri.
**Coşqun.** "Kölgələr pıçıldaşır", Seyfəddin Dağlı.
**Balaağa.** "Vəkil neyləsin...", Ramiz Fətəliyev.
**Şərif.** "Məhəbbət əfsanəsi", Nazim Hikmət.
**Daşqın.** "Yollara iz düşür", İslam Səfərli.
**Balaş.** "Sevil", Cəfər Cabbarlı.
**Bəhram.** "Fitnə", Abdulla Şaiq.
**Seyid Hüseyn.** "Xurşid banu Natəvan", İlyas Əfəndiyev.
**Vasif.** "İblis", Hüseyn Cavid.
**Rəşad.** "Kimdir haqlı?," Bəxtiyar Vahabzadə.
**Həbib.** "Büllur sarayda", İlyas Əfəndiyev.
**Toral.** "Qarabağ əfsanəsi", Qeybulla Rəsulov.
**Diş həkimi.** "Biganələr oteli", Rüstəm İbrahimbəyov.
**Qazan xan.** "Torpağa sancılan qılınc", Nəbi Xəzri.
**Şirzad.** "Şeyx Xiyabani", İlyas Əfəndiyev.
**Mirzə Şəfi.** "Mənsiz dünya", Nəbi Xəzri.
**Dan.** "Tufandan əvvəl", Arif Süleymanov.
**Kamran.** "Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev.

**Mircəfər Bağırov.** "Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev.
**Kərim bəy.** "Tənha iydə ağacı", İlyas Əfəndiyev.
**Tərlan.** "Sənsiz", Şıxəli Qurbanov.
**Misirxanov.** "Əcəb işə düşdük", Şıxəli Qurbanov.
**Qraf Qloster.** "Kral Lir", Vilyam Şekspir.
**İbrahim xan.** "Hökmdar və qızı", İlyas Əfəndiyev.
**Qara xaqan.** "Özümüzü kəsən qılınc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə.
**Ənvər.** "Ulduz, yaxud Ədirnə fəthi", Cəfər Cabbarlı.
**Nostradamus.** "Hələ "sevirəm" deməmişdilər...", Ramiz Novruz.

Aktyor Azərbaycan Dövlət Televiziyasında çoxlu tamaşalarda oynamış, uzun illər əvvəlcə gənclər üçün "Məşəl", sonralar əyləncə xarakterli "Komediyalar aləminə səyahət" verilişlərinin aparıcısı olub. Onun oynadığı tamaşaların bir qismi televiziyanın "Oızıl fond"una daxildir. Onlardan Süleyman Sani Axundovun, "Laçın yuvası" (Cahangir), Məmməd Muradan "Təkan" (Dilqəm), İlyas Əfəndiyevin "Atayevlər ailəsində" (Cahangir), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Heydər bəy), Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" (Fərhad), Mar Bayciyevin "Duel" (İsgəndər), Dazortsevin "Qəbula gələn sonuncu adam" (Kişi) əsərlərinin teletamaşasında Əliabbas Qədirovun yaradıcılığı daha parlaq şəkildə təcəssüm tapıb.

Əliabbas Qədirov teatrla yanaşı, kino aktyoru kimi də məşhurdur və böyük uğurlar qazanıb. Hətta o, məhz kinorejissor Eldar Quliyevin çəkdiyi "Sevinc buxtası" iki seriyalı bədii fılmindəki Nazim roluna görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb. Aktyor bundan əlavə "Azərbaycanfilm"də "Xatirələr sahilində" (İmran), "Nəğmə dərsi" (Ata), "Nə yaxşı ki, Səməd Vurğun var" (Vaqif), "Bizim evin kişisi" (Mansur), "Qızıl uçurum" (Cəlil), "Qocalar" (Fəriz), "Babək" (Fəzl), "Dənizdən işarə" (Sultanov), "Sevinc buxtası" (Nazim) kimi kinolentlərinə çəkilib. Vaxtilə, rejissor Hüseyn Seyidzadənin çəkdiyi eyniadlı fılmdə Qatır Məmmədi oynayıb. Lakin Moskva "millətçi" ruhuna görə o fılmin ekrana çıxmasına icazə verməyib.

Səhnə və ekran ustası Əliabbas Qədirov teatr və kino yaradıcılığındakı uğurlarına görə 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti və 17 may 1989-cu ildə isə xalq artisti fəxri adları ilə təltif olunub.



**Ədalət VƏLİYEV**
Mədəniyyət nazirinin müavini

Ədalət Məqsəd oğlu Vəliyev 1959-cu il fevral ayının 13-də Bakıda anadan olub. Şəhərdəki 102 saylı ümumtəhsil məktəbində oxumaqla yanaşı, 21 saylı orta musiqi məktəbində tar təhsili alıb (1968-1973). Məktəbi bitirəndən sonra Bakı Tramvay-Trolleybus idarəsində fəhlə işləyib (1976-1978), hərbi xidmətdə olub (1978-1980). Bakı Dövlət Universitetini bitirib.

1980-1985-ci illərdə Akademik Milli Dram Teatrında səhnə fəhləsi, elektrik, radist, təchizatçı, əmtəəşünas, quruluş hissə müdirinin müavini, inzibatçı işləyib. S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında direktor müavini işləmiş (1986-1987), yenidən Akademik teatra qayıdaraq direktor müavini və sərəncamçı direktor olmuş (1987-1991), Rus dram teatrında direktor kimi çalışmışdır (1991-1993). 1993-cü ilin yanvar ayında mədəniyyət nazirinin müavini təyin edilmişdir. Nazir müavini kimi teatrlar, konsert müəssisələri, sirk, rəsm qalereyaları... sahələrinə nəzarət edir.

Ədalət Vəliyev Akademik teatrın əsaslı təmirində, sənət ocağının Türkiyə, Iran, Moskva qastrollarında, binanın müasir avadanlıqlarla təchizatında səmərəli xidmətlər göstərmişdir. O, hazırda nazir müavini kimi teatrın yaradıcılıq və texniki problemləri ilə yaxından məşğul olur. Sənətşünaslıq namizədidir (2002).



**İlham RƏHİMLİ**

Ədəbi hissə müdiri,
əməkdar incəsənət xadimi

Teatrşünas alim İlham Əziz oğlu Rəhimli 1949-cu il sentyabrın 8-də Yevlax rayonunun Malbinəsi kəndində doğulub. Yevlaxdakı 5, 3, 2 saylı və internat məktəblərində oxuyub. 1966-cı ildə 1 saylı orta məktəbin on birinci sinfini bitirib. Bir il ali məktəbə daxil ola bilməyib və Yevlaxdakı 4 saylı avtokalonda çilingər işləyib.

Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirərək (1967-1972) redaksiyanın yazılı məktub-tələbnaməsinə əsasən təyinatla "Kommunist" (indiki "Xalq qəzeti") qəzetinə işə göndərilib. Hərbi xidmətdən sonra (may 1973-may 1974) yenə redaksiyaya qayıdıb. Müxtəlif illərdə ədəbi işçi, baş müxbir, felyeton və publisistika, mədəniyyət şöbələrinin müdiri işləyib. "Azərbaycan" qəzetinin baş redaktoru, prezident aparatının humanitar siyasət şöbəsinin məsul işçisi işləyib. 1993-cü il noyabrın 1-dən Akademik Milli Dram Teatrının ədəbi hissə müdiridir.

Teatra aid ilk yazısı dövri mətbuatda 1969-cu ildə çap olunan Ilham Rəhimli səhnə sənətinə, kinoya, təsviri incəsənətə, dramaturgiyaya, aktyor və rejissor peşəsinə, mədəniyyətin müxtəlif problemlərinə aid yüzlərlə məqalənin müəllifidir.

İlham Rəhimli "Sənət vurğunu", "Ağasadıq Gəraybəyli", "Səhnə. Ekran. Müasirlik", "Dramaturgiya və teatr", "Habil Kaman", "Hafız Zeynalov", "Səyavuş Aslan", "Səttar dünyası", "Segah yanğısı", "Sənət yolu, sənətkar ömrü", "Sənətdə keçən ömür" (Mehdi Məmmədov, Həsən Turabov, Yaşar Nuriyev, Vaqif İbrahimoğlu və başqaları haqqında monoqrafiyalar toplusu), "Aktyor ömrünün dolayları", "Aktyora oxşamayan adam", "Füzuli meydanında sənət məbədi", "Akademik Milli Dram Teatrı" (iki cilddə), "Xalq oyun-tamaşaları", "Sumqayıt Dövlət Musiqili Dram Teatrı", "Azərbaycan Dövlət Kukla Teatrı", "Səhnəmizin

fədailəri” (birinci kitab), “Azərbaycan milli teatının poetikası”, “Aşqabad Dövlət Azərbaycan Teatrı” monoqrafıya və kitablarının müəllifıdir.

Azərbaycan Dövlət Televiziyasında müxtəlif illərdə “Ekran, kino, yeniliklər”, “Sənət adamları”, “Səhnə üçün doğulmuşlar”, “Yeni tamaşalar”, “Aktyorlar və rollar” və sairə silsilə verilişlərin aparıcısı olub.

İlham Rəhimli 1975-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatr tarixi kafedrasında dərs deyir. Sənətşünaslıq doktoru və professorudur.

Nəzəriyyəçi alim, milli teatrımızın tədqiqatçısı kimi Dehli, Praqa, Moskva, Tehran, Dəməşq, Kiyev, İstambul, Berlin, Brüssel, Paris, Roma... şəhərlərində Beynəlxalq teatr simpoziumlarında elmi məruzələrlə çıxışlar edib.

Azərbaycan Jurnalistlər İttifaqının “Qızıl qələm” (5 may, 1977) mükafatı laureatıdır. Jurnalistlik və mədəniyyət sahələrində göstərdiyi xidmətlərinə görə 1989-cu il sentyabrın 1-də Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adı ilə təltif edilib.

Kitabın çap prosesi dövründə, 3 mart 2003-cü ildə o, öz ərizəsi ilə işdən çıxıb.



**Nazim BƏYKİŞİYEV**
Baş rəssam, əməkdar rəssam

Milli teatrımızın peşəkar səhnə sənəti rəssamlarındandır.

Boyakarlıq və qrafika janrında möhtəşəm rəsm və tabloları var. Əsərləri bir sıra beynəlxalq sərgilərdə uğurla nümayiş olunub. Onun zəngin yaradıcılığının əsas qollarından birini teatr rəssamlığı təşkil edir. Nazim Bəykişiyevin səhnə tərtibatları monumental həlli, emosional ifadə vasitələrinin səciyyəviliyi, yumşaq və lirik boyaların canlı təcəssümü ilə seçilir. İşlədiyi əsərə uyğun elə forma təklif edir ki, həmin tərtibat mütləq səhnədə estetik obraz funksiyasını bədii dəqiqliklə daşıya bilir. İşıqdan və səhnə texnikasının imkanlarından bacarıqla bəhrələnir. Onun quruluşlarında fəza genişliyi var və bu genişlik quruluşçu rejissorun qayəsinə

xidmət etməklə yanaşı, eyni zamanda aktyorların sərbəst və səhnə davranışlarına, mürəkkəb mizanların realizəsinə geniş imkanlar açır.

Nazim Zöhrab oğlu Bəykişiyev 29 iyun 1948-ci ildə Bakının Keşlə qəsəbəsində doğulub. Əvvəlcə 61, sonra isə 201 saylı orta məktəblərdə oxuyub. Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinin rəngkarlıq fakültəsini bitirib (1969). Bir il Bakıdakı Dövlət Şəkil Qalereyasında işləyib. 1970-1975-ci illərdə Moskvada Dövlət Teatr Sənəti İnstitutunun (QİTS) teatr rəssamı fakültəsinə daxil olaraq SSRİ xalq artisti Sergey Obraztsovun sinfində təhsil alıb. Bakıda işlə təmin olunmadığına görə Orconikidze şəhərinin Kukla Teatrında və Rus Dram Teatrında quruluşçu rəssam işləyib. Burada on beşdən çox əsərə səhnə tərtibatı verib. Aleksandr Vampilovun "Keçən il Çulimskidə" dramına verdiyi tərtibat daha böyük uğur qazanıb.

İl yarımdan sonra Azərbaycana qayıdan Nazim Bəykişiyev müxtəlif sahələrdə çalışıb, azad sənətkar kimi fəaliyyət göstərib. Burada ilk işlədiyi səhnə ocağı Sumqayıt Dövlət Dram Teatrı olub (22 dekabr 1978-16 mart 1980). Quruluşçu rəssam kimi Əkrəm Əylislinin "Bağdada putyovka var" (28 iyun 1979), Feyruz Məmmədovun "Şəngülüm, Şüngülüm, Məngülüm" (29 dekabr 1978) pyeslərinin tamaşasına quruluş verib. 1980-ci il mart ayının 22-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrına quruluşçu rəssam götürülüb və 15 dekabr 1987-ci ildə həmin kollektivə baş rəssam təyin olunub. Dörd il bu vəzifədə işləyəndən sonra, 1 mart 1991-ci ild öz ərizəsi ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirinin əmri ilə kollektivdən ayrılıb. Elə həmin gün Dövlət Gənclər Teatrına baş rəssam göndərilib. 14 iyun 2001-ci ildən isə baş rəssam vəzifəsində Akademik Milli Dram Teatrında çalışır. O, baş rəssam işlədiyi kollektivlərdə oynanılan tamaşalara təkcə özü bədii tərtibatlar verməklə kifayətlənmir, ayrı quruluşçu rəssamların işlərinin bədii-estetik səviyyəsinə bacarıqla nəzarət edir. Teatrın ümumi forma-üslub istiqamətinin formalaşmasında Nazim Bəykişiyevin konseptual estetik qənaətləri mühüm rol oynayır.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Nazim Bəykişiyevin rəssamı olduğu tamaşalarda səhnə tərtibatı mənalı ifadəliliyi və rəng koloritinin cazibədarlığı ilə seçilir.

**1980, 12 yanvar.** "Qızıl toy", dramaturq Ramiz Heydər və bəstəkar Oqtay Kazımov.

**1980, 19 dekabr.** "Məzəli əhvalat", Ruhəngiz Qasımova.

**1981, 1 mart.** "Yertutanlar", Faiq Mustafayev və Adil Bəbirov. Şerlər Rüfət Əhmədzadənindir.

**1982, 15 yanvar.** "Qaçırılmış qız", Cahangir Məmmədov və Ramiz Mirişli.

**1983, 1 aprel.** "Nəğməli könül", Xalidə Hasilova və Emin Sabitoğlu.

**1983, 30 may.** "Bildirçinin bəyliyi", Rüfət Əhmədzadə və Emin Sabitoğlu.

**1983, 26 dekabr.** "Olmadı elə, oldu belə", Şıxəli Qurbanov və Süleyman Ələsgərov.

**1984, 14 may.** "Lənət şeytana", Firudin Aşurov və Vasif Adıgözəlov. Şerlər Ramiz Rövşənindir.

**1985, 20 sent.** "O olmasın, bu olsun" ("Məşədi İbad"), Üzeyir bəy Hacıbəyov.

**1987, 25 sentyabr.** "92 dəqiqə gülüş", Rüfət Əhmədzadə və Emin Sabitoğlu.

**1989, 8 dekabr.** "Sevgilimin anası və ya bir evlənmə əhvalatı", Georgi Xuqayev və Eldar Mansurov.

**1991, 9 dekabr.** "Qarğa, məndə qoz var", Cahangir Aslanoğlu və Həsənağa Qurbanov.

**1992, 13 aprel.** "Lotereya", Vaqif Səmədoğlu və Aydın Əzimov.

Muskomediya teatrının rus bölməsində də bir neçə həm klassik, həm də çağdaş mövzulu operettanın tamaşalarının quruluşçu rəssamı olub.

Rəssam müxtəlif illərdə Mərziyə Davudova adına Mingəçevir Dövlət Dram Teatrında fin dramaturgiyasından tərcümə edilmiş "Niskouri malikanəsinin gənc sahibəsi", Ağdam Dövlət Dram Teatrında Aleksandr Komiytsin "Vəhşi Angel" və Hüseyn Cavidin "İblis" əsərlərinin tamaşalarına quruluşlar verib.

Nazim Bəykişiyevin Dövlət Gənclər Teatrında səhnə tərtibatı verdiyi əsərlərin tamaşaları.

**1990, 15 iyun.** "Dadaşbala əməliyyatı", Rəhman Əlizadə.

**1990, 26 avqust.** "Arvadımın əri", Georgi Xuqayev.

**1992, 28 dekabr.** "Marsa səyahət", Georgi Xuqayev.

**1993, 30 mart.** "Şeytan tələsi", Əkrəm Əylisli.

**1994, 5 may.** "Qurbanəli bəy", Cəlil Məmmədquluzadə.

**1994, 10 oktyabr**. "Komendant saatının lətifələri", Şirin Manafov.

**1994, 11 noyabr.** "Ox və hədəf", Fərhad Ağamalıyev.

**1995, 20 aprel.** "Valeh, kəndinə qayıt", Dadaş Mehdi.

**1995, 28 dekabr.** "Əyləncəli səyahət", Xoşqədəm Bağırova.

**1996, 2 mart.** "Məndən nigaran qalmayın", Isi Məlikzadə.

**1996, 22 mart.** "Sehrli mücrü", Rəhman Əlizadə.

**1996, 11 sentyabr.** "Neron oynayır və ya İblisin komediyaları", Mikloş Xuban.

**1996, 1 noyabr.** "Məlik Məmməd", nağıl-tamaşa.

**1996, 23 noyabr.** "Yeddi məhbusə", Əli Əmirli.

**1996, 23 dekabr.** "Qızıl dağın kralı", Dəmir Erhan.

**1997, 6 mart.** "Sevirəm səni, Türkiyə", Kamal Abdulla.

**1997, 25 aprel.** "Ağıllı adam", Firuz Mustafa.

**1997, 2 may.** "Dəlilər", Məhərrəm Abbasov.

**1997, 17 sentyabr.** "İyirmi il sonra", Əli Əmirli.

**1997, 1 noyabr.** "Keçəlin evlənməyi", Rəhman Əlizadə.

**1998, 31 mart.** "Hamlet", Vilyam Şekspir.

**1998, 30 sentyabr.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.

**1998, 14 noyabr.** "İtkin ər", Əli Əmirli.

**1998, 27 dekabr.** "Dəli Domrul", Kamal Aktay.

**1999, 25 aprel.** "Yaxşı padşahın nağılı", Anar.

**1999, 8 sentyabr.** "Varlı qadın", Əli Əmirli.

**1999, 28 sentyabr.** "Uzaq yaşıl ada", Vaqif Səmədoğlu.

**1999, 10 noyabr.** "Ölülər", Cəlil Məmmədquluzadə.

**2000, 20 mart.** "Şəngülüm, Şüngülüm, Məngülüm", nağıl-tamaşa.

**2000, 4 aprel.** “Karmen”, Prosper Merime.
**2000, 8 sentyabr.** “Ördək ovu”, Aleksandr Vampilov.
**2000, 6 oktyabr.** “Atamın kitabı”, Bəxtiyar Vahabzadə.
**2000, 8 noyabr.** “Mamed kişinin yuxuları”, Vaqif Səmədoğlu.
**2001, 4 aprel.** “Xoşbəxt gün”, Əli Əmirli.
**2001, 1 iyun.** “Şübhəli əhvalat”, Qabil.
**2002, 26 oktyabr.** “Vicdanın hökmü”, Hüseynbala Mirələmov.

Nazim Bəykişiyev Akademik Milli Dram Teatrında həm dəvətlə, həm sıravi rəssam, həm də baş rəssam kimi aşağıdakı səhnə əsərlərinə bədii tərtibat verib.

**1980, 30 oktyabr.** “Əliqulu evlənir”, Sabit Rəhman.
**1983, 19 mart.** “İblis”, Hüseyn Cavid. (Rəssam Elçin Məmmədovla birlikdə.)
**1987, 14 fevral.** “Günah”, Rəhman Əlizadə.
**1987, 21 iyun.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.
**1988, 15 oktyabr.** “Yayda qartopu oyunu”, Vaqif Səmədoğlu.
**2002, 30 mart.** “Hamlet”, Vilyam Şekspir. (Rəssam Elçin Məmmədovla birlikdə.)
**2003, 18 aprel.** “Afət”, Hüseyn Cavid.

Rəssam Nazim Bəykişiyev “İblis” tamaşasına verdiyi səhnə tərtibatına (Elçin Məmmədovla birgə) görə 1984-cü ildə Respublika Dövlət mükafatına layiq görülüb. 30 may 2002-ci ildə isə Azərbaycan Respublikasının əməkdar rəssamı fəxri adı ilə təltif olunub.



**Cavanşir QULİYEV**
Musiqi hissə müdiri, əməkdar incəsənət xadimi

Cavanşir Rəhim oğlu Quliyev 1950-ci il noyabr ayının 22-də Şəkidə doğulub. Orta məktəblə bərabər 1968-ci ildə Şəki Musiqi məktəbini bitirib və həmin il Üzeyir bəy Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının tar sinfinə daxil olub. İki ildən sonra bəstəkarlıq fakültəsinə keçib və 1975-ci ildə görkəmli bəstəkar Cövdət Hacıyevin rəhbərlik etdiyi kursu bitirib. Tələbəlik illərindən, yəni 1973-cü ildən Azərbaycan Dövlət Televiziya və Radio verilişləri Komitəsində səs rejissoru işləməyə başlayıb və həmin vəzifədə 17 il çalışıb. Azərbaycan Konsert Birliyində bədii rəhbər olub (1990-1993), Musiqi Akademiyasında və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim işləyib. Paralel olaraq 1992-ci il sentyabr ayının 1-dən Akademik Milli Dram Teatrında musiqi hissə müdiridir.

Məşhur bəstəkar Akademik teatrda hazırlanmış İlyas Əfəndiyevin "Sevgililərin cəhənnəmdə vüsalı", "Tənha iydə ağacı", Bəxtiyar Vahabzadənin "Fəryad", "Özümüzü kəsən qılınc" ("Göytürklər"), "Dar ağacı", Eldar Baxışın "Qədr gecəsi", Kamil Abdullayevin "Min illərin işığı", xalq nağılları əsasında "Şıltaq şahzadənin nağılı", Sofoklun "Şah Edip və yaxud alın yazısı" ("Sah Edip"), Nəbi Xəzrinin "Burla xatun", Kamal Abdullanın "Hərdən mənə mələk də deyirlər...", Cəfər Cabbarlının "Aydın" pyeslərinin tamaşalarına musiqi bəstələyib, bir sıra əsərlərin təranə tərtibatını verib.

Bundan əlavə o, Sumqayıt Dövlət Musiqili Dram Teatrında Nəriman Həsənzadənin "Bütün Şərq bilsin", Fərman Kərimzadənin "Şah İsmayıl", Hacıbaba Nəzərlinin "Ayıl, bax dünyaya", Əkrəm Əylislinin "Bir cüt bədmüşk ağacı", Ağalar Mirzənin "Məlik Məmmədin yeni sərgüzəştləri", Rafiq Səməndərin "Püşk", Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəlişah"; Dövlət Gənclər Teatrında Rəhman Əlizadənin "Tıq-tıq xanım", "Dadaşbala əməliyyatı", "Laləli düzən", Məhəmməd Füzulinin "Leyli və Məcnun", Teyyub Qurbanın "Hacı Zeynalabdin", İmir Məmmədlinin "Açar", Mikloş Xubanın "Neron oynayır və ya İblisin komediyaları", Hüseynbala Mirələmovun "Vicdanın hökmü"; Şəki Dövlət Dram Teatrında Abdulla Şaiqin "Bir saatlıq xəlifə", Anarın "Şəhərin yay günləri", Mixail Sebastianın "Adsız ulduz", Əli Səmədlinin "Hərənin bir ulduzu", Sergey Mixalkovun "Bahalı oğlan", Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəlişah"; Xankəndi Dövlət Teatrında "Mirzə Fətəli Axundzadəni oynayırıq"; Gənc Tamaşaçılar Teatrında Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin məktəbi", Miryusif Mirnəsiroğlunun "Axırıncı təcavüz olmayacaq"; Mingəçevir Dövlət Dram Teatrında Yusif Səmədoğlunun "Qətl günü"; Ağdam Dövlət Dram Teatrında Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu"; "Yuğ" Dövlət Teatrında Ramiz Rövşənin "Gəl gedək", Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması əsasında "Leyli demə...", "Dad", Firdovsinin poetik nümunələri əsasında "Yasaq", Anton Çexovun "Vals"; Lənkəran Dövlət Dram Teatrında Tamara Vəliyevanın "Mənim ağ göyərçinim"; Moskvadakı Qoqol adına Dram Teatrında Alla Axundovanın "Sirlər... sirlər... sırlər..." dramlarının səhnə təcəssümündə bəstəkarlıq edib.

Azərbaycan Dövlət televiziyasında hazırlanmış Hüseyn Cavidın "Topal Teymur", Mixael Cavaxaşvilinin "Günahsız Abdulla", Vaqif Səmədoğlunun "Yaşıl eynəkli adam", Cəlil Məmmədquluzadənin "Qurbanəli bəy", "Kamança",

Əbdürrəhim bəy Haqverdıyevin “Ac həriflər”, Anatoli Dudarevin “Astana”, Vaqif Səməd oğlunun “Yumurta”, Mövlud Süleymanlının “Fatehlərin divanı”, “Dədə Qorqud” dram, faciə və komediyalarının teletamaşalarının bəstəkarı da Cavanşir Quliyevdir. O, həmçinin “Çobanbayatı”, “Qəm pəncərəsi”, “Süd dişinin ağrısı”, “Fəryad”, “Aşıq Qərib”, “Lətifə”, “Araqarışdıran” bədii və televiziya filmlərinin əsrarəngiz musiqisinin müəllifidir.

Klassik Avropa musiqisi ilə muğamlarımızın bədii məziyyətlərini ustalıqla birləşdirən Cavanşir Quliyevin üç yüzə qədər mahnısı, fortepiano üçün sonatina, birinci simli kvartet, simli orkestr və zurna üçün “Musiqi” və “Uvertüra”, “Saz və skripka üçün sonata”, birinci və ikinci simfoniyaları, digər məşhur əsərləri var. Bəstələdiyi sənət əsərləri ABŞ, İngiltərə, İsrail, Bolqarıstan, Çexiya, Rummiya, Slovakiya, Türkiyə, Yunanıstan, Finlandiya ölkələrində müxtəlif musiqi kollektivləri tərəfindən səsləndirib. Bir sıra beynəlxalq simpoziumların iştirakçısıdır.

Cavanşir Rəhim oğlu Quliyev Azərbaycan Lenin komsomolu (31 dekabr 1982), General Əsədov (14 aprel 1993), Şəhriyar (11 may 1995) mükafatları laureatıdır. Musiqi sənətindəki xidmətlərinə görə 20 avqust 1992-ci ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb.



**İsmayıl MƏMMƏDOV**

Əməkdar rəssam

İsmayıl Əsəd oğlu Məmmədov 1948-ci il mart ayının 3-də Bakıda doğulub. Paytaxtın Səbayil rayonundakı 189 saylı orta məktəbin səkkizinci sinfini bitirərək 1963-cü ildə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinin rəngkarlıq şöbəsinə daxil olub. Tələbəlik illərindən kitab qrafikası ilə məşğul olmağa

başlayıb. 1968-ci ildə rəssamlıq məktəbini bitirib və həmin il də İlya Repin adına Leninqrad (bugünkü Sankt-Peterburq) Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutuna qəbul edilib. SSRİ xalq rəssamı, professor Yefsey Mousenkonun sinfini 1974-cü ildə bitirib. Əvvəlcə Azərbaycan Respublikası Rəssamlar İttifaqının Bədii Fondunda işləyib, sonra pedaqoji fəaliyyət göstərib. 1976-cı ildən Respublika və Beynəlxalq rəsm sərgilərində iştirak edir. Məşhur boyakar, istedadlı qrafik İsmayıl Məmmədov teatr rəssamlığı ilə ciddi məşğul olur. O, 10 fevral 1996-cı ildən Akademık Milli Dram Teatrında quruluşçu rəssamdır. Burada işləməklə yanaşı, 6 iyul 1998-ci ildən Azərbaycan Dövlət Musiqili Komediya Teatrının baş rəssamıdır. İsmayıl Məmmədov Akademik Teatrda İlyas Əfəndiyevin “Hökmdar və qızı”, Bəxtiyar Vahabzadənin “Özümüzü kəsən qılınc” (“Göytürklər”), “Dar ağacı”, Əli Əmirlinin “Köhnə ev”, “Varlı qadın”, “Nazim Hikmətin “Kəllə”, Ramiz Novruzun “Hələ “sevirəm” deməmişdilər...”, Cəfər Cabbarlının “Ulduz, yaxud Ədirnə fəthi” dramlarının, Musiqili Komediya Teatrında Üzeyir bəy Hacıbəyovun “O olmasın, bu olsun” (“Məşədi İbad”), Rüfət Əhmədzadə və Emin Sabitoğlunun “Hələlik”, İmre Kalmanın “Maritsa”, “Qaraçı premier”, Ferens Leqarın “Şən dul qadın”, Qeybulla Rəsulov və Cavanşir Quliyevin “Məhəbbət oyunu”, Tamara Vəliyeva və Emin Sabitoğlunun “Bankir adaxlı”, Rauf Hacıyevin “Talelər görüşəndə” (“Romeo mənim qonşumdur”), Qara Qarayevin “Coşğun Qaskonlu” operettalarının, Azərbaycan Dövlət Rus Dram Teatrında Nəbi Xəzrinin “Burla xatun” pyesinin tamaşalarına bədii tərtibat verib. İsmayıl Əsəd oğlu Məmmədov 30 may 2002-ci ildə Azərbaycan Respublikasının əməkdar rəssamı fəxri adı ilə təltif olunub.



**Məmmədşah ATAYEV**
Truppa müdiri

Məmmədşah Qədim oğlu Ağayev 20 dekabr 1939-cu ildə Quba rayonunda doğulub. Orta məktəbi orada bitirərək Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb (1950-1955). O, 1995-cı ildən 1985-ci ilə qədər Akademık Milli Dram Teatrında yardım heyətinin aktyoru, truppa müdiri, özünün təşkil etdiyi muzeyin müdiri işləyib. 1985-ci ildə Azərbaycan Dövlət İncəsənət Institutunda pedaqoji fəaliyyətə başlayıb. Tədris Teatrının direktoru, aktyor sənəti fakültəsinin dekan müavini və dekanı vəzifələrində çalışıb. 2002-ci il dekabr ayının 22-dən Akademik Milli Dram Teatrının truppa müdiridir.

Məmmədşah Atayev tədqiqatçı alimdir. "Cəlil Məmmədquluzadənin dramları Azərbaycan səhnəsində" adlı dissertasiya müdafiə edərək sənətşünaslıq namizədi alimlik dərəcəsinə layiq görülüb. Həmin tədqiqatını və "Həsənağa Salayev" monoqrafıyasını kitab şəklində çap etdirib. Mədəniyyət və İncəsənət Universiteti üçün proqramlar, metodik vəsaitlər yazıb. Dövri mətbuatda teatrın müxtəlif problemlərinə, yeni tamaşalara, milli səhnə sənətimizin korifeylərinə aid silsilə məqalə, resenziya və oçerkləri çap olunub. Akademik Milli Dram Teatrında oynanılan əllidən çox tamaşada aktyor kimi iştirak edib.

## REJİSSORLAR



**Ağakişi KAZIMOV**
Quruluşçu rejissor, xalq artisti

Teatrda yaradıcılığa aktyor kimi başlayıb. Sonradan ali ixtisas təhsili keçərək rejissorluq etmiş, baş rejissor kimi Sumqayıt Dövlət Dram Teatrının və Gənc Tamaşaçılar Teatrının müəyyən inkişaf dövrlərində səmərəli xidmətləri olmuşdur.

Ağakişi Şəmməd oğlu Kazımov 28 iyun 1935-ci ildə Ağcabədi rayonunun Ağcabədi kəndində doğulub. Aktyorluq həvəsini onda anası Suğra xanım oyadıb. O, kəndin müxtəlif qadın və kişilərini koloritli tərzdə, baməzə hərəkətlərlə yamsılayar və heç kəs ondan inciməzdi. Suğra xanımın gözəl səsi və fitri aktyorluq qabiliyyəti, improvizə bacarığı olub. Bu Allah vergisi olan istedad sanki südlə Ağakişi Kazımova keçib.

O, Ağcabədi rayonunda Xəlfərəddin kənd orta məktəbini bitirib (1942-1952). Kamal attestatı alan ili Bakıya gələrək Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinə daxil olub. İnstitutun əyani şöbəsini fərqlənmə diplomu ilə bitirib və ali məktəbdə sənət müəllimləri Rza Təhmasib, Mehdi Məmmədov, Məhərrəm Haşımov olublar.

Səhnəyə ilk dəfə Milli Dram Teatrında 1952-ci ilin noyabrında Qaçaq (“Vaqif”, Səməd Vurğun) epizod rolunda çıxıb. Teatrın repertuarında olan “Şərqin səhəri” (Ənvər Məmmədxanlı), “Fərhad və Şirin”, “Xanlar” (Səməd Vurğun), “Namus” (Aleksandr Şirvanzadə) tamaşalarda sözsüz kiçik rollara, kütləvi səhnələrə daxil edilib. 1954-cü ilin yayında Milli Dram Teatrı İrəvan şəhərinə bir aylıq qastrola gedib. Tətildə olan Ağakişi də truppa ilə səfərə çıxıb və İrəvanda göstərilən Mirzə İbrahimovun “Həyat” dramının tamaşasında İkinci kolxozçu obrazı ilə ilk sözlü rolunu oynayıb.

Çalışqanlığı və bacarığı Akademik Teatrın bədii rəhbəri Ədil İsgəndərovun xoşuna gəldiyinə görə Ağakişi Kazımov 1955-ci il fevral ayının 1-də truppanın yardım heyətinə aktyor götürülüb, bir il sonra isə ştata keçib. 1957-ci ildə Əliheydər Ələkbərovun quruluşunda Cəfər Cabbarlının “Almaz” dramının tamaşasındakı Barat roluna görə Ümumittifaq Teatr Festivalının laureatı olub. Bu rolu 1959-cu ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti Dekadasında (ongünlüyündə) da uğurla oynayıb.

Bundan əlavə Akademik teatrın səhnəsində aktyor kimi çalışdığı illərdə Murad (“1905-ci ildə”, Cəfər Cabbarlı), Seniçka (“Özgə uşağı”, Vasili Şkvarkin), Ramiz (“Şeyx Sənan”, Hüseyn Cavid), Fərəc (“Şirvan gözəli”, Ənvər Məmmədxanlı), İran sərkərdəsi (“Fərhad və Şirin”, Səməd Vurğun), Gil (“Tufanlı il”, Aleksey Kapler), Zabit (“Otello”, Vilyam Şekspir), Qumarbaz (“Hind gözəli”, Viktor Vinnikov və Yuri Osnos), Sergey (“Daş qartal”, Pavel Malyarevski) rollarında çıxış edib.

1960-cı ilin əvvəllərində, fevral ayının 24-də işdən çıxıb. Mart ayının 1-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sərəncamı ilə Abbasqulu ağa Bakıxanov adına Quba Dövlət Dram Teatrına baş rejissor göndərilib. Burada üç ay ərzində Yusif Əzimzadənin “Aprel səhəri” (10 aprel 1960) və Aleksandr Şirvanzadənin “Namus” (17 iyun 1960) dramlarına səhnə quruluşu verib. Bu il teatr təzə mövsümə başlayan ərəfədə, sentyabrın 21-də Ədil İsgəndərov onu yenidən Akademik teatra aktyor dəvət edib. Ancaq oktyabr ayının 22-də gözlənilmədən və ədalətsiz şəkildə Ədil İsgəndərov bədii rəhbərlikdən və direktorluqdan, ümumiyyətlə isə teatrdan çıxarıldı və baş rejissorluğa Mehdi Məmmədov təyin olundu. Lakin nədənsə Mehdi Məmmədov öz tamaşalarında Ağakişi Kazımova aktyorluq yaradıcılığında təkamül və dönüş yarada biləcək rol tapşırmadı. O, Aleksis Parnisin “Gözəllik və sevgi adası” (26 aprel, 1961)

tamaşasında quruluşçu rejissor Tofiq Kazımova assistent oldu. Digər rejissorların hazırladıqları Cəfər Cabbarlının “Od gəlini” (İldırım), Mehdi Hüseynin “Alov” (Gümrah), Cabbar Məcnunbəyovun “Məhəbbətin hokum” (Levon), Süleyman Rüstəmin “Qaçaq Nəbi” (Vəli), Mirzə Fətəli Axundzadənin “Hacı Qara” (Murov), Hüseyn Cavidin “Səyavuş” (İkinci məmur) əsərlərinin tamaşalarında rollar oynadı. Ancaq həmin ifalar aktyorun parlaq nailiyyətinə çevrilə bilmədi.

1960-1964-cü illəri öz yaradıcılığının tərəddüdlü axtarış dövrü adlandıran Ağakişi Kazımov 1963-cü il noyabr ayının 25-dən Akademik teatrdan çıxıb. 1964-cü ilin 24 fevralında Azərbaycan Dövlət Filarmoniyasına bədii qiraət ustası ştatına götürülüb. 1964-cü ilin avqust ayında Leninqrad (indiki Sankt-Peterburq. - **İ.R.**) Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun əyani rejissorluq fakültəsinə daxil olub.

Bu qənaətə, gəlincə aktyor Qubadan əlavə, 1956-cı ildən 1960-cı ilə qədər Azərbaycan Dövlət Pedaqoji İnstitutundakı dram dərnəyinin və 1958-ci ildən 1964-cü ilə qədər Azərbaycan Dövlət Universitetinin “Gənclik teatrı”nın rəhbəri olmuşdu. Dram dərnəyində Fridrix Şillerin “Qaçaqlar” faciəsinə, Anton Çexovun “Ayı”, “Evlənmə” məsxərələrinə, “Gənclik teatrı”nda Nəcəf bəy Vəzirovun “Müsibəti Fəxrəddin və dərviş Məstəlişah”, Q.Stefanskinin “Şeytan əməli” əsərlərinə quruluşlar verib.

Leninqradda təhsilini başa vurarkən diplom işi ərəfəsində Kazanda Qalıəsgər Kamal adına Tatarıstan Dövlət Akademik Dram Teatrında Mar Bayciyevin “Duel” psixoloji dramını teatrın baş rejissoru Marsel Səlimcanovla birgə hazırlayıb. Premyera 1968-ci il dekabr ayının 8-də göstərilib. Diplom işi üçün isə Cəfər Cabbarlının “Aydın” (tatarcaya Əbdürrəhman Minski tərcümə edib) faciəsini seçib. “Aydın”ın ilk tamaşası 20 mart 1969-cu ildə oynanılıb. Diplomantın işi “əla” qiymət alıb.

Azərbaycana ali ixtisaslı rejissor diplomu ilə qayıdan Ağakişi Kazımovu Respublika Mədəniyyət Nazirliyi Sumqayıt Dövlət Dram Teatrına direktor göndərdi (25 dekabr 1969-25 dekabr 1970). 1971-ci il dekabrın 25-dən 1973-cü il martın 19-na kimi isə baş rejissor vəzifəsini daşıyıb. O, yenicə fəaliyyətə başlamış gənc teatr kollektivinin inkişafında, repertuarın formalaşmasında faydalı işlər gördü. Ağakişi Kazımov Azərbaycan Dövlət Musiqili Komediya Teatrında (22 sentyabr 1974-30 dekabr 1975), Gənc Tamaşaçılar Teatrında (30 dekabr 1975-

14 fevral 1983 və 20 aprel 1990-14 mart 2002) baş rejissor, Azərbaycan Dövlət Opera və Balet Teatrında (1 iyun 1973-22 noyabr 1974), Akademik Milli Dram Teatrında quruluşçu rejissor işləyib. Hazırda Akademik teatrda quruluşçu rejissordur.

Ağakişi Kazımovun Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrında quruluş verdiyi səhnə əsərləri.

**1969, 28 dekabr.** “Arvadımın əri”, Georgi Xuqayev. Tərcümə edəni Ağakişi Kazımov.

**1970, 16 may.** "Müsibəti Fəxrəddin”, Nəcəf bəy Vəzirov.

**1970, 7 iyul.** “Toy”, Sabit Rəhman.

**1971, 11 fevral.** “Gülməyən adam”, Əfqan.

**1971, 27 mart.** “Mənim məhəbbətim”, Adil Babayev.

**1972, 5 fevral.** “Elbrus evlənir”, Georgi Xuqayev. Tərcümə edəni Ağakişi Kazımov.

**1972, 13 may.** “Kəndimizin cavanları”, Əsgər Ələsgərov.

**1972, 20 iyul.** “Nonkanın məhəbbəti”, İvan Petrov. Tərcümə edəni Ağakişi Kazımov.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında hazırladığı operettalar və musiqili komediyalar.

**1975, 26 aprel.** “Təzə gəlin”, dramaturq Seyfəddin Dağlı və bəstəkar Cahangir Cahangirov.

**1975, 5 iyun.** “Arşın mal alan”, Üzeyir bəy Hacıbəyov (rus bölməsində).

**1975, 12 aprel.** “Xoşbəxtliyə gedən yol”, İsaak Dunayevski.

Azərbaycan Dövlət Akademik Dram Teatrında Ağakişi Kazımov lirik komediya, psixoloji dram, ictimai-sosial faciə, məişət pyesi janrlarında müxtəlif dramaturqların əsərlərinə səhnə təfsiri verib.

**1972, 27 mart.** “Darıxma, ana!”, Nodar Dumbadze. Tərcümə edəni Adil Babayev.

**1973, 8 aprel.** “Qəribə oğlan”, İlyas Əfəndiyev.

**1982, 26 mart.** “Mirzə Şəfi”, Nəbi Xəzri.

**1983, 17 sentyabr.** “Büllur sarayda”, İlyas Əfəndiyev.

**1983, 30 dekabr.** “Sehrli alma”, Yozef Lada. Tərcümə edəni Ağakişi Kazımov.

**1985, 26 yanvar**. “Çahargah fantaziyası”, Kərim Kərimov.

**1986, 13 aprel.** “Od gəlini”, Cəfər Cabbarlı.

**1986, 6 sentyabr.** “Vaqif”, Səməd Vurğun. (Ədil İsgəndərovun 5 oktyabr 1938-ci il quruluşunun bərpası).

**1998, 10 aprel.** “Özümüzü kəsən qılınc” (“Göytürklər”) Bəxtiyar Vahabzadə.

**2000, 10 iyul.** “Dar ağacı”, Bəxtiyar Vahabzadə.

Azərbaycan Dövlət Opera və Balet Teatrında iki milli musiqi əsərimizi yeni formada tamaşaçılara təqdim edib.

**1974, 27 aprel.** “Gəlin qayası”, Şəfıqə Axundova. Libretto müəllifləri Süleyman Rəhimov və İsgəndər Coşqun.

**1993, 21 aprel.** “Vaqif”, Ramiz Mustafayev. Librettonu Səməd Vurğunun eyniadlı pyesi əsasında Firudin Mehdiyev yazıb.

Ağakişi Kazımov Gənc Tamaşaçılar Teatrında uzun müddət baş rejissor işləyən sənətkarlardandır. Ən çox və ən müxtəlif janrlı tamaşaya da quruluşu məhz bu teatrda verib.

**1976, 27 may.** “Komsomol poeması”, İsgəndər Coşqun. Səməd Vurğunun eyniadlı poeması əsasında.

**1976, 30 aprel.** “Zoluşka”, Yevgeni Şvarts (rus bölməsində).

**1977, 26 iyun.** “Məhəbbət novellası”, Şamil Xurşud və Əşrəf Hacıyev.

**1978, 5 iyun.** “Məlik Məmməd”, Əyyub Abbasov.

**1978, 17 sentyabr.** "Hacı Qəmbər", Nəcəf bəy Vəzirov.
**1979, 24 fevral.** "Fırtınadan doğulmuşlar", İsgəndər Coşqun.
**1979, 25 sentyabr.** "Sirli dəyirman", Firuz Məmmədov.
**1980, 29 mart.** "Yaşasın Günəş", Kamal Aslanov.
**1980, 20 iyun.** "Kiçik torpaqda üç gün", Şamil Xurşud.
**1983, 26 iyun.** "Qar qız", Teymur Elçin.
**1990, 4 noyabr.** "Yazığam, sevmə məni", Əkrəm Əylisli.
**1991, 17 yanvar.** "Şəhidlər", Bəxtiyar Vahabzadə.
**1991, 19 sentyabr.** "Kiçik təpə", Nəbi Xəzri.
**1991, 20 dekabr.** "Müşfiq", Rafıq Hüseynov.
**1992, 23 yanvar.** "Bir parça Vətən", Fikrət Sadıq.
**1993, 19 dekabr.** "Səsin sehri", Tahir Kazımov.
**1994, 22 dekabr.** "Sevirdim, çox sevirdim", Hidayət.
**1995, 23 sentyabr.** "Ağ div, qara div", Əli Səmədli.
**1997 28 sentyabr.** "Şir qızı Luska", Vladimir Qusyev (rus bölməsində).
**1998 22 fevral.** "Dördüncü təcavüz olmayacaq", Miryusif Mirməmmədoğlu.
**1999, 7 mart.** "Təlxəyin nagılı", Fıruz Məmmədov.
**2000, 18 dekabr.** "Büllur sarayda", İlyas Əfəndiyev.
Cəfər Cabbarlı adına İrəvan Dövlət Dram Teatrında dörd tamaşa hazırlayıb.
**1978, 10 iyul.** "Qızıl zəncir", Şamil Xurşud.
**1981, 14 may.** "Məni qınamayın", Hidayət Orucov.
**1983, 14 noyabr.** "Əks-səda", Nəbi Xəzri.
**1982, 31 may.** "Məhəbbət yaşadır" ("Ömür gözləyir bizi"), Nahid Hacızadə.

Ağakişi Kazımov, həmçinin Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Şaleva Rokvanın "Yaşıl papaq" (Tərcümə edəni Vaqif Əlixanov. 20 noyabr 1982), Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında Jan Batist Molyerin "Tartüf" (tərcümə edəni Rəman Əlizadə. 5 sentyabr 1984), Köln-Düseldorf Almaniya Türk Dövlət Teatrında Üzeyir bəy Hacıbəyovun "Arşın mal alan" (10 iyul 1999), Bəxtiyar Vahabzadənin "İkinci səs" (23 dekabr 1999) əsərlərini tamaşaya hazırlayıb.

"Azərbaycanfılm"in "Bəri bax" studiyasında çəkilən "Yük" bədii fılmində Hacı Zeynalabdin Tağıyev rolunu oynayıb.

1977-ci ildən bugünkü Mədəniyyət və İncəsənət Universitetində aktyor və rejissor sənətindən dərs deyən Ağakişi Kazımov 18 iyun 2001-ci ildən bu ali məktəbin professorudur.

Qazandığı sənət uğurlarına görə 20 mart 1987-ci ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, 28 oktyabr 2000-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.

Ağakişi Kazımov bir rejissor kimi, adətən məşqlər başlanana qədər əsər üzərində çox işləyir. Obrazların konsepsiyasını tam qavramaqda aktyorlara kömək edir. Yaradıcılığında psixoloji monumental pyeslərə üstünlük verir. Tamaşanın ideyasına uyğun ansamblı toplamaq məqsədilə rol bölgüsənə xüsusi diqqətlə yanaşır. Rəssam və bəstəkarla əlaqəli işləməyi əhəmiyyətli hesab edir.



**Azər Paşa NEMƏT**
Quruluşçu rejissor, xalq artisti

Teatr tamaşası üçün başlıca üçbucaq dramaturq (pyes), aktyor və rejissor (üstəgəl rəssam və bəstəkar) həmrəy yaradıcılığıdır. Böyük istedad sahibi, dünyanın bir sıra ölkələrində tanınmış rejissor Azər Paşa Nemət (Nemətov) istisnasız olaraq hazırladığı bütün tamaşaların müəllif hüququnu qazandığı üçün o, həmin üçbucağın "dördüncü" bucağını da ləyaqətlə təmsil edir.

Azər Paşa Azərbaycanın görkəmli rejissoru, ömrünün sonuna qədər Gənc Tamaşaçılar Teatrında işləmiş Zəfər Nemətovun oğludur. O, 13 avqust 1947-ci ildə Bakıda doğulub. Güclü musiqi duyumu olan Azər Paşa Bülbül adına orta musiqi məktəbində oxuyub (1953-1964) və bir il Azərbaycan Dövlət Konservatoriyasında təhsil alıb. Qara Qarayevin sinfində oxuyan və hətta bir neçə mahnı bəstələmiş Azər Paşa 1965-ci ildə teatr institutuna imtahan verib və rejissorluq fakültəsinə qəbulda uğur qazanıb. Atasının dostu, məşhur rejissor Mehdi Məmmədovun kursunu bitirərək iki il sonra onun yanında assistent-müəllim işləyib. Diplom işi "Qardaşım klarnet çalır" (A.Aleksin, Robert Rojdestvenski və Oleq Feltsman) Gənc Tamaşaçılar Teatrının (GTT) rus bölməsində göstərilib. 1972-ci ildə GTT-də əvvəl rejissor assistenti, sonra quruluşçu rejissor işləyən Azər Paşa arada Leninqradın (indiki Sankt-Peterbruq - **İ.R.**) eyni tipli teatrında çalışıb (1974-1977). Gənc yaşlarından şöhrət qazanan Azər Paşa 1977-ci ildə Bakıya qayıdaraq GTT-də rejissor və baş rejissor (1983-1990) işləyib.

1990-cı il aprel ayının 20-dən Akademik Milli Dram Teatrının quruluşçu rejissorudur. 1991 və 1996-cı illərdə isə Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri seçilib. Andrey Popov adına SSRİ ümumittifaq müsabiqəsinin laureatıdır (1985). Respublikanın əməkdar incəsənət xadimi (20 mart 1987) Azər Paşanın tamaşaları İstambulda, Aşqabadda, Moskvada keçirilmiş festival və müsabiqələrdə uğur qazanıb.

Sankt-Peterburqda GTT-də Maqsud Ibrahimbəyovun "Bütün yaxşılıqlar üçün ölüm", Bertolt Brextin "Üçüncü imperiyanın iflası" Arxangelsk Dövlət Teatrında Rüstəm İbrahimbəyovun "Qum üzərində ev", Tallin GTT-də Yakovlevin "Qızım Nyusa", Anarın "Şəhərin yay günləri", Kamal Aslanovun "Yuxulama" (bunu Bakıda da hazırlayıb), Rüstəm İbrahimbəyovun "Kabinet tarixçəsi" pyeslərini tamaşaya hazırlayıb. Tiflisdə və İrəvanda quruluşlar verib. Bununla belə Azər Paşa Nemətovun yaradıcılığının əsas müdriklik mərhələləri milli teatrımızla bağlıdır.

Rejissor Bakıdakı GTT-nin rus bölməsində Yevgeni Şvartsın "İki ağcaqayın" (1973), K.Meşkovun "Pin və Qvin" (1974), Y.Mitkovun "Bumbaraş" (1977), V.Tendryakovun "Buraxılış gecəsindən sonrakı gecə" (1978), Ş.Totun "Necəsən, cavan oğlan?", Anarın "Keçən ilin son gecəsi" (1979), Aleksey Tolstoyun "Buratinonun səfehlər ölkəsində macəraları" (1980), Aleksandr Ostrovskinin "Öz adamımızdır, düzəlişərik" (1982), Kiplinqin "Oz kefinə gəzən pişik", Rüstəm İbrahimbəyovun "Təmas" (1983), Beqalinin "On üç yaşına keçən oğlan", Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəlişah" (1984), Valentin  Zoşşenkonun "Şapkinin sərsəm günü", S.Prokofyeva və Tokmakovanın "Xaçlar və sıfırlar" (1985), Karlo Qotsinin "Yellər üzərində nəğməli külək" (1987) pyeslərini tamaşaya hazırlayıb. Azərbaycan bölməsində isə Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin məktəbi" (1983), Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəlişah", Çingiz Aytmatovun "Fudzi dağında qonaqlıq" (1984), İsgəndər Coşğunun "Komissarlar", Rəhman Əlizadənin "Sabah çoxdan başlanıb" (1987), Kamal Aslanovun "Yuxulama" (1989) dramlarının tamaşalarına əlvan janr quruluşlar verıb.

Akademik Milli Dram Teatrında onun quruluşunda Rüstəm İbrahimbəyovun "Biganələr oteli" (1984), Arif Süleymanovun "Tufandan əvvəl" (1987), Elçinin "Ah, Paris... Paris!.." (1997), "Mənim sevimli dəlim" (1998), "Diaqnoz "D" " ("Mənim ərim dəlidir", 1999) tamaşaları oynanılır. Rejissorun hələlik son işi Şekspirin "Hamlet" faciəsi olub. O, bu tamaşanı 2002-ci il martın 27 təhvil verib. "Hamlet" Akademik teatrın tarixində, bütövlükdə Azərbaycan Şekspirianasının salnaməsində parlaq sənət qələbəsidir.

Azər Paşa Nemətovun yaradıcılığında musiqi janrı karnaval estetikası ilə meydan teatrının oyun estetikasına əsaslanır. Rejssor bu janrda hazırladığı tamaşalarında kompozisiya bütövlüyünə əsasən improvizə ilə nail olur. Şuxluq, əlvanlıq, musiqi ilə sözün harmoniyası, əyləncə elementləri həmin tamaşaların əsasında durur. Bu baxımdan "Bumbaraş", "Necəsən, cavan oğlan?" tamaşalarını xatırlamaq kifayətdir.

İtalyanların komediya "del arte" xalq tamaşaları estetikasında Azərbaycanda ən uğurlu tamaşanı Azər Paşa hazırlayıb. Həmin tamaşa "Yelkənlər üzərində nəğməli külək"dir.

Novator rejissor kimi psixoloji dramatizmlə açıq publisistikanı lirik ahəngdə qovuşdurur. Öz tamaşalarında hay-küylü pafosdan, çılpaq didaktikadan cəsarətlə imtina edir.

Onun hazırladığı, janrından asılı olaraq, hər tamaşanın özünün məxsusi ritm ahəngi var. İctimai-siyasi problemli pyeslərin tamaşasında ləngərli ahəng tapılan ritmin əsas tənzimləyicisidir. Mənəvi-əxlaqi problemlərin səhnə təfsirində kövrək, bir qədər lirik, ancaq dinamik ritm üstündür. Sosial-məişət məsələlər ön hadisələrdə dominantlıq təşkil edən tamaşalarda Azər Paşa ziqzaqlı, qabarıb-çəkilən ritmə rəvac verilir.

Azər Paşanın tamaşalarında fəlsəfi fıkir müəyyən məsafə ayrılığında üz-üzə qoyulmuş aynaya bənzəyir. Həmin aynalarda perspektiv məkan müxtəlif ölçülərdə necə əks olunursa, rejissorun tamaşalarının fikir dərinliyinə açar tapdıqca üzümüzə yeni-yeni məna qapıları açılır.

Azər Paşanın tamaşalarında rejissorun fəlsəfı fıkri söz, hərəkət, musiqi və səhnə tərtibatının bədii həlli arasında ahəngdar tərzdə paylanır.

Azər Paşa Nemət aktyorlara axtarış sərbəstliyi verən rejissordur. Ancaq şöhrətli aktyorun belə oyununda professionallığa xidtmət etməyən ən cazibəli ifadə vasitələrinə də səhnədə yol vermir.

Quruluşları geniş nəfəslidir, tamaşaçıları darıxdırmır, səhnə cazibəsi baxımından həmişə təravətlidir, psixoloji ovqatı çağdaş ruhludur.

Azər paşa Nemət oz quruluşlarında çagdaş dunya modern teatr estetikasının milli teatr düşüncəsi ilə sintezinə möhtəşəmliklə nail olur.

Paradoksal psixoloji situasiyaları qabarıq verməklə özünün rejissor ideyalarını aktyorların ifadəli oyunlarında həll edir.

Funksional səhnəqrafıyanın imkanlarından cəsarətlə istifadə etməklə onu mürəkkəb, dolğun, estetik obraz kimi tamaşanın əsasına çevirir.



**Mərahim FƏRZƏLİBƏYOV**
Quruluşçu rejissor, xalq artisti

Yaradıcılıq bioqrafıyasında altmışa yaxın tamaşa var. Geniş fantaziyalı rejissordur. Əlvan kompozisiyalar qurmaqda məxsusi səriştəsi var. Janr əlvanlığına meyli güclüdür və buna görə də mövzuca biri-birindən fərqli, təzadlı süjet, kompozisiya, konflikt, ideya qurumlu pyeslərə müraciət edir.

Mərahim Fərzəli oğlu Fərzəlibəyov 26 iyun 1949-cu ildə Bakıda doğulub. Şəhərdəki 56 saylı orta məktəbi bitirib. Səhnəyə onuncu sinifdən maraq göstərib. 26-lar adına Mədəniyyət sarayının xalq teatrında hazırlanan tamaşalarda epizod rollar oynayıb. Ancaq əsasən rejissor sənətinə maraq göstərib. Orta məktəbi bitırəndən sonra Azərbaycan Respublikası Jurnalistlər İttifaqının yaradıcılıq fotostudiyasında şagird-lobarant, Suraxanı rayon mədəniyyət evində kinomexanik köməkçisi, 26-lar Mədəniyyət sarayında pioner "Şəfəq" dram dərnəyinin rəhbəri işləyib.

Az və həvəskar səviyyəsində olsa da müəyyən təcrübə toplayan Mərahim Fərzəlibəyov ali təhsil almaq üçün Leninqrada (indiki Sankt-Peterburq şəhəri) gedib. Burada Dövlət Teatr, Musiqi Kinematoqrafıya İnstitutunun rejissorluq fakültəsinə daxil olub. İxtisas müəllimi dünya şöhrətli rejissor, SSRİ xalq artisti, professor Georgi Tovstonoqovdan beş il (1970-1975) seçdiyi ixtisasın incəliklərini öyrənib. Diplom işi kimi Azərbaycan Dövlət Musiqili Komediya Teatrının rus bölməsində dramaturq Maykl Stüartın Bəstəkar Cerri Germanın "Hello Doli" müzikl-operettasını tamaşaya hazırlayıb. Bundan sonra isə bütün yaradıcılığı boyu bir daha operetta janrına müraciət etməyib, yalnız dram teatrında tamaşalar hazırlayıb.

İnstitutda təhsilini başa vuranda Mərahim Fərzəlibəyovun təyinatını Çeçenistan Muxtar Respublikasının paytaxtı Qroznı şəhərindəki Mixail Lermontov adına Dövlət Rus Dram Teatrına veriblər. O, mövcud təyinat qaydasına əsasən iki il bu teatrda quruluşçu rejissor işləyib (16 noyabr 1975 - 18 avqust 1977). Bu təcrübəli kollektivdə Tennessi Uilyamsin "Arzu tramvayı" dramına, Jan Batist Molyerin "Tartüf" komediyasına, Boris Vasilyevin "Qış gecəsinin nağılı" pyesinə, Alla Sokolovanın "Faryatevin fantaziyası" psixoloji tragikomediyasına, Yevgeni Sefip və Nikolay Novitskinin "Yegelyanın səadəti", uşaqlar üçün Sergey Mixalkovun "Lovğa dovşan" nağılına maraqlı səhnə quruluşları verib.

Mərahim Fərzəlibəyov Sumqayıt Dövlət Dram Teatrında baş rejissor (1 noyabr 1977-9 mart 1981) işlədiyi illərdə gənc kollektivin yaradıcılıq işlərində, janr və üslub axtarışlarında səmərəli reformalar apara bilib. Bu teatra özü ilə bərabər yeni janrlar, təzə və orijinal kompozisiya, dil-ifadə, bədii təfsir prinsipləri gətirib. Dörd il ərzində sənət ocağının repertuar quruluşuna əlvanlıq, canlılıq, mövzu rəngarəngliyi verə bilib. Bir sıra aktyorun "gizli" yaradıcılıq imkanlarının genişliyi, məlahət və cazibəsi xarakterik səciyyələri məhz Mərahim Fərzəlibəyovun Sumqayıt teatrında bıtkin quruluşlar verdiyi aşağıdakı tamaşalarda açılıb.

**1977, 22 noyabr.** "Poladəridənlər", Gennadi Bokarev. Tərcümə edəni Mahmud Allahverdiyev.

**1977, 7 dekabr.** "Sərbəst mövzu", Aleksandr Çxaidze. Tərcümə edəni Rafiq Atakişiyev.

**1977, 17 dekabr.** "Mən nənəyə evlənirəm", Hüseyn Muxtarov. Tərcümə edəni İnqilab Kərimov.

**1977, 30 dekabr.** "Lovğa dovşan", Sergey Mixalkov. Tərcümə edəni Mərahim Fərzəlibəyov (həm Azərbaycan, həm də rus dillərində).

**1978, 16 fevral.** "Məktub", Panço Pançev. (Rejissor Salman Dadaşovla birlikdə). Tərcümə edəni Teymur Elçin.

**1978, 22 aprel.** "Maskarad", Mixail Lermontov. Tərcümə edəni Rəsul Rza.

**1978, 31 may.** "Vəfalı Səriyyə", Cəfər Cabbarlı.

**1978, 18 noyabr.** "İlahi komediya", İsidor Ştok. Tərcümə edəni Anar.

**1979, 13 mart.** "Mehrişah", Oqtay Məmmədov.

**1979, 16 may.** "Toy şənbə günü olacaq", Maksim Kərimov Tərcümə edəni İshaq İbrahimov.

**1980, 22 mart.** "Ayıl, bax bu dünyaya", Hacıbaba Nəzərli.

**1980, 27 iyun.** "Muradın kələkləri", Tofıq Kazımov.

**1981, 23 fevral.** "Bütün Şərq bilsin", Nəriman Həsənzadə.

**1986, 22 mart.** "Mənim arxalandığım", Nəbi Xəzri.

Sumqayıt teatrında "Bütün Şərq bilsin" tamaşasına quruluş verəndən on altı gün sonra Mərahim Fərzəlibəyov Respublika Mədəniyyət Nazirliyinin əmri ilə Akademik Milli Dram Teatrına rejissor təyin olunub (9 mart 1981). Kollektivin məhsuldar rejissorlarından biri kimi əsasən çağdaş dramaturqlarımızın, həmçinin dünya klassiklərinin əsərlərinə müxtəlif janrlarda səhnə quruluşları verib.

**1981, 2 sentyabr.** "Xurşid banu Natəvan", İlyas Əfəndiyev.

**1981, 19 noyabr.** “Maqbet”, Vilyam Şekspir. Tərcümə edəni Abdulla Şaiq.

**1982, 15 may.** “Sizi deyib gəlmişəm...”, Anar.

**1982, 31 may.** Kiçik səhnədə. “Medeya”, Jan Anuy. Tərcümə edəni Natiq Səfərov.

**1982, 30 dekabr.** “Közərən ocaqlar”, Mirzə İbrahimov.

**1983, 24 dekabr.** “Atabəylər”, Nəriman Həsənzadə.

**1984, 15 sentyabr.** “Qarabağ əfsanəsi”, Qeybulla Rəsulov.

**1985, 30 mart.** “Torpağa sancılan qılınc”, Nəbi Xəzri.

**1985, 12 oktyabr.** “Təhminə və Zaur”, Anar.

**1986, 30 dekabr.** “Şeyx Xiyabani”, İlyas Əfəndiyev.

**1987, 10 sentyabr.** “Mənsiz dünya” Nəbi Xəzri.

**1988, 9 aprel.** “Bizim qəribə taleyimiz”, İlyas Əfəndiyev.

**1988, 6 noyabr.** “Qadın faciəsi”, Qarsia Lorka. Tərcümə edəni Teymur Elçin.

**1989, 21 aprel.** “Sevgililərin cəhənnəmdə vüsalı”, İlyas Əfəndiyev.

**1989, 30 sentyabr**. “Gecə döyülən qapılar”, Nəbi Xəzri.

**I99l, 26 fevral.** “Yalan”, Sabit Rəhman.

**199l, 6 mart**. “Tənha iydə ağacı”, İlyas Əfəndiyev.

**1991, 24 dekabr.** “Dişi canavar”, Qarsia Lorka. Tərcümə edəni Teymur Elçin.

**1992, 30 iyun.** “Ox qadınlar, qadınlar”, Marat Haqverdıyev.

**1992, 9 noyabr**. “Dəlilər və ağıllılar”, İlyas Əfəndiyev.

**1993, 24 may.** “Qısqanc ürəklər”. Marat Haqverdiyev.

**1995, 8 aprel.** “Dindirir əsr bizi...”, Davud Aslan.

**1996, 15 dekabr**. “Hökmdar və qızı”, İlyas Əfəndiyev.

**1999, 9 aprel.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov. Tərcümə edəni Dilsuz Mustafayev.

**2000, 14 may.** “Bu dünyanın adamları”, Hidayət Orucov.

**2002, 7 iyul.** “Fedra” Jan Rasin. Tərcümə edəni Rafıq Rəhimli.

**2002, 14 dekabr.** “Hərənin öz payı”, Xeyrəddin Qoca.

Rejissor Mərahim Fərzəlibəyov dəvətlə Naxçıvan Dövlət Musiqili Dram Teatrında Nəriman Həsənzadənin “Pompeyin Qafqaza yürüşü” və “Atabəylər”, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Marat Haqverdiyevin “Məhəbbət, şeytan və lambada” (8 iyun 1991) və “Ləyaqət” (19 mart 1982) pyeslərini tamaşaya hazırlayıb. 1980-ci illərin əvvəllərində Cəfər Cabbarlı adına “Azərbaycanfılm” kinostudiyasının nəzdində Kino-Aktyor Teatrı truppası fəaliyyət göstərirdi. Həmin kollektiv Mərahim Fərzəlibəyovun quruluşunda Məmməd Muradın “Təkan” (“Köksüz budaqlar”), Tofıq Kazımovun tərcüməsində Qarsia Lorkanın “Qanlı toy”, Qeybulla Rəsulovun çevirməsində Aleksandr Nikiti “Abşeronda bir gecə” pyeslərinin tamaşalarını oynayıb.

Teatr sənətinin inkişafında göstərdiyi xidmətlərə, rejissorluqda qazandığı nailiyyətlərə görə Mərahim Fərzəlibəyov 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 28 oktyabr 2000-ci ildə isə xalq artisti fəxri adları ilə təltif olunub.



**Əsgər ƏSGƏROV**
**Quruluşçu rejissor**

Rejissurada avanqard teatr prinsiplərinə üstüniük verir. Psixoloji və fəlsəfi düşüncə tərzinin estetik səhnə ekvivalentinin bədii təcəssümünü toplamaq üçün maraqlı üslub keyfıyyətlərinə qadirdir. Müxtəlif janr səciyyələrini ahəngdar harmoniyada qabarıq nəzərə çarpdırmaqda səriştəlidir.

Əsgər Əkbər oğlu Əsgərov 19 iyun 1961-ci ildə Naxçıvan şəhərində doğulub. Buradakı 3 saylı rus orta məktəbini 1978-ci ildə bitirib və paralel olaraq yeddiillik musiqi məktəbində təhsil alıb. Bir il tikintidə fəhlə işləyib. Məhəbbət və həvəslə 1979-cu ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Görkəmli aktyor, xalq artisti Həsən Turabovun kursunu bitirərək təyinatla Naxçıvan Muxtar Respublikasında Dövlət Musiqili Dram Teatrına aktyor göndərilib və 26 avqust 1983-cü ildə truppaya ştata götürülüb. 1984-cü ilin mayından 1985-ci ilin dekabrına qədər hərbi xidmətdə olub.

Hərbi xidmətini başa vurub Naxçıvana qayıdan Əsgər Əsgərov Muxtar Respublikanın Dövlət Televiziya və Radio Komitəsində rejissor işləməyə başlayıb (2 aprel 1986). Orada bir neçə tamaşa hazırlayıb. Rejissor sənətində müəyyən səriştə qazanan Əsgər Əsgərov 29 sentyabr 1987-ci ildə Naxçıvan teatrına rejissor assistenti götürülüb. 1988-ci ilin sonlarından 1989-cu ilin əvvəllərinə qədər Moskvada Mayakovski adına Akademik Dram Teatrının baş rejissoru, iyirminci əsrin dühalarından sayılan Aleksandr Qonçarovun yanında  üç ay təcrübə keçib. Naxçıvana qayıdaraq 9 fevral 1989-cu ildə teatra baş rejissor təyin olunub. Burada ondan çox müxtəlif janrlı əsərə səhnə quruluşu verib və “Şadlıq sorağında” (Fyodor Savin), “Qəribə adam” (Əhməd Rza), “Aydın” (Dövlət bəy), başqa rejissorların hazırladıqları bədii kompozisiya kimi qurulmuş “Yenə o bağ olaydı” (Müşfıq), Yucin ONilin “Qarağaclar altinda məhəbbət” (Ebin Kebot) tamaşalarında özü də rollar oynayib.

Əsgər Əsgərovun Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında hazırladığı tamaşalar.

**1998, 10 nıart.** “Zoopark əhvalatı”, Edvard Olbi. Tərcümə edəni Yusif Əliyev.

**1989, 29 iyun.** “Qəribə adam”, Nazim Hikmət. Tərcümə edəni İslam İbrahimov.

**1989, 14 dekabr**. “Aydın”, Cəfər Cabbarlı.

**1990, 27 may.** “Ordan-burdan”, Üzeyir bəy Hacıbəyovun felyetonları əsasında səhnələşdirəni Əsgər Əsgərov.

**1991, 18 yanvar.** “Şəhidlər”, Rafıq Səməndər.

**1991, 25 iyun.** “Xeyir və Şər”, İslam Səfərli.

**1992, 29 iyul**. “Ölən adam”, Əziz Nesinin “Taxtalı köydən məktublar povesti əsasında səhnələşdirəni Əsgər Əsgərov.

**1993, 6 may.** “O olmasın, bu olsun” (“Məşədi İbad”), Üzeyir bəy Hacıbəyov.

**1993, 26 iyul.** “Arvadımın əri”, Georgi Xuqayev. Tərcümə edəni Ağakişi Kazımov.

**1994, 15 may.** “Arşın mal alan”, Üzeyir bəy Hacıbəyov.

**1995, 18 fevral.** “Əlincədən uçan qartal”, Həsən Fətullayev.

**1995, 20 mart.** “Anekdot, anekdot, anekdot”, səhnələşdirəni Əsgər Əsgərov.

**1995, 25 dekabr.** “Pəmbeyi-daği-cünun...”, Məhəmməd Füzulinin qəzəlləri əsasında səhnələşdirəni Əsgər Əsgərov.

Bacarıqlı rejissor Əsgər Əsgərov 1 aprel 1996-cı ildə Akademik Milli Dram Teatrına rejissor assistenti götürülüb. 1 oktyabr 2001-ci ildən bu qocaman kollektivdə quruluşçu rejissordur. Onun Akademik teatrda hazırladığı tamaşaların il ardıcıllığı ilə siyahısı belədir.

**1998, 26 aprel.** “Şadlıq sorağında”, Viktor Rozov. Tərcümə edənləri Vidadi Həsənov və Əsgər Əsgərov.

**1999, 18 iyun**. “Burla xatun”, Nəbi Xəzri. (Rejissor Vaqif Əsədovla birgə hazırlayıb).

**2000, 29 yanvar**. “Hərdən mənə mələk də deyirlər...”, Kamal Abdulla.

**2003, 8 yanvar.** “Skapenin kələkləri”, Jan Batist Molyer. Tərcümə edəni Elçin.

Naxçıvan teatrında uğurlu sənət addımları atmış Əsgər Əsgərov Akademik Milli Dram Teatrında öz üslubunu hələ təsdiqləməsə də, burada hazırladığı tamaşalarla maraqlı və perspektivli rejissor düşüncəsi olduğunu göstərə bilib.



**Bəhram OSMANOV**
**Quruluşçu rejissor**

Rejissor kimi yaradıcılığının əsas estetik səciyyəsini orijinal və təkrarsız, yeni və çağdaş ruhlu janr axtarışları təşkil edir. Monumental, ancaq realist zəminli formalar tapmaqda səriştəlidir. Müxtəlif yaradıcılıq üslublu dramaturqların əsərlərində müasirlik ideyaları axtaranda romantizmə psixoloji və fəlsəfi teatr estetik prinsipləri ilə yanaşa bilir. Obrazlı ifadə vasitələrinə üstünlük verir və bunu paralel, kəsişən, genişmiqyaslı, sərt çarpazlaşan səhnə mizanlarında xüsusi məharətlə təcəssüm etdirir.

Epik teatr elementləri Bəhram Osmanovun quruluş verdiyi klassik tərcümə əsərlərində (məsələn, Sofoklun "Şah Edip" faciəsi) psixoloji teatrın lirik və emosional fikir yozumu, fəlsəfi teatrın idraki qənaətləri, bəşəri duyğuların məfkurəvi aydınlığı ilə harmoniya, musiqili ahəngdarlıq kəsb edir. Öz tamaşalarında əvvəlcə əsərin kompozisiya obrazını və konfliktin, hadisələrin ritm ahəngini, tərtibat və musiqidə fəlsəfi mahiyyətini tapır, qənaətlərini dəqiqləşdirir və yalnız bundan sonra səhnədə rejissor eksperimentlərinə başlayır. Bir rejissor kimi aktyor tamaşaları qurmağa üstünlük verir.

Bəhrəm Məcid oğlu Osmanov 1 oktyabr 1962-ci ildə Gəncədə doğulub. Buradakı 27 saylı orta məktəbi bitirib və iki il Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olmaq cəhdi baş tutmayıb. Gəncə Dövlət Dram Teatrında aktyor işləyib, xeyli səhnə təcrübəsi toplayıb. Teatrda Cəlal ("Komsomol poeması", İsgəndər Coşqun), Tofiq ("Kişilər", Altay Məmmədov), Qəbula gələn adam ("İnqilabi etüd", Mixail Şatrov). Yavər ("Molla Nəsrəddinin zarafatı", Əli Səmədli), Nəvə ("Bənövşələr açılanda", Arşavir Darbni) obrazlarını və bir sıra

tərcümə əsərlərində tipik epizod surətlərini, aparıcı mürəkkəb rolları oynayıb. Aktyor kimi çalışsa da daha çox rejissor sənətinə meyl göstərib.

1980-ci ildə İncəsənət institutunun rejissorluq fakültəsinə daxiI olub. İstedad və bacarığı ilk kursdan institutun səriştəli sənət müəllimlərinin diqqətini cəlb edib və ona Tədris teatrında tamaşalar hazırlamağa şərait yaradıblar. O, burada tələbə aktyorlarla Aleksey Arbuzovun "Köhnə dəbli komediya", Qriqori Qorinin "Herostratı unudun", Fridrix Şillerin "Qaçaqlar", Konstantin Simonovun "Dördüncülər", Cəfər Cabbarlının "Aydın", Aleksandr Gelmanın "Skamya", Vasili Şukşinin "Diribaş adamlar" pyeslərini tamaşaya hazırlayıb.

Bəhram Osmanov 1985-ci ildə diplom işi üçün Amerika dramaturqu Tennessi Uilyamsın "Şüşəli heyvanxana" əsərini seçib. Bu pyesi Akademik Milli Dram Teatrının Kiçik səhnəsində tamaşaya hazırlayıb və əsərdə baş rolu SSRİ xalq artisti Hökümə xanım Qurbanova ifa edib. Bundan sonra o, bir müddət işsiz qalmış, hərbi xidmətə çağırılmışdır. Qayıtdıqdan sonra Milli Dram Teatrının direktoru Həsən Turabovun təşəbbüsü ilə 6 sentyabr 1987-ci ildə qocaman kollektivə rejissor götürülmüşdür. Hazırda teatrın quruluşçu rejissor ştatındadır.

Müasir teatr estetikasını dərindən duyan, truppanın bədii yaradıcılıq imkanlarını düzgün və qətiyyətlə duyub öz tamaşasında təcəssüm etdirə bilən Bəhram Osmanov Azərbaycanın bir sıra teatrlarında dəvətlə tamaşalar hazırlayıb. Onun Cəfər Cabbarı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında quruluş verdiyı əsərlər.

**2000, 12 noyabr.** "Yalan", Sabit Rəhman.

**2000, 22 dekabr.** "Əsgər anası", Ağarəhim Rəhimov.

**2002, 14 mart.** "İşıq tozu", İmir Məmmədli.

**2002, 14 noyabr.** "Qum üstündə ev", Rüstəm İbrahimbəyov.

Bundan əlavə istedadlı rejissor Füzuli Dövlət Dram TeatrındaVasili Şirşinin "Diribaş adamlar" (30 avqust 1990), Seyran Səxavətin "Qapıların o üzündə qalan dünya" (11 sentyabr 1990), Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Əli Əmirlinin "Cəza" (24 noyabr 1992), Gəncə Dövlət Dram Teatrında Ramiz Novruzovun (Ramiz Novruz) "At ilinin birinci ayı" (22 sentyabr 1991), Lənkəran Dövlət Dram Teatrında Anton Tammssarenin "Yudif" (14 iyun 1993), Aleksandr Ostrovskinin "Günahsız müqəssirlər" (22 iyul 1993), Tamara Vəliyevanın "Mənim ağ göyərçinim" (20 fevral 2001) pyeslərinə səhnə quruluşu verib.

"Azərbaycanfilm"in nəzdindəki "Debüt" eksperimental studiyasında Cəlil Məmmədquluzadənin "Lal" hekayəsi əsasında Eldəniz Quliyevin yazdığı eyniadlı ssenari əsasında qısametrajlı bədii film çəkib.

Azərbaycan Dövlət Televiziyasında Anton Çexovun "Altı nömrəli palata", Fyodor Dostayevskinin "Bəyaz gecələr", Elçin Mehrəliyevin "Yurd yeri", Şahin Səfərovun "Qu quşunun məhəbbəti" əsərləri əsasında televiziya tamaşaları hazırlayıb. Bunların hamısı televiziyanın daimi fondunda kamil sənət əsərləri kimi qorunub-saxlanılır.

Bəhram Osmanov bədii-estetik cəhətdən sanballı, formaca əlvan, məzmunca bəşəri xarakterli, kompozisiya baxışından bitkin tamaşalar hazırlayır.

**1985, 2 iyun.** Kiçik səhnədə. “Şüşə heyvanxana”, Tennessi Uilyams. Tərcümə edəni İslam İbrahimov.

**1988, 7 may.** “Qızıl teşt”, Seyran Səxavət.

**1991, 30 sentyabr.** “Hara gedir bu dünya?”, Bəxtiyar Vahabzadə.

**1994, 26 dekabr.** “Qarağaclar altında məhəbbət”, Yucin ONıl. Tərcümə edəni Bəhram Osmanov.

**1995, 18 may.** “Ana intiqamı”, Vidadi Babanlı.

**1995, 12 dekabr.** “Ağqoyunlular və Qaraqoyunlular”, Əli Əmirli.

**1996, 7 may.** “Kral Lir”, Vilyam Şekspir. İngiliscədən tərcümə edəni Sabir Mustafa.

**1997, 28 noyabr.** “Pompeyin Qafqaza yürüşü”, Nəriman Həsənzadə.

**1999, 3 aprel.** “Şah Edip” (“Şah Edip, yaxud alın yazısı”), Sokofl. Tərcümə edəni Rafiq Rəhimli.

**1999, 17 dekabr.** “Köhnə ev”, Əli Əmirli.

**2000, 25 fevral.** “Ulduz, yaxud Ədirnə fəthi». Cəfər Cabbarlı. (Ədibin “Trablis müharibəsi” və “Ədirnə fəthi” pyesləri əsasında).

**2000, 11 iyun.** “Cəzasız günah”, Bəxtiyar Vahabzadə.

**2001, 1 noyabr.** “Hələ “sevirəm” deməmişdilər...”, Ramiz Novruz.

**2002, 18 may.** “Kəllə”, Nazim Hikmət, Tərcümə edəni, İslam İbrahimov.

**2002, 8 oktyabr.** Səhnənin özündə. “Cinayət oyunu”. Fyodr Dostayevskinin “Cinayət və cəza” romanı əsasında səhnələşdirəni Bəhram Osmanov.

**2003, 7 mart,** “Varlı qadın”, Əli Əmirli.

Çox gənc yaşlarından populyarlıq qazanmış Bəhram Osmanov Səhnə düşüncə tərzinin çoxqatlılığı, fəlsəfi dərinliyi ilə seçilir. O, intim, psixoloji, lirik psixoloji üslubun estetik prinsipləri əsasında parlaq tamaşalar yaradıb. Tamaşalarında aktyor oyununu önə çəkir.

Bəhram Osmanovun rejissurası dərin psixologizmi, cazibəli kompozisiya qurumu, aktyor ansamblının bütövlüyü ilə daha çox yadda qalır.



**Mehriban ƏLƏKBƏRZADƏ**
**Quruluşçu rejissor**

Quruluş verdiyi tamaşalarda çağdaş avanqard teatr estetikasının prinsiplərindən orijinal tərzdə bəhrələnə bilir. Psixoji özüllü janrlara üstünlük verir. Son illər "Space" özəl telekanalında müəllif-aparıcı kimi məşhurlaşıb.

Mehriban Zaur qızı Ələkbərzadə 1965-ci il avqust ayının 5-də Gəncə şəhərində doğulub. Uşaq yaşlarından ailəsi Sumqayıt şəhərinə köçüb və o, buradakı 17 saylı orta məktəbi 1982-ci ildə bitirib. Bir il Sumqayıt Dövlət Dram Teatrında rejissor köməkçisi işləyib. Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutun rejissorluq fakültəsinə 1983-cü ildə daxil olub. İxtisas təhsilini görkəmli rejissor Mehdi Məmmədovun kursunda alan Mehriban Ələkbərzadə tələbəlik illərində institutun Tədris teatrında Tennessı Uilyamsın "Sökülən yurd", Eduard de Filipponun "Silindr", Dövlət televiziyasında Elçinin "Ömrün son səhəri" pyeslərini tamaşaya hazırlayıb. Elçinin bu əsəri televiziya tamaşası kimi də çəkilib.

Ali savadlı rejissor diplomu almaq üçün o, 1998-ci il iyunun 11-də Akademik Milli Dram Teatrının Kiçik səhnəsində Jan Pol Sartın "Dəfn edilməmiş ölülər" dramını tamaşaya hazırlayıb. "Əla" qiymət alan gənc rejissor təyinatla Lənkəran Dövlət Dram Teatrına göndərilib. Burada Şıxəli Qurbanovun "Sənsiz" (2 noyabr 1989), Bəxtiyar Vahabzadənin "Yağışdan sonra" (25 mart 1989), Stanislav Stratiyevin "Avtobus", ("Çarəsiz sərnişinlər". 24 aprel 1990) pyeslərinə quruluş verib. 1990-cı ildə Lənkərandan Bakıya qayıdandan sonra "Azərbaycanfılm" kinostudiyasında "Güzgü" qısametrajlı bədii filmini çəkib.

İstedadlı rejissor Mehriban Ələkbərzadə 1991-ci il yanvar ayının 28-də Akademik Milli Dram Teatrına rejissor köməkçisi ştatına işə götürülüb. 1 aprel 1994-cü ildən isə bu kollektivdə quruluşçu rejissordur. Onun Akademik teatrda hazırladığı tamaşalar bunlardır.

**1988, 11 iyun.** "Dəfn edilməmiş ölülər", Jan Pol Sartr. Tərcümə edəni Rəfiq Zəka Xəndan.

**1995, 12 yanvar.** "Min illərin işığı", Kamil Abdullayev.

**1995, 4 iyun.** Kiçik səhnədə. "Müəmmalı bir qəlin üç versiyası", Ryunesko Akutaqavanın hekayəsi əsasında Esmira Əliyevanın işləməsi.

**2001, 23 fevral.** "Poçt şöbəsində xəyal", Elçin.

**2003, 18 aprel.** "Afət", Hüseyn Cavid.

Televiziya ekranlarında daha populyar olmuş istedadlı rejissor Mehriban Ələkbərzadə əlvan forma axtarışlarına cəsarətlə girişir. Dramaturji hadisələrin səhnə həllində incə lirizmə, psixoloji münasibətlərin zərifliyinə xüsusi fikir verir.

İnsan münasibətlərinin mürəkkəblikləinə yaradıcı müdaxilə onu çox maraqlandırır.

Mehriban Ələkbərzadə Azərbaycan Dövlət Televiziyasında Nahid Hacızadənin "Yaşa, ey haqq!", Jan Koktonun "İnsan səsi", Marşa Normanın "Gecən xeyrə qalsın, ana", Mehriban Vəzirın "İlğım", Afaq Məsudun "Cəza" əsərlərini tamaşaya hazırlayıb.

"Space" televiziyasında özünün həm rejissoru, həm müəllif-aparıcısı olduğu "Dünən, bu gün, sabah, "Telebenefıs", "Fövqəl dünya və mən" bədii kompozisiyaları silsilə proqramlar arasında xüsusi yer tutur. Bu televiziya kanalında dörd seriyalı "Qırmızı Terror və ya Mircəfər Bağırov", "Azərbaycan xanlıqları" bədİi-sənədli fılmlərin rejissorudur.

## AKTYORLAR

### Səyavuş ASLAN
**Xalq artisti**



Azərbaycan realist aktyor məktəbinin görkəmli nümayəndələrindən biri olan Səyavuş Məmmədağa oğlu Aslanov (Aslan) 1935-ci il sentyabr ayının 15-də Bakıda doğulub. Atası sürücü işləyib.

Səyavuş Bakıdakı 1 saylı məktəbin yeddinci sinfini bitirərək Dəmir Yol Texnikumuna daxil olub. Burada təhsil ala-ala Biləcəri lokomativində maşinist köməkçisi işləyib. Teatra coşğun maraq, aktyorluğa ehtiraslı həvəs göstərən Səyavuş Dəmiryolçular klubunda məşhur aktyor Ağadadaş Qurbanovun rəhbərlik etdiyi dram dərnəyinə üzv yazılıb.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrı 1938-ci ildən 1949-cu ilin yazına kimi fəaliyyət göstərdikdən sonra maliyyə çətinkləri ucbatından bağlanmışdı. Çünki keçmiş SSRİ-nin bütün teatrları kimi bu kollektiv də təsərrüfathesabı fəaliyyətə keçdikdən sonra özünü doğrulda bilmədi, yəni qazandığı pul heç aktyorların maaşına çatmırdı. Bağlanan teatr yığcam truppa halında bir müddət Filarmoniyanın nəzdində estrada ansamblı kimi çalışdı. 1954-cü ildə opera rejissoru Soltan Dadaşovun təşəbbüsü ilə estrada dəstəsi müstəqil kollektiv kimi, ancaq Dövlət statusu almadan fəaliyyətə başladı. Onda Səyavuş Aslan bu kollektivin xor heyətinə qəbul olundu və hətta bir dəfə Vəli rolunun ifaçısı Lütfəli Abdullayev xəstələndiyinə görə gənc aktyor tamaşada onu əvəz etdi.

Səhnəyə təzəcə isnişən Səyavuş Aslan 1954-cü ilin payızından 1957-ci ilin oktyabr ayına kimi hərbi xidmətdə oldu. Qayıdıb qısa zaman kəsiyində Filarmoniyanın nəzdindəki Kukla teatrı ansamblına daxil oldu və hətta onların "Cırtdan", "Məlik Məmməd" nağıl tamaşalarının hazırlanmasında iştirak etdi.

1958-ci ilin aprel ayında Quba Dövlət Dram Teatrına keçdi. Bir il sonra yenidən Bakıya qayıdıb Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aktyor truppasına qəbul olundu. Tezliklə populyarlaşan aktyor gənc yaşlarında Əlihüseyn Qafarlı, Lütfəli Abdullayev, İbrahim Şünasi (Hüseynov) kimi təcrübəli aktyorların böyük nailiyyətlər qazandığı rolları məharətlə oynamağa başladı.

Burada işləməsinə, teatrın üç aparıcı aktyorundan biri olmasına baxmayaraq, həmişə Akademik sənət ocağında çalışmağa cəhd göstərib. Nəhayət Sabit Rəhmanın "Nişanlı qız" komediyasını tamaşaya hazırlayan, özünü quruluşçu rejissor kimi ilk dəfə sınayan Məlik Dadaşov Mindilli roluna Səyavuş Aslanı dəvət etdi. Bu kollektivdə ilk işi uğurlu alınan sənətkar 1984-cü il oktyabr ayının 5-də truppaya aktyor götürüldü.

Səyavuş Aslan 1994-cü il fevralın 4-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrına bədii rəhbər təyin edildi. Ancaq o, bir müddət dəvətlə gəlib repertuardakı rollarını oynayırdı. 1996-cı ilin oktyabrında bədii rəhbər vəzifəsindən istefa verən aktyor yenidən Akademik Milli Dram Teatrına qayıdıb.

Görkəmli teatr aktyoru Səyavuş Aslan həmçinin kino sənətkarı kimi sevilir. Ən məşhur ekran rolları "Romeo mənim qonşumdur" (Səməd), "Əhməd haradadır?" (Saqqal Ramiz), "Ulduz" (Şubay), "Məlik Dadaşov" (Ortancıl Div), "Bəyin oğurlanması (Filmin direktoru), "Yol hadisəsi" (MİS müdiri), "Xəzan yarpaqları" (Məktəb direktoru), "Ölülər" (Hacı Həsən ağa), "Papaq" (Hacı), "Hacı Qara" (Hacı Qara) fılmlərində çəkildiyi obrazlardır.

Azərbaycan Dövlət Televiziyasında yüzlərlə satirik səhnəcikdə kiçik rollar oynayıb. Eyni zamanda Dövlət Televiziyasının Qızıl fonduna daxil olan Bazarkom ("Evləri köndələn yar", Anar), Qaloşin ("Əyalət lətifələri", Aleksandr Vampilov), Mak Blaf ("Sehirli kürsü", F.Karonti) rollarını ustalıqla yaradıb.

Səyavuş Aslanın Musiqili Komediya Teatrının Opera və Balet Teatrı nəzdindəki truppa halında tamaşalar göstərdiyi qısa dövrdə və əsasən 1956-cı ildən başlayaraq yenidən Dövlət təsisatı kimi calışdığı illərdə oynadığı rollar (1959-cu ildən üzü bəri, 1984-cü ilə və 1994-cü ildən 1996-cı ilə qədərki dövrdə).

**Bavram.** "Kəndimizin mahnısı", dramaturq Kərim Kərimov ilə şair Ənvər Əlibəyli və bəstəkar Zakir Bağırov.

**Muxtar bəy və Kəblə Heydər.** "Evliykən subay", Zülfüqar bəy Hacıbəyov. Müxtəlif quruluşlarda.

**Məhəmməd.** "Ulduz", Sabit Rəhman və Süleyman Ələsgərov.

**Nəriman.** "Rəisin arvadı", Məhərrəm Əlizadə və Səid Rüstəmov.

**Hamlet.** "Tiflis nəğməsi", Levon Cubabiriya və Şota Milorava. Tərcümə edəni Adil Babayev.

**Kəsəmənli.** "Bir dəqiqə", Məhərrəm Əlizadə və Hacı Xanməmmədov.

**Akop.** "Şirin arzular" ("Yerazik"), Qurgen Çəlikov və Stepan Crbaşov. Tərcümə edənləri Ə.Süleymanov və Abdulla Qüdrət.

**Aparıcı.** "Keçmişin məişət səhnələri", Soltan Dadaşov və Vasif Adıgözəlov.

**Ohan yüzbaşı.** "Hacı Qara" ("Xəsis"), Mirzə Fətəli Axundzadənin əsəri əsasında işləyəni Şəmsi Bədəlbəyli və Vasif Adıgözəlov ilə Ramiz Mustafayev.

**Ibişov.** "Özümüz bilərik", Şıxəli Qurbanov və Süleyman Ələsgərov.

**Fəqan.** "Səndən mənə yar olmaz", Məhərrəm Əlizadə və Əşrəf Abbasov.

**Firuzbala.** “Altı qızın biri Pəri”, Məhərrəm Əlizadə və Tofıq Bakıxanov ilə Nəriman Məmmədov.

**Alanzadə.** “Olmadı elə, oldu belə”, Şıxəli Qurbanov və Süleyman Ələsgərov.

**Həsən bəy, Hamlet və Məşədi İbad.** “Məşədi İbad”, Üzeyir bəy Hacıbəyov. Müxtəlif quruluşlarda.

**Şubay.** “Ulduz”, Sabit Rəhman və Süleyman Ələsgərov.

**Tofiq.** “Ev bizim, sirr bizim”, Novruz Gəncəli və Səfiqə Axundova.

**Qulam.** “Höcət eləmə”, Qazı Məmmədov və Ağabacı Rzayeva ilə İsmayıl Quliyev.

**İlqar.** “Qaynana”, Məcid Şamxalov və Zakir Bağırov.

**Eynəkli.** “Milyonçunun dilənçi oğlu”, Şıxəli Qurbanov və Süleyman Ələsgərov.

**Səlyanski.** “Gözün aydın”, Məhərrəm Əlizadə və Fikrət Əmirov.

**Azay.** “Qızılgül”, Məhərrəm Əlizadə və Soltan Hacıbəyov.

**Aslan.** “Bizə bircə xal lazımdır”, Qulamrza Cəmşidi ilə Bəşir Səfəroğlu və Telman Hacıyev.

**Ağabala.** “Ləpələr”, Əliağa Kürçaylı və Arif Məlikov.

**Qüdrət Səda.** “Hardasan, ay subaylıq?” Salam Qədirzadə və Süleyman Ələsgərov.

**Şəkərli.** “Axırı yaxşı olar”, Rəfiq Zəka Xəndan və Ramiz Mustafayev.

**Ağa Mirzə.** “Hacı Kərimin aya səyahəti”, Qulamrza Cəmşidi ilə Əbülfəz Hüseyni və Azər Rzayev.

**Məmmədəli.** “Məmmədəli kurorta gedir”, Atif Zeynallı və Tofıq Bakıxanov ilə Nəriman Məmmədov.

**Kəblə Hüseynəli.** “Beş manatlıq gəlin”, Məmməd Səid Ordubadi və Səid Rüstəmov.

**Qoşun.** “Toy kimindir?”, Məhərrəm Əlizadə və Ağası Məşədibəyov.

**Şakir.** “Dağlar qoynunda”, Ədil İsgəndərov və Əşrəf  Abbasov.

**Qulu Rəhimli.** “Nənəmin şahlıq quşu”, Əliağa Kürçaylı və Vasif Adıgözəlov.

**Vəli.** “Arşın mal alan”, Üzeyir bəy Hacıbəyov.

**Çako.** “Keto və Kote”, Vladimir Dolidze. Tərcümə edənı Şəmsi Bədəlbəyli.

**Dadaşbala.** “Hicran”, Sabit Rəhman və Emin Mahmudov (Sabitoğlu).

**Türbətəli.** “Təzə gəlin”, Seyfəddin Dağlı və Cahangir Cahangirov.

**Əmikişi.** “Qonşumuzda bir oğlan var”, Məhərrəm Əlizadə, Ramiz Mustafayev.

**Murtuzov.** “Özümüz bilərik”, Şıxəli Qurbanov və Süleyman Ələsgərov.

**Qədir.** “Qızıl toy”, Ramiz Heydər və Oqtay Kazımov.

**Maldar.** “Yertutanlar”, Faiq Mustafayev və Adil Bəbirov.

**Qazi, Karapet ağa, Naçalnik və Kərbəlayı Cəfər.** “Danabaş kəndinin əhvalatları”, Cənnət Səlimova (Cəlil Məmmədquluzadənin əsəri əsasında) və Oqtay Kazımov.

**Qəmzəli.** “Qaçırılmış qız”, Cahangır Məmmədov və Ramız Mirişli.

**Seyfulla.** "Sıravi Seyfullanın xidməti əziyyətləri", Akif Məhərrəmov (Sultanməcid Qənizadənin "Xor-xor" məzhəkəsi əsasında) və Aydın Əzimov.

**Misir Nəsir.** "Lənət sənə, kor şeytan", Firudin Aşurov və Vasif Adıgözəlov.

**Orduxan bəy.** "Əlli yaşında cavan", Zülfüqar bəy Hacıbəyov. Bu rol aktyorun Musiqili Komediya Teatrında son yaradıcılıq işi oldu.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında bədii rəhbər işlədiyi dövrdə Səyavuş Aslan dramaturq Məmməd Səid Ordubadinin və bəstəkar Səid Rüstəmovun "Beş manatlıq gəlin" (17 may 1994), Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan" (23 may 1995) operettalarını tamaşaya hazırlayıb.

Səyavuş Aslanın 1984-cü ildən 1994-cü il fevralın 4-ə qədər və 1996-cı ilin oktyabrından bu günə kimi Akademik Milli Dram Teatrında oynanılan tamaşalarda iştirak etdiyi səhnə obrazları.

**Mindilli.** "Nişanıı qız", Sabit Rəhman.

**Hüseynbala.** "Çahargah fantaziyası", Kərim Kərimov.

**Luka.** "Həyatın dibində", Maksim Qorki.

**Romul Avqustul.** "Böyük Ramul", Fridrix Dürrenmantt.

**Oddamdı.** "Od gəlini", Cəfər Cabbarlı.

**Agəli.** "Günah", Rəhman Əlizadə.

**Vəzır Mirzə Həbib.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.

**Qərib Qulam.** "Mənsiz dünya", Nəbi Xəzri.

**Mikayılov.** "Tufandan əvvəl", Arif Süleymanov.

**Arif.** "Kərgədan buynuzu", Maqsud İbrahimbəyov.

**Fəriş.** "Bızim qəribə taleyimiz", İlyas Əfəndiyev.

**Cabbar.** "Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev.

**Mayılov.** "Gülüstanda qətl", Cəmil Əlibəyov.

**Aslan.** "Yalan", Sabit Rəhman.

**Ağayi Əşrəfi.** "Tənha iydə ağacı", İlyas Əfəndiyev.

**Maqsud.** "Ox qadınlar, qadınlar", Marat Haqverdiyev.

**Ağamusa Fərəcov.** "Dəlilər və ağıllılar", İlyas Əfəndiyev.

**Abış Surxayeviç.** "Əcəb işə düşdük", Şıxəli Qurbanov.

**Vanya koxa.** "Hökmdar və qızı", İlyas Əfəndiyev.

**Əsədulla.** "Ah, Paris... Paris!.." Elçin.

**Baş redaktor**. "Mənim sevimli dəlim", Elçin.

**Kişi.** "Diaqnoz "D" ("Mənim ərim dəlidir"), Elçin.

**Zaman Həsənli.** "Bu dünyanın adamları", Hidayət.

**Yoldaş tək.** "Poçt şöbəsində xəyal", Elçin.

**Poloni.** "Hamlet", Vilyam Şekspir.

**Jeront.** "Skapenin kələkləri", Jan Batist Molyer.

**Sarı.** "Varlı qadın", Əli Əmirli.

Çağdaş milli teatrımızda tək-tək aktyorun adını çəkmək olar ki, o, qaravəlli xalq-oyun tamaşalarından həssas yaradıcılıqla bəhrələnsin. Səyavuş Aslan qaravəlliyə məxsus çevikliyi, hazırcavablığı, gözlənilməz qrotesk dönüşləri, şux gülüşü, bol yumoru həm hərəkət vasitələrində, həm də sifət-göz cizgi ifadələrində

hər dəfə yeni görümdə, əlvan, əngin panorama gücündə, son dərəcə fərqli rənglərlə, ancaq məhz Səyavuş Aslana məxsus danışıq-deyim tərzində canlandırır. Həmin canlanmada coşğun həyat eşqi, duzlu sancma, sərt satira, özümüzə qınaq, ən əsası isə estetik dinclik və ruhi rahatlıq var. Televiziyanın və kinonun "iri planları" lazımi məqamlarda önə çəkmək imkanı (mən texniki imkanı nəzərdə tuturam) olduğuna görə dediyim keyfiyyətlər "Evləri köndələn yar" teletamaşasında Bazarkom və "Bəyin oğurlanması" fılmindəki Filmin direktoru rollarında qabarıq, əsaslı, elmi-nəzəri təhlilə ciddi ehtiyacı olan şəkildə yüksək aktyor fərasətilə nəzərə çarpır.

Səyavuş Aslan dramatik, hətta faciə xarakterli obrazları oynamağa da meyllidir. Səyavuş Aslan sənətinin lətafəti həmin rollarda yeni estetik prizmadan, yeni psixoloji-bədii rakursdan tərənnüm tapıb.

**Rafıq ƏZİMOV**
**Xalq artisti**



İlk növbədə epizod rollar, kiçik xarakterlər və satirik personajlar ifaçısı kimi tanınır. Realist aktyor məktəbinin nümayəndəsidir və psixoloji ifadə vasitələrilə, fıkir yükü daşıyan pauzalarla, dramatik gərginliklə oynamağa üstünlük verir. Daxili dramatizmini, ehtiras və çılğınlığını dramatik istiqamətdə cilovlamaqla diqqəti obrazın mənalı səhnə təfsirinə yönəltməyə çalışır. İfa etdiyi səhnə surətləri üçün xarakterik sifət cizgiləri tapmağı xoşlayır və bu istəyinə nail olmaqdan ötrü qrim texnikasından da bacarıqla istifadə edir. Personajın tamaşanın ana xəttindəki bədii yükünü düzgün müəyyənləşdirmədən onu oynamağa meyl göstərmir.

Sadə, ancaq, çoxqatlı və müəyyən bədii fıkir ifa edən mizanlarda bir aktyor kimi daha sərbəst davranır. Teatrın nizam-intizam ənənələrinə hörmət və ehtiramla riayət edən aktyorlardan sayılır. Rafiq Əşrəf oğlu Əzimov 6 fevral 1938-ci ildə Bakıda anadan olub. Burada 44 saylı orta məktəbdə oxuyub. Birinci sinifə on yaşında getdıyinə görə məktəbi gec bıtirib.

1958-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram bə kino aktyorluğu fakültəsinə daxil olub. İxtisas təhsilini görkəmli rejissor, xalq artisti Məhərrəm Haşımovdan alib. 1962-ci ildə ali savadlı aktyor diplomu alıb və həmin il sentyabr ayının 10-da Akademik Milli Dram Teatrının truppasına qəbul olunub. O, qırx ildən çoxdur ki, fasiləsiz olaraq bu teatrın səhnəsində çalışır.

Teatrda çalışan aktyor uzun illər Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Mədəniyyət Evinin nəzdindəki "Damğa" teatrının rəhbəri olub. Burada məsxərə, məzhəkə, səhnə felyetonu, qəzet-publisistika janrında kiçikhəcmli, satirik tamaşalar hazırlayıb. Eyni zamanda Şıxəli Qurbanovun "Sənsiz", İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər", Nahid Hacızadənin "Məhəbbət yaşadır" dramlarına səhnə quruluşu verib.

Rafiq Əzimov Azərbaycan Dövlət Televiziyasında "Ömrün kino səhifələri" silsilə verilişlərinin aparıcısı olub. "Lider" televiziyasında Seyid Əzim Şirvani haqqında "Aləmdə qalan səs", "Mirzə Ələkbər Sabir", "Aşıq Molla Cuma", "Səməd Mənsur", Abbasqulu ağa Bakıxanov barədə "Sonuncu orden" telefilmlərində aparıcı rollarına çəkilib.

Rafıq Əzimov əsasən epizod rollar ifa etsə də, hər təzə teatr mövsümündə repertuarda daha çox məşğul olan aktyorlardan sayılır. Tələbə vaxtı Akademik teatrın tamaşalarının kütləvi səhnələrində oynayan aktyor kollektivə üzv olanda əvvəlcə repertuardakı hazır tamaşalara əlavə ifaçı kimi daxil edıldi. İlk müstəqil rolu Kalandarionu ("Dəlilər") 14 iyun 1963-cü ildə oynadı.

**Kalendario.** "Dəlilər" ("Valensiya dəliləri"), Lope de Veqa.

**Beşinci aktyor və Marsello**. "Sevimli roller", Sabit Rəhman.

**Mirzə Hüseyn.** "Toy", Sabit Rəhman.

**Filon.** "Antoni və Kleopatra", Vilyam Şekspir.

**Əhməd.** "Köç", Cavad Fəhmi Başqut.

**Anton.** "Şeyx Sənan", Hüseyn Cavid.

**Arşaq, Vəzir və Vidadi.** "Vaqif", Səməd Vurğun.

**Sərkis.** "Hacı Qara", Mirzə Fətəli Axundzadə.

**Doktor Ninkoviç.** "Nazirin xanımı", Branislav Nuşiç.

**Paj.** "Orlean qızı", Fridrix Şiller.

**Zəki.** "Yalan", Sabit Rəhman.

**Dursun.** "Oqtay Eloğlu", Cəfər Cabbarlı.

**Xristo.** "Falçı", Stefan Kostof.

**Kəblə Fətulla və Müəllim Mirzə Hüseyn**. "Ölülər", Cəlil Məmmədquluzadə.

**Caynaq.** "Ana torpağı", Çingiz Aytmatov.

**Artist Pərviz.** "Görünməmiş toy", Qriqori Qorin və Arka Arkanov.

**Sinqayevski.** "Tufanlı il", Aleksey Kapler.

**Kristi Dacen.** "Şeytanın şagirdi", Bernard Şou.

**Rozenkarans Pnkarans.** "Hamlet", Vilyam Şekspir.

**Üçüncü əcinnə**. "Pəri cadu", Əbdürrəhim bəy Haqverdıyev.

**Birinci tələbə.** "Xəyyam", Hüseyn Cavid.

**Rəhman.** "Mahnı dağlarda qaldı", Ilyas Əfəndıyev.

**Frans Fok.** "Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə.

**Batler.** "Qızü", Yucin ONil.

**Sərhəd pozan.** "Darıxma, ana!", Nodar Dumbadze.

**Mirzə Cavad.** "Aydın", Cəfər Cabbarlı. Bu rolu iki quruluşda oynayıb.

**Müəllim.** "Adsız ulduz", Mixail Sebastian.

**Lakey.** "Şöhrət və ya unudulmuş adam", Nazim Hikmət.

**Güloğlan.** "İnsan", Səməd Vurğun.
**Tufan.** "Səks-səda", Nəbi Xəzri.
**Şişkin.** "Maşınlar", Maksim Qorki.
**Mərcan.** "Qılınc və qələm", Məmməd Səid Ordubadinin eyniadlı romanı əsasında Tofiq Kazımovun işləməsi.
**Dudko Zaxar.** "Daşqın", Anatoli Safronov.
**Həmzad Qurban.** "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə.
**Əhmədcan.** "Qəribə oğlan", İlyas Əfəndiyev.
**Müsyö Jordan**. "Müsyö Jordan və dərviş Məstəlişah", Mirzə Fətəli Axundzadə.
**Boraçio.** "Heç nədən hay-küy", Vilyam Şekspir.
**Fənd Bağır.** "Adamın adamı", Anar.
**Karandışev.** "Cehizsiz qız", Aleksandr Ostrovski.
**Müəzzin**. "Karıxmış sultan", Taufiq əl Hakimi.
**Doktor Mahmud.** "Səhra yuxuları", Anar.
**Həkim.** "Maqbet", Vilyam Şekspir.
**Mozalan.** "Sizi deyib gəlmişəm...", Anar.
**Kıçik zabit.** "İblis", Hüseyn Cavid.
**Mirzə Qoşunəli.** "Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev.
**Qasım.** "Nişanlı qız", Sabit Rəhman.
**Cıgatay.** "Məhəbbət yaşadır", Nahid Hacızadə.
**Amerıka yazıçısı.** "Biganələr oteli", Rüstəm İbrahimbəyov.
**Medvedev.** "Həyatın dibində", Maksim Qorki.
**Axill.** "Böyük Romul", Fridrix  Dürrenmatt.
**Ağayı  Möhtəşəm**. "Şeyx Məhəmməd Xiyabani", İlyas Əfəndiyev.
**Fliç.** "Üç  quruşluq opera", Bertolt Brext və Kurt Vayl.
**Anaşkin.** "Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev.
**İvanov.** "Tufandan əvvəl", Arif Süleymanov.
**Rəhmanzadə.** "Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev.
**Aleksandr Petroviç.** "Qızıl teşt", Seyran Səxavət.
**Behbud bəy.** "Tənha iydə ağacı", İlyas Əfəndiyev.
**Rüstəm bəy.** "Anamın kitabı", Cəlil Məmmədquluzadə.
**Şeyx Pir Sultan.** "Min illərin işığı", Kamil Abdullayev.
**Qəni müəllim.** "Gecə döyülən qapılar", Nəbi Xəzri.
**Qaraqoyunlu əmi.** "Ağqoyunlular və Qaraqoyunlular", Əli Əmirli.
**Hersoq Albani.** "Kral Lir", Vilyam Şekspir.
M**ubi Tərxan.** "Özümüzü kəsən qılınc", ("Göytürklər") Bəxtiyar Vahabzadə.
**Qoca.** "Sokratı anma gecəsi" ("Eşşək dərisi üzərində məhkəmə"), Çingiz Aytmatov və Muxtar Şahanov.
**Ixtiyar.** "Burla xatun", Nəbi Xəzri.
**Kişi.** "Hərdən mənə mələk də deyirlər....", Kamal Abdulla.
**Şeyx.** "Ulduz, yaxud Ədirnə fəthi", Cəfər Cabbarlı.
**Vəzir.** "Fərhad və Şirin", Səməd Vurğun.
**İbn Tahir.** "Dar ağacı", Bəxtiyar Vahabzadə.

**Naşir.** "Kəllə", Nazim Hikmət.
**Əbdürrəhim bəy Haqverdiyev.** "Hərənin öz payı...", Xeyrəddin Qoca.

Teatr aktyoru olan Rafiq Əzimov eyni zamanda "Azərbaycanfılm" kinostudiyasında "Yeddi oğul istərəm" (Şahsuvar), "Xatirələr sahili" (Vəli), "Qızıl qaz" (Gündüz), "Ömrün ilk günü" (Sadıq), "1001 -ci qastrol" (Arxadan vurulan zərbə" (Müstəntiq Hüseynov), "Bu gözəl... gözəl... gözəl... dünya" (Arif), "Şəhərlı biçinçilər" ("Vulkana doğru gedirəm". Cabbarlı), "Babək" (Saray şairi), "Ad günü" (Səlim), "Lenfılm"də "Mənim əziz atam" (Əli dayı) fılmlərinə çəkilib.

Azərbaycan Dövlət Televiziyasında hazırlanan Süleyman Saninin "Dibdat bəy" (Dibdat bəy), İslam Səfərlinin "Göz həkimi" (İvanov), Üzeyir bəy Hacıbəyovun felyetonları əsasında "Ordan-burdan" (İsmayıl) teletamaşalarında oynayıb.

Aktyorluq sənətində qazandığı nailiyyətlərə görə Rafiq Əşrəf oğlu Kazımov 1 dekabr 1982-ci ildə Azərbaycan Respublıkasının əməkdar artisti və 28 oktyabr 2000-ci ildə xalq artisti fəxrı adına layiq görülüb.

**Həsən TURABOV**
**Xalq artisti**



Azərbaycanda lirik-psixoloji aktyor məktəbinin banisi Həsən Turabov sayılır. Lap gənc yaşlarından ona hörmət əlaməti olaraq afişa və proqramlarda adından sonra "ağa" sözü də yazıiır. Onun yaradıcılığı təkcə möhtəşəm rolların siyahısı ilə deyil, həm də yaratdığı xarakterlərin mənəvi-əxlaqi, fəlsəfi, estetik səciyyələrinin mürəkkəb, çoxşaxəli olması ilə zəngindir. Həsən Səttar oğlu Turabov 1938-ci il martın 24-də Bakıda doğulub. Yeddinci sinfə qədər Bakıdakı 31 saylı məktəbdə oxuyub və orta təhsilini 14 saylı məktəbdə başa vurub. Azərbaycan Dövlət Teatr İnstitutunda təhsil ala-ala (1956-1960) həm radioda, həm də yenicə açılan televiziyada diktor işləyib. İnstitutu komik aktyor kimi qurtarıb və diplom tamaşasında Nəcəf bəy Vəzirovun komediyasında Hacı Qəmbəri oynayıb. 1960-cı ildən müəyyən qısa fasilələrlə Akademik Milli Dram Teatrında aktyordur. 1962-ci ildə teatrdan uzaqlaşaraq Bakıdakı Odessa Dənizçilik İnstitutuna daxıl olub və az sonra yenə səhnəyə qayıdaraq təhsilini yarımçıq saxlayıb.

Görkəmli aktyor fevralın 18-də kollektivin səs verməsi ilə Akademik Dram teatra direktor seçilib. 1989-cu il yanvarın 15-dən həm də sənət ocağının bədii rəhbəri idi. 2001-ci il dekabrın 13-dən öz ərizəsi ilə hər iki vəzifədən istefa verib. SSRİ Ali sovetinin deputatı seçilib (1989). İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" (1972) tamaşasındakı Nicat və "Atları yehərləyin" ("Qaçaq Nəbi". 1986) filmindəki Qaçaq Nəbi rollarına görə respublika Dövlət mükafatı laureatıdır.

Respublikanın əməkdar artisti (29 aprel 1971) və xalq artisti (1 dekabr 1982) fəxri adlarına layiq görülüb. 1991 və 1996-cı illərdə Azərbaycan Teatr Xadimləri İttifaqının prezidenti seçilib. Hazırda yenə oranın prezidentidir. Avropa Türkləri İslam Birliyinin Qızıl medalı ilə təltif olunub (1994).

Həsən Turabovun aşağıdakı rolları milli teatrımızın klassik obrazları siyahısına daxil olub:

**1962-ci il.** Vahid. "Kəndçi qızı", Mirzə İbrahimov.
**1963-cü il.** Floriano. "Dəlilər", Lope de Veqa. Tərcüməçi Tələt Əyyubov.
**1966-cı il.** İsgəndər. "Ölülər", Cəlil Məmmədquluzadə.
**1968-ci il.** Hamlet. "Hamlet", Vilyam Şekspir. Tərcüməçi Cəfər Cabbarlı.
**1968-ci il.** Kamran. "Unuda bilmirəm", İlyas Əfəndiyev.
**1969-cu il.** Qurban. "Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev.
**1970-ci il.** Xəyyam. "Xəyyam", Hüseyn Cavid.
**1971-ci il.** Nicat. "Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev.
**1972-ci il.** Aydın. "Aydın", Cəfər Cabbarlı.
**1973-cü il.** Valid. "Nağıl başlananda", İmran Qasımov.
**1977-ci il.** Qiyas. "Şəhərin yay günləri", Anar.
**1978-ci il.** Qədir. "Quşu uçan budaqlar", Əkrəm Əylisli.
**1981-ci il.** Polkovnik Əmir. "Səhra yuxuları", Anar.
**1986-cı il.** Şeyx Xiyabani. "Şeyx Xiyabani", İlyas Əfəndıyev.
**1987-ci il.** Hacı Əsədulla. "Mənsiz dünya", Nəbi Xəzri.
**1988-ci il.** Kamran. "Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev.

Həsən Turabovun kinoda ən parlaq rolları Gəray bəy, ("Yeddi oğul istərəm"), Kəbirlinski ("Dantenin yubileyi"), Afşin ("Babək"), Üçgöz Cəfər ("Qorxma, mən səninləyəm"),eyniadlı filmdə Qaçaq Nəbi, Əsəd ("Bəyin oğurlanması"), Qəzənfər Mamedoviç ("Yaramaz") obrazlarıdır.

Qırx il ərzində aktyor teatrın səhnəsində Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" (Qatil), Yuri Osnos və Viktor Vinnikovun "Hind gözəli" (Aryaka), Səməd Vurğunun "Vaqif" (Əlibəy, İlyas və Vaqif), "İnsan" (Şahbaz), Sabit Rəhmanın "Əliqulu evlənir" (Kamal), Həsən Seyidbəylinin "Bağlı qapılar" (Qürbət), Şekspirin "Otello" (Birinci qasid), "Antoni və Kleopatra" (Eros), Hüseyn Cavidin "Şeyx Sənan" (Özdəmir), "Səyavuş" (Birinci dəliqanlı), "İblis" (İblis), Aleksis Parnisin "Gözəllik və sevgi adası" ("Afrodita adası". Anastasis), Mehdi Hüseynin "Alov" (Katib), İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə" (Erix), Şıxəli Qurbanovun "Əcəb işə düşdük" (Misirxanov), "Sənsiz" (Tərlan), Viktor Hüqonun "Mariya Tüdor" (Cəllad), Mirzə İbrahimovun "Yaxşı adam" (Azər), "Közərən ocaqlar" (Lenin), Fridrix Şillerin "Orlean qızı" (Lionel), İlyas Əfəndiyevin "Mənim günahım" (Xansu), Aleksey Kaplerin "Tufanlı il" (Vasili), Seyfəddin Dağlının "Mənziliniz mübarək!" (Elgün), Maksim Qorkinin "Meşşanlar" (Nil), Rüstəm İbrahimbəyovun "İstintaq" (Müstəntiq), Nikolay Poqodinin "Kreml saatı" (Lenin), Arif Süleymanovun "Tufandan əvvəl" (Lenin), Anarın "Sizi deyib gəlmişəm" (Mirzə Cəlil Məmmədquluzadə), Nahid Hacızadənin "Qisas qiyamətə qalmaz" (Umud) əsərlərinin tamaşalarında oynayıb.

“Azərbaycanfılm”in istehsal etdiyi kinolentlərindən “Qara daşlar”da Radist Hüseyn, “Telefonçu qız”da Hüseyn, “Yun şal”da Cəlal, “Sən niyə susursan?”da milis mayoru, “Sevil”də Rüstəmov, “Axırıncı aşırım”da Xəlil, “Var olun, qızlar”da Şəmsi, “Xatirələr sahili”ndə Kamran, “Qızıl qaz”da Fazilov, “Səmt küləyi”ndə Biçeraxov, “Ömrün ilk günü”ndə Mehdi, “Çarvadarların izi ilə”də Aqil, “Qatır Məmməd”də Səlimov, “Çətirimiz buludlardı” fılmində Qədirov, “Dörd bazar günü”ndə Nicat, “Ürək...ürək...”də Murad, “Dərviş Parisi dağıdır”da Rəşid bəy, “Sevinc buxtası”nda Əlizadə, “Bayquş gələndə”də Rəşid, “Mən mahnı bəstələyirəm”də Ata, “Qəribə adam”da (“Mosfilm”) Arif, “İstintaq”da General, “Anlamaq istəyirəm”də Neftci Həsən, “Qızıl uçurum”da Usta Bağır, “Əlavə iz”də Əli, “Qaladan tapılan mücrü”də Qəyyum, “İlıq dənizdə buz parçası”nda Sərt kişi, “Park”da Mədən müdırı, “Nizami”də Müzəffər, “Gümüşgöl əfsanəsi”ndə Ağazəki, “Qoca padşahın nağılı”nda Qoca, “Tənha narın nağılı”nda Əli, “İşarəni dənizdən gözləyin”də Baş nazir, “Şəhərli biçinçilər”də Səlim, “Qəm pəncərəsi”ndə Mirzə Cəlil Məmmədquluzadə, “Gənc qadının kişisi”ndə Rauf, “Gecə  qatarında  qətl”də Nağıyev, “Şahid qız”da Polkovnik, “Təhminə”də Dadaş, “Nakəs”də həbsxana rəisi, “Ailə”də Qoca, “Bu gözəl, gözəl, gözəl dünya”da Müstəntiq, “Gözlə məni”də Böyük bəy rollarına çəkilib.

Rejissor kimi “Tənha narın nağılı” (Şamil Mahmudbəyovla birgə) və “Atları yəhərləyin” (“Qaçaq Nəbi”. Əbdül Mahmudovla birgə) filmlərini çəkib.

Həsən Turabov həssas duyumu, keçmişlə çağdaşlığı, baxanla (tamaşaçı) baxılanı (obraz) doğmalaşdırmaq məharəti, səmimiyyət yaratmaq istedadı ilə qəhrəman-xarakterin yaşadığı dövrlə salon arasındakı zaman-məsafə ayırmasını məharətlə dəf edir.

Həsən Turabov klassik faciə rollarında xarakterin psixoloji dərinliyini həm emosional ifadə vasitələrinin heyrətamiz rəngarəngliyi, həm də sanki tükənməyən texniki vərdiş-fəndləri ilə tamaşaçılara təqdim edir. Belə vəhdətdə obrazı faciəvilik əzəməti daha canlı, daha təsiredici, düşündürücü, həyəcanlandırıcı ovqat bağışlayır.

Həsən Turabov böyük ehtiraslar aktyorudur, güclü faciə xarakterli sənətkardır. O, səhnədə özünün emosional enerjisini qurulmuş yay kimi həmişə tarıma çəkilmiş gərginlikdə saxlamağı qətiyyətlə bacarır.

Həsən Turabov bədii təsvircə mürəkkəb, xaraktercə təzadlı, xasiyyətcə sabit davranış ölçülərini pozan, bəzən hərzə-hədyan danışmaqdan çəkinməyən, hərdən xudbin, ədalı görünən... səhnə və ekran rollarında da cəsarətlə insanlıq və həyatsevərlik axtarmağın riskinə gedir.

Həsən Turabovun oynadığı rollarda, ictimai mənsubiyyətindən asılı olmayaraq, intim qılıqlıq, doğma məhrəmlik var.

Həsən Turabovun ürəyinin hərarəti və idrakının ziyası onun sənətkarlığının, səhnədə və ekranda yaratdığı “həyatın” əsas təkanvericisidir.

Həsən Turabov böyük bir monoloqun görə bilmədiyi “işi” baxış və hərəkətlə nəzərə çatdırır, vəziyyətin psixoloji ovqatını ikı, üç... planda tamaşaçıya göstərir.

Həsən Turabov obrazın psixologiyasındakı ovqat dəyişikliyini öz oyununda böyük ustalıqla, heyrətamiz yüngüllüklə, psixoloji dəqiqliklə verə bilir. Aktyor

bunu "özgələşmə" vərdişlərinin ən incə vasitələri ilə və heç vəchlə ölçü hissini itirmədən məharətlə icra edir.

Həsən Turabov janrından, mövzusundan, dövründən asılı olmayaraq, bəyəndiyi ssenaridə oynayacağı rolun məqsəd və qayəsinin əsas leytmotivini dəqiq və aydın müəyyənləşdirməyi fəhmlə duyur.

Həsən Turabov milli kinomuzda hərəkət sərbəstliyinə, plastika yumşaqlığına, ağayana (eleqant) jestlərinin meyar dəqiqliyinə, harmonik davranışını filmin parçalanmaz üzvü kimi təqdim etmək məharətinə görə seçilir, fərqlənir, örnək kimi qəbul olunur.

Həsən Turabov o nadir aktyorlardandır ki, səhnədə öz istedadının arxasında gizlənmək üçün çoxsaylı zahiri ifadə vasitələrinə güvənmir. Onun ali məqsədi budur ki, həyat hadisələrinin doğurduğu suallara teatr və ekran dili ilə cavab tapsın.

Həsən Səttar oğlu Turabov 13 dekabr 2001-ci ildə teatrın bədii rəhbəri və direktoru vəzifəsindən istefa verdi.

Kitabın çap prosesində, 23 fevral 2003-cü ildə Həsən Turabov dünyasını dəyişdi.



**Kamal XUDAVERDİYEV**
**Xalq artisti**

Akademik Milli Dram Teatrının aparıcı aktyorlardandır. Kamal Xudaverdiyev aktyor kimi geniş mənada lirik psixoloji üslublu məktəbin nümayəndəsidir. Ən parlaq rollarını məhz həmin janrlı əsərlərin tamaşalarında qazanıb. Bununla belə, romantik ruhlu tamaşalarda, komediyalarda da rollar oynayıb. Bu baxımdan Vilyam Şekspirin və Sofoklun eyniadlı faciələrində ifa etdiyi Kral Lir və Şah Edip aktyorun yaradıcılığında xüsusi yer tutur.

Azərbaycan milli teatr tarixində yüksək fəxri ada layiq görülmüş tək-tək aktyor olub ki, barmaqla sayılacaq qədər sözü olan obrazın ifasında səhnəyə çıxsın.

Kamal Xudaverdiyev məhz belə cəsarətli və fədakar aktyorlardandır. O, “Ah, Paris... Paris!..” (Elçin) tamaşasında Süpürgəçi rolunda bütün əsər boyu səhnədə olurdu və yalnız finalda ikicə cümlə sözü vardı. Aktyor bu rolu ilə pauza vasitəsilə tipik obraz yaratmağın bariz və parlaq nümunəsini göstərə bildi.

Kamal Ağahüseyn oğlu Xudaverdiyev 3 may 1938-ci ildə Bakıda doğulub. Yeddinci sinifə qədər gündüz oxuyub və orta təhsilini isə 6 saylı fəhlə-gənclər məktəbində başa vurub. Respublika və Bakı şəhər qaz idarələrində çilingər işləyib, bir müddət Qazaxıstanın xam torpaqlarında ezamiyyətdə olub, orada müxtəlif peşələrdə çalışıb. Yenidən Bakıya qayıdaraq yüksək dərəcəli çilingər kimi fəaliyyətini davam etdirib.

Aktyorluq sənətinə marağı 21 yaşından göstərib və Bakıda müxtəlif dram dərnəklərinə gedib. 1961-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Qüdrətli sənətkarlar Ədil İsgəndərovdan, Mehdi Məmmədovdan və Rza Təhmasibdən ixtisas təhsili alıb. 1965-ci ildə ali təhsilini başa vuran Kamal Xudaverdiyev Akademik Milli Dram Teatrının baş rejissoru Tofiq Kazımovun təklifi ilə oktyabr ayının 1-də truppaya ştata götürülüb. Arada müəyyən qısa fasiləni çıxmaqla yalnız Akademik teatrda işləyib və hazırda da kollektivin üzvüdür. Bu illər ərzində aşağıdakı rolları oynayıb.

**Raul.** “Orlean qızı”, Fridrix Şiller.

**Fərman.** “Yalan”, Sabit Rəhman.

**Murov.** “Günahsız müqəssirlər”. Aleksandr Ostrovski.

**Lətif.** “Söz yarası”, Qeybulla Rəsulov.

**Demetr.** “Antoni və Kleopatra”, Vilyam Şekspir.

**Zabit.** “Tufanlı il”, Aleksey Kapler.

**Riçard Dacen.** “Şeytanın şagirdi”, Bernard Şou.

**Aslan.** “Kəndçi qızı”, Mirzə İbrahimov.

**Laert.** “Hamlet”, Vilyam Şekspir.

**Sadıq.** “Xoşbəxtlər”, Sabit Rəhman.

**Afremov.** “Canlı meyit”, Lev Tolstoy.

**Petruçço Konti.** “Çarəsiz dələduz”, Raffaele Viviani

**Ibad.** “Almaz”, Cəfər Cabbarlı.

**Ədalət.** “Məhv olmuş gündəliklər”, İlyas Əfəndiyev.

**Rıbakov.** “Zamanın hökmü”, Nikolay Poqodin.

**Bahadır.** “Mahnı dağlarda qaldı”, İlyas Əfəndiyev.

**Denni.** “Qızıl”, Yucin ONil.

**Inam.** “Sən yanmasan...”, Nəbi Xəzri.

**Surxay.** “Aydın”, Cəfər Cabbarlı.

**Otar.** “Qəribə oğlan”, İlyas Əfəndiyev.

**Eldar.** “Vaqif”, Səməd Vurğun.

**Kral.** “Yatmış gözəl və yeddi qardaş”, Aleksandr Puşkin.

**Kamandar.** “Bağlardan gələn səs”, İlyas Əfəndiyev.

**Fəxrəddin.** “Qılınc və qələm”, Məmməd Səid Ordubadinin eyniadlı əsəri əsasında Tofiq Kazımovun işləməsi.

**Tahirov.** “Ümid”, Maqsud İbrahimbəyov.

**Loğman.** "Yollara iz düşür", Bəxtiyar Vahabzadə.
**Həmkar.** "İstintaq", Rüstəm İbrahimbəyov.
**Makduf.** "Maqbet", Vilyam Şekspir.
**İbn Yəmin.** "İblis", Hüseyn Cavid.
**Birinci Nəsimi.** "Fəryad", Bəxtiyar Vahabzadə.
**Vaska Pepel.** "Həyatın dibində", Maksim Qorki.
**Mares.** "Böyük Romul", Fridrix Dürrenmatt.
**Sezar.** "Kölgələrin oyunu", Yuri Edlis. Kiçik səhnədə.
**Braun.** "Üç quruşluq opera", Bertolt Brext və Kurt Vayl.
**Hüseynov.** "Qızıl teşt", Seyran Səxavət.
**Səlim Babayev.** "Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev.
**Kərim bəy.** "Tənha iydə ağacı", İlyas Əfəndiyev.
**Ulu əcdad.** "Hara gedir bu dünya?", Bəxtiyar Vahabzadə.
**Efralel Kebot.** "Qarağaclar altında ehtiraslar", Yucin ONil.
**Ağqoyunlu ata.** "Ağqoyunlular və  Qaraqoyunlular", Əli Əmirli.
**Kral Lir.** "Kral Lir", Vilyam Şekspir.
**Süpürgəçi.** "Ah, Paris... Paris!..", Elçin.
**Şah Edip.** "Şah Edip", Sofokl.
**Çingizxan.** "Sokratı anma gecəsi". Çingiz Aytmatov və Muxtar Şahanov.
**İzzət paşa.** "Ulduz, yaxud Ədirnə fəthi", Cəfər Cabbarlı.
**Salman Tahirov.** "Cəzasız günah", Bəxtiyar Vahabzadə.
**Aqşin.** "Dar ağacı", Bəxtiyar Vahabzadə.
**Dolbanezo.** "Kəllə", Nazim Hikmət.

Aktyor teatrdan əlavə Azərbaycan Dövlət Televiziyasında da hazırlanan tamaşalarda çoxlu obrazlar ifa etmişdir. Bu baxımdan onun İlyas Əfəndiyevin "Atayevlər ailəsində" (İldırım), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Cavanşir bəy), Mehdi Hüseynin "Alov" (Qaşqay), Əlibala Hacızadənin "Yadigar" (Müəllim), Nazim Hikmətin "Bayramın son günü" (Firuz) və "Şöhrət və ya unudulan adam" (Doktor), Elçin Mehrəliyevin "Yurd yeri" (Mahal kişi) televiziya tamaşalarında oynadığı rollar bədii cəhətdən daha bitkindir.

Müxtəlif  illərdə "Azərbaycanfilm" kinostudiyasında "Istintaq davam edir" (Çingizov), "Sonuncu müsahibə" (Həsənov), "Dağlarda döyüş" (Rüstəmov), "Nəsimi" (Yusif), "Abşeron" (Əli), "Üzü küləyə" (Kombinat müdiri), "Adanı özünlə apara bilməzsən" (Ata), "Oteldə bir otaq" (Alim), "Dədə Qorqud" (Ata) flimlərində xaraktercə fərqli obrazlara çəkilib.

Kamal Ağahüseyn oğlu Xudaverdiyev teatr və kino yaradıcılığındakı səmərəli fəaliyyətinə, qazandığı nailiyyətlərə görə 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 22 may 1991-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub. 1991-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində aktyor sənətindən dərs deyir, dosentdir.



**Həsən MƏMMƏDOV**
**Xalq artisti**

Daha çox kino aktyoru kimi populyardır. Təbiətcə sakit, psixoloji cəhətdən mürəkkəb təbəddülatlardan keçən dramatik obrazları ekranda və səhnədə məharətlə canlandıra bilir. Daha çox texniki imkanlarla oynamağı xoşlayır. Tamaşada və çəkiliş meydançalarında təmkinli davranışı, soyuq, ancaq ifadəli aktyorluq vasitələrindən yerli-yerində istifadə edə bilməsi ilə seçilir.

Həsən (Əbdülhəsən) Ağaməmməd oğlu Məmmədov 1938-ci il noyabr ayının 22-də Salyan rayonunda doğulub. Burada 2 saylı orta məktəbi 1956-cı ildə bitirib və Azərbaycan Dövlət Universıtetinin (bugünkü Bakı Dövlət Universiteti) fizika-riyaziyyat fakültəsinə daxil olub. İkinci kursda universitetdən çıxıb və bir müddət müxtəlif teatrların yardım heyətində aktyorluq edib. 1958-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Tələbəlik illərində müəyyən fasilələrlə Dövlət radiosunda diktor işləyib (1960-1961), Məşhur səhnə xadimi Mehdi Məmmədovun kursunu 1962-cı ildə bitirib və təyinatla Akademik Milli Dram Teatrına göndərılıb. Sentyabr ayının 10-da bu qədim sənət ocağının aktyor truppasına üzv olub. Bu ildən başlayaraq on il ərzində kino çəkilişlər ilə əlaqədar olaraq müxtəlif müddətlərə dəfələrlə teatrdan işdən çıxıb və yenə kollektivə qayıdıb.

İldən ilə kino aktyoru kimi məşhurlaşan Həsən Məmmədov 1972 ci il fevral ayının 2-də köçürmə yolu ilə Akademik teatrdan çıxaraq "Azərbaycanfilm" kinostudiyasına işə qəbul edilib. O, 1989-cu il may ayının 27-də dəvətlə Cəmil Əlibəyovun "Gülüstanda qətl" (quruluşçu rejissor Ağakişi Kazımovdur) dramının tamaşasında İlyas İbrahimov rolunu oynayıb. O, Akademik teatrın direktoru və bədii rəhbəri Həsən Turabovun dəvətilə 1992-ci il noyabr ayının 21-dən yenidən doğma kollektivin aktyor truppasında çalışır. Aktyorun rollar siyahısında milli və Avropa klassiklərinin, çağdaş Azərbaycan və əcnəbi dramaturqlarının əsərlərinin tamaşalarındakı səhnə obrazları var.

**Şeyda.** "Toy", Sabit Rəhman.
**Nənsad.** "Köç", Cavad Fəhmi Başqut.
**Səhhət.** "Kimdir müqəssir?", Hüseyn Muxtarov.
**Monqomeri.** "Orlean qızı", Fridrix Şiller.
**Pərviz.** "Görünməmiş toy", Qriqori Qorin və Arkadi Arkanov.
**Gil.** "Tufanlı il", Aleksey Kapler.
**Gildenstern.** "Hamlet", Vilyam Şekspir.
**Fikrət.** "İkinci səs", Bəxtiyar Vahabzadə.
**Camal.** "Almaz", Cəfər Cabbarlı.
**Həsən Sabbah.** "Xəyyam", Hüseyn Cavid.
**Bayram.** "Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə.

**İnam.** “Sən yanmasan...”, Nəbi Xəzri.

**İlyas İsbatov.** “Gülüstanda qətl”, Cəmil Əlibəyov.

**Xosrov.** “Fərhad və Şirin”, Səməd Vurğun.

**Umud.** “Qisas qiyamətə qalmaz”, Nahid Hacızadə.

**Axund Mir Möhsün ağa.** “Hökmdar və qızı”, İlyas Əfəndiyev

Kinoda çəkildiyi çoxsaylı rollar Həsən Məmmədovun yaradıcılığında xüsusi yer tutur. O, “Azərbaycanfilm”də istehsal olunmuş “Böyük dayaq” (Qaraş), “Arşın mal alan” (Əsgər), “Gün keçdi” (Oqtay), “Arxadan vurulan zərbə” (Qəmərlinski), “Bizi bağışlayın” (Nəriman), “Birisi gün gecə yarısı” (Baba Əliyev), “İstintaq” (Murad), “Dədə Qorqud” (Dədə Qorqud), “Axırıncı aşırım” (Abbasqulu ağa Şadlinski), “Sevil” (Balaş), “Yeddi oğul istərəm” (Bəxtiyar), “Bir cənub şəhərində” (Murad), “Qızıl qaz” (Fərman), “Bakıda küləklər əsir” (General), “Alma almaya bənzər” (Qurban), “Səmt küləyi” (Əlibala), “İstintaq davam edir” (Əzimov), “Şahid qız” (Polkovnik), “Qəm pəncərəsi” (Məmmədhəsən əmi), “Papaq” (Mirzə Səfər), “Həm ziyarət, həm ticarət” (Əlimurad), “Zirvə” (Kamil) filmlərində aparıcı rollar oynayıb.

Həsən (Əbdülhəsən) Ağaməmməd oğlu Məmmədov teatr və kino sənətində göstərdiyi xidmətlərə görə 1971-ci il noyabr ayının 18-də Azərbaycan Respublikasının əməkdar artisti, 1 dekabr 1982-ci ildə isə xalq artisti fəxri adlarına layiq görülüb. “İstintaq” bədii filmindəki Murad roluna görə 5 noyabr 1981-ci ildə SSRİ Dövlət, “Birisi gün gecə yarısı” kino lentindəki Baba Əliyev obrazı üçün Azərbaycan Respublikasının Dövlət mükafatları ilə təltif edilib. 1970-ci ildə Respublika Lenin komsomolu mükafatı laureatı olub.



**Safurə İBRAHİMOVA**
**Xalq artisti**

Səhnə məlahəti və səhnə cazibəsi ilə həmişə tamaşaçıları heyran qoyan, teatrşünaslığın diqqət mərkəzində duran aktrisa olub. Yüksək teatr etikasına, zəngin aktyorluq ifadə vasitələrinə, lətafətli oyun tərzinə, füsunkar sirayətçilik qabiliyyətinə malik sənətkardır. Səhnədə nə qədər şöhrət qazanıbsa, kinoda da bir o qədər populyardır, milyonlarla tamaşaçı qəlbində özünə rəğbət və məhəbbət tapıb.

Safurə Ağabala qızı İbrahimova 1938-ci il dekabr ayının 27-də Bakıda doğulub. Şəhərdəki 14 saylı məktəbi bitirib və 1955-ci ildən 1960-cı ilə qədər "Stalinneft"də, 44 saylı orta məktəbdə işləyib və paralel olaraq dram dərnəyinə gedib. 1960-cı ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Elə birinci kursdan onu Akadamik Milli Dram Teatrının repertuarında olan İslam Səfərlinin "Ana ürəyi" dramının tamaşasında Xatirə rolunu oynamağa dəvət ediblər. Bundan sonra ona daha bir neçə rol tapşırılıb və tələbə-aktrisa 1961-ci il noyabr ayının 1-də Akademik teatrın truppasına qəbul edilib. İnstitutu bitirənə qədər altı yeni tamaşada maraqlı obraz yaradıb.

Qüdrətli istedad sahibi Safurə İbrahimova ali təhsilini bitirəndən sonra da Akademik teatrda işləyib. Bu illər ərzində o, aşağıdakı sanballı silsilə rollar yaradıb.

**Tatyana.** "Şadlıq sorağında", Viktor Rozov.

**Gəlin və İkinci cariyə.** "Səyavuş", Hüseyn Cavid.

**Artistka və Mələk.** “Sevimli roller”, Sabit Rəhman.
**Kamilə.** “Toy”, Sabit Rəhman.
**Olya.** “Tanya”, Aleksey Arbuzov.
**Əsmər.** “Alov”, Mehdi Hüseyn.
**Qumral.** “Əliqulu evlənir”, Sabit Rəhman.
**Aynur.** “Yol ayrıcında”, İslam Səfrəli.
**Fernando.** “Dəlilər”, Lope de Veqa. Bu, oğlan roludur.
**Sansaç qız.** “Sən həmişə mənimləsən”, İlyas Əfəndiyev
**Gülnar və Tamara.** “Vaqif”, Səməd Vurğun.
**Göyçək.** “Söz yarası”, Qeybulla Rəsulov.
**Nazlı.** “Ölülər”, Cəlil Məmmədquluzadə.
**Əliman.** “Ana torpağı”, Çingiz Aytmatov.
**Maral.** “Sənsiz”, Şıxəli Qurbanov.
**İkinci aktyor və Ofeliya.** “Hamlet”, Vilyam Şekspir.
**Pavla.** “Zıkovlar”, Maksim Qorki.
**İnci.** “Xoşbəxtlər”, Sabit Rəhman.
**Cen.** “Mariya Tüdor”, Viktor Hüqo.
**Saşa.** “Canlı meyit”, Lev Tolstoy.
**Yelena.** “Çarəsiz dələduz”, Raffaele Viviani
**Hafizə.** “Pəri cadu”, Əbdürrəhim bəy Haqverdiyev,
**Saqiyə.** Vəfa və Vəfanın qızı “Xəyyam”, Hüseyn Cavid.
**Roza.** “Küləklər”, Sabit Rəhman.
**Karola.** “Füsunkar qız”, Mikolaş Dyarfaş.
**Şümarə.** “Mənziliniz mübarək!”, Seyfəddin Dağlı.
**Daduno.** “Darıxma, ana!”, Nodar Dumbadze.
**Qadın.** “Şöhrət və ya unudulmuş adam”, Nazim Hikmət.
**Tatyana.** “İnsan”, Səməd Vurğun.
**Jasmen.** “Knyaz”, Hüseyn Cavid.
**Çinarə.** “Əks-səda”, Nəbi Xəzri.
**Sona.** “Xanuma”, Avkisenti Saqareli.
**Maşa.** “Kreml saatı”, Nikolay Poqodin.
**Göyərçin.** “Kəndçi qızı”, Mirzə İbrahimov.
**Yevgeniya Fyodorovna.** “Daşqın”, Anatoli Safronov.
**Nuneva.** “Qızıldan qiymətli”, Dmitri Asenov.
**Sevil. “Sevil”, Cəfər Cabbarlı.**
**Balaxanım.** “Adamın adamı”, Anar.
**Marıyetta Teles.** “Bu qadın mənimdir”, Raymondo Juniyor.
**Mizel.** “Yad adam”, Leonqard Frank.
**Həyat.** “Kimdir haqlı?”, Bəxtıyar Vahabzadə.
**Rəna.** “İblis”, Hüseyn Cavid.
**İkinci xatun.** “Atabəylər”, Nərıman Həsənzadə.
**Vasilisa Karpovna.** “Həyatın dibində”, Maksim Qorki.
**Nadejda Krupskaya.** “Tufandan əvvəl”, Arif  Süleymanov.
**Xalidə.** “Kərgədan buynuzu”, Maqsud İbrahimbəyov.
**Mədinə.** “Sevgililərin cəhənnəmdə vüsalı”, İlyas Əfəndiyev.

**Prudensiya.** “Dişi canavar”, Federiko Qarsia Lorka.
**Zəhra bəyim.** “Anamın kitabı”, Cəlil Məmmədquluzadə.
**Səltənət.** “Ana intiqamı” Vidadi Babanlı.
**Salatın.** “Qisas qiyamətə qalmaz”, Nahid Hacızadə.
**Tubu xanım.** “Hökmdar və qızı”, İlyas Əfəndiyev.
**Mələk.** “Köhnə ev”, Əli Əmirli.

Ondan çox televiziya tamaşasında oynamış Safurə İbrahimovanın ən yaxşı ekran rolu İlyas Əfəndiyevin “Sən həmişə mənimləsən” lirik-psixoloji dramında Nəzakət obrazıdır.

Aktrisa müxtəlif illərdə “Azərbaycanfilm” kinostudiyasında “Sevil” (Dilbər), “Arşın mal alan” (Telli), “Qatır Məmməd” (Həbibə), “Alma almaya bənzər” (Mədinə), “Tütək səsi” (İsmət), “Dərviş Parisi dağıdır” (Gülpəri), “Qaynana” (Sədaqət), “İnsan doğuldu” (Leyla), “İstintaq davam edir” (Ana), “Əlavə iz” (Qadın) bədii filmlərinə çəkilib.

Mehdi Məmmədovun səhnə quruluşunda Hüseyn Cavidin “İblis” faciəsində oynadığı Rəna roluna görə 27 aprel 1984-cü il-də Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülüb.

Safurə Ağabala qızı İbrahimova teatr və kino sənətində göstərdiyi xidmətlərinə görə 1 iyun 1974-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 24 dekabr 2002-ci ildə isə xalq artisti fəxri adları ilə təltif olunub.



**Elxan AĞAHÜSEYN-OĞLU**
**Xalq artisti**

Daha çox tipik xarakterli ikinci dərəcəli rollar oynanıb. Bir sıra tamaşalara sonradan baş qəhrəmanın ifaçısı kimi də daxil edilib. Yaradıcılığının potensial imkanlarına görə realist aktyor məktəbinin estetik göstəricilərinə uyğundur. Yüksək səhnə etikası var, işində ciddi və tələbkardır. Öz oyununda sadə və məzmunlu tapıntılardan, xarakterik danışıqdan, tipik qrimdən istifadə etməyi xoşlayır.

Daxili temperamentini ifa etdiyi personajın xarakterinə uygun olaraq bacarıqla tənzimləyə bilir. Dramatik səpkili, didaktik xarakterli rollarda təmkinlə davranır. Yumor elementlərindən “xəsisliklə”, ancaq qroteksli sərtliklə, çoxmənalı sarkazmla istifadə etməklə oyununa canlılıq, təravət, əlvanlıq gətirir. Yaradıcılıgının ilk illərində “Hüseynov“ soyadı ilə çıxış

edib, lakin bacarıqlı və işgüzar aktyor kimi “Elxan Ağahüseynoğlu” imzası ilə tanınır.

Elxan Ağahüseyn oğlu Hüseynov 8 dekabr 1942-ci ildə Bakıda doğulub. Burada 18 saylı orta məktəbi bitirmiş və Bakı Mədəni-Maarif Texnikumuna daxil olmuşdur. Tələbə ola-ola 22 sentyabr 1960-cı ildə Akademik Milli Dram Teatrının yardım heyətinə qəbul edilmişdir. 1962-1965-ci illərdə hərbi xidmətə çağırılması ilə bağlı təhsilini yarımçıq qoyub və ordudan qayıtdıqdan sonra texnikumda ixtisasını başa vurub. Yenə paralel olaraq Akademik teatrın yardım heyətində aktyor işləyib. Teatrın baş rejissoru Tofiq Kazımov 1967-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsi üçün qəbul keçirəndə Elxan Ağahüseynoğlu da həmin kursa daxil olub. Təhsil müddətində teatrdan ayrılmayıb və həm repertuardakı əsərlərdə oynayıb, həm də yenı rollarda səhnəyə çıxıb. 1971-ci ildə ali aktyor diplomu alıb və Akademik teatrın tələbnaməsinə əsasən təyinatı bu qədim sənət ocağına verilib.

Müəyyən üzrlü fasilələr də daxil olmaqla Elxan Ağahüseynoğlu qırx ildən çoxdur Akademik Milli Dram Teatrının aktyorudur.

O, bu illər ərzində çox səmərəli fəaliyyət göstərib və ən müxtəlif janrlı tamaşalarda əlvan və rəngarəng, bədii tip kimi çox xarakterli rollar oynayıb.

**Varri.** “Antoni və Kleopatra”, Vilyam Şekspir.
**Dondurmasatan.** “Əliqulu evlənir”, Sabit Rəhman.
**İkinci oğlan.** “Sən həmişə mənimləsən”, İlyas Əfəndiyev.
**Eyiden.** “Orlean qızı”, Fridrix Şiller.
**Kürd Musa,** Zülfüqar və İbrahim xan. “Vaqif”, Səməd Vurğun.
**Özdəmir.** “Od gəlini”,Cəfər Cabbarlı.
**Əli.** “Ölülər”, Cəlil Məmmədquluzadə.
**Müstəntiq.** “Ana torpağı”, Çingiz Aytmatov.
**Reynaldo. “Hamlet”, Vilyam Şekspir.**
**Muradov və Kamran.** “Unuda bilmirəm”, İlyas Əfəndiyev.
**Məhkəmə xidmətçisi.** “Canlı meyit”, Lev Tolstoy.
**Gülverdi.** “Almaz”, Cəfər Cabbarlı.
**Dördüncü əcinnə (Şöhrət).** “Pəri cadu”, Əbdürrəhim bəy Haqverdiyev.
**Naib.** “Xəyyam”, Hüseyn Cavid.
**Jandarm.** “Nazirin xanımı”, Branislav Nuşiç.
**Məşədi.** “Küləklər”, Sabit Rəhman.
**İkincı qaçaq və Böyük bəy.** “Mahnı dağlarda qaldı”, İlyas Əfəndiyev.
**Ayı.** “Xırs quldurbasan”, Mirzə Fətəli Axundzadə.
**Petrov və Anzor.** “Darıxma, ana!”, Nodar Dumbadze.
**Aynur.** “Yol ayrıcında”, İslam Səfərli.
**Ümid və Barsuq.** “Qəribə oğlan” İlyas Əfəndiyev.
**Qatil.** “Şöhrər və unudulmuş adam”, Nazim Hikmət.
**Şmit və Albert.** “lnsan”, Səməd Vurğun.
**İkinci qardaş.** “Yatmış gözəl və yeddi qardaş”, Aleksandr Puşkin.
**Pyotr.** “Meşşanlar”, Maksim Qorki.
**İkinci şərabçı və İkinci knyaz.** “Xanuma”, Avkisenti Saqareli.
**Çəkməli adam və Optimist.** “Kreml saatı”, Nikola Poqodin.

**Şəmsəddin.** “Qılınc və qələm”, Məmməd Səid Ordubadinin romanı əsasında Tofıq Kazımovun işləməsi.

**Həmzə bəy.** “Solğun çiçəklər”, Cəfər Cabbarlı.

**Qısaboylu.** “Məhəbbət əfsanəsi”, Nazim Hikmət.

**Şimrəli.** “Dəli yığıncağı”, Cəlil Məmmədquluzadə.

**Qulaməli.** “Müsyö Jordan və dərviş Məstəlişah”, Mirzə Fətəli Axundzadə.

**Təlxək.** “Heç nədən hay-küy”, Vilyam Şekspir.

**Bufetçi Ağabala.** “Adamın adamı”, Anar.

**Əyyar.** “Fitnə”, Abdulla Şaiq.

**Robinzon.** “Cehizsiz qız”, Aleksandr Ostrovkski.

**Zahir Fəda.** “Xurşid banu Natəvan”, İlyas Əfəndiyev.

**Abovyan.** “Mirzə Şəfi”, Nəbi Xəzri.

**Karapet ağa.** “Sizi deyib gəlmişəm...”, Anar.

**Xaxan.** “İblis”, Hüseyn Cavid.

**Mirzə Qoşunəli.** “Bəxtsiz cavan”, Əbdürrəhim bəy Haqverdiyev. Kiçik səhnədə.

**Şah.** “Sehrli alma”, Yozef Lada.

**Qaraqoyunlu əmi.** “Ağqoyunlular və Qaraqoyunlular”, Əli Əmirli.

**Şərabçı.** “Şeyx Sənan”, Hüseyn Cavid.

**Kinto.** “Knyaz”, Hüseyn Cavid.

**İkinci qonaq.** “Namus”, Aleksandr Şirvanzadə.

**Daniel.** “Nakam qız”, Aleksandr Şirvanzadə.

**Rəhim Rəhimoviç. “İlham pərisi”, Cahan Əfruz. Kiçik səhnədə.**

**Gözətçi.** “Fəryad”, Bəxtiyar Vahabzadə.

**Yapon kommersantı Koniyeta San.** “Biganələr oteli”, Rüstəm İbrahimbəyov.

**Nadir.** “Təhminə və Zaur”, Anar.

**Polis rəisi və Zob.** “Həyatın dibində”, Maksim Qorkı.

**Mirzə Hüseyn xan.** “Şeyx Xiyabani”, İlyas Əfəndiyev.

**Ağəli.** “Günah”, Rəhman Əlizadə.

**Kimbel.** “Üç quruşluq opera”, Bertolt Brext və Kurt Vayl.

**Çar məmuru.** “Mənsiz dünya”, Nəbi Xəzri.

**Doqadov.** “Tufandan əvvəl”, Arif Süleymanov.

**Həbsxana rəisi.** “Kərgədan buynuzu”, Maqsud İbrahimbəyov.

**Dəmirov.** “Qızıl teşt”, Seyran Səxavət.

**Agah.** “Qanlı Nigar”, Sadıq Şendil.

**Ziyad və Əmir.** “Yayda qartopu oyunu”, Vaqif Səmədoğlu.

**Odhor.** “Qanqın böyük dalğası”, Cahan Əfruz.

**İkinci kişi.** “Hara gedir bu dünya?”, Bəxtiyar Vahabzadə.

**Ksanf.** “Məhəbbət və azadlıq” (“Tülkü və üzüm”), Gilerma Fiqeyredu.

**Ovunbaz.** “Qədr gecəsi”, Eldar Baxış.

**Mirzə Cəfər.** “Anamın kitabı”, Cəlil Məmmədquluzadə.

**Professor.** “Ana intiqamı”, Vidadi Babanlı.

**Hersoq Kornoul. “Kral Lir”, Vilyam Şekspir.**

**Lisanoviç.** “Hökmdar və qızı”, İlyas Əfəndiyev.

**Polyaniçko.** “Ah Paris... Paris!..”, Elçin.
**Feofan.** “Pompeyin Qafqazda yürüşü”, Nəriman Həsənzadə.
**Loğman.** “Şıltaq şahzadənin nağılı”, nağıl-tamaşa.
**Çin zabiti.** “Özümüzü kəsən qılınc” (“Göytürklər”), Bəxtiyar Vahabzadə.
**İvan Lapşin.** “Şadlıq sorağında”, Viktor Rozov.
**Pantaleymon Polikarpoviç.** “Mənim sevimli dəlim”, Elçin.
**Xau Ri.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.
**Lider.** “Mənim ərim dəlidir” (“Diaqnoz “D”), Elçin.
**Həkim.** “Cəzasız günah”, Bəxtiyar Vahabzadə.
**Ibn Süheyl.** “Dar ağacı”, Bəxtiyar Vahabzadə.
**Professor.** “Poçt şöbəsində xəyal”, Elçin.
**Birinci aktyor (Kral).** “Hamlet”, Vilyam Şekspir.
**Fəhlə.** “Hərənin öz payı”, Xeyrəddin Qoca.
**Şarmankaçalan.** “Brüsseldən məktublar”, Həsən Həsənov (Əzizoğlu).

Məhşur teatr aktyoru Elxan Ağahüseynoğlu Azərbaycan Dövlət Televiziyasında hazirlanmış onlarca tamaşada oynamışdır. Bunlardan Salam Qədirzadənin “Ürək rahatlıq sevmir” (Müdir), Seyfədin Dağlının “Sevdagül və Şarlotta” (Yolçu), ikihissəli “Sabiqlər” (Müdir), “Adı sənin, dadı mənim” (Nəzarətçi), Mirzə İbrahimovun “Candaranın üsyanı” (Mister Smit), Anatoli Dudarevin “Astana” (Nikolay), Sabit Rəhmanın “Şirin bülbü1” (Sərnişin), Mar Bayciyevin “Ağ atlar üçün vals” (Kolxoz sədri), İlyas Əfəndiyevin “General” (Zabit), Rafıq Səməndərin “Köhnə tanışlar, təzə görüşlər” (Pensiyaçı nəzarətçi), Nikolay Qoqolun “Evlənmə” (Yayişnitsa), Ramiz Novruzovun “At ilinin birinci ayı” (Müstəntiq), Mirzə Fətəli Azundzadənin “Hacı Qara” Xəlil Yüzbaşı), Rüfət Əhmədzadənin “Gülüş sanatoriyası” (İstirahətci), İlyas Əfəndiyevin “Sarı köynəklə Valehin nağılı” (Xıdırov) pyeslərinin tamaşaları televiziyanın arxivində qorunub saxlanır.

Aktyor “Axırıncı aşırım”, “Ömrün səhifələri”, “Dantenin yubileyi”, “Qəm pəncərəsi” bədii filmlərinə çəkilib.

Elxan Ağahüseynoğlu aktyorluq sənətində qazandığı nailiyyətlərə görə 22 may 1991-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 24 dekabr 2002-ci ildə isə xalq artisti fəxri adlari ilə təltif olunub.

**Ramiz MƏLİK**
**Xalq artisti**



Əsl soyadı Məlikovdur və aktyor 1990-cı illərin əvvəlindən "Məlik" soyadı ilə çıxış edir. Daxilən kübarlığını zahiri hərəkətlərində, səhnə davranışında həssaslıqla qoruya bilir. Buna görə də klassik və çağdaş Avropa dramaturqlarının pyeslərinin tamaşalarında oynadığı surətlərin mənsub olduğu cəmiyyətin ən müxtəlif etik davranışlarını, insanlarla ünsiyyətlərini ustalıqla, bədii reallıqla canlandırır.

Zahiri görünüşündə ağayanalıqla bərabər, bir qədər də "soyuqluq" duyulur. Ancaq bu cəhət zahiri xarakter daşıyır və aktyor istər romantik, istər realist, istərsə də lirik səciyyəli psixoloji obrazların ifasında öz istedadını müxtəlif və əlvan, sadə, ancaq çoxçalarlı xüsusiyyətlərini bacarıqla realizə edir. Yeri gələndə çılğın romantizm və emosional realizm ifadə vasitələrini bir obrazın səhnə təfsirində ahəngdar qovşaqda verir. Müxtəlif teatr poetikalarının incəliklərindən barınmaqda qətiyyətli və cəsarətlidir.

Ramiz Ağarza oğlu Məlikov (Məlik) 4 avqust 1943-cü ildə Bakıda doğulub. 1961-ci ildə ölkəmizin paytaxtında Yasamal rayonundakı 31 saylı orta məktəbi bitirib. İki il bu məktəbdə pioner baş dəstə rəhbəri işləyib.

1963-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub.Milli səhnə sənətimizin korifeyləri Rza Təhmasibdən, Tofiq Kazımovdan, Məlik Dadaşovdan dərs alıb, onlardan aktyorluğun incəliklərini öyrənib.

Son kursda oxuyanda 1967-ci ilin fevralında bütün qrup ilə 1949-cu ildə bağlanmış İrəvan Dövlət Azərbaycan Dram Teatrının fəaliyyətini bərpa etmək üçün Ermənistana gedib. Teatr 28 aprel 1967-ci ildə Cəfər Cabbarlının "Sevil" dramı ilə pərdələrini açanda Ramiz Məlik həmin tamaşada Balaş rolunu oynayıb. Sonra Sabit Rəhmanın "Əliqulu evlənir" (11 iyun 1967) komediyasın da Kamalı ifa edib.

İyun ayının axırlarında Dövlət imtahanını vermək çün Bakıya gələn Ramiz Məlik daha İrəvana qayıtmayıb. Həmin il sentyabr ayının 16-da o, Akademik Milli Dram Teatrının truppasına aktyor götürülüb. Aktyor indiyədək məhz həmin kollektivdə çalışır. O, aktyorluq etməklə yanaşı, Əkrəm Əylislinin "Yastı təpə" (quruluşçu rejissor Tofıq Kazımov), Leonqard Frankın "Yad adam" (quruluşçu rejissor Oruc Qurbanov), İlyas Əfəndiyevin "Xurşid banu Natəvan" (quruluşçu rejissor Mərahim Fərzəlibəyov), Xalid Əlimirzəyevin "Səadət sorağında" (quruluşçu rejissor Şaiq Səfərov), Cəfər Cabbarlının "Od gəlini" (quruluşçu rejissor Ağakişi Kazımov), Bertolt Brext və Kurt Vaylın "Üç quruşluq opera" (quruluşçu rejissor Karl Qeorq Kayzer) pyeslərinin tamaşaya hazırlanmasında rejissor və rejissor assistenti kimi çalışıb.

Ramiz Məlik Akademik teatra qəbul edilən kimi 1938-ci il oktyabr ayının 5-dən repertuarda olan “Vaqif” (Səməd Vurgun) tamaşasında Əli bəy rolu ona tapşırılıb. Bundan sonra, demək olar ki, hər yeni teatr mövsümündə aktyor təzə-təzə rollar oynayıb. İlk müstəqil rolunu isə “Hamlet” tamaşasında ifa edib.

**Marsell.** “Hamlet”, Vilyam Şekspir.
**Mixail.** “Zıkovlar”, Maksim Qorki.
**Barat.** “Almaz”, Cəfər Cabbarlı.
**Əziz.** “Bağ qonşuları”, Hay Vahid.
**Stameskin.** “Zamanın hokum”, Nikolay Poqodin.
**Ninkoviç.** “Nazirin xanımı”, Branislav Nuşiç.
**Leytenant.** “Mahnı dağlarda qaldı”, İlyas Əfəndiyev.
**Dyula.** “Füsunkar qız”, Mikolaş Dyarfaş.
**Eybel.** “Qızıl”, Yucin ONil.
**Şerbina.** “Darıxma, ana!”, Nodar Dumbadze.
**Barat.** “Qəribə oğlan”, İlyas Əfəndiyev.
**Güloğlan.** “İnsan”, Səməd Vurğun. Sebastian. “Fırtına”, Vılyam Şekspır.
**Anton.** “Knyaz”, Hüseyn Cavıd.
**Busıqin.** “Övlad”, Aleksandr Vampilov.
**Kote.** “Xanuma”, Avqisentı Saqarekli.
**Qızıl Arslan.** “Qılınc və qələm”, Məmməd Səid Ordubadini eyniadlı romanı əsasında Tofiq Kazımovun işləməsi.
**Nazim.** “Vəkil neyləsin...”, Ramiz Fətəliyev.
**Səlim.** “Yollara iz düşür...”, Bəxtiyar Vahabzadə.
**Petrunov.** “Qızıldan qiymətli”, Dmitri Asenov.
**Formasyon Rüstəm.** “Dəli yığıncağı”, Cəlil Məmmədquluzadə.
**Don Juan.** “Heç nədən hay-küy”, Vilyam Şekspir.
**Teymur.** “Yastı təpə”, Əkrəm Əylisli.
**Valter.** “Yad adam”, Leonqard Frank.
**Mikayılov.** “Xurşid banu Natəvan”, İlyas Əfəndiyev.
**Arif.** “İblis”, Hüseyn Cavid.
**Toğrul.** “Atabəylər”, Nəriman Həsənzadə.
**Dəyanət.** “Fəryad”, Bəxtiyar Vahabzadə.
**Birinci.** “Biganələr oteli”, Rüstəm İbrahimbəyov.
**Aqşin.** “Od gəlini”, Cəfər Cabbarlı.
**Antoni.** “Kölgələrin oyunu”, Yuri Edlis.
**Ivanov.** “Tufandan əvvəl”, Arif Süleymanov.
**Jan.** “Dəfn edilməmiş ölülər”, Jan Pol Sartr.
**Mayis.** “Sevgililərin cəhənnəmdə vüsalı”, İlyas Əfəndiyev.
**Katib.** “Gecə döyülən qapılar”, Nəbi Xəzri.
**Dulu Xaqan.** “Özümüzü kəsən qılınc” (“Göytürklər”), Bəxtyar Vahabzadə.
**Haris.** “Ulduz, yaxud Ədirnə fəthi”, Cəfər Cabbarlı.
**Kişi.** “Poçt şöbəsində xəyal”, Elçin.
**Vilyams.** “Kəllə”, Nazim Hikmət.

Ramiz Məlik Azərbaycan Dövlət Televiziyasının hazırladığı Ənvər Məmmədxanlının “Şərqin səhəri” (Bəhruz), Əlibala Hacızadənin “İnanmırsansa...” (Adil), Nəriman Həsənzadənin “Kimin sualı var?” (Ədalət), Mixael Cavaxaşvilinin “Günahsız Mustafa” (Şakro) əsərlərinin tamaşalarında oynayıb.

1984-cü ildə Hüseyn Cavidin “İblis” façiəsini tamaşaya hazırlayan rejissor Mehdi Məmmədov, rəssamlar Elçin Məmmədov və Nazim Bəykişiyev, aktyorlardan Məmmədrza Şeyxzamanov (İxtiyar), Hamlet Xamzadə (İblis), Vəfa Fətullayeva (Rəna), Səməndər Rzayev (İbn Yəmin) və Ramiz Məlik (Arif) Respublika Dövlət mükafatına layiq görülüblər.

Aktyorluq sənətində qazandığı nailiyyətlərə və teatr sənətindəki xidmətlərinə görə Ramiz Ağarza oğlu Məlikov (Ramiz Məlik) 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti və 24 may 1998-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.



**Hacı İSMAYILOV**
**Xalq artisti**

İlk növbədə tipik xarakter rollarla yadda qalıb. 1979-cu ildə “Ad günü” fılmində çəkildiyi Mustafa rolu ilə çox məşhurlaşıb.

Yaradıcılığında milli ruha qovuşuq olan zərif, ancaq çox yapışıqlı yumoru var. İfadə vasitələri sadə və mənalıdır, yumşaq, xaraktercə məzəli və təbiətən sakit personajların səhnə və ekran təfsirində uğurlarının mahiyyəti, aktyorluq qabiliyyətinin estetik səciyyələri daha parlaq, məzmunlu, psixoloji cəhətdən əsaslı görünür. Realist səhnə sənətkarı kimi sadəlik və reallıq tərəfdarıdır. Daxilən temperamentli olan Hacı İsmayılov səhnədə ehtiraslı duyğularını cilovlamağı və onlara realizm sadəliyi, psixoloji zəmin verməyi xoşlayan aktyordur. “Xəsis”, ancaq tipik səciyyəli, koloritli tapıntılardan ustalıqla istifadə edə və bu tapıntılarını obrazın daxili aləmi, estetik bədii tutumu ilə ahəngdar cazibədarlıqla əlaqələndirə bilir. Rejissorun tamaşada qurduğu mizanlara fərdi yaradıcılıq münasibətini

həssaslıqla bildirir, tamaşalardakı yöndaşlarına qarşı həssas və diqqətcildir. Romantik səpkili tamaşalarda da təbii realizmə sadiq qalmağı və psixoloji ifadə oyun-üslub vasitələrinə üstünlük verməyi xoşlayır.

Hacı Məcid oğlu İsmayılov 22 yanvar 1944-cü ildə Bakıda doğulub.1961-ci ildə orta məktəbi bitirib və bir il Bakı Tütün Fabrikində fəhlə, bir il isə Gənc Tamaşaçılar Teatrında işıqçı işləyib. 1963-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr Institutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub.

1967-ci ilin əvvəllərində İrəvan Dövlət Azərbaycan Dram Teatrını (1949-cu ildə bağlanıb) yenidən bərpa etmək üçün xüsusi hökumət qərarı oldu. Teatr institutun son kurs tələbələri fevral ayında müəllim və rejissor Nəsir Sadıqzadə ilə İrəvana ezam edildilər. Teatrın bərpa-açılışı həmin il aprel ayının 28-də “Sevil” (Cəfər Cabbarlı) tamaşası ilə oldu. Hacı İsmayılov bu tamaşada Məmmədəli bəy rolunu oynayıb. Yay yenicə başlayanda tələbə-aktyorlar Dövlət imtahanı vermək üçün Bakıya gəldilər və geri qayıdanda Hacı İsmayılov İrəvana getmədi. Həmin il sentyabrın 1-dən 1968-ci ilin sentyabrına qədər Azərbaycan Dövlət İncəsənət İnstitutunun (Teatr İnstitutunun adı 1967-ci ilin payızında dəyişdi) səhnə danışığı kafedrasında müəllim işlədi.

Həmin dövrdə Sumqayıt şəhərində yeni Dövlət Dram Teatrı yaradıldı. Hacı İsmayılov bu kollektivdə aktyor işləməyə dəvət aldı və 1968-ci il sentyabr ayının 2-də gənc truppaya daxil oldu. Yeni teatrın təntənəli açılışında, yəni 1969-cu il mart ayının 14-də Mirzə Fətəli Axundzadənin “Müsyö Jordan və dərviş Məstəlişah” komediyası göstərildi. Rejissor Cənnət Səlimovanın quruluş verdiyi tamaşada Hacı İsmayılov məharətlə Dərviş Məstəlişah rolunu ifa edib. Bundan sonra kollektivin rejissor Nəsir Sadıqzadənin dalbadal quruluş verdiyi Con Patrikin “Qəribə missis Səvic” (15 mart 1969) dramında Ceffi, Aramaşot Papayanın “Bəli, dünya dəyişib” (13 aprel 1969) komediyasında Səməndər, Cəfər Cabbarlının “Sevil” (29 may 1969) pyesinin tamaşasında Məmmədəli bəy rolunda çıxış edib.

Həmin dövrdə Sumqayıt teatrda müəyyən tamaşaçı rəğbəti qazanmasına baxmayaraq, Hacı İsmayılov 1969-cu il sentyabr ayının 15-də ərizə yazaraq kollektivdən ayrılıb. Bir müddət işsiz qalıb. 1970-ci il fevral ayının 16-da Akademik Milli Dram Teatrına başqa vəzifəyə işə götürülüb, ancaq aktyor kimi çalışıb. Elə ilk gündən də çoxdan bəri səhnədə məşqləri gedən Hüseyn Cavidin “Xəyyam” faciəsindəki İkinci qulam roluna əlavə ifaçı kimi daxil edilib. Quruluşçu rejissor Mehdi Məmmədovun hazırladığı əsərin ilk tamaşası 1970-ci il mart ayının 12-də göstərilib. Bundan sonra da bir neçə təzə tamaşada rollar oynayan, repertuardakı hazır əsərlərdə (məsələn, “Vaqif” mənzum dramında) epizod obrazların ifasına daxil edilən Hacı İsmayılov truppanın aktyor ştatına sentyabr 1973-cü ildə keçirilib. 27 sentyabr 1990-cı ildən isə o, truppanın yüksək kateqoriyalı aktyor ştatındadır.

Hacı İsmayılov yaradıcılığının xarakterik sənətkarlıq xüsusiyyətlərinə görə realist aktyor məktəbinin poetika göstəricilərinə daha uyğundur. Akademik teatrda oynadığı əllidən çox rolun böyük bir qismi məhz həmin üslubun estetik səciyyələrinə uyğundur. Həmin cəhət aktyorun 1970-ci ildən üzü bəri illərin

ardıcıllığı ilə verilən oynadığı rolların xarakteristikasında da özünün ifadə və mahiyyət təcəssümünü tapıb.

**İkinci qulam və İbn Tahir.** "Xəyyam", Hüseyn Cavid.
**Katib.** "Zamanın hokum", Nikolay Poqodin.
**Dördüncü qaçaq**. "Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev.
**Kərəm.** "Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə.
**Gənc.** "Sən yanmasan...", Nəbi Xəzri.
**Kukuri.** "Darıxma, ana!", Nodar Dumbadze.
**Lakey və Novruz bəy**. "Aydın", Cəfər Cabbarlı.
**Kiçik qardaş və Şaliko.** "Vaqif", Səməd Vurğun.
**Elşən.** "Mənziliniz mübarək!", Seyfəddin Dağlı.
**Qəşəm.** "Yol ayrıcında", İslam Səfərli.
**Kişi.** "Şöhrət və ya unudulan adam", Nazim Hikmət.
**Alman zabiti.** "İnsan", Səməd Vurğun.
**Fransisko.** "Fırtına", Vilyam Şekspir.
**Fəhlə.** "Knyaz", Hüseyn Cavid.
**Tufan.** "Əks-səda", Nəbi Xəzri.
**Meyvəçi.** "Xanuma", Avqisenti Saqareli.
**Katib.** "Kreml saatı", Nikolay Poqodin.
**Carçı.** "Qılınc və qələm", Məmməd Səid Ordubadinin eyniadlı romanı əsasında Tofiq Kazımovun işləməsi.
**Yanvar.** "Kölgələr pıçıldaşır", Seyfəddin Dağlı.
**Rüstəm.** "Vəkil neyləsin...", Ramiz Fətəliyev.
**Səmərqəndli.** "Məhəbbət əfsanəsi", Nazim Hikmət.
**Daşqın.** "Yollara iz düşür", İslam Səfərli.
**Hacı Cəfər.** "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə.
**Məmmədəli bəy.** "Sevil", Cəfər Cabbarlı.
**Ərşad.** "Quşu uçan budaqlar", Əkrəm Əylisli.
**Fənd Bağır.** "Adamın adamı", Anar.
**Naməlum adam.** "Karıxmış sultan", Taufıq əl Hakimi.
**Ruzigar.** "Səhra yuxuları", Anar.
**Muradalı.** "Xurşid banu Natəvan", İlyas Əfəndiyev.
**Həkim.** "Maqbet", Vilyam Şekspir.
**Barataşvili.** "Mirzə Şəfi", Nəbi Xəzri.
**Məmmədhəsən əmi.** "Sizi deyib gəlmişəm...", Anar.
**Yaralı zabit.** "İblis", Hüseyn Cavid.
**Fariz.** "Büllur sarayda", İlyas Əfəndiyev.
**Yad adam.** "Atabəylər", Nəriman Həsənzadə.
**Orduxanov.** "Qarabağ əfsanəsi", Qeybulla Rəsulov.
**Ruhani.** "Biganələr oteli", Rüstəm İbrahimbəyov.
**Apallion.** "Böyük Romul", Fridrix Dürrenmatt.
**Sönməz.** "Od gəlini", Cəfər Cabbarlı.
**Çopur.** "Günah", Rəhman Əlizadə.
**Hacı Əsədulla.** "Mənsiz dünya", Nəbi Xəzri.
**Həkim.** "Tufandan əvvəl", Arif Süleymanov.

**İmanov.** “Yayda qartopu oyunu”, Vaqif Səmədoğlu.
**Umud.** “Yalan”, Sabit Rəhman.
**Katib-robot.** “Hara gedir bu dünya?”, Bəxtiyar Vahabzadə.
**Ağadadaş Nəcəfov.** “Dəlilər və ağıllılar”, İlyas Əfəndiyev.
**Ziyad.** “Məhəbbət yaşadır”, Nahid Hacızadə.
**Simran.** “Qisas qiyamətə qalmaz”, Nahid Hacızadə.
**Qraf Kent.** “Kral Lir”, Vilyam Şekspir.
**Mehdiqulu.** “Ah, Paris... Paris!..”, Elçin.
**Teatr aktyoru.** “Pompeyin Qafqaza yürüşü”, Nəriman Həsənzadə.
**Məsul katib.** “Mənim sevimli dəlim”, Elçin.
**Yan Çunq.** “Özümüzü kəsən qılınc”, Bəxtiyar Vahabzadə.
**Qonşu.** “Mənim ərim dəlidir” (“Diaqnoz “D”), Elçin.
**Qoşqar Kəngərli.** “Bu dünyanın adamları”, Hidayət Orucov.
**İbn Zeyd.** “Dar ağacı”, Bəxtiyar Vahabzadə.
**Mirzə Ələkbər Sabir.** “Hərənin öz payı”, Xeyrəddin Qoca.

Hacı İsmayılovun kino yaradıcılığı, bu sənətdəki populyarlığı və şöhrəti, qazandığı genişmiqyaslı tamaşaçı məhəbbəti onun teatr fəaliyyətindən daha parlaqdır. Aktyor “Azərbaycanfilm” kinostudiyasında ilk dəfə Rasim Ocaqovun rejissoru olduğu “Ad günü” filmində Mustafa roluna çəkilib. Elə bu rolla da böyük uğur qazanıb və o, Respublikanın Dövlət mükafatı laureatı adına layiq görülüb (22 aprel 1980). Bundan sonra “Bağlı qapı arxasında” (Alik), “Dantenin yubileyi” (Əlikram), “Yol hadisəsi” (Mürşüd), “Ölsəm, bağışla” (Tağı), “Fəryad” (Rövşən), “Nakəs” (Xəstə), “Yaramaz” (Hacı), “Bəyin oğurlanması” (Tağı), “Şeytan göz qabağında” (Balıqçı), “Özgə həyat” (Qasımov), “Həm ticarət, həm ziyarət” (Mustafa müəllim), “Sarı gəlin” (Qədir), “Işgüzar Səftər” (Oqtay) filmlərində müxtəlif xarakterli rollara çəkilib.

Azərbaycan Dövlət Televiziyasında hazırlanmış çoxlu əsərlərdə iştirak edib. Onların arasında Vaqif Səmədoğlunun üçhissəli “Yaşıl eynəkli adam” (Qafar), Mövlud Süleymanlının “Fatehlərin divanı” (Qazi), Üzeyir bəy Hacıbəyovun felyetonları əsasında işlənmiş “Ordan burdan” (Qoçu Gülbala), İlyas Əfəndiyevin “Atayevlər ailəsində” (Xuruş), Altay Məmmədovun “Kişilər” (Səməndər), Vəsid bəy Əfəndiyevin “Qonşu qonşu olsa kor qız ərə gedər” (Əhməd), Mehdi Hüseynin “Alov” (Bədəl), Aqşin Babayevin “Nekroloq” (Fərəc), Anarın “Nigarançılıq” (Kəblə Qasım) teletamaşalarında yaratdığı duzlu, yumorlu, dramatik və tipik obrazlar daha uğurlu sənət axtarışlarının bəhrəsidir.

Məshur kino və teatr aktyoru Hacı İsmayılov bu iki doğma sənətdə qazandığı nailiyyətlərə görə 17 may 1989-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti və 19 dekabr 2000-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.



**Zərnigar AĞAKİŞİYEVA**
**Xalq artisti**

Yaradıcılıq ruhuna və fərdi üslub keyfiyyətlərinə görə realist aktyor məktəbinin estetik səciyyələrinə və poetika xüsusiyyətlərinə daha yaxındır. Karnaval estetikalı şən komediya rollarını və tipik cəhətləri ilə diqqəti çəkən dramatik rollarda daha şövqlə oynayır. Daxili ehtirasını və psixoloji tapıntılarını ifa etdiyi obrazın səhnə təfsirinə uyğun tərzdə məharətlə nizamlaya bilir.

Zərnigar Fəti qızı Ağakişiyeva 7 noyabr 1945-ci ildə Quba rayonunun Rustov kəndində doğulub. Uşaq yaşlarından ailəsi Qubaya köçüb və o, burada 3 saylı rus məktəbinin səkkizinci sinfini bitirib. İki il fasilə verəndən sonra 1963-cü ildə Bakıya gəlib və Kooperativ Texnikumunun sənaye malları üzrə əmtəəşünas fakultəsinə daxil olub. 1966-cı ildə oranı bitirərək Moskvaya gedib və Kooperativ Texnikumunun nəzdində birillik ticarət reklamı üzrə xüsusi kursu qurtarıb. Bir il Bakıda bu ixtisas üzrə işləyib və 1968-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun musiqili komediya aktyorluğu fakültəsinin musiqili komediya aktyorluğu şöbəsinə daxil olub. İnstitutun Tədrıs teatrında Cəfər Cabbarlının "Aydın" faciəsində Susanna rolunu məharətlə oynadığına görə ikinci semestrdə onu rektorun əmri ilə dram və kino aktyorluğu fakültəsinin gündüz şöbəsinə keçiriblər.Eyni zamanda Tədris teartına aktrisa götürülüb və burada Züleyxa ("Yusif və Züleyxa", Nazim Hikmət), Zənci qadın ("Bir iş gör, Met", Əziz Nesin) rollarını oynayıb.

İnstitut təhsilini tamamlayandan sonra da bir müddət Tədris teartında aktrisa kimi çalışan Zərnigar Ağakişiyeva rejissor Əşrəf Quliyevin dəvətilə Akademik Milli Dram Teatrında ilk tamaşası 19 may 1973-cü ildə göstərilən Aleksandr Ostrovskinin "Müdriklər" dramında Mamayeva rolunu oynayıb. Həmin ilin 23 dekabrında isə yenə Əşrəf Quliyevin quruluşunda Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" dramında Qadın obrazını ifa edib. Qazandığı uğurlara görə Zərnigar Ağakişiyeva 2 sentyabr 1974-cü ildə Akademik Milli Dram Teatrının aktyor heyətinə aktrisa qəbul olunub.

O, 15 iyun 1992-ci ildə teatrdan uzaqlaşıb və özəl milli kamera truppası toplayaraq fərdi fəaliyyətə başlayıb. Bəxtiyar Vahabzadənin poetik nümunələri əsasında "Könüldən qalan səslər" kompozisiyasını, Oruc Qurbanovun "Yorğan-döşək", "Qan" musiqili estrada tamaşalarını hazırlayıb. Paralel olaraq fılmlərə çəkilib, televiziya tamaşalarında rollar oynayıb.

Zərnigar Ağakişiyeva 2 sentyabr 1999-cu ildən yenə Akademik teatrın yaradıcı heyətində fəaliyyət göstərir. Məşhur aktrisa müəyyən fasilələrlə Milli Dram Teatrının səhnəsində xeyli rol oynayıb. Onlar oxuculara illərin ardıcıllığı ilə təqdim edilir.

**Mamayeva.** “Müdriklər”, Aleksandr Ostrovski.
**Qadın.** “Şöhrət və ya unudulan adam”, Nazim Hikmət.
**Katibə.** “Sevgi... sevgi...”, Emil Braginski və Eldar Ryazanov.
**Makarskaya.** “Övlad”, Aleksandr Vampilov.
**Tatyana.** “Meşşanlar”, Maksim Qorki.
**Xuraman.** “Vaqif”, Səməd Vurğun.
**Zabelina.** “Kreml saatı”, Nikolay Poqodin.
**Şəfəq.** “Kölgələr pıçıldaşır”, Seyfəddin Dağlı.
**Olqa Semyonova.** “Daşqın”, Seyfəddin Dağlı.
**Mustəntiqin arvadı.** “İstintaq”, Rüstəm İbrahimbəyov.
**Dilbər.** “Sevil”, Cəfər Cabbarlı.
**Xəbərçi Xədicə**. “Adamın adamı”, Leonqard Frank.
**Reyhan.** “Yaşıl təpə”, Əkrəm Əylisli.
**Amalya.** “Yad adam”, Leonqard Frank.
**Zeynəb.** “Kimdir haqlı?”, Bəxtıyar Vahabzadə.
**Klavdiya.** “Gecənin sirri”, Anatoli Safronov.
**Nilufər.** “Məhəbbət yaşadır”, Nahid Hacızadə. Kiçik səhnədə
**Maral.** “Közərən ocaqlar”, Mirzə İbrahimov.
**Zivər.** “Təhminə və Zaur”, Anar.
**Fəridə.** “Günah”, Rəhman Əlizadə.
**Kəmalə.** “Qəribə oğlan”, İlyas Əfəndiyev.
**Fəxrəndə xanım.** “Mahnı dağlarda qaldı”, İlyas Əfəndiyev.
**Adilə xanım.** “Yayda qartopu oyunu”, Vaqif Səmədoglu.
**Seliya Piçem.** “Üç quruşluq opera”, Bertolt Brext və Kurt Vayl.
**Qəbula gələn qadın**. “Qızıl teşt”, Seyran Səxavət.
**Bəyim nənə.** “Gülüstanda qətl”, Cəmil Əlibəyov.
**Bernardo.** “Dişi canavar”, Federiko Qarsia Lorka.
**Pəri xanım.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.
**Qadın.** “Poçt şöbəsində xəyal”, Elçin.
**Yasəmən.** “Eşq və intiqam”, Süleyman Sani Axundov.
**Ana.** “Dar ağacı”, Bəxtiyar Vahabzadə.
**Qadın.** “Kəllə”, Nazim Hikmət.

Aktrisa Azərbaycan Dövlət Televiziyasının hazırladığı çoxlu teletamaşalarda, ədəbi-bədii kompozisiyalarda çıxış edib. Onların arasında “Pəncərədən daş gəlir” (Həzi Aslanovun arvadı), İlyas Əfəndiyevin “Atayevlər ailəsində” (Dilşad xanım), “Sarıköynəklə Valehin nağılı” (Ceyran xanım), Anarın “Ötən ilin son gecəsi” (Həmidə), Karlo Haldoninin “Mehmanxana sahibəsi” (Mirondalina), Mövlud Süleymanlının “Kökdən düşmüş piano” (Qaynana), Üzeyir bəy Hacıbəyovun felyetonları əsasında “Ordan-burdan” (Firuzə xanım), Aleksey Arbuzovun “Köhnə dəbli komediya” (Tatyana Vasilyevna), Tahir Kazımovun “Taleyin qismətı belə imiş” (Qaynana), Altay Məmmədovun “Kişilər” (Kolxoz sədri) əsərlərinin teletamaşalarında oynadığı rollar daha uğurludur.

Teatrda və televiziyada məşhur olan sənətkar “Azərbaycanfilm” kinostudiyasında “Yol hadisəsi”, “Dantenin yubileyi” (Kəbirlinin arvadı), “Özgə

həyat”, “Fransız” (Zərnigar), “Yaramaz” (Qaynana), “Təhminə və Zaur” (Zivər), “Yuxu” (Xurşid xanım), “Gözəl, gözəl, gözəl dünya” (Həkim), “Kiçik leytenant”, “Qara volqa”, “Yarasa” filmlərində əsas, ikinci dərəcəli və epizod rollara çəkilib.

Zərnigar Fəti qızı Ağakişiyeva səhnə sənətindəki xidmətlərinə, çoxşaxəli fəalıyyətinə görə 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının əməkdar artistı, 28 oktyabr 2000-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.



**Ilham NAMİQ KAMAL**
**Xalq artisti**

Əvvəllər “İlham Əhmədov” kimi çıxış edirdi. “Namiq Kamal” təxəllüsünü 1980-cı illərin ikinci yarısından götürüb.

Komediya aktyorudur, ancaq Rauf (“Ümid”), Spuriy Tit Mamma (“Böyük Romul”) kimi dramatik, Cəmil (“Unuda bilmirəm”), Bodenşdet (“Mirzə Şəfi”) səpkili psixoloji rollar da oynayıb.

Yüksək səhnə mədəniyyətli aktyordur, daxilən zadəganlığı var. Güclü səhnə plastikasına, ekssentrik hərəkətlər toplusuna, xalq gülüş estetikasının çoxqatlı yumoruna, həssas səhnə diqqətinə, potensial hafizə yaddaşına malik sənətkardır. Məşq prosesində çalışqanlığı, tapdığı tipik ifadə vasitələrini cəsarətlə sınaqdan çıxarması ilə seçilir. Hazırda həm Akademik Milli Dram Teatrının yüksək dərəcəli aktyoru, həm də “İlham” Miniatür Teatrının rəhbəridir.

İlham Namiq Kamal oğlu Əhmədov 9 yanvar 1949-cu ildə Bakıda doğulub. Buradakı 31 saylı orta məktəbi 1966-cı ildə bitirərək Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstıtutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. SSRİ xalq artisti Ədil İsgəndərovun və Azərbaycanın xalq artisti Rza Təhmasibin kursunda təhsil alıb. Tələbə vaxtı fransız ədibi Jan Batist Molyerin “Jorj Danden” satirik komediyasının tamaşasında baş qəhrəmanın rolunu uğurla oynayıb. Onu institutun Tədris teatrının aktyor truppasına qəbul ediblər (16 dekabr 1968). Bu kollektivdə Mirzə Cavad (“Aydın”, Cəfər Cabbarlı), Şvester (“Meteor”, Fridrix Dürenmatt), Lomov (“Elçilik”, Anton Çexov), Rekrutçu (“Sahildə bir ev” Stefan Sveyq), Baş katib (“Sehrli kreslo”, Friteş Korinti), Molla Səbzəli (“Üləma məclisi”, Mirzə Ələkbər Sabirin şerləri əsasında) rollarını oynayıb.

O, 1971-ci il noyabrın 25-dən 1972-ci il fevral ayının 2-dək Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyor truppasında olub. Fevral ayının 3-dən Akademik Milli Dram Teatrında aktyor işləyib. 20 mart 1989-cu ildə istedadlı gənc rejissor Hüseynağa Atakişiyevin təşkil etdiyi Gənclər Teatrında aktyorluğa başlayıb. Bu kollektiv 26 yanvar 1993-cü ildən Azərbaycan Dövlət Gənclər Teatrı kimi fəaliyyət göstərir. İlham Namiq Kamal bu gənc kollektivin səhnəsində dörd il

çalışıb. Burada Stanislav Stratiyevin "Çarəsiz sərnişinlər" (Məsuliyyətsiz), Rəhman Əlizadənin "Dadaşbala əməliyyatı" (Dadaşbala), İsi Məlikzadənin "Sultanqulu körpüsü" (Sultanqulu), Rober Tomanın "Arvadımın qatili" (Daniel), Vaqif Səmədoğlunun "Dağ tikirik" (Kələntər), Georgi Xuqayevin "Arvadımın əri özüməm" (Kazbek) pyeslərinin səhnə təsfirində, "Gül, sevin, gül" (müxtəlif sifət-maskalar) şou-tamaşasında baş rolları ifa edib.

Dövlət Gənclər Teatrında işləməklə yanaşı, eyni zamanda 1989-1991-ci illərdə paralel olaraq Azərbaycan Dövlət Musiqili Komediya Teatrında aktyoluq edib. Bu teatrda dramaturq Georgi Xuqayevin və bəstəkar Eldar Mansurovun "Sevgilimin anası və yaxud evlənmə əhvalatı" (Albadam), Cahangir Aslanoğlu və Həsənağa Qurbanovun "Qarğa, məndə qoz var" (Adil, Farmazon, Aşıq, Professor və Əyyaş), rus bölməsində Eduardo de Filippo və Fərəc Qarayevin "Fulimeno Marturano" (Dominesko Soriano) musıqili komediyalarında oynayıb.

1993-cü il iyun ayının 14-də bu truppadan çıxıb və özünün "İlham" Mınıatür Teatrını yaradıb. Direktor və bədii rəhbər olduğu həmin özəl teatrda həm quruluşçu rejissor, həm də aktyor kimi şıxış edib. Burada hazırlanan bütün tamaşaların quruluşçu rejissoru olub, bunların əksəriyyətində baş rolları özü oynayıb. Həmin rollar şəbəkəsinin mənzərəsi belədir.

**İlham.** "İlhamın sərgüzəştləri", Rafıq Səməndər.

**Novruz.** "Novruz", Rafıq Səməndər.

Bayram. "Xan-xan oyunu", Rafıq Səməndər.

**Məcnun, Mixaylo, Balaş, Koroğlu, Şeyx Nəsrulla..** " Yubileysayağı məsxərə, yaxud kiçik toy", Rafıq Səməndər.

**Don Kixot.** "Don Kixot Abşeronski", Rəhman Əlizadə.

**Molla.** "Dünyanın axırı", Rəhman Əlizadə.

**Bakir.** "Bəxtimin kələyi", Rəhman Əlizadə.

**Əvəz.** "Əl əli yuyar...", Anar.

**Namizəd.** "Şifonerdə eşq-məhəbbət", Cahangir Aslanoğlu.

**Şahvülüd.** "Qulaq", Ramiz Əkbər.

**Sənətkar.** "Müasir toy", Miryusif Mirnəsiroğlu.

**Dərviş Məstəlişah.** "Müsyö Jordan və dərviş Məstəlişah" Mirzə Fətəli Axundzadə.

Bu tamaşalarla yanaşı, özü oynamadığı Rafıq Səməndərin "Şaxta babalar və Qar qız", "Meşədə yeni il şənliyi", "Baş sındıran məsələ" nağıl-tamaşalarına səhnə həyatı verib.

İlham Namiq Kamal 20 oktyabr 1998-ci ildən, həmçinin Akademik Milli Dram Teatrının yüksək dərəcəli aktyorudur. Müəyyən fasilədən sonra truppaya qayıdan aktyorun bu kollektivdə ilk rolu Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti vəziri xani Lənkəran" ("Lənkəran xanının vəziri") tamaşasında Xan rolu olub. Sonra o, repertuarda olan Elçinin "Mənim ərim dəlidir", Hidayət Orucovun "Bu dünyanın adamları" pyeslərinin tamaşalarında baş rollar Kişi və Zaman müəllim obrazlarına təzə ifaçı kimi daxil edilib.

İlham Namiq Kamal Akademik Milli Dram Teatrında hazır tamaşalardakı müəyyən rollara sonradan daxil edilmək ən əlavə kollektivin hazırladığı otuzdan çox təzə tamaşada müxtəlif səpkili rollar oynamışdır.

**İkinci kamerdiner.** "Məkr və məhəbbət", Fridrix Şiller.

**Fotoqraf.** "Şöhrət və ya unudulan adam", Nazim Hikmət.

**Alman zabiti və Alman oğlu.** "İnsan", Səməd Vurğun.

**Kinto.** "Knyaz", Hüseyn Cavid.

**Səfər.** "Əks-səda", Nəbi Xəzri.

**Qubad.** "Bağlardan gələn səs", İlyas Əfəndiyev.

**Mühakim.** "Qılınc və qələm", Məmməd Səid Ordubadinin eyniadlı romanı üzrə Tofiq Kazımovun işləməsi.

**Rauf.** "Ümid", Maqsud İbrahimbəyov.

**Təlxək və Şeyx Alı.** "Vaqif", Səməd Vurğun.

**Adrian.** "Fırtına", Vilyam Şekspir.

**Pedro.** "Don Jnan yaxud bəşərin komediyası", Mirzə İbrahimov.

**Cokan Yemelyan.** "Daşqın", Anatoli Safronov.

**Firuz.** "Şəhərin yay günləri", Anar.

**Hacı Mədinə.** "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə.

**Müsyö Jordan və dərviş Məstəlişah**. "Müsyö Jordan və dərviş Məstəlişah", Mirzə Fətəli Axundzadə.

**Feyzulla.** "Quşu uçan budaqlar", Əkrəm Əylisli.

**Tarik Tərlan.** "Adamın adamı", Anar.

**Cəkməçi.** "Karıxmış sultan", Taufiq əl Hakimi.

**Pepo.** "Pepo", Qabriel Sundukyan.

**Markos.** "Şərqli diş həkimi", Akop Paronyan.

**İran şahzadəsi.** "Xurşid banu Natəvan", İlyas Əfəndiyev.

**Donalbayn.** "Maqbet", Vilyam Şekspir.

**Bodenştedt.** "Mirzə Şəfi Vazeh", Nəbi Xəzri.

**Lağlağı.** "Sizi deyib gəlmişəm...", Anar.

**Qulaməli.** "Közərən ocaqlar", Mirzə İbrahimov.

**Cəmil.** "Unuda bilmirəm", İlyas Əfəndiyev.

**Batı və Rəhim Dadaşoviç.** "Qəribə oğlan", İlyas Əfəndiyev.

**Camal.** "Nişanlı qız", Sabit Rəhman.

**Canəli.** "Qarabağ əfsanəsi", Qeybulla Rəsulov.

**Bubnov.** "Həyatın dibində", Maksim Qorki.

**Spuriy Tit Mamma.** "Böyük Romul", Fridrix Dürrenmatt.

**Fərrux.** "Günah", Rəhman Əlizadə.

**Mattias.** "Üç quruşluq opera", Bertolt Brext və Kurt Vayl.

**Əsgərov.** "Kərgədan buynuzu", Maqsud İbrahimbəyov.

**Narçın.** "Qanlı Nigar", Sadıq Şendil.

**Gülən adam.** "Hərənin öz payı..." Xeyrəddin Qoca.

**Doktor Qaratay**. "Afət", Hüseyn Cavid.

Aktyor "Azərbaycanfilm"in istehsal etdiyi ekran əsərlərinə də çəkilmişdir. Onun "Qaynana" (İlqar), iki seriyalı "Qəribə adam" (Əbdülrəhman), "Arvadım

mənim, uşaqlarım mənim" (MİS mudırı), "Uzun ömrün akkordları" (Jurnalist), "Qızıl qaz" (Əli), "Bəyın oğurlanması" (Anar) filmlərindəki rolları daha sanballı və koloritlidir. O, onlarca televiziya verilişində satirik obrazlarda, Mozalan satirik kinojurnalında yüzə yaxın bədii süjetdə çəkildiyi surətlərdə böyük yaradıcılıq səyi ilə çıxış edib.

Teatr  və kino aktyopu kimi  məşhur olan İlham Namiq Kamal Azərbaycan Dövlət Televiziyasının müxtəlif əyləncəli, musiqili proqramlarının əsas aparıcılarından olub. Onun oynadığı Altay Məmmədovun  "Kişilər" (Hüseyn Ağbacı), Karlo Haldoninin "Mehmanxana sahibəsi" (Markiz), İslam Səfərlinin "Cöz həkimi" (Talıbov), Anarın "Evləri köndələn yar" (Paşa Paşayeviç), Anton Çexovun "Yubiley" (Şipuçin), Rəhman Əlizadənin "Həmişə təmizlikdə" (Alim, İxtiraçı, Ambardar, Əyyaş  Fırıldaqçı, Gözəl xanım, Milis, Körpə), Aqşin Babayevin "Nekroloq" (Sadıqov), Rüfət Əhmədzadənin "Bu, mənəm, mən deyiləm?", "Onu yazma", "Yumoristik parodiyalar" silsiləsində (Aparıcı tiplər), Cahangir Aslanoğlunun "Mənim tanışlarım" (Tiplər) monoloqlarının, Bernard Şounun "Kənd elçiliyi" (Kişi), Nikolay Qoqolun "Evlənmə" (Podkolyosin) pyeslərinin tamaşaları Dövlət Televiziyasının daimi fondunda saxlanılır. Mailə Muradxanlının "İlhamın sərgüzəştləri", Rəhman Əlizadənin "Həmişə təmizlikdə", Hüseynağa Atakişiyevin "Benefis" adlı əyləncəli proqramları aktyorun şərəfinə çəkilib, çox populyardır və vaxtaşırı nümayiş etdirilir.

İlham Namiq Kamal oğlu Əhmədov 1 dekabr 1982-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 24 dekabr 2002-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.

O, bir neçə ildir Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti musiqili komediya aktyorluğu kafedrasının müdiridir.

**Yaşar NURİYEV**
**Xalq artisti**



Görkəmli komediya aktyorudur, ancaq psixoloji və dramatik rollar da oynayıb. “Yaşar Nuri” imzası ilə də çoxlu obrazları var. Atası Məmmədsadıq Nuriyev Musiqili Komediya Teatrının məşhur aktyorlarından olub.

Yaşar Nuriyev səhnədə yöndaşları ilə çox səmimidir, səsi, görünüşü ürəyəyatandır, davranışı qılıqlıdır. Onun səmimiyyəti ifa etdiyi səhnə obrazını tamaşa anlamından “çıxarır”, onu seyrçinin həmsöhbəti, həmdərdi və yaxud mübahisə yöndaşı edir. Xarakterə həyatilik, dərinlik, estetik təravət, psixoloji genişlik, dramatik aydınlıq verir. Onun səmimiyyəti səhnə ilə tamaşaçı salonu arasındakı “dördüncü” divarı götürür və seyrçi həm hadisələrlə, həm də tamaşaçının özü ilə bilavasitə ünsiyyətdə olur. Üstəlik bu səmimiyyət tamaşaçını aktyora qarşı diqqətcil, ünsiyyətli, rəğbətli, hüsn-təravətli, həssas və diqqətcil olmağa kökləyir. Yaşar Nuriyev geniş mənada bu keyfiyyətlərin hamısını illər boyu sənətkar müdrikliyi, ustad fəhmi ilə cilalayıb, formalaşdırıb, özünəməxsus estetik prinsiplərini müəyyənləşdirib. Teatrdan əlavə kinoda və televiziyada da bu estetik göstəriciləri həmin sənətlərin poetika xüsusiyyətlərinə uyğun tərzdə yaradıcılıq meyarına çevirib.

Yaşar Nuriyev heç bir teatr, kino, televiziya rolunda özünü “gizlətmir”. Biz səhnədə, ekranda və efirdə ilk növbədə aktyor Yaşarı görürük. O, dinamik ritmlə, ancaq psixoloji ahənglə, yumorlu pillələrlə obrazı ətə-qana doldurur, onun əsərdəki sosial-ictimai tutumunu, fərdi-psixoloji portretini cızır. Özü dəyişmədən obrazda dəyişmək peşəkarlığın ən yüksək zirvələrindən biridir.

Sənətkar Yaşar Nuriyev bu əzəmətli zirvəni möhtəşəm sənət qələbələri ilə çoxdan fəth edib.

Yaşar Məmmədsadıq oğlu Nuriyev 1951-ci il sentyabr ayının 3-də Bakıda doğulub. 173 saylı məktəbdə oxuyub və oranı bitirib. Hələ məktəbli ikən atasının işlədiyi Musiqili Komediya Teatrında dramaturq Məhərrəm Əlizadənin və bəstəkar Ağası Məşədibəyovun “Toy kimindir?” musiqili komediya tamaşasında Qoşunun oğlu Tapdıq rolunda səhnəyə çıxıb. Dövlət Televiziyasının “Yelkən” və məktəblilərə həsr olunan digər verilişlərində iştirak edib və şagird-aktyor kimi məşhurlaşıb. Müxtəlif dram dərnəklərinə gedib.

Orta məktəbi bitirən Yaşar Nuriyev 1968-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Kurs rəhbərləri, tanınmış səhnə xadimləri Rza Təhmasib və Əliheydər Ələkbərovdan aktyorluq sənətinin incəliklərini öyrənib.

1972-ci ilin iyul ayında Aleksandr Ostrovskinin “Günahsız müqəssirlər” dramında Neznamov roluna görə ali təhsilini əla qiymətlə başa vuran gənc aktyor

noyabr ayında hərbi xidmətə çağırılıb. Bir il orduda olub və qayıdaraq İncəsənət İnstitutunun Tədris teatrına aktyor götürülüb. Burada İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" (Fərəcov), Jan Batist Molyerin "Skapenin kələkləri" (Jeront), Cəfər Cabbarlının "Aydın" (Mirzə Cavad) pyeslərinin tamaşalarında çıxış edib.

1974-cü il dekabr ayının 1-də Akademik Milli Dram Teatrının baş rejissoru Tofiq Kazımovun dəvətilə bu kollektvin aktyor truppasına qəbul olunub. Elə həmin gündən də Aleksandr Vampiolvun "Övlad" ("Böyük oğul") pyesinin məşqlərində Silva rolunu hazırlamağa başlayıb. Rejissoru Tofiq Kazımov olan tamaşanın premyerası 1974-cü il dekabrın 28-də göstərilib. Yaşar Nuriyevin debütü çox uğurlu olub və tezliklə o, teatrın aparıcı aktyorlar arasında özünə layiqli yer tutub.

Yaşar Nuriyev Milli Dram Teatrında işlədiyi gündən indiyədək demək olar hər il azı bir və ya bir neçə təzə rolla özünün yaradıcılıq ömürcəsini zənginləşdirib.

**Silva.** "Övlad", Aleksandr Vampilov.
**Pərviz.** "Bağlardan gələn səs", İlyas Əfəndiyev.
**Alışov.** "Kəndçi qız", Mirzə İbrahimov.
**Kürd Musa.** "Vaqif", Səməd Vurğun.
**Sqanarel.** "Don Juan, yaxud bəşərin komediyası", Mirzə Ibrahimov.
**Məşədi Oruc**. "Ölülər", Cəlil Məmmədquluzadə.
**Səlim.** "Yollara iz düşür", Bəxtiyar Vahabzadə.
**Namiq.** "Şəhərin yay günlərı", Anar.
**Sərsəm Salman.** "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə.
**Qulaməli.** "Müsyö Jordan və dərviş Məstəlişah" Mirzə Fətəli Axundzadə.
**Əbdüləli bəy.** "Sevil", Cəfər Cabbarlı.
**Qasım.** "Quşu uçan budaqlar", Əkrəm Əylisli.
**Həfçi Məlik.** "Adamın adamı", Anar.
**Cığatay.** "Yağışdan sonar", Bəxtiyar Vahabzadə.
**Meyxanaçı.** "Karıxmış sultan", Taufıq əl Hakimi.
**Eduard.** "Yad adam", Leonqard Frank.
**Polkovnik Əmir**. "Səhra yuxuları", Anar.
**Niko.** "Şərqli diş həkimi", Akop Paronyan.
**Qurbanqulu.** "Mirzə Şəfi Vazeh", Nəbi Xəzri.
**Molla Nəsrəddin.** "Sizi deyib gəlmişəm...", Anar.
**Ziyad.** "Məhəbbət yaşadır", Nahid Hacızadə. Kiçik səhnədə.
**Bayandur**. "Büllur sarayda", İlyas Əfəndiyev.
**Rəhman.** "Fəryad", Bəxtiyar Vahabzadə.
**Milan.** "Biganələr oteli", Rüstəm İbrahimbəyov.
**Aktyor.** "Həyatın dibində" Maksim Qorki.
**Odakar.** "Böyük Romul", Fridrix Dürrenmatt.
**Altunbay.** "Od gəlini", Cəfər Cabbarlı.
**Vəzir Mirzə Həbib.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.
**Böyükağa.** "Günah", Rəhman Əlizadə.
**Conatan Piçem.** "Üç quruşluq opera", Bertolt Brext və Kurt
**Mikayılov**. "Tufandan əvvəl", Arif Süleymanov.
**Ağasəfa.** "Kərgədan buynuzu", Maqsud İbrahimbəyov.
**Davud.** "Bızım qəribə taleyimiz", İlyas Əfəndiyev.

**Abdi.** “Qanlı Nigar”, Seyran Səxavət.
**Şahməmmədov.** “Gülüstanda qətl”, Cəmil Əlibəyov.
**Saleh.** “Yalan”, Sabit Rəhman.
**Şahbaz.** “Hara gedir bu dünya?”, Bəxtiyar Vahabzadə.
**Seyidbala Rəhimov.** “Qısqanc ürəklər”, Marat Haqverdiyev.
**Qoca.** “Min illərin işığı”, Kamil Abdullayev.
**Simran**. “Qisas qiyamətə qalmaz”, Nahid Hacızadə.
**Qaraqoyunlu ata.** “Ağqoyunlular və Qaraqoyunlular”,Əli Əmirli.
**İsgəndərzadə.** “Ah, Paris... Paris!..”, Elçin.
**Şöbə müdiri.** “Mənim sevimli dəlim”, Elçin.
**Tanrıqut.** “Sokratı anma gecəsi”, Çingiz Aytmatov və Muxtar Şahanov.
**Yoldaş Əmrah**. “Bu dünyanın adamları”, Hidayət Orucov.
**Sərsəri.** “Kəllə”, Nazim Hikmət.
**Kommunist partiyasının lideri.** “Hərənin öz payı”, Xeyrəddin Qoca.
**Nəcəf.** “Brüsseldən məktublar”, Həsən Həsənov (Əzizoğlu).
**Xandəmir.** “Afət”, Hüseyn Cavid.

Teatr aktyoru kimi görkəmli sənətkar olan Yaşar Nuriyev həm də məşhur kino ustasıdır. Onun böyük populyarlıq qazandığı çoxlu ekran obrazları var. Hətta Vaqif Mustafayevin çəkdiyi “Yaramaz” bədii filmindəki Maşallah roluna görə Azərbaycan Respublikasının Dövlət mükafatı laureatıdır. Onun çoxlu ekran obrazları arasında Seyran (“Dörd bazar günü”), Eldar (“Ad günü”), Səməd (“Şir evdən getdi”), Rauf (“Mezazoy əhvalatı”), Cəmil (“Bizi dağlarda axtarın”), Həkim (“Bayquş oxuyur”), Əjdər (“Od içində”), İsrafil (“Bəyin oğurlanması”), Qubad (“Tənha narın nağılı”), Bəhram (“Qışda xəzan yarpaqları”), Kiçik div (“Məlik Məmməd”), Mokintoj (“Yol hadisəsi”), Kişi (“Sürəyya”), Arif (“Cin mikrorayonda”), Nazimzadə (“Şeytan göz qabağında”), Kərbəlayi Cəfər (“Qəm pəncərəsi”), Mahmud (“Qətl günü”), Oğulbala (“Lətifə”), Mafioz (“Gecə qatarında qətl”), Əbdülqəni (“Hər şey yaxşılığa doğru”), Mərahim (“Fransız”), Həkim Asif (“Gözəl, gözəl, gözəl dünya”), Əbdülqəni (“Milli bomba”) rollarını tamaşaçılar daha rəğbətlə qarşılayıblar. O, “Mozalan” satirik kinojurnalının iyirmiyə yaxın bədii süjetinə çəkilib.

Azərbaycan Dövlət Televiziyasında hazırlanmış yüzdən çox tamaşada, bədii kompozisiyada, satirik səhnəciklərdə iştirak edib. “Bir aktyorun teatrı” janrında müxtəlif satira ustalarının əsərləri əsasında işlənmiş kompozisiyada xeyli lent yazıları var.Onun əsasən baş rolları ifa etdiyi Ruhəngiz Qasımovanın “Qonşu, qonşu olsa...” (on bir müxtəlif tip), “Yollar görüşəndə” (Yaşar), İsi Məlikzadənin “Qatarda” (Dadaşov), Anarın “Evləri köndələn yar” (Surxayzadə), Mövlud Süleymanlının “Kökdən düşmüş piano” (Nəriman), “Fatehlərin divanı” (Sərsəri şair), Hüseyn Cavidin “Topal Teymur” (Cücə), Üzeyir bəy Hacıbəyovun felyetonları əsasında “Ordan-burdan” (Fotoqraf Əli bəy), Mehdi Hüseynin “Alov” (Bədəl) Ənvər Məmmədxanlının “Şərqin səhəri” (Nəcəf dayı), Anatoli Dudarevin “Astana” (Andrey Buslay), Andrey Pisarevin “Nə tökərsən aşına...” (Keşiş), Altay Məmmədovun “Kişilər” (Göyüş), Aslan Qəhrəmanovun “Bağışla”, “Səni axtarıram” və “Səndən xəbərsiz” (Elçin) trilogiyası, Seyfəddin Dağlının “Sabiqlər”

(Milis rəisi), Məcnun Vahidovun “Yarımştat” (Muxtar), Salam Qədirzadənin “Mən və mən” (müxtəlif satirik personajlar), Cəlil Məmmədquluzadənin hekayələri əsasında Anarın “Nigarançılıq” (Qurbanəli bəy)... əsərlərinin teletamaşaları televiziyanın fondunda daimi sənət nümunələri kimi qorunur.

Teatr sənətində böyük uğurlarına görə Yaşar Nuriyev Azərbaycan Respublikası Lenin Komsomolu (1984), “Qızıl Dərviş” (1992 və 1996) mükafatları laureatıdır. Səhnədə və ekranda yaratdığı parlaq obrazlara görə 1 dekabr 1981-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1 mart 1989-cu ildə xalq artisti fəxri adlarına layiq görülüb.

Yaşar Nuriyev görkəmcə ortaboyludur. Ancaq səmimiyyəti sirayətedici olduğuna görə səhnədəki hadisələrin, hətta ən mürəkkəb psixoloji ovqatlarını həssaslıqla duyduğu, onu öz oyununda  böyük istedadla təcəssüm etdirdiyi üçün və üstəgəl səhnədə son dərəcə yaradıcı sərbəstliklə davranmağa qadirliyi baxımından tamaşaçı salonundan əzəmətli görünür.

Əzəmətli aktyordur və bu əzəmətin mayasında yaradıcı istedad, axtarışlarının təkamülü durduğuna görə o, ən böyük səhnə və ekran boşluğunu təkbaşına doldura bilir.

Cəsarətli aktyordur. Qəliz rəqs nömrələrini, muğam və ya estrada, yaxud aşıq musiqisi üzərində qurulan satirik, dramatik, psixoloji, komik, qroteskli, karnaval estetikasına uyğun obrazların ifasına qətiyyətlə girişir. Həssas musiqi duyumu, səsinin şirinliyi, daxili ritmi bütün kəskin dəyişmə məqamlarında saxlamaq bacarığı bu cəsarətin yaradıcılıq kəhkəşanında geniş qanad açmasını təminatlandırır. Cəsarət, aktyorun istedadının bir keyfiyyəti kimi estetik təcəssum tapır.

Yaşar Nuriyev canlı, təravətli, dinamik, dadlı-tamlı, nikbin, həyatsevər, zəhmətkeş, ən əsası isə tamaşaçıların böyük rəğbətini qazanmış intızarında olduqları sənətçidir.



**Ramiz NOVRUZOV**
**Xalq artisti**

Yaradıcılıq istiqaməti, qabiliyyət və bacarığının aktyorluq xüsusiyyətləri realist teatr məktəbinin poetika göstəricilərinə uyğundur. Ritorikadan və zahiri pafosdan uzaq olmağa çalışır. Lirik təmayüllü psixoloji rollarda daha çox uğur qazanır. Dramaturgiya ilə də məşğul olur. "At ilinin birinci ayı" dramı Gəncə Dövlət Dram Teatrında və Dövlət televiziyasında, "Hələ sevirəm deməmişdilər..." dramı Akademik Milli Dram Teatrında tamaşaya hazırlanıb. "Novruz" onun yazıçı təxəllüsüdür.

Ramiz Qəvvam oğlu Novruzov 25 may 1955-ci ildə Biləsuvar rayonunun Səmədabad qəsəbəsində doğulub. Orta məktəbi qəsəbədə bitirərək Bakıya gəlmiş, müxtəlif mətbəə və tikintilərdə fəhlə işləmişdir. 1974-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakultəsinə daxil olub. Rejissor Ədil İsgəndərovun rəhbərlik etdiyi kursda dörd il təhsil alaraq oranı 1978-ci ildə bitirib. Təyinatla Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına göndərilib. Gənc aktyor burada Mixail Lermontovun "Maskarad" (Knyaz Zvezdiq), Tofiq Kazımovun "Muradın kələkləri" (Məsxərəci) və Nəriman Həsənzadənin "Bütün Şərq bilsin" (General Şıxlinski) dramlarının tamaşalarında iştirak edib. Böyük səhnədə ilk addımları uğurlu alınıb.

Təyinat müddətini Sumqayıt teatrında başa vuran Ramiz Novruzov Bakıya qayıdıb. O, 16 may 1981-cı ildə Akademik Milli Dram Teatrının şöhrətli və müqtədir aktyor truppasına daxil olub. Elə ilk günlərdən kollektivdə hazırlanan tamaşalarda ona irihəcmli və mürəkkəb xarakterli rollar tapşırılıb. Onun Akademik teatrda oynadığı rolları illərin ardıcıllığı ilə aşağıdakı şəkildə sıraya düzmək aktyorun keçdiyi yaradıcılıq yolu barədə aydın mənzərə yaradır.

**Nəvvab və İran şahzadəsi.** "Xurşid banu Natəvan", İlyas Əfəndiyev.
**Seyton.** "Maqbet", Vilyam Şekspır.
**Molla Əhməd.** "Mirzə Şəfı Vazeh", Nəbi Xəzri.
**Kreon.** "Medeya", Jan Anuy. Kiçik səhnədə.
**Nikolay.** "Gecənin sirri", Anatoli Safronov.
**Nazim.** "Közərən ocaqlar", Mirzə İbrahimov.
**İkinci qanun.** "İblis", Hüseyn Cavid.
**Ayəba.** "Atabəylər", Nəriman Həsənzadə.
**Şaliko və Qacar.** "Vaqif", Səməd Vurğun.
**İbn Yəmin.** "İblis", Hüseyn Cavid.
**Bahadır.** "Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev.
**Oqtay.** "İlham pərisi", Cahan Əfruz. Kiçik səhnədə.
**Loğman.** "Fəryad", Bəxtiyar Vahabzadə.
**Saday.** "Səməndər quşu", Firudin Ağayev. Kiçik səhnədə.
**Yaralı zabit.** "Biganələr oteli", Rüstəm İbrahimbəyov.

**Rövşən.** “Səadət sorağında”, Xalid Əlimirzəyev. Kiçik səhnədə.
**Muxtar.** “Təhminə və Zaur”, Anar.
**Rəbi.** “Od gəlini”, Cəfər Cabbarlı.
**Mayor Edmund.** “Şeyx Xiyabani”, İlyas Əfəndiyev.
**Nağılçı.** “Məlik Məmməd”, nağıl-tamaşa.
**Smit.** “Üç quruşluq opera”, Bertolt Brext və Kurt Vayl.
**Səlim bəy.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axunzadə.
**Qafqazlı.** “Tufandan əvvəl”, Arif Süleymanov.
**Toğrul.** “Qızıl teşt”, Seyran Səxavət.
**Anri.** “Dəfn edilməmiş ölülər”, Jan Pol Sartr. Kicik səhnədə.
**Məhəmməd Cuvarlı.** “Sevgililərin cəhənnəmdə vüsalı”, İlyas Əfəndiyev.
**Fərhad.** “Sənsiz”, Şıxəli Qurbanov.
**Laçın.** “Hara gedir bu dünya?”, Bəxtiyar Vahabzadə.
**Oyunbaz.** “Qədr gecəsi”, Eldar Baxış.
**Nizaməddin.** “Min illərin işığı”, Kamil Abdullayev.
**Qoşqar.** “Qisas qiyamətə qalmaz”, Nahid Hacızadə.
**Ağqoyunlu əmi.** “Ağqoyunlular və Qaraqoyunlular”, Əli Əmirli.
**Edmund.** “Kral Lir”, Vilyam Şekspir.
**Cəmil.** “Bizim qəribə taleyimiz”, İlyas Əfəndiyev.
**Cığatay.** “Məhəbbət yaşadır”, Nahid Hacızadə. Kiçik səhnədə.
**Surxay.** “Aydın”, Cəfər Cabbarlı.
**Sisyanov və Kərbəlayı Xan.** “Hökmdar və qızı”, İlyas Əfəndiyev.
**Pompey.** “Pompeyin Qafqaza yürüşü”, Nəriman Həsənzadə.
**Baş redaktor.** “Mənim sevimli dəlim”, Elçin.
**Ədib.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.
**Toğrul.** “Cəzasız günah”, Bəxtiyar Vahabzadə.
**Andranik və Nostradamus.** “Hələ “sevirəm” deməmişdilər...”, Ramiz Novruz.

Ramiz Novruzovun yaradıcılığının bir qolunu kino fəaliyyəti təşkil edir. İstedadlı aktyor “Azərbaycanfilm” kinostudiyasının istehsalı olan “Nizami filmində Dərbənd elçisi, “Sizi dünyalar qədər sevirdim” kinolentində general Həzi Aslanov, “Alman klinikasına qeyri-rəsmi səfər” və “Sarı gəlin” əsərlərində Baba Əlıyev və Rasim rollarına çəkilib.

Hüseyn Cavidin “Topal Teymur” (Divanbəyi), Lev Tolstoyun “Kreyser sonatası” (Musiqi müəllimi), Jan Pol Sartrın “Dəfn edilməmiş ölülər” (Anri), Andre Moruanın “Bənövşələr” (Bertrand), Vilyam Şekspirin “Antoni və Kleopatra” (Antonio), Mövlud Süleymanlının “Fatehlərin divanı” (Atilla), Orxan Kamaln “Dodaqdan qəlbə” (Kənan bəy), “Yad qızı” (Nihad), Səməd Behrənginin “Balaca qara balıq” (Aparıcı), teletamaşalarında maraqlı rollar oynayıb.

Teatr sənətindəki xidmətlərinə görə Ramiz Qəvvam oğlu Novruzov 7 fevral 1993-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti və 24 may 1998-ci ildə xalq artisti fəxri adlarına layiq görülüb.



**Nurəddin MEHDİXANLI**
**Xalq artisti**

Romantik pafosa, qəltanlı və cingiltili səsə, gözəgəlimi səhnə görkəminə, coşqun daxili temperamentə malik aktyordur. Mürəkkəb hadisələr burulğanında mənəvi çarpışmalar keçirən, faciə notlu, dramatik xarakterli qəhrəman rollarını yüksək məharətlə, pardaxlanan istedadla oynaya bilir. Yaradıcılıq cəbbəxanasında lirik psixoloji və dramatik fəlsəfi xarakterli rolları da var. Vaxtilə, nəsillərinin soyadı olan "Mehdixanlı" onun səhnə təxəllüsüdür.

Nurəddin Əzulla oğlu Quliyev (Mehdixanlı) 1956-cı il oktyabr ayının 6-da Cəlilabad rayonunun Tahirli kəndində doğulub. Kənd orta məktəbini 1974-cü ildə bitirərək Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Dahi rejissor Ədil İsgəndərovun rəhbərlik etdiyi kursu 1978-ci ildə başa vurub və təyinatla Akademik Milli Dram Teatrına göndərilərək sentyabr ayının 1-dən aktyor truppasına işə götürülüb. Oktyabrda hərbı xıdmətə çağırılıb və qayıdandan sonra yenə teatrın kollektivində aktyor işləyib.

O, 1989-cu ilin sentyabrında Qarabağa Xalq Yardımi Komitəsinə işə girib və bir ay on gündən sonra teatrdan ayrılıb. Dörd il bu komitədə məsul vəzifələrdən birini tutan Nurəddin Mehdixanlı bir arada paralel olaraq Bakı Bələdiyyə Teatrında aktyorluq edib (1992-1994) və bu səhnədə Yazon ("Medeya", Jan Anuy), Şahgir ("Tomris", Oqtay Altunbay) rollarını oynayıb. Səhnə üçün doğulmuş aktyor 1994-cü il aprel ayının 18-dən yenə Akademik Milli Dram Teatrının truppasındadır. Onun müəyyən fasilələrlə Akademik teatrın səhnəsində oynadığı rolların siyahısını aşağıdakı görümdə ümumiləşdirmək olar.

**Mehdi və İkinci repartyor.** "Səhra yuxuları", Anar.

**Hidayət xan.** "Xurşid banu Natəvan", İlyas Əfəndiyev.
**Ross.** "Maqbet", Vilyam Şekspir.
**Yazon.** "Medeya", Jan Anuy. Kiçik səhnədə.
**Eldar və Vaqif.** "Vaqif", Səməd Vurğun.
**Kamran.** "Unuda bilmirəm", İlyas Əfəndiyev.
**Pavel (böyük).** "Gecənin sirri", Anatoli Safronov.
**Kərim bəy.** "Közərən ocaqlar", Mirzə İbrahimov.
**Elxan.** "İblis", Hüseyn Cavid.
**Fərhad.** "Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev.
**Təbriz.** "Büllur sarayda", İlyas Əfəndiyev.
**Rövşən.** "Əliqulu evlənir", Sabit Rəhman.
**Böyük bəy.** "Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev.
**Muxtar.** "Təhminə və Zaur", Anar.
**Ruz.** "Atabəylər", Nəriman Həsənzadə.
**Cavan şair.** "Fəryad", Bəxtiyar Vahabzadə.
**Idris.** "Səməndər quşu", Firudin Ağayev. Kiçik səhnədə.
**Boksçu.** "Biganələr oteli", Rüstəm İbrahimbəyov.
**Ulus.** "Torpağa sancılan qılınc", Nəbi Xəzri.
**Əbu Übeyd.** "Od gəlini", Cəfər Cabbarlı.
**Məşədi Təhməz.** "Şeyx Xiyabani", İlyas Əfəndiyev.
**Nağılçı.** "Məlik Məmməd", nağıl-tamaşa.
**Fərhad.** "Günah", Rəhman Əlizadə.
**Məşədi Əzizbəyov.** "Tufandan əvvəl", Arif Süleymanov.
**Xuan.** "Qadın faciəsi", Federiko Qarsia Lorka.
**Ayaz Turan.** "Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev.
**Xəzər.** "Gecə döyülən qapılar", Nəbi Xəzri.
**Şair.** "Fəryad", Bəxtiyar Vahabzadə.
**Gur Şad.** "Özümüzü kəsən qılınc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə.
**Sokrat və Aydar.** "Sokratı anma gecəsi" ("Eşşək dəri üzəriıdə məhkəmə"), Çingiz Aytmatov və Muxtar Şaxanov.
**Orxan.** "Ulduz, yaxud Ədirnə fəthi", Cəfər Cabbarlı.
**Yaralı Əsgər.** "Hələ "sevirəm" deməmişdilər...", Ramiz Novruz.
**Aydın.** "Aydın", Cəfər Cabbarlı.
**İppolit.** "Fedra", Jan Rasin.
**Rəşid Axundov.** "Brüsseldən məktublar", Həsən Həsənov (Əzizoğlu).
**Ərtoğrul.** "Afət", Hüseyn Cavid.

Sırf teatr aktyoru olan Nurəddin Mehdixanlı Azərbaycan Dövlət Televiziyasında Əzizə Əhmədovanın "Pəncərədə işıq" (Toğrul), Cəfər Cabbarlının "Solğun çiçəklər" (Bəhram), Nəriman Həsənzadənin "Kimin sualı var?" (İlham), Bəxtiyar Vahabzadənin "Vicdanla üz-üzə" (Hakim) televiziya tamaşalarında da iştirak edib. "Dədəm Qorqudun kitabı" dastanının motivləri əsasında "Dədə Qorqud" çoxseriyalı televiziya filmində Bayandur xan, "Bəyaz həyat"da Vüqar Quliyev rollarına çəkilib.

Nurəddin Əzulla oğlu Quliyev (Mehdixanlı) 23 iyun 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının əməkdar artisti, 24 may 1998-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 24 dekabr 2002-ci ildə xalq artisti fəxri adlarına layiq görülüb.



**Zemfira NƏRİMANOVA**
**Xalq artisti**

Lirik və dramatik psixoloji rollarda daha səriştəli görünür. Yaradıcılığının estetik prinsiplərinə və ifadə vasitələrinin mahiyyətinə, xarakterik xüsusiyyətlərinə görə realist aktyor məktəbinin poetika göstəricilərinə uyğundur.

Zemfira Əli qızı Nərimanova 1959-cu il aprel ayının 20-də Bakida doğulub. Şəhərin Nərimanov rayonundakı 220 saylı orta məktəbi 1976-cı ildə bitirib və həmin il də Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Təhsilini 1980-ci ilin iyun ayında başa vuran gənc aktrisa təyinatla Akademik Milli Dram Teatrına göndərilib, avqust ayının 26-da isə aktyor truppasına ştata götürülüb. Aktyorluq qabiliyyəti tələbəlik illərindən diqqəti cəlb edən Zemfira Nərimanova Akademik Milli Dram Teatrının səhnəsində dram, faciə və komediya janrlı tamaşalarda oynayıb.

**Şeyda.** "Yastı təpə", Əkrəm Əylisli.
**Sofi.** "Yad adam", Leonqard Frank.
**Yeremyak.** "Şərqli diş həkimi", Akop Paronyan.
**Təhminə.** "Xurşid banu Natəvan", İlyas Əfəndiyev.
**Arzu.** "Kimdir haqlı?", Bəxtiyar Vahabzadə.
**Qadın.** "Sizi deyib gəlmişəm...", Anar.
**Nübar.** "Məhəbbət yaşadır", Nahid Hacızadə. Kicik səhnədə.
**Rəna və Qaraçı.** "İblis", Hüseyn Cavid.
**Kəniz.** "Atabəylər", Nəriman Həsənzadə.
**Qəmər.** "Nişanlı qız", Sabit Rəhman.
**Knyaz.** "Tənha iydə ağacı", İlyas Əfəndiyev.
**Xumar.** "Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev.
**Mariya.** "Biganələr oteli", Rüstəm İbrahimbəyov.
**Çiçək.** "Torpağa sancılan qılınc", Nəbi Xəzri.
**Nastya.** "Həyatın dibində", Maksim Qorki.
**Kleopatra.** "Kölgələrin oyunu", Yuri Edlis. Kiçik səhnədə
**Nağılçı.** "Məlik Məmməd", nağıl-tamaşa.
**Moruq Cenni.** "Üç quruşluq opera", Bertolt Brext və Kun Vayl.
**Nisə xanım və Şölə xanım**. "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə. İki müxtəlif quruluşda.
**Məhəbbət.** "Tufandan əvvəl", Arif Süleymanov.

**Kama.** “Kərgədan buynuzu”, Maqsud İbrahimbəyov.
**Ayna xanım.** “Yayda qartopu oyunu”, Vaqif Sərnədoğlu.
**Kleya.** “Məhəbbət və azadlıq” (“Tülkü və üzüm”), Gilerma Fiqeyredu.
**Südabə.** “Dəlilər və ağıllılar”, İlyas Əfəndiyev.
**Züleyxa.** “Ah, Paris... Paris!..”, Elçin.
**Banu çiçək.** “Özümüzü kəsən qılınc” (“Göytürklər”), Bəxtiyar Vahabzadə.
**Dudan.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.
**Şölə xanım.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.
**Qadın.** “Hərdən mənə mələk də deyirlər...”, Kamal Abdulla.
**Xanım.** “Mənim ərim dəlidir” (“Diaqnoz “D”), Elçın.
**Paolina.** “Kəllə”, Nazim Hikmət.

Aktrisa Azərbaycan Dövlət Televiziyasında hazırlanmış xeyli tamaşada oynayıb. Onların arasında İlyas Əfəndiyevin “Pəncərədə işıq” (Leyla), “Sarıköynəklə Valehin nağılı” (Sarıköynək), “Qaçaq Süleyman” (Qubernatorun arvadı), Üzeyir bəy Hacıbəyovun felyetonları əsasında işlənmiş “Ordan-burdan” (Rəna), İslam Səfərlinin “Cöz həkimi” (Nərminə), Ənvər Məmmədxanlının “Şərqin səhəri” (Dilarə), Əlibala Hacızadənin “İtkin gəlin” (Zərnişan) pyeslərinin teletamaşalarında ifa etdiyi rollar bədii dəyərlərinə, estetik tutumlarına görə seçilirlər.

Müxtəlif illərdə “Azərbaycanfilm” kmostudıyasında “Beş çərək” (Gülya), “Torpaq” (Qız), “Girişmə, öldürər” (Zemfıra) kinolentlərinə çəkilib.

Zemfira Əli qızı Nərimanova aktyorluq sənətindəki fəaliyyətinə görə 22 may 1991-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 28 oktyabr 2000-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.



**Firəngiz MÜTƏLLİMOVA**
**Xalq artisti**

Səhnə məlahəti, cazibəli şirinliyi, istedadının psixoloji lirizmi, həssas zərifliyi, dramatik coşğunluğu, emosional və təbii yumoru, xarakterlər toplusunun əlvanlığı ilə tamaşaçıların sevimlisidir. Lirik psixoloji janrlı tamaşalarda oynadığı rollarda böyük uğurlar qazanan aktrisa məzəli komediyaların səhnə təcəssümündəki obrazların ifasında da məharətlə oynayır. Səhnə etikası, yöndaşlarına qarşı diqqətli və həssas olması yaradıcılığın səciyyəvi cəhətləridir.

Firəngiz Bəhər qızı Mütəllimova əslən Şuşalıdır, ancaq 1 may 1959-cu ildə Ağcabədi rayonunda doğulub. Şuşadakı 4 saylı orta məktəbi 1976-cı ildə bitirən Firəngiz elə həmin il Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino

aktyorluğu fakuləsinə daxil olub. 1980-ci ildə təhsilini başa vurub və avqust ayının 26-da Akademik Milli Dram Teatrına aktrisa götürülüb. Elə ilk günlərdən ona məsul rollar tapşırılıb və istedadının dəyərli çalarları üzə çıxıb.

Teatrda səmərəli fəaliyyət göstərən Firəngiz Mütəllimova paralel olaraq kinolara çəkilib, televiziya tamaşalarında iştirak edib. Aktrisa 30 oktyabr 1992-ci ildə qurduğu ailənin taleyi ilə bağlı xarici ölkəyə köçüb və bir müddət Türkiyədə, Dubayda, az vaxt Almaniyada yaşayıb. Üçillik fasilədən sonra Bakıya qayıdan sənətkar 1996-cı il sentyabr ayının 17-də yenidən Akademik teatrın truppasına qəbul olunub. Qısa müddətdə repertuardakı tamaşaların bir necəsinə daxil edilib, təzə əsərlərdə bənzərsiz rollar oynayıb.

Firəngiz Mütəllimova səmərəli yaradıcılıq yolu keçib və zəngin rollar qalereyası yaradıb.

**Gözəl.** "Qilınc və qələm", Məmməd Səid Ordubadinin romanı əsasında Tofiq Kazımovun işləməsi.

**Qumral.** "Əliqulu evlənir", Sabit Rəhman.

**Leyla.** "Səhra yuxuları", Anar.

**Yeremyak.** "Şərqli diş həkimi", Akop Paronyan.

**Bəyim**. "Xurşid banu Natəvan", İlyas Əfəndiyev.

**Birinci kölgə.** "Maqbet", Vilyam Şekspir.

**Qaratel.** "Mirzə Şəfi Vazeh", Nəbi Xəzri.

**Qadın.** "Sizi deyib gəlmişəm...", Anar.

**Nübar.** "Məhəbbət yaşadır", Nahid Hacızadə. Kiçik səhnədə.

**Xavər və Qaraçı qız.** "İblis", Hüseyn Cavid.

**Nərgiz.** "Sehrli alma", Yozef Lada.

**Aypara.** "Fəryad", Bəxtiyar Vahabzadə.

**Sonya.** "Sizi deyib gəlmişəm...", Anar.

**Aynur.** "Büllur sarayda", İlyas Əfəndiyev.

**Mələk.** "Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev.

**Gülnaz.** "Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev.

**Tereza.** "Biganələr oteli", Rüstəm İbrahimbəyov.

**Kekel.** "Pepo", Qabriel Sundukyan.

**Cadugər.** "Maqbet", Vilyam Şekspir.

**Gulnar.** "Vaqif", Səməd Vurğun.

**Firəngiz.** "Təhminə və Zaur", Anar.

**Anna.** "Həyatın dibində", Maksim Qorki.

**Reya.** "Böyük Romul", Fridnx Dürrenmatt.

**Gülrix.** "Şeyx Xiyabani", İlyas Əfəndiyev.

**Nağılçı.** "Məlik Məmməd", nağıl-tamaşa.

**Əsmər.** "Günah", Rəhman Əlizadə.

**Nisə xanım.** "Lənkəran xanının vəziri" , Mirzə Fətəli Axundzadə

**Nədidə.** "Qanlı Nigar", Sadıq Şendil.

**Salehə.** "Gülüstanda qətl", Cəmil Əlibəyov.

**Əsmər. "**Gecə döyülən qapılar", Nəbi Xəzri.

**Gülnaz.** "Tənha iydə ağacı", İlyas Əfəndiyev.

**Maral.** "Sənsiz", Şıxəli Qurbanov.

**Adela.** “Dişi canavar”, Federiko Qarsia Lorka.
**Dilarə.** “Ox, qadınlar, qadınlar”, Marat Haqverdiyev.
**Azadə xanım.** “Dəlilər və ağıllılar”, İlyas Əfəndiyev.
**Aysulu.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.
**Arvad.** “Mənim ərim dəlidir” (“Diaqnoz “D”), Elçin.
**Gülzar**. “Poçt şöbəsində xəyal”, Elçin.
**Sevər.** “Bu dünyanın adamları”, Hidayət.
**Həvva.** “Varlı qadın”, Əli Əmirli.

Firəngiz Mütəllimova Azərbaycan Dövlət Televiziyasında hazırlanmış iyirmidən çox teletamaşada müxtəlif səpkili rollar ifa etmişdir. Onlardan Gülnar (“Səni axtarıram”, “Bağışla”, “Səndən xəbərsiz”, Abbas Qəhrəmanov), Mərcan (“Evləri köndələn yar”, Anar), Ana və Qız (“Unutmaq olmur”, Əlibala Hacızadə), Almaz (“Topal Teymur”, Hüseyn Cavid), Nazan (“Yad qızı”, Əlibala Hacızadə), Almaz (“Göz həkimi”, İslam Səfərli), Günay (“Səninlə və sənsiz”, Marat Haqverdiyev), Şefin arvadı (“İblis qadın”, Arturo Raf), Nihal (“Yağışdan sonara, Bəxtiyar Vahabzadə) rollarının bədii-estetik keyfiyyətlərini xüsusi qeyd etmək olar.

Atrisa “Azərbaycanfilm” kinostudiyasında istehsal edilmiş “Qaçaq Nəbi” (Sərvinaz), “Qocalar, qocalar” (Leyli), “Bəyin oğurlanması” (Telli), “İşarəni dənizdən gözlə” (Sona) bəddi filmlərinə, “Mənim ağ şəhərim” (Ana), “Şərəf” (Mila xanım) telefilmlərə çəkilib.

Firəngiz Bəhər qızı Mütəllimova 23 iyun 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının əməkdar artisti, 22 may 1991-ci ildə Azərbaycan Respubiikasının əməkdar artisti və 28 oktyabr 2002-ci ildə xalq artisti fəxri adlan ilə təltif olunub.



**Bəsti CƏFƏROVA**
**Xalq artisti**

Yaradıcılığı iki şaxədə inkişaf edir: romantik və realist aktyor məktəblərinin poetika göstəriciləri əsasında. Səhnə görümünü uzun illər boyu qətiyyətlə qoruyub saxlaya bilib. Güclü səhnə texnikası, coşğun daxili ehtirası, dramatik çalarlı səsi bar. Yaradıcılıq nailiyyətlərində, çoxsaylı səhnə obrazları arasında qəhrəman xarakterli baş rollar daha çoxdur. Qaynar təbiətli və çılğın daxili aləmə malik surətləri oynamağa xüsusi cəhd göstərir.

Bəsti Əli qızı Cəfərova 1959-cu il iyunun 13-də Bakıda doğulub. Ölkə paytaxtının Nərimanov rayonundakı 82 saylı orta məktəbi 1976-cı ildə bitirərək Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət Institutunun dram və kino

aktyorluğu fakültəsinə daxil olub. Tələbəlik dövründə baş rejissor, Əkrəm Əylislinin "Quşu uçan budaqlar" psixoloji dramını tamaşaya hazırlayan Tofıq Kazımovun dəvətilə Akademik Milli Dram Teatrına çağırılıb və adı çəkilən əsərdə Səltənət rolunu oynayıb. Bu tamaşanın premyerası 1978-ci il dekabr ayının 29-da göstərilib. Tələbə-aktrisanın böyük səhnədə debütü uğurla alınıb.

Milli rejissorlarımızın fəxri, səhnə klassiklərimizin cərgəsində layiqli yer tutan Ədil İsgəndərovun kursunda təhsil alan Bəsti Cəfərova ali təhsilini 1980-ci ildə başa vurub. Təyinatla Akademik Milli Drara Teatrına göndərilib və avqust ayının 26-da aktyor truppasına aktrisa götürülüb. Onun yaradıcılığına zənginlik, ifaçılıq sənətkarlığına əlvanlıq gətirən rolların siyahısı öz sanbalı bədii siqləti ilə seçilir.

Bəsti Cəfərova Akademik teatrda işləyə-işləyə rejissor Vaqif İbrahimoğlunun Tədris teatrında hazırladığı özünün işləməsində "Mən Dədə Qorqud..." (Oğuz Xatunu və Dəli Domrulun anası), Antuan de Sent Ekzüperinin "Təskinlik verməyi unutmayın" ("Kiçik şahzadə", Qızılgül, Çöl çiçəyi və Fanarçı), "Yuğ" Dövlət Teatrında Məhəmmədhüseyn Şəhriyarın "Heydərbaba" əsəri əsasında səhnələşdirdiyi "Salam" (Qadın) əsərlərinin tamaşalarında da cazibəli rollar oynayıb. Sözsüz ki, onun aktyorluq qabiliyyətinin potensial imkanları ilk növbədə Akademik teatrda oynadığı aşağıdakı rolların səhnə təcəssümündə daha geniş şəkildə üzə çıxıb.

**Səltənət.** "Quşu uçan budaqlar", Əkrəm Əylisli.
**Nazlı.** "Əliqulu evlənir", Sabit Rəhman.
**Luiza Bruk.** "Səhra yuxuları", Anar.
**Ripsime.** "Şərqli diş həkimi", Akop Paronyan.
**Zeynəb və Arzu.** "Kimdir haqlı?", Bəxtiyar Vahabzadə.
**Pakizə.** "Mirzə Şəfı Vazeh", Nəbi Xəzri.
**Qadın.** "Sizi deyib gəlmişəm...", Anar.
**Qaraçı və Xavər.** "İblis", Hüseyn Cavid.
**Lalə.** "Büllur sarayda", İlyas Əfəndiyev.
**Gülya.** "İlham pərisi», Cahan Əfruz. Kiçik səhnədə.
**Solmaz.** "Od gəlini", Cəfər Cabbarlı.
**Məleykə və Sevilino.** "Səməndər quşu", Firudin Agayev. Kiçik səhnədə.
**Bənövşə.** "Nişanlı qız", Sabit Rəhman.
**Nazilə.** "Çahargah fantaziyası", Kərim Kərimov.
**Gülrux.** "Şeyx Xiyabani", İlyas Əfəndiyev.
**Gülçin, İspan gözəli və Nağılçı.** "Məlik Məmməd", nağıl-tamaşa.
**Əsmər.** "Günah", Rəhman Əlizadə.
**Züleyxa.** "Mənsiz dünya", Nəbi Xəzri.
**Bədidə və Nigar.** "Qanlı Nigar", Sadıq Şendil.
**Soll.** "Qanqın böyük dalğası", Cahan Əfruz.
**Sürəyya.** "Tənha iydə ağacı", İlyas Əfəndiyev.
**Martrio.** "Disi canavar", Federiko Qarsia Lorka.
**Azadə xanım.** "Dəlilər və ağıllılar", İlyas Əfəndiyev.
**Dilarə.** "Əcəb işə düşdük", Şıxəli Qurbanov.
**Gülbahar. "**Anamın kitabı", Cəlil Məmmədquluzadə.

**Qonerilya.** “Kral Lir”, Vilyam Şekspir.
**Ağabəyim ağa.** “Hökmdar və qızı”, Ilyas Əfəndıyev.
**Qaliyə və Adlay.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.
**Ədilə.** “Poçt şöbəsində xəyal”, Elçin.
**Fedra.** “Fedra”, Jan Rasin.
**Afət.** “Afət”, Hüseyn Cavıd.

Aktrisa Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Cəfər Cabbarlının “Solğun çiçəklər” (Pəri), Mar Bayğıyevin “Ər və arvad” (Gülay), Anatoli Dudarevin “Astana” (Alina), Əzizə Cəfərzadənin “Analar” (Rəna), Hüseynbala Mirələmovun “Güllələnmis heykəllər” (Ağabəyim ağa) əsərlərinin tamaşalarında da əlvan rollarla iştirak edib.

Bəsti Əli qızı Cəfərova 17 may 1989-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti, 24 may 1998-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.



**Laləzar MUSTAFAYEVA**
**Xalq artisti**

Faciə və dramatik rollar, romantik ahəngli səhnə obrazlarının ifası üçün xarakterik səsi var. Temperamentli surətləri coşğun ehtirasla oynayır. Yaradıcılıq xüsusiyyətlərinin, ifadə vasitələrinin mayasında zərif yumor elementləri də var. Gözəl qiraət ustasıdır, klassik irsimizdən və çağdaş şairlərin poeziya nümunələrindən silsilə proqramı var.

Laləzar Bəşir qızı Mustafayeva 1962-ci il sentyabr ayının 30-da Balakən rayonunun Qullar kəndində doğulub. Oradakı orta məktəbi 1979-cu ildə bitirərək bir il kənd kitabxanasında işləyib. Mədəni Maarif Texnikumunun rejissorluq fakültəsini fərqlənmə diplomu ilə qurtarıb (1980-1982) və ailə qurduğuna görə işləməyib.

1985-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Ali məktəb təhsilini 1990-cı ilin iyun ayında başa vuran Laləzar Mustafayeva təyinatla Akademik Milli Dram Teatrına göndərilib və sentyabrın 1 -də kollektivin aktyor truppasına götürülüb. Akrtisa işlədiyi illər ərzində aşağıdakı rollarını oynayıb.
**Alya.** “Hara gedir bu dünya?”, Bəxtiyar Vahabzadə.
**Ameliya**. “Dişi canavar”, Federiko Qarsia Lorka.
**Leyla.** “Qısqanc ürəklər”, Marat Haqverdiyev.
**Gulbahar.** “Anamın kitabı”, Cəlil Məmmədquluzadə.
**Abbi Patnem.** “Qarağaclar altında ehtiraslar”, Yucin ONil.
**Qumru müəllim**. “Ana intiqamı”, Vidadi Babanlı.

**Məhin Banu.** “Fərhad və Şırin”, Səməd Vurğun.
**Məleykə və Aydan.** “Pompeyin Qafqaza yürüşü”, Nəriman Həsənzadə.
**İcgen xatun.** “Özümüzü kəsən qılınc” (“Göytürklər”), Bəxtiyar Vahabzadə.
**Ziba xanım.** “Lənkəran xanının vəzıri”, Mirzə Fətəli Axundzadə.
**Hüquqə xanım.** “Bu dünyanın adamları”, Hidayət.

Aktrisa “Güllələnmə təxirə salınır” (Laləzar), “Gənc qadının əri” (Xalidə), “Uzun gecə” (Qadın), “Qəzəlxan” (Birinci arvad), “Qara Volqa” (Pəncəli), “Divar” (Nazlı), “Ağ atlı oğlan” (Şəhla) bədii filmlərinə çəkilib.

Laləzar Bəşir qızı Mustafayeva teatr sənətindəki fəaliyyətinə görə 24 may 1998-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 24 dekabr 2002-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub.



**Məleykə ƏSƏDOVA**
**Xalq artisti**

Məleykə Əlifağa qızı Əsədova 1966-cı il aprel ayının 23-də Neftçala rayonunda doğulub. Oradakı 1 saylı orta məktəbi 1983-cü ildə bitirərək Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsinə daxil olub. Dörd il təhsil alaraq teatr kollektivinin rəhbəri ixtisasına yiyələnib.

1987-ci ildə institutu bitirərək təyinatla doğma rayoru Neftçalaya göndərilib. İki il burada mədəniyyət sahəsində işləyib, eyni zamanda müğənnilik edib (1 noyabr 1987-29 aprel 1989).

Təyinat müddətini başa vuran və aktrisa sənətinə böyük maraq göstərən Məleykə Əsədova 29 aprel 1989-cu ildə Bakıya gələrək yenicə təşkil olunmuş Dövlət Gənclər Teatrının truppasına daxil olub. 1993-cü il fevral ayının 18-ə kimi bu kollektivdə çalışan aktrisa teatrın beş tamaşasında rol oynayıb. Həmin səhnə obrazları aşağıdakılardır.
**Gültəkin.** “Aydın”, Cəfər Cabbarlı.
**Nəzifə.** “Dağ tikirik”, Vaqif Səmədoğlu.
**Tamara.** “Dadaşbala əməliyyatı”, Rəhman Əlizadə.
**Sədəf.** “Sultanqulu körpüsü”, İsi Məlikzadə.
**Leyli.** “Leyli və Məcnun”, Məhəmməd Füzulinin eyniadlı poeması əsasında dramatik kompozisiya.

Dövlət Gənclər Teatrında müəyyən səhnə təcrübəsi toplayan Məleykə Əsədova 1993-cü ilin 15 fevralında bu kollektivdən işdən çıxıb. Fevral ayının 15-də də Akademik Milli Dram Teatrının möhtəşəm yaradıcılıq ömürcəsinə malik

olan aktyorların işlədikləri truppaya aktrisa köçürülüb. Onun səhnə rolları bioqrafıyasına Akademik teatrda ifa etdiyi aşağıdakı rollar daxildir.

**Dilarə.** "Əcəb işə düşdük", Şıxəli Qurbanov.
**Zərifə.** "Nişanlı qız", Sabit Rəhman.
**Nübar.** "Məhəbbət yaşadır", Nahıd Hacızadə.
**Şahanə.** "Ana intiqamı", Vidadi Babanlı.
**Mehri.** "Qisas qiyamətə qalmaz", Nahid Hacızadə.
**Fidan.** "Ağqoyunlular və Qaraqoyunlular", Əli Əmirli.
**Kordeliya.** "Kral Lir", Vilyam Şekspir.
**Şirin.** "Fərhad və Şirin", Səməd Vurğun.
**İlkcan.** "Pompeyin Qafqaza yürüşü", Nəriman Həsənzadə.
**Selcan.** "Özümüzü kəsən qılınc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə.
**Gültəkin.** "Aydın", Cəfər Cabbarlı.
**Çılğın.** "Dar ağacı", Bəxtiyar Vahabzadə.

Aktrisa Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Orxan Kamalın "Yad qızı" (Jalə), Bəxtiyar Vahabzadənin "Kimdir haqlı?" (Arzu), Əlibala Hacızadənin "İtgin gəlin" (Əfsanə), Rəşad Güntəkinin "Dodaqdan qəlbə" (Cavidan), Kəmalə Ağayevanın "Apardı sellər Saranı" (Sara), Ağarəhim Rəhimovun Qırmızı qar" (Sədaqət), Tahir Kazımovun "Taleyin qisməti beləymiş" (Xədicə), Hüseynbala Mirələmovun "Güllələnmiş heykəllər" (Xurşid banu Natəvan) tamaşalarında oynayıb.

Məleykə Əlifağa qızı Əsədova 24 may 1998-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti, 28 oktyabr 2000-ci ildə xalq artisti fəxri adı verilib.



**Bürcəli ƏSGƏROV**
**Əməkdar artist**

İlk növbədə tipik və xarakterik rollar aktyorudur. Eyni zamanda müəyyən tamaşalarda baş rolları və bəzi əsərlərdə isə epizod personajların səhnə taleyini oynamışdır. Yaradıcılığının potensial imkanlarına, poetika göstəricilərinin estetik səciyyələrinə görə romantik aktyor məktəbinə daha uyğun gəlir. Realist və lirik psixoloji üslublu tanıaşalarda da yaddaqalan bədii drarmatik surətlər oynayıb. Öz rollarını, xususən klassik əsərlərdəki obrazları əsasən daxili ehtirasla və romantik vüsətlə oynamağa üstünlük verir.

Bürcəli Veysəl oğlu Əsgərov 15 fevral 1933-cü ildə Borçalı bölgəsinin Qasımlı kəndində doğulub. Orta məktəbi 1951-ci ildə Körpülü kəndində bitirib. Bir il doğma kəndlərində kolxozda işləyib və 1952-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Tələbə vaxtlarından Akademik Milli Dram Teatrının yardım heyətinin tərkibində müxtəlif tamaşalarda kütləvi səhnələrdə çıxış edib.

Onun aktyor sənəti müəllimi görkəmli aktyor və rejissor Rza Təhmasib olub. 1956-cı ildə ali təhsilini başa vuran Bürcəli Əsgərov sentyabr ayının 12-də Akademik teatrın aktyor truppasına işə götürülüb. Həmin gündən indiyə qədər arada heç bir fasilə olmadan bu kollektivdə işləyir. O, teatrda rejissorlardan Ədil İsgəndərovun, Səftər Turabovun, Əliheydər Ələkbərovun, Nəsir Sadıqzadənin, Ələsgər Şərifovun, Tofiq Kazımovun, Əşrəf Quliyevin, Məmmədkamal Kazımovun, Fikrət Sultanovun, Azər Paşa Nemətovun, Mərahim Fərzəlibəyovun, Bəhram Osmanovun, Mehriban Ələkbərzadənin quruluş verdikləri müxtəlif üslublu və janrlı tamaşalarda rollar oynayıb.

Bürcəli Əsgərovun yaradıcılığında faciə, dram, komediya, tragikomediya rolları vardır. Aktyor bütün janrlı səhnə əsərlərində sərbəst, yaradıcılıqla və dinamik ehtirasla oynayır. Aktyorun qırx yeddi illik səhnə fəaliyyətində yaradıcı obrazları bu ardıcıllıqla vermək olar.

**İkinci cavan və Simon.** “Şeyx Sənan”, Hüseyn Cavid.

**Kamil.** “Qəribə adam”, Nazim Hikmət.

**Gülverdi və Barat.** “Almaz”, Cəfər Cabbarlı.

**Bizans elçisi.** “Cavanşir”, Mehdi Hüseyn.

**Tapdıq və Mehdi.** “Qaçaq Nəbi”, Süleyman Rüstəm.

**Vasilyev, Zabit və Mins**. “Tufanlı il”, Aleksey Kapler.

**Senat zabiti.** “Otelio”, Vilyam Şekspir.

**Rauf və Professor Şahbazov**. “Göz həkimi”, İslam Səfərli.

**İşçi Səməd.** “1905-ci ildə”, Cəfər Cabbarlı.

**Toğrul.** “Od gəlini”, Cəfər Cabbarlı.

**Rəşid.** “Kəndçi qızı”, Mirzə İbrahimov.

**Lu Da Xay.** “Tufan” (“Tayfun”), Tsao Yuy.

**Zaman və Bayram.** “Dönüş”, Cəfər Cabbarlı.

**Leytenant.** “Ana ürəyi”, İslam Səfərli.

**Kamil.** “Dağlar qızı”, Adil Babayev.

**Kamal.** “Əliqulu evlənir”, Sabit Rəhman.

**Zahid və Lütfiyar.** “Əcəb işə düşdük”, Şıxəli Qurbanov.

**Toğrul.** “Bağlı qapılar”, Həsən Seyidbəyli.

**Heydər bəy.** “Hacı Qara”, Mirzə Fətəli Axundzadə.

**Bəhram.** "Səyavuş", Hüseyn Cavid.
**Sekst Pompey.** "Antoni və Kleopatra", Vilyam Şekspir.
**Furmanov**. "Tanya", Aleksey Arbuzov.
**Əli bəy, Arşak, Şaliko, Əhməd kişi, Eldar və Vidadi.** "Vaqif", Səməd Vurğun.
**Leopaço.** "Dəlilər" ("Valensiya dəliləri"), Lope de Veqa.
**Aryaka.** "Hind gözəli", Yuri Osnos və Viktor Vinnikov.
**Qardaşxan.** "Yaxşı adam", Mirzə İbrahimov.
**Raymond.** "Orlean qızı", Fridrix Şiller.
**Şamil.** "Yalan", Sabit Rəhman.
**Lətif.** "Söz yarası", Qeybulla Rəsulov.
**Şəkinski.** "Oqtay Eloğlu", Cəfər Cabbarlı.
**Kölgə.** "Hamlet", Vilyam Şekspir. İki quruluşda.
**Murad.** "Nakam qız", Aleksandr Şirvanzadə.
**Zabit.** "Canlı meyit", Lev Tolstoy.
**Məlik şah və Yusif.** "Xəyyam", Hüseyn Cavid.
**İppolit.** "Zamanın hokmü", Nikolay Poqodin.
**Hüseyn.** "Küləklər", Sabit Rəhman.
**Cimmi Kanana.** "Qızıl", Yucin ONil.
**Qaynar.** "Əks-səda", Nəbi Xəzri.
**Ağabəy Məhəmməd**. "Qılınc və qələm", Məmməd Səid Ordubadinin eyniadlı əsəri əsasında Tofıq Kazımovun işləməsi.
**Bəhram.** "Solğun çiçəklər", Cəfər Cabbarlı.
**Hacı Məhəmməd Əli.** "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə.
**Hacı Əsədulla.** "Mənsiz dünya", Nəbi Xəzri.
**Möhsünzadə.** "Unuda bilmirəm", İlyas Əfəndiyev.
**Bədirov.** "Ümid", Maqsud İbrahimbəyov.
**Vəzir.** "Məhəbbət əfsanəsi", Nazim Hikmət.
**Mürsəl.** "Yastı təpə", Əkrəm Əylisli.
**Dənizçi.** "Yad adam", Leonqard Frank.
**Qoca Knyaz.** "Xurşid banu Natəvan", İlyas Əfəndiyev.
**Banko.** "Maqbet", Vilyam Şekspir.
**Birinci zabit.** "İblis", Hüseyn Cavid.
**Qara.** "Qarabağ əfsanəsi", Qeybulla Rəsulov.
**Aslanov.** "Səadət sorağında", Xalid Əlimirzəyev. Kiçik səhnədə.
**Məcid Zeynallı.** "Təhminə və Zaur", Anar.
**Kostılyev.** "Həyatın dibində", Maksim Qorki.
**Hacı Fərhad.** "Şeyx Xiyabani", İlyas Əfəndiyev.
**Ataxan.** "Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev.
**Dəmirov.** "Qızıl teşt", Seyran Səxavət.
**Afşar Hüseyn.** "Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev.
**İlyas İsbatov.** "Gülüstanda qətl", Cəmil Əlibəyov.
**Qəni müəllim.** "Gecə döyülən qapılar", Nəbi Xəzri.
**Cığatay.** "Məhəbbət yaşadır", Nahid Hacızadə.
**Xoca Abdulla.** "Min illərin işığı", Kamil Abdullayev.

**Curxan.** “Qisas qiyamətə qalmaz”, Nahid Hacızadə.

**Cavad xan.** “Hökmdar və qızı”, İlyas Əfəndiyev.

**İgid və Azər baba.** “Fərhad və Şirin”, Səməd Vurğun. Müxtəlif quruluşlarda.

**Şairin atası.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.

**Nazim paşa.** “Ulduz, yaxud Ədirnə fəthi”, Cəfər Cabbarlı.

**Şahbaz bəy**. “Eşq və intiqam”, Süleyman Sani Axundov.

İlk növbədə teatr aktyoru olan Bürcəli Əsgərov “Azərbaycanfilm”in istehsal etdiyi “Onu bağışlamaq olarmı?” bədii filmində Leytenant Rəsulov roluna çəkilib.

Bürcəli Əsgərov 2000-ci ildən, həmçinin Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında aktyor işləyir. O, burada Hidayətin “Məhəbbət yaşayır hələ”..” (Əliş Vəlişoviç), “Durnalar qayıdanda” (Vəli Qulamoviç), Sabit Rəhmanın “Yalan” (Saleh), Ağarəhim Rəhimovun “Əsgər anası” (Kamal) əsərlərinin tamaşalarında oynayıb.

Teatr sənətində qazandığı nailiyyətlərə, uğurlu aktyor ifalarına görə 1982-ci il dekabr ayının 1-də Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.



**Firuz XUDAVERDİYEV**
**Əməkdar artist**

Epizodik və xarakterik rollar aktyorudur. Vaxtilə, nisbətən irihəcmli komik rollarda da çıxış edib. Sifət quruluşu, səhnə görünüşü və aktyorluq imkanları tipik, sarkazm səciyyəli məsxərə obrazlarının ifasına daha uyğundur.

Firuz İmam oğlu Xudaverdiyev 1939-cu il iyul ayının 9-da Bakının Lökbatan qəsəbəsində doğulub. Qaradağ rayonundakı 166 saylı orta məktəbi 1958-ci ildə bitirib. Qaradağneftdə müxtəlif fəhlə işlərində işləyib, sement zavodunda çalışıb. 1958-1961-cı illər arasında Bakı Kitabxanaçılıq texnikumunda təhsil alıb.

1965-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Oranı 1969-cu ildə qurtarıb və təyinatla təzəcə açılmış Mərziyə Davudova adına Mingəçevir Dövlət Dram Teatrında işləməyə göndərilib. Avqust ayının 1-də teatrın truppasına qəbul olunan Firuz Xudaverdiyevin həmin kollektivin səhnəsində oynadığı əsas rollar aşağıdakılardır.

**Fuad.** “Almaz”, Cəfər Cabbarlı.

**Gümüşov.** “Həmyerlilər”, Altay Məmmədov.

**Şəmsi bəy.** "Eşq və intiqam", Süleyman Sani Axundov.

**Molla Səfi.** "Hacı Qəmbər" ("Yağışdan çıxdıq, yağmura düşdük"), Nəcəf bəy Vəzirov.

**Bahar ağa.** "Kimdir müqəssir?", Əbdürrəhim bəy Haqverdiyev.

**Lələşov.** "Sarıtel xanım", Əli Səmədov.

**Vəzir.** "Dəyirmançı oğlu", Şirəli İlyasov.

**Assistent.** "Şöhrət və ya unudulan adam", Nazim Hikmət.

**Kapitan Səmədov.** "Üçtəpə əməliyyatı", Yəhya Məmmədov.

**Nahld.** "Qaynananın sandığı", Mirzağa Ataş.

**Vəzir.** "Fərhad və Şirin", Səməd Vurğun.

**Əliqulu.** "Tamahkar", Süleyman Sani Axundov.

**Ədalət.** "Məhv olmuş gündəliklər", İlyas Əfəndiyev.

**Kişi.** "Müqtədir", Kələntər Kələntərli.

O, 1971-ci ilin yanvarında Sumqayıt Dövlət Dram Teatrına gəlib və yeddi aydan sonra yenə geri qayıdıb. Mingəçevir teatrında bir xeyli də lap kiçik və sözsüz rollar oynayan Firuz Xudaverdiyev 1976-cı il avqust ayının 26-da o kollektivdən ayrılıb. O, 1976-cı il sentyabr ayının 10-dan Akademik Milli Dram Teatrının aktyor truppasında çalışır. İşlədiyi müddətdə aşağıdakı rolları oynayıb.

**Nikolay Koşkin.** "Daşqın", Anatoli Safronov.

**Bir kişi.** "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə.

**Birinci Qulam və Qoca.** "Fitnə", Abdulla Şaiq.

**Çolaq.** "Yad adam", Leonqard Frank.

**Birinci Polis.** "Səhra yuxuları", Anar.

**Ter Vahan,** "Xurşid banu Natəvan", İlyas Əfəndiyev.

**Əsgər.** "Maqbet", Vilyam Şekspir.

**Molla.** "Mirzə Şəfi Vazeh". Nəbi Xəzri.

**Hans.** "Gecənin sirri", Anatoli Safronov.

**Birinci qanun.** "İblis", Hüseyn Cavid.

**Kərhəlayı Bəndalı.** "Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev. Kiçik səhnədə.

**Aşbaz Abbas.** "Sehrli alma", Yozef Lada.

**Vəli.** "İlham pərisi", Cahan Əfruz. Kiçik səhnədə.

**Xəstə.** "Biganələr oteli", Rüstəm İbrahimbəyov.

**MolIa Həzrətqulu.** "Sizi deyib gəlmişəm...", Anar.

**Çayçı. "Təhminə və Zaur", Anar.**

**Teodrik.** "Böyük Romul", Fridrix Dürrenmatt.

**Atəşbad.** "Od gəlini", Cəfər Cabbarlı.

**Cani.** "Şeyx Xiyabani", İlyas Əfəndiyev.

**Dilənçi.** "Üç quruşluq opera", Bertolt Brext və Kurt Vayl.

**Üçüncü şikayətçi.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.

**Qulam Qərib.** "Mənsiz dünya", Nəbi Xəzri.

**Xəfiyyə.** "Tufandan əvvəl", Arif Süleymanov.

**Nümayəndə.** "Kərgədan buynuzu", Maqsud İbrahimbəyov.

**Əcəm.** "Qanlı Nigar", Sadıq Şendil.
**Birinci milis**. "Gecə döyülən qapılar", Nəbi Xəzri.
**Roşik.** "Qanqın böyük dalğası" Cahan Əfruz.
**Bilal kişi.** "Yalan", Sabit Rəhman.
**Birinci polis.** "Tənha iydə ağacı", İlyas Əfəndiyev.
**Oyunbaz.** "Qədr gecəsi", Eldar Baxış.
**Məşədi Cəfər.** "Anamın kitabı", Cəlil Məmmədquluzadə.
**Qoca.** "Min illərin işığı", Kamil Abdullayev.
**MoIIa Vəli.** "Dindirir əsr bizi...", Davud Aslan.
**Vasili İppolitoviç.** "Şadlıq sorağında", Viktor Rozov.
**Birinci ərizəçi.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.
**Qulam.** "Aydın", Cəfər Cabbarlı.
**Heydərqulu.** "Eşq və intiqam", Süleyman Sani Axundov.
**Həkim.** "Kəllə", Nazim Hikmət.
**Molla.** "Brüsseldən məktublar", Həsən Həsənov (Əzizoğlu).

Aktyor Azərbaycan Dövlət Televiziyasında Aqşin Babayevin "Dəvətnamə" (Müəllim), Altay Məmmədovun "Həmyerlilər" (Sarı Sarızadə), Üzeyir bəy Hacıbəyovun felyetonları əsasında "Ordan-burdan" (Müəllim), Əzizə Cəfərzadənin "Pəncərədə işıq" (Firuz) pyeslərinin teletamaşalarında oynayıb.

Firuz İslam oğlu Xudaverdiyev səhnə sənətində uzun illər çalışdığına görə 24 dekabr 2002-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.



**Sadıq İBRAHİMOV**
**Əməkdar artist**

Həm qəhrəman, həm epizod, həm də xarakterik rollar oynayır. Təbiətən sakit, daxilən dramatik ehtiraslı aktyordur.

İfadə vasitələrində romantik aktyor məktəbinin estetik prinsiplərinə xas olan estetik səciyyələr də vardır. Quruluşçu rejissorlardan əsasən Mehdi Məmmədovla, Tofiq Kazımovla, Məmmədkamal Kazımovla, Əşrəf Quliyevlə, Mərahim Fərzəlibəyovla və Bəhram Osmanovla işləyib. Xan ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə) tipli komik rollarda dramatizmin psixoloji çalarlarından məharətlə istifadə edir.

Sadıq Əliabbas oğlu İbrahimov 23 dekabr 1945-ci il Bakıda doğulub. Yeddinci sinifə qədər paytaxtdakı 173 saylı orta məktəbdə oxuyub. On üç yaşından Mərkəzi Pionerlər Evinin (1961-ci ildən Yuri Qaqarin adına Pionerlər Sarayı adlanıb) dram dərnəyinə üzv yazılıb. Dərnəyin rəhbəri Gənc Tamaşaçılar Teatrının aktyoru, sonralar xalq artisti fəxri adı ilə təltif olunmuş Süleyman Ələsgərov idi. O,

dərnəyin qabaqcıl üzvlərini, o cümlədən, məktəbli Sadığı Azərbaycan Dövlət Televiziyasında hazırlanan “Düşərgə saatı”, “Pioner şeypuru”, “Məktəbli həyatı” verilişlərinə aparırdı. Sadıq İbrahimov şer, hekayə söyləyir, kiçik səhnəciklərdə rollar oynayırdı.

1961-ci il may ayının 25-də quruluşçu rejissor Mehdi Məmmədov özünün tərcüməsində rus dramaturqu Viktor Rozovun “Şadlıq sorağında” dramını tamaşaya hazırlamışdı. Məmmədkamal Kazımov tamaşanın rejissoru idi. Oleq rolunu Bakı məktəblisi, “Ögey ana” bədii filmində İsmayıl roluna çəkilmiş və çox populyar olmuş Ceyhun Mirzəyev oynayırdı. Onun “Lenfılm” kinostudiyasına çəkilişə getməsi ilə bağlı rejissor Məmmədkamal Kazımov quruluşçu rejissor Mehdi Məmmədovun tapşırığı ilə Oleq roluna ifaçı axtarırdı. Teatrın aktyoru Eldəniz Zeynalov televiziyadan tanıdığı Sadıq İbrahimovu rejissorla tanış etdi. Beləliklə, Sadıq İbrahimov hələ məktəb şagirdi olduğu illərdən Akademik Milli Dram Teatrında aktyorluğa başlayıb. O, bundan sonra Samuil Alyoşinin “Palata” (Mişa), Mirzə Fətəli Axundzadənin “Hacı Qara” (Bədəl), Aleksey Arbuzovun “Tanya” (İvan) pyeslərinin və digər dramaturqların əsərlərinin tamaşalarında oynayıb.

Teatrda rollar oynadığına görə növbəli axşam məktəbinə keçib və orta təhsil alandan sonra iki il “Azərkitab”ın anbarında fəhlə işləyib. Fəhlə işləyə-işləyə Aşıq Ələsgər adına Mədəniyyət sarayının xalq teatrında çıxışlar edib.

Aktyor kimi kifayət qədər tanınan Sadıq İbrahimov 1966-cı ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinə daxil olub. İxtisas təhsilini xalq artisti Rza Təhmasibdən alıb. 1970-ci il oktyabr ayının 6-da təyinatla Akademik teatrın truppasına aktyor götürülüb. Onun 1961-ci ildən bu günə qədər Akademik Milli Dram Teatrında oynadığı əksər rolların siyahısı bundan ibarətdir.

**Oleq.** “Şadlıq sorağında”, Viktor Rozov.

**Prokuley.** “Antoni və Kleopatra”, Vilyam Şekspir.

**Bədəl.** “Hacı Qara”, Mirzə Fətəli Axundzadə.

**Mişa.** “Palata”, Samuil Alyoşin.

**İvan.** “Tanya”, Aleksey Arbuzov.

**Kömürçü oğlan.** “Orlean qızı”, Fridrix Şiller.

**Mişka.** “Müfəttiş”, Nikolay Qoqol.

**Qüdrət.** “Mahnı dağlarda qaldı”, İlyas Əfəndiyev. Bu, aktyorun ali məktəbi bitirəndən sonra teatrda ilk roludur.

**Bayram.** “Xırs quldurbasan”, Mirzə Fətəli Axundzadə.

**Yuri Qriqoryeviç.** “Sevgi... sevgi...”, Emil Braginski və Qriqori Qorin.

**Assistent.** “Şöhrət və ya unudulan adam”, Nazim Hikmət.

**Alman zabiti.** “İnsan”, Səməd Vurğun.

**Kral oğlu.** “Yatmış gözəl və yeddi qardaş”, Aleksandr Puşkin.

**Şişkin.** “Meşşanlar”, Maksim Qorki.

**Rəşid.** “Kəndçi qızı”, Mirzə İbrahimov.

**Gümrah.** “Alov”, Mehdi Hüseyn.

**Çəkməli və Proniya.** “Zamanın hokum”, Nikolay Poqodin.

**Don Lope. “Bəşərin komediyası”, yaxud “Don Juan”, Mirzə İbrahimov.**

**Hacı İslam.** “Dəli yığıncağı”, Cəlil Məmmədquluzadə.
**Bəxtiyar.** “Fitnə”, Abdulla Şaiq.
**Üçüncü repartyor.** “Səhra yuxuları”, Anar.
**Yaralı əsgər.** “Maqbet”, Vilyam Şekspir.
**Seyranın uşaqlığı.** “Namus”, Aleksandr Şirvanzadə.
**Kiçik gürcü, Əli bəy və Eldar.** “Vaqif”, Səməd Vurğun.
**Xorot.** “Gecənin sirri”, Anatoli Safronov.
**Kiçik zabit.** “İblis”, Hüseyn Cavid.
**Əcəmi.** “Atabəylər”, Nəriman Həsənzadə.
**Qoca şair.** “Fəryad” Bəxtiyar Vahabzadə.
**Dəmirgüc.** “Torpağa sancılan qılınc”, Nəbi Xəzri.
**Torqut.** “Od gəlini”, Cəfər Cabbarlı.
**Xan.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.
**Mirzə Fətəli Axundzadə.** “Mənsiz dünya”, Nəbi Xəzri.
**Doqadov.** “Tufandan əvvəl”, Arif Süleymanov.
**Nəcəfov.** “Kərgədan buynuzu”, Maqsud İbrahimbəyov.
**Ədhəm Nəcəfov.** “Sevgililərin cəhənnəmdə vüsalı”, İlyas Əfəndiyev.
**Müzəffər.** “Gecə döyülən qapılar”, Nəbi Xəzri.
**Nadirov.** “Əcəb işə düşdük”, Şıxəli Qurbanov.
**Aslan bəy.** “Anamın kitabı”, Cəlil Məmmədquluzadə.
**Soltan Mahmud paşa.** “Min illərin işığı”, Kamil Abdullayev.
**Çar Artak.** “Pompeyin Qafqaza yürüşü”, Nəriman Həsənzadə.
**Fesey.** “Şah Edip”, Sofokl.
**Kamil paşa.** “Ulduz, yaxud Ədirnə fəthi”, Cəfər Cabbarlı.
**Hüquqşünas.** “Cəzasız günah”, Bəxtiyar Vahabzadə.
**Arqant.** “Skapenin kələkləri”, Jan Batist Molyer.

Sadıq İbrahimov Azərbaycan Dövlət Televiziyasında hazırlanan çoxlu tamaşada oynayıb. Həmin teletamaşaların bir qismi televiziyanın daimi fondunda yüksək bədii sənət əsəri kimi qorunub-saxlanır.

**Fabrisio.** “Mehmanxana sahibəsi”, Karlo Haldoni.
**Xirin.** “Yubiley”, Anton Cexov.
**Fərhad İldırım.** “Şərqin səhəri”, Ənvər Məmmədxanlı.
**Doktor.** “Ana və qız”, Yusif Şirvan.
**Tabera.** “Seviliya ulduzu”, Lope de Veqa.
**Teymur ağa.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.
**Müstəntiq.** “Sarıköynəklə Valehin nağılı”, İlyas Əfəndiyev.
**Xəlil.** “Aldanmış kəvakib”, Mirzə Fətəli Axundzadə.
**Haqverdiyev.** “İki hekayə”, Əbdürrəhim bəy Haqverdiyev.
**Olye Anderson**. “Qatillər”, Ernest Heminquey.
**Səftərqulu.** “Ev tərbiyəsinin bir şəkli”, Nəcəf bəy Vəzirov.
**Qora.** “Qora”, Robindranat Taqor.
**Soltan**. “Oğulla görüş”, Çingiz Aytmatov.
**Sentkler**. “Dodağı çapıq”, Kanon Doyl.

Aktyor Sadıq İbrahimov, həmçinin bədii yaradıcılıqla da məşğul olur. Onun indiyədək müxtəlif nəşriyyatlarda “Gözlə məni” (“Gənclik”, 1984), “Nənəm nağıl söyləyəndə” (“Gənclik”, 1987), “Noğulbalanın sərgüzəştləri” (“Yazıçı”, 1991), “Rübailər... Sətirlər” (1997) kitabları çap olunub. O, Respublika Yazıçılar Birliyinin üzvüdür.

Aktyor “Azərbaycanfilm” kinostudiyasında istehsal olunmuş rejissor Arif Babayevin “Ömrün ilk anı”, rejissor Rasim Ocaqovun “Qatır Məmməd” bədii filmlərində Neftçi Qurban və Səlim rollarına çəkilib.

Sadıq İbrahimov aktyorluq uğurlarına görə 28 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.



**Rafael DADAŞOV**
**Əməkdar artist**

Çox cazibəli səhnə görkəmi, mütənasib biçimli, yaraşıqlı boy-buxunu, nəzakətli davranışı, qılıqlı danışığı var. Aktyorluq yaradıcılığının ilk dövrlərində əsasən baş rollarda, daha çox isə sevgili qəhrəman obrazlarında çıxış edib. Aktyorluq bacarığının potensial imkanlarına görə həm romantik səpkili, həm də realist xarakterli psixoloji surətlərin səhnə təcəssümündə çıxış edə bilir. Bir sıra məşhur tarixi şəxsiyyətlərin rollarını da oynayıb. Rafael Məlik oğlu Dadaşov 4 yanvar 1946-cı ildə Naxçıvanda doğulub. Atası görkəmli aktyor, xalq artisti Məlik Dadaşov, anası isə məşhur aktrisa, xalq artisti Sofiya Hüseynovadır. Naxçıvandakı Aleksandr Puşkin adına 3 saylı rus orta məktəbini bitirib.

Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun mədəni-maarif fakültəsini qiyabi bitirib (1966-1972). O, 1967-1974-cü illər arasında Bakı Dövlət Sirkində işıqçı, Dəbli Geyimlər Evində maniken, Naxçıvan Muxtar Respublikası Mahnı və Rəqs Ansamblında aparıcı konfransye, SSRİ Ümumittifaq Dövlət Sirkində rejissor-inspektor işləyib. 1974-cü il oktyabr ayının 10-dan 1976-cı il iyulun 1-dək Naxçıvan Muxtar Respublikasının Xalq Yaradıcılığı Evində təlimatçı, eyni zamanda oranın Televiziya və Radio Komitəsində diktor olub.

Rafael Dadaşovım səhnəlik görkəmini görüb bəyənən Tofiq Kazımov onu özünün baş rejissor işlədiyi Akademik Milli Dram Teatrına dəvət edib. O, 16 iyul 1976-cı ildən Akademik teatrın aktyor truppasının üzvüdür. İlk dəfə Tofiq Kazımovun quruluş verdiyi Maqsud İbrahimbəyovun “Ümid” (“Mezazoy əhvalatı”) psixoloji dramının tamaşasında Zaur rolunu oynayıb. Bu əsərin ilk tamaşası 27 noyabr 1976-cı ildə göstərilib. Həmin dövrdən bəri Rafael Dadaşov bu möhtəşəm sənət ocağının səhnəsində məşhur dünya və milli klassiklərin, çağdaş Azərbaycan və əcnəbi dramaturqların aşağıdakı əsərlərinin tamaşalarında səciyyə və xaraktercə əlvan rollar oynayıb.

**Zaur.** "Ümid", Maqsud İbrahimbəyov.
**Don Juan.** "Bəşərin komediyası, yaxud Don Juan", Mirzə İbrahimov.
**Klavdio.** "Heç nədən hay-küy", Vilyam Şekspir.
**Bəhram.** "Fitnə", Abdulla Şaiq.
**Vojevatov və Paratov.** "Cehizsiz qız", Aleksandr Ostrovski.
**Rövşən.** "Əliqulu evlənir", Sabit Rəhman.
**Müstəntiq.** "İstintaq", Rüstəm İbrahimbəyov.
**Birinci repartyor.** "Səhra yuxuları", Anar.
**Knyaz Xasay.** "Xurşid banu Natəvan", İlyas Əfəndiyev.
**Fikrət və Rəşad.** "Kimdir haqlı?", Bəxtiyar Vahabzadə.
**Mirzə Fətəli.** "Mirzə Şəfi", Nəbi Xəzri.
**Vasif.** "İblis", Hüseyn Cavid.
**Qədim.** "Büllur sarayda", İlyas Əfəndiyev.
**Cəmil.** "Unuda bilmirəm", İlyas Əfəndiyev.
**Qiyas.** "Şəhərin yay günləri", Anar.
**Murad.** "Nakam qız", Aleksandr Şirvanzadə.
**Fəxrəddin.** "Qılınc və qələm", Məmməd Səid Ordubadinin romanı əsasında Tofiq Kazımovun işləməsi.
**Camal. "Nişanlı qız", Sabit Rəhman.**
**Həsən Soltan.** "Şeyx Xiyabani", İlyas Əfəndiyev.
**Mayis.** "Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev.
**Ədhəm Tağıyev.** "Dəlilər və ağıllılar", İlyas Əfəndiyev.
**Mindövlət və Aydar.** "Sokratı anma gecəsi" ("Eşşək dərısı üzərində məhkəmə"), Çingiz Aytmatov və Muxtar Şahanov.
**Klavdi.** "Hamlet", Vilyam Şekspir.
**Tesey**. "Fedra", Jan Rasin.
**Özdəmir**. "Afət", Hüseyn Cavid.

Rafael Dadaşov Azərbaycan Dövlət Televiziyasında hazırlanmış çoxlu tamaşaların iştirakçısı olub. Həmin teletamaşalar içərisində Anarın "Ötən ilin son gecəsi" (Rüstəm), Karlo Haldoninin "Mehmanxana sahibəsi" (Sinyor Kavaler), Aslan Qəhrəmanovun "Müsabiqə" (Elmi işçi), "Səni axtarıram" və "Bağışla" (Vasif müəllim) diptixi, Ruhəngiz Qasımovanın "Yollar görüşəndə" (Həmid), Hüseyn Cavidin "Topal Teymur" (Orxan), Üzeyir bəy Hacıbəyovun felyetonları əsasında "Ordan-burdan" (Həmid), İlyas Əfəndiyevin "Mənim günahım" (Sahib), "Sarıköynəklə Valehin nağılı" (Müstəntiq), İslam Səfərlinin "Göz həkimi" (Rauf), Lduryunçinkasın "Qapalı orbit" (Kostas), Moris Düronun "Səyyah və yaxud qərib hörmətli olar" (İxtiraçı), Arturo Rafin "İblis qadın" (Şef) pyeslərinin, Vilyam Şekspirin sonetləri əsasında kompozisiyanın (Sevgili qəhrəman) teletamaşalarında oynadığı obrazlar daha yaddaqalan və uğurludur.

Aktyor "Var olun, qızlar" (İsa), "Yarımçıq qalmış serenade" (Saksafonçu), "Yay vaxtı xəzan yarpaqları" (Maarif inspektoru), "Bəxt üzüyü" (Rasim), "Mənim ağ şəhərim" (Baş mühəndis), "Xüsusi vəziyyət" (adsız obraz) bədii, "Qaçaq Süleyman" (Qraf Vorontsov) televiziya filmlərinə çəkilib.

Rafael Məlik oğlu Dadaşov aktyorluq sənətində qazandığı nailiyyətlərə görə 20 mart 1987-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.



**Telman ƏLİYEV**
**Əməkdar artist**

Xarakterik komediya obrazlarını böyük məharət və yaradıcı ehtirasla oynayır. Klassik peşəkar teatrımızın komediya qolunun estetik prinsiplərindən və xalq tamaşalarının poetika səciyyələrindən ustalıqla istifadə edir. Aydın və koloritli diksiyasını, texniki aktyorluq vasitələrini, ifadəli tapıntılarını oynadığı obrazların xarakterlərinin daha dərindən açılması istiqamətində səfərbər etməkdə səriştəlidir.

Telman Rüstəm oğlu Əliyev 1947-ci il noyabr ayının 2-də Şuşa şəhərində anadan olmuşdur. Ailəsi əvvəl Tərtərə, sonra Gəncəyə köçüb, Şuşaya qayıdıb və yenidən Gəncədə məskunlaşıb. Buna görə də beş il Gəncədəki 20 saylı, üç il Şuşadakı 1 saylı məktəblərdə oxuyub və orta təhsilini Gəncənin 27 saylı məktəbində tamamlayıb. Bir müddət Gəncə Alüminium zavodunda işləyib və sonra üç il hərbi xidmətdə olub (1966-1969). Hərbi xidmətdən qayıdaraq bir ildən çox Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrının nəzdindəki studiyada müəyyən təcrübə toplayıb, kütləvi səhnələrə çıxıb, epizod rollar oynayıb. Bacarıq və qabiliyyətinə görə 1971-ci il mart ayının 1-də onu teatrın truppasına aktyor götürüblər. Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsini qiyabi bitirərək teatr kollektivinin rejissoru ixtisasına yiyələnməklə yanaşı (1977-1982), Gəncənin Mərkəzi Mədəniyyət Sarayında rəssamlıq kursu keçib.

O, özünün rejissorluq və rəssamlıq bacarığını Gəncə Dövlət Dram Teatrının səhnəsində oynanılan Hüseyn Cavidin “Ana”, “Maral”, Üzeyir bəy Hacıbəyovun “Məşədi İbad”, Yan Saloviçin “Qəribə dilənçi”, Aleksandr Vampilovun “Övlad”, Sabit Rəhmanın “Əliqulu evlənir”, İsmayıl Şıxlının “Dəli Kür”, “Odlu çarpazlar”, Altay Məmmədovun “Dəli Domrul”, Məmməd Alimin “Nəğmə qapısı”, Qərib

Mehdiyevin "Oxşarlar", Rövşən Ağayevin "Yeddi oğlan, bir qız", Georgi Xuqayevin "Elbrus evlənir", Rəhman Əlizadənin "Doğmalar" pyeslərinin tamaşalarına verdiyi quruluşda və bədii tərtibatda göstərilib.

Təşkilatçılıq bacarığına görə Telman Əliyev teatrda aktyorluq fəaliyyəti göstərməklə bərabər, 16 noyabr 1990-cı ildə Gəncədəki "Nizami" Poeziya Teatrına bədii rəhbər təyin edilib. Burada Nizami Gəncəvinin, Mirzə Ələkbər Sabirin, Məhəmməd Füzulinin klassik ədəbi irsləri əsasında kompozisiyalara, özünün "Gəncə toyu" etnoqrafik pyesinə səhnə quruluşları verib.

Bütün bu çoxsahəli fəaliyyətinin müqabilində Telman Əliyev ilk növbədə aktyorluq sənətində parlaq nailiyyətlər qazanıb. O, Gəncə teatrında işlədiyi 1969-cu ildən 1 mart 1997-ci ilə qədərki müddətdə aşağıdakı səhnə surətlərini ifa etmişdir.

**Temurtaş və Sədr**. "Yaşar", Cəfər Cabbarlı.
**Bəhram.** "Solğun çiçəklər", Cəfər Cabbarlı.
**Baloğlan.** "Almaz", Cəfər Cabbarlı.
**Şeyx Alı.** "Vaqif", Səməd Vurğun.
**Cəlal.** "Komsomol poeması", İsgəndər Coşğun.
**Boksçu.** "Demoklisin qılıncı", Nazim Hikmət.
**Ortancıl oğul.** "Kor padşah", Nazim Hikmət.
**Həsir şapkalı.** "İvan İvanoviç var idimi?", Nazim Hikmət.
**Kərəm.** "Üçatılan", İlyas Əfəndiyev.
**Mayor və Cəmil.** "Unuda bilmirəm", İlyas Əfəndiyev.
**Məşədi İbad.** "Məşədi İbad", Üzeyir bəy Hacıbəyov.
**Səlim.** "Qaçaq Nəbi", Süleyman Rüstəm.
**Kamal və Əliqulu.** "Əliqulu evlənir", Sabit Rəhman.
**Əlibala**. "Küləklər", Sabit Rəhman.
**Güc Allahı**. "Odu atma, Prometey", Mustay Kərim
**Rəzil**. "72-ci kamera", Orxan Kamal.
**Pərviz.** "Böyük ürək", İmran Qasımov.
**Karranti**. "Uzaq sahillərdə", Həsən Seyidbəyli və İmran Qasımov.
**Aleksand**r. "Həmişə təmizlikdə", Emil Braginski və Eldar Ryazanov.
**Xurşid banu Natəvanın oğlu**. "Xan qızı", Fəridə Əliyarbəyli.
**Durbişxan.** "Araba hələ aşmayıb", Otar İoseliani.
**Mernitsa.** "Qəribə dilənçi", Yan Poloviç.
**Xaritonov**. "Qoca", Maksim Qorki.
**Telyatev**. "Quduz pullar", Aleksandr Ostrovski.
**Sergey Tülenin**. "Unutmayın", Yusif Əzimzadə,
**Ataman.** "Anacan", Yusif Əzimzadə.
**Vano.** "Daha bir qurban", Qabriel Sundukyan.
**Aktyor, Gitlaru**, Aparıcı və Otiliya. "İctimai rəy", Aurel Baranqa.
**Qraf Rifers**. "111 Riçard", Vilyam Şekspir.
**Rodriqo və Birinci zabit**. "Otello", Vilyam Şekspir.
**Yura**. "İki qardaş", Mixail Lermontov.
**Tahirov.** "Mezazoy əhvalatı", Maqsud İbrahimbəyov.
**Qəzənfər kişi**. "Cavan qadına yaraşan kişi", Maqsud İbrahimbəyov.

**Rüstəm**. “Yağışdan sonra”, Bəxtiyar Vahabzadə.
**Böyük bəy**. “Bəylər və xanımlar”, Sahib Axundov.
**Molla Sadıq**. “Dəli Kür”, İsmayıl Şıxlı.
**Sabir**. “Yeddi oğlan və bir qız”, Rövşən Ağayev.
**Teliş.** “Boş barılar”, Əhməd İsayev.
**Zonayan**. “Erməni parlamentindən reportaj”, Altay Məmmədov.
**Zaman xan**. “Ulduzlar görüşəndə”, Altay Məmmədov.
**Əzrayıl.** “Dəli Domrul”, Altay Məmmədov.
**Bulud.** “Gözəl Bahar”, Abdulla Şaiq.
**Eldar.** “Bəli, dünya dəyişib”, Aramaşot Papayan.
**Nazir qardaş**. “Doğmalar”, Rəhman Əlizadə.
**Qaraman Qəmbərov**. “Oxşarlar”, Qərib Mehdiyev.
**Əziz.** “Qatır Məmməd”, Zeynal Xəlil.
**Qəzi dayı.** “Onuncular”, Tofiq Mahmud.
**Sahib.** “Qapı”. Elşad Məmmədov.
**Nəroğlan.** “Qız atası” Əfqan Əsgərov.
**Rəşid.** “Məhəbbət körpüsü”, Novruz Gəncəli.
**Səlim.** “Artıq tamah”, Məmmədiyyə Yusifzadə.
**Əli Məmməd Dilbəri**. “Əli Məmməd Dilbəri”, Səttar Zərdablı.
**Balarza.** “Yuxum çin olsa”, Dadaş Mehdi.
**Ooca faytonçu.** “Altun tac”, Rza Şahvələd.

Aktyor “Nizami” Poeziya Teatrında göstərilən “Sevgi dastanı” (Şapur), “Zəhmət dastanı” (Əyyaş), “Sabir dərdi” (Varlı kişi), “Bəngü-badə” (Tiryək), “Hikmət axşamı” (Əflatun), “Xeyir və şər” (Şah), “Qış nağılı” (Nağıl baba), “Bəhram şah” (İkinci vəzir), “Şairin gənclik illəri” (Qivami) tamaşa-kompozisiyalarda əsasən baş rollarda çıxış edib.

Telman Əliyev Azərbaycan Dövlət Musiqili Komediya Teatrında (1 mart 1997-19 fevral 1998) dramaturq İsi Məlikzadənin və bəstəkar Süleyman Ələsgərovın “Hərənin öz ulduzu” (Kar Kələntər) operettasının, Bakı Bələdiyyə Teatrında (20 fevral 1998-15 oktyabr 1998) Rauf İçərişəhərlinin “Vətənə igidlər gərəkdir” (Erməni), Nəriman Nərimanovun “Nadir şah Əfşar” (Baş vəzir) pyeslərinin tamaşalarında oynayıb. Bir müddət Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dekan köməkçisi, müəllim işləyib. O, 2000-ci il fevral ayının 8-də Akademik Milli Dram Teatrının yaradıcı heyətinə müqavilə yolu ilə aktyor götürülüb. Həmin il oktyabr ayının 19-dan isə truppada aktyor ştatındadır. Repertuardakı hazır tamaşalarda müəyyən rollara əlavə ıfaçı kimi daxil olub və eyni zamanda təzə səhnə əsərlərində obrazlar ifa edib.

**Balaxan.** “Aydın”, Cəfər Cabbarlı.
**Şüeyb.** “Ulduz, yaxud Ədirnə fəthi”, Cəfər Cabbarlı.
**Baba.** “Poçt şöbəsində xəyal”, Elçin.
**Qüdrət Qurbanoviç.** “Köhnə ev”, Əli Əmirli.
**Yoldaş Əmrah.** “Bu dünyanın adamları”, Hidayət Orucov.
**Teromen.** “Fedra”, Jan Rasin.
**Sintızator.** “Hələ “sevirəm” deməmişdilər...”, Ramiz Novruz.

**Qulamoğlu.** "Hərənin öz payı", Xeyrəddin Qoca.
**Dilənçi.** "Varlı qadın", Əli Əmirli.

O, Rafıq Səməndərin "Bir aktyorun teatrı" (Araq düşkünü), Ağalar Mirzənin "Bahar-99" (Məşədi) teletamaşalarında iştirak edib.

"Şeytan içimizdədir" (Şöbə rəisi), "Yük" (Duxançı), "Bizi dağlarda axtarın" bədii filmlərinə çəkilib.

Telman Rüstəm oğlu Əliyev səhnə sənətindəki uğurlarına görə 17 may 1989-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub. "Şərəf nişanı" ordeni alıb.



**Əli NUR**
**Əməkdar artist**

Səhnə təxəllüsü "Nur"dur. Yaradıcılığının bədii-estetik imkanlarına görə daha çox romantik aktyor məktəbinin poetika göstəricilərinə uyğundur. Daxilən ehtiraslı, dramatik ziddiyyətli, müəyyən pafoslu, mürəkkəb konfliktli vəziyyətlərə düşən obrazları oynamaq cəhdi güclüdür. Milli klassik dramaturqlarımızın komediyalarında ciddi yumorlu, cazibəli rolları var. Səsi ötkəm və qəltanlıdır, səhnədə cingiltili danışmağı xoşlayır. Sərt xarakterli dramatik surətlər üçün onun aktyor ifadə vasitələri nisbətən əlvan və mənalı görünür.

Əli Qayıb oğlu Nurzadə (Əli Nur) 1948-ci il yanvar ayının 10-da Ağsu rayonunun Bicov kəndində anadan olub. Orta məktəbin on birinci sinfini 1965-ci ildə doğma kəndində bitirib. Həmin il uğurla imtahan verərək Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun sənayenin iqtisadiyyatı fakültəsinə daxil olub. Üçüncü kursa keçəndə köçürmə ilə 1968-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsinin birinci kursuna götürülüb. Sənət müəllimləri xalq artisti, rejissor və aktyor Rza Təhmasib, rejissor Əliheydər Ələkbərov və Əzizağa Quliyev olublar. 1972-ci ildə ali aktyor diplomu alan Əli

Nur həmin il sentyabr ayının 1-də təyinatla Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına göndərilib. 1973-cü ilin mayından 1974-cü ilin iyun ayına qədər hərbi xidmətdə qulluq edib və qayıtdıqdan sonra yenə teatrda aktyor işləməyə başlayıb. 30 dekabr 1982-ci ildən 10 fevral 1986-cı ilə qədər aktyorluqla bərabər, həm də teatrın direktoru vəzifəsini tutub.

20 sentyabr 1986-cı ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin əmri ilə Sumqayıtdan Bakıya, Akademik Milli Dram Teatrına aktyor ştatına keçirilib və o vaxtdan bu truppanın üzvüdür. Eyni zamanda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs deyir.

Əli Nur Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrında işlədiyi on üç il ərzində (bir ili hərbi xidmətdə keçib) aşağıda siyahısı verilən rollar silsiləsini ifa edib.

**Bəhram.** "Solğun çiçəklər", Cəfər Cabbarlı.

**Arif.** "Ana məhəbbəti", Yəhya Məmmədov.

**Armenak.** "Parisli kürəkən", Aramaşot Papayan.

**Rahib.** "İnam", Feyruz Məmmədov.

**A.B.** "Demoklisin qılıncı", Nazim Hikmət.

**Cəlal.** "Komsomol poeması", İsgəndər Coşqun. Səməd Vurğunun eyniadlı poeması əsasında.

**Tərgəldi.** "Adamın adamı", Anar.

**İbad.** "Almaz", Cəfər Cabbarlı.

**Laqutin.** "Poladəridənlər", Gennadi Bokarev.

**Tamaz.** "Sərbəst mövzu", Aleksandr Çxaidze.

**Ölüm mələyi.** "İlahi komediya", İsidor Ştok.

**Rüstəm.** "Vəfalı Səriyyə", Cəfər Cabbarlı.

**Arbeni.** "Maskarad", Yuri Lermontov.

**Aləmtac.** "Mehrişah", Oqtay Məmmədov.

**Bəbir.** "Ayıl, bax bu dünyaya", Hacıbaba Nəzərli.

**Zakir.** "Toy şənbə günü olacaq", Mustay Kərim.

**Ərəblinski**. "Ərəblinski", Əli Nur.

**Rəhim.** "Ağa Kərim xan Ərdəbili", Nəcəf bəy Vəzirov.

**Şıxlinski.** "Bütün Şərq bilsin", Nəriman Həsənzadə.

**Şafrov.** "Vətənə qayıtmaq istəyirəm", Vladimir Koşuta.

**Qaratay.** "Afət", Hüseyn Cavid.

**Stenli.** "İstək tramvayı", Tennessi Uilyams.

**Saqadayev.** "On üçüncü sədr", Azat Abdulin.

**Atabala.** "Doğmalar", Rəhman Əlizadə.

**Oqtay.** "Oqtay Eloğlu", Cəfər Cabbarlı.

**Mustafa.** "Çahargah fantaziyası", Kərim Kərimov.

**Etibar.** "Mənim arxalandığım", Nəbi Xəzri.

**Direktor.** "Qəbul təxirə salınır", Camal Yusifzadə.

Aktyor Əli Nur Akademik Milli Dram Teatrının səhnəsində aşağıdakı tamaşalarda da silsilə rolların ifaçısıdır.

**Şirzad.** "Şeyx Xiyabani", İlyas Əfəndiyev.

**Nizami Gəncəvi.** “Atabəylər”, Nəriman Həsənzadə.
**Qazan xan.** “Torpağa sancılan qılınc”, Nəbi Xəzri.
**Nəsimi.** “Fəryad”, Bəxtiyar Vahabzadə. \
**Mustafa.** “Çahargah fantaziyası”, Kərim Kərimov.
**Mirzə Fətəli Axundzadə.** “Mənsiz dünya”, Nəbi Xəzri.
**Kumar.** “Qanqın böyük dalğası”, Cahan Əfruz.
**Qələndər.** “Gülüstanda qətl”, Cəmil Əlibəyov.
**Abdi əfəndi.** “Qanlı Nigar”, Sadıq Şendil.
**Mirzə Məhəmməd.** “Anamın kitabı”, Cəlil Məmmədquluzadə.
**Şair.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.
**Çapar.** “Şah Edip, yaxud alın yazısı” (“Şah Edip”), Sofokl.
**Kərim.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.
**Pirqulu.** “Aydın”, Cəfər Cabbarlı.
**Mustafa.** “Ulduz, yaxud Ədirnə fəthi”, Cəfər Cabbarlı.
**Şəfiyev.** “Bu dünyanın adamları”, Hidayət Orucov.
**Babək.** “Dar ağacı”, Bəxtiyar Vahabzadə.
**Əlimərdan.** “Eşq və intiqam”, Süleyman Sani Axundov.
**Qara xaqan.** “Özümüzü kəsən qılınc” (“Göytürklər”), Bəxtiyar Vahabzadə.
**Nostradamus.** “Hələ “sevirəm” deməmişdilər...”, Ramiz Novruz.

Əli Nur müxtəlif illərdə Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Cəfər Cabbarlının “Mənsur və Sitarə” (Mənsur), Füzuli Sərkərovun “Xatirələrdən gəlmiş qonaq” (Mənsur), Nikolay Qoqolun “Novellalar” (Qoqol), Əhməd İsayevin “Torpağın da canı var” (Mahmud), Əkrəm Əylislinin “Ürək yaman şeydir” (Əjdər), İlyas Əfəndiyevin “Qaçaq Süleyman” (Qaçaq Süleyman), Hüseynbala Mirələmovun “Güllələnmiş heykəllər” (Mirmöhsün Nəvvab) əsərlərin tamaşalarında oynayıb. “Doğan günəş” (General), “Məhəbbətim, taleyim mənim” (Rahib) serial telefilmlərinə çəkilib.

Əli Qayıb oğlu Nurzadə (Əli Nur) 24 dekabr 2002-cı ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.



**Kübrabəyim ƏLİYEVA**
**Əməkdar artist**

Səhnə sərbəstliyi, coşğun ehtirası, daxili aktyorluq temperamenti, tamaşadakı yöndaşları ilə nəzakətli davramşı ilə həmişə seçilir. Aktrisanın ifadə vasitələri həm zəngin, həm də rəngarəngdir. O, dramatik rollarda ifasının psixoloji bədii tutumu ilə nə qədər mənalı, yaddaqalandırsa, komik surətləri oynayanda şirəli və dadlı yumoru, qorteksli tapıntıları, koloritli jestləri ilə sevilir, tamaşaçıların dərin rəğbətini qazanır.

Kübrabəyim (Kübra) Ağa qızı Əliyeva 5 yanvar 1949-cu ildə Gəncə şəhərində doğulub. Burada 21 saylı orta məktəbi 1966-cı ildə bitirib və ailə qayğıları ilə bağlı ali təhsil ala bilməyib, xeyli müddət yalnız evdar qadın olub. Əmək fəaliyyətinə 1970-ci il yanvar ayının 26-da Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında aktrisa kimi başlayıb. Ənvər Məmmədxanlının "Şərqin səhəri" dramının tamaşasında Anjella Kovalini rolu onun aktrisa debütüdür. Sentyabr ayının 6-da Gəncə teatrından çıxıb.

O, 1971-ci il oktyabr ayının 10-da Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrının aktyor heyətinə daxil olub. Burada işləyəndən bir il sonra, 1972-ci ildə Mirzağa Əliyev adına Aərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsinin qiyabi şöbəsinə daxil olub və təhsilini 1977-ci ildə başa çatdırıb. Sumqayıtda işlədiyi 5 il ərzində (31 iyul 1976-cı ildə teatrdan öz ərizəsi ilə çıxıb) Kübrabəyim Əliyeva xeyli maraqlı, tənqid tərəfindən yüksək qiymətləndirilən silsilə rollarla yaradıcılıq uğurları qazanıb.

**Rasimə.** "Anam gəldi", Ş.Xusainov.
**Gülbadam.** "Elbrus evlənir", Georgi Xuqayev.
**Qalya.** "Tribunal", Andrey Makayonok.
**Gülnisə.** "Solğun çiçəklər", Cəfər Cabbarlı.
**Şərəf xanım.** "Tamahkar", Süleyman Sani Axundov.
**Zibeydə.** "Ülviyyə", Rauf İsmayılov.
**Zərri.** "Həmyerlilər", Altay Məmmədov.
**Pəri xala.** "Sən nə üçün yaşayırsan?", İmran Qasımov və Həsən Seyidbəyli.
**Pekran.** "Parisli kürəkən", Aramaşot Papayan.

**Şəfqət bacısı.** "Paralelimin nəbzi", Ramiz Heydər.
**Adilə.** "Ana məhəbbəti", Yəhya Məmmədov.
**Ziba.** "Dost əli", Mehriban Nəzərov.

Sumqayıt teatrından işdən çıxandan sonra aktrisa Azərbaycan Dövlət Musiqili Komediya Teatrının kollektivinə qəbul olunub. Burada işlədiyi illərdə (4 avqust 1976-8 may 1994) o, öz yaradıcılığı üçün yeni janrlı sənət ocağında təzə oyun üslubu prinsiplərində xeyli rollar yaradıb.

**Gövhər xala.** "Gözün aydın", dramaturq Məhərrəm Əlizadə və bəstəkar Fikrət Əmirov.

**Fatma.** "Həyətim mənim, həyatım mənim", Cahangir Məmmədov və Əşrəf Abbasov.

**Qiyamət.** "Qaçırılmış qız", Cahangir Məmmədov və Ramiz Mirişli.

**Direktorun arvadı.** "Yertutanlar", Faiq Mustafayev və Adil Bəbirov.

**Rasimə.** "Qız görüşə tələsir", Adil Babayev və Tofiq Bakıxanovla Nəriman Məmmədov.

**Ballı.** "Qızıl toy", Ramiz Heydər və Oqtay Kazımov.

**Gülbadam.** "Sevgilimin anası", Georgi Xuqayev və Eldar Mansurov.

**Sənəm.** "Məşədi İbad" ("O olmasın, bu olsun"), Üzeyir bəy Hacıbəyov.

**İzzət, Zeynəb və Şərəf.** "Danabaş kəndinin əhvalatları", Cəlil Məmmədquluzadənin povesti əsasında işləyəni Cənnət Səlimova və Oqtay Kazımov.

**Anaş toyuq.** "Tülkü Həccə gedir", Abdulla Şaiq və Şəfəq Rəşid.

**Balaxanım.** "Sonqulunun sərgüzəştləri", Rüfət Əhmədzadə və Emin Sabitoğlu.

**Zeynəb.** "Boşanaq, evlənərik", Əliağa Kürçaylı və Vasif Adıgözəlov.

Kübrabəyim Əliyeva 16 sentyabr 1991-ci ildən Akademik Milli Dram Teatrının aktrisasıdır. Bu teatrda oynadığı dramatik və satirik yumorlu səhnə obrazları aşağıdakılardır.

**Ponsiya.** "Dişi canavar", Federiko Qarsia Lorka.

**Nazilə (Naza).** "Dəlilər və ağıllılar", İlyas Əfəndiyev.

**Hayqanuş.** "Hökmdar və qızı", İlyas Əfəndiyev. \

**Qaraqoyunlu ana.** "Ağqoyunlular və Qaraqoyunlular", Əli Əmirli.

**Firəngiz.** "Ah, Paris... Paris!..", Elçin.

Aktrisa müxtəlif illərdə Azərbaycan Dövlət Televiziyasında Anarın "Evləri köndələn yar" (Bazarkomun arvadı), Marat Haqverdiyevin "Səninlə sənsiz" (Ana), Əzizə Cəfərzadənin "Analar" (Zərbuta), Əlibala Hacızadənin "İtkin gəlin" (Xədicə), Seyfəddin Dağlının "Sabiqlər" (Nazirin arvadı), Bəxtiyar Vahabzadənin "Kimdir haqlı?" (Zeynəb), Rüfət Əhmədzadənin "Sonuncu məhəbbət" (Ünbülnisə) pyeslərinin teletamaşalarında iştirak edib.

Kübrabəyim (Kübra) Ağa qızı Əliyeva səhnə sənətində qazandığı nailiyyətlərə görə 28 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.



**Pərviz BAĞIROV**
**Əməkdar artist**

Milli səhnə sənətimizin fədailərindən olan aktyor Sadıq Salehin oğludur. Xarakterik və tipik rollar oynamaqda məharətlidir. Qaynar daxili aləmi və çevik plastikası var. Oynadığı tamaşalarda onun üçün janr "çərçivəsi" yoxdur. Səhnədə sərbəst, qətiyyətli və cəsarətlidir. Doqquz yaşında televiziyanın uşaq verilişlərində çıxış etməyə başlayıb. Elə həmin ildən də "Azərbaycanfilm" kinostudiyasında dilimizə dublyaj olan kino əsərlərində obrazları səsləndirməyə başlayıb.

Üst-üstə üç yüzdən çox bədii filmin dublyajında yaxından iştirak edib.

Pərviz Sadıq Saleh oğlu Bağırov 1950-ci il noyabr ayının 12-də Bakıda doğulub. Şəhərdə olan 190 saylı məktəbi 1968-ci ildə bitirib. Həmin il Mirzağa Əliyev adına Azərbaycan Dövlət Incəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Tələbə vaxtlarından Akademik Milli Dram Teatrının tamaşalarında həm kütləvi səhnələrə çıxıb, həm də kiçik epizod rollar oynayıb, institutun Tədris teatrındakı tamaşalarda iştirak edib. Məşhur rejissor və o dövrdə Akademik teatrın doktoru işləyən Əliheydər Əkbərovun kursunu 1972-ci ildə bitirib. Təyinatla Akademik Milli Dram Teatrına göndərilib və sentyabr ayının 1-də aktyor truppasının yardım heyətinə ştata götürülüb. 1973-cü ilin oktyabr ayında hərbi xidmətə çağırılıb və bir il sonra, 1974-cü ildə qayıdaraq noyabr ayının 1-dən yenə kollektivin üzvü olub.

Hərbi xidmətdən qayıdan Pərviz Bağırov tez bir zamanda, vaxtilə özünün oynadığı və hazırda repertuarda qərar tutmuş tamaşalara daxil oldu və eyni zamanda yeni-yeni rollar hazırlamağa başladı. Zəhmətkeş və bacarıqlı aktyor Akademik teatrda işlədiyi illər ərzində aşağıda göstərilən səhnə surətlərinin ifaçısıdır.

**Yeddinci qardaş.** "Yatmış gözəl və yeddi qardaş", Aleksandr Puşkin.

**Birinci işçi.** "Knyaz", Hüseyn Cavid.

**Vasenka.** "Övlad", Aleksandr Vampilov.

**Səftər.** "Əks-səda", Nəbi Xəzri.

**Kiçik gürcü, Elçin və Arşaq.** "Vaqif", Səməd Vurğun.

**Susatan.** "Xanuma", Avkisenti Saqareli.

**Dustaq.** "Qılınc və qələm", Məmməd Səid Ordubadinin romanı əsasında Tofıq Kazımovun işləməsi.

**Həsrət.** "Kölgələr pıçıldaşır", Seyfəddin Dağlı.

**Quldur.** "Bəşərin komediyası, yaxud Don Juan", Mirzə İbrahimov.

**İvan.** "Daşqın", Anatoli Safronov.

**Rasim.** "Şəhərin yay günləri", Anar.

**Hacı Bağdad.** “Dəli yığıncağı”, Cəlil Məmmədquluzadə.
**Baltazar.** “Heç nədən hay-küy”, Vilyam Şekspir.
**Əyyar.** “Fitnə”, Abdulla Şaiq.
**Ivan.** “Cehizsiz qız”, Aleksandr Ostrovski.
**Bələdiyyə rəisi.** “Bu qadın mənimdir”, Raymondo Juniyor.
**Kamal.** “Əliqulu evlənir”, Sabit Rəhman.
**Valter.** “Yad adam”, Leonqard Frank.
**Lennoks.** “Maqbet”, Vilyam Şekspir.
**Barataşvili.** “Mirzə Şəfi Vazeh”, Nəbi Xəzri.
**Hərdəmxəyal.** “Sizi deyib gəlmişəm...”, Anar.
**Üçüncü zabit**. “İblis”, Hüseyn Cavid.
**Mahmud.** “Atabəylər”, Nəriman Həsənzadə.
**Kabus və Alyoşka.** “Həyatın dibində”, Maksim Qorki.
**Altay.** “Od gəlini”, Cəfər Cabbarlı.
**Namiq**. “Günah”, Rəhman Əlizadə.
**Şərif.** “Məhəbbət əfsanəsi”, Nazim Hikmət.
**Zəki.** “Yalan”, Sabit Rəhman.
**Lütfiyar.** “Əcəb işə düşdük”, Şıxəli Qurbanov.
**Səlim.** “Yollara iz düşür”, Bəxtiyar Vahabzadə.
**Ağadadaş Nəcəfov.** “Dəlilər və ağıllılar”, İlyas Əfəndiyev.
**Mirzə Həsən.** “Anamın kitabı”, Cəlil Məmmədquluzadə.
**Dərviş.** “Min illərin işığı”, Kamil Abdullayev.
**Həmid.** “Dindirir əsr bizi...”, Davud Aslan.
**Çar Uruz.** “Pompeyin Qafqaza yürüşü”, Nəriman Həsənzadə.
**Şah.** “Şıltaq şahzadənin nağılı”, nağıl-tamaşa.
**Bekan, Talap və Birinci hun**. “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.
**Xaliq.** “Ulduz, yaxud Ədirnə fəthi”, Cəfər Cabbarlı.
**Qonşu.** “Mənim ərim dəlidir”, Elçin.
**Kamran Qızılsəs.** “Köhnə ev”, Əli Əmirli.
**Dadaşzadə.** “Bu dünyanın adamları”, Hidayət Orucov.
**Minas.** “Hələ “sevirəm” deməmişdilər...”, Ramiz Novruz.

Pərviz Sadıq Saleh oğlu Bağırov səhnə sənətindəki səmərəli yaradıcılıq fəaliyyətinə görə 24 dekabr 2002-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.

**Cəfər NAMİQ KAMAL**

**Əməkdar artist**



İlk baxış təəssüratında soyuq, daxilən, məzmun və mahiyyətcə isə duzlu, mənalı, bənzərsiz yumora qadir olan aktyordur. Səhnə davranışında çılğın deyil, lakin daxili ehtiras və hərarətini oynadığı obrazın dinamik, psixoloji, emosional, qatı açıq olan xarakterinin aydın səhnə təcəssümünə sərf etməyə çalışır. Səhnədə yaratdığı satirik səhnə personajları üçün tipik parik, ifadəli qrim və qrotekslə sarakzmın ahəngdar qovuşuğundan irəli gələn kosavari zahiri görkəm tapmağı xoşlayır və bu istiqamətdə müəyyən səriştəli təcrübə toplaya bilib. Əvvəllər "Cəfər Əhmədov" kimi fəaliyyət göstərirdi, ancaq xeyli vaxtdır "Cəfər Namiq Kamal" imzası ilə oynayır.

Cəfər Namiq Kamal oğlu Əhmədov 17 avqust 1950-cı ildə Bakıda doğulub. Paytaxtın Nəsimi rayonundakı 44 saylı məktəbi 1961-ci ildə bitirib və həmin il də Azərbaycan Dövlət Teatr İnstitutunun aktyorluq fakültəsinin axşam şöbəsinə daxil olub. Təhsil aldığı müddətdə Azərbaycan Dövlət Televiziyasının dram və ədəbi proqramlar redaksiyasında rejissor köməkçisi, sonra rejissor assistenti işləyib. İnstitutu 1972-ci ildə bitirib və bir ay Azərbaycan Dövlət Musiqili Komediya Teatrında çalışıb. 21 noyabr 1972-ci il-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına aktyor götürülüb. Arada qısa müddət kollektivdən ayrılıb, qayıdıb və bir il hərbi xidmətini çəkəndən (noyabr 1973-dekabr 1974) sonra yenidən, 1975-ci il yanvar ayının 9-dan Gənc Tamaşaçılar Teatrının aktyor truppasına üzv olub. 7 iyun 1996-cı ilə qədər bu kollektivdə səmərəli çalışan Cəfər Namiq Kamal mürəkkəb və müxtəlif xarakterli silsilə rollar yaradıb.

**Rəcəb.** "Şirinbala bal yığır", Salam Qədirzadə.

**Elçi.** "Bir parça Vətən", Fikrət Sadıq.

**Munin.** "Kiçik torpaq", Şamil Xurşud.

**Qasid.** "Rüstəm və Söhrab", İsgəndər Coşqun.
**Gülüzadə.** "Sağlıq olsun", İsi Məlikzadə.
**Nəcəf.** "Sabah çoxdan başlanıb", Rəhman Əlizadə.
**İlham.** "1109 saylı məhbus" ("Müşfiq"), Rafiq Hüseynov.
**Panamalı adam.** "Bakı komissarları" ("26-lar"), İsgəndər Coşqun.
**Aparıcı.** "Şəhidlər" Bəxtiyar Vahabzadə.
**Uçitel Həsənov.** "Danabaş kəndinin məktəbi", Cəlil Məmmədquluzadə.
**İsabay.** "Fudziama dağında qonaqlıq", Çingiz Aytmatov.
**İnsan.** "Yuxulama", Kamal Aslanov.
**Qaçay bəy.** "Qonşu qonşu olsa kor qız ərə gedər", Rəşid bəy Əfəndiyev.
**Aspirant.** "Unutmağa kimsə yox", Kamal Abdulla.
**Tıntın.** "Hacı Qəmbər" ("Yağışdan çıxdıq, yağmura düşdük"), Nəcəf bəy Vəzirov.

Cəfər Namiq Kamal 10 iyun 1996-cı ildən dəvətlə Akademik Milli Dram Teatrının aktyor truppasının üzvü olub. Bu kollektivdə həm repertuardakı hazır tamaşalara sonradan daxil edilib, həm də yeni hazırlanan səhnə əsərlərində rollar oynayıb.
**Eynşteyn.** "Ah, Paris... Paris!..", Elçin.
**İkinci Tiqran.** "Pompeyin Qafqaza yürüşü", Nəriman Həsənzadə.
**Ədhəm Tağıyev**. "Dəlilər və ağıllılar", İlyas Əfəndiyev.
**Ədəbi işçi.** "Mənim sevimli dəlim", Elçin.
**Dost.** "Mənim ərim dəlidir!" ("Diaqnoz "D"), Elçin.
**Vəzir Mirzə Həbib.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.
**Xəlil.** "Poçt şöbəsində xəyal", Elçin.
**Kamran Qızılsəs.** "Köhnə ev", Əli Əmirli.
**Qulaməli.** "Bu dünyanın adamları", Hidayət Orucov.
**Gülməyən adam.** "Hərənin öz payı", Xeyrəddin Qoca.

Aktyor Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Əfqan Əsgərovun "Qız atası" (Yarik), Cəlil Məmmədquluzadənin "Anamın kitabı" (Rüstəm), Mar Bayciyevin "Duel" (Əziz), Elçin Mehrəliyevin "Yurd yeri" (Sədrəddin) pyeslərinin teletamaşalarında oynayıb.
Cəfər Namiq Kamal oğlu Əhmədov (Cəfər Namiq Kamal) 24 dekabr 2002-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.



**Elxan QULİYEV**
**Əməkdar artist**

Tipik səciyyəli, qabarıq xarakterik xüsusiyyəti üzdə olan dram və komediya obrazlarını oynamaqda daha səriştəlidir. Səhnədə qaynar təbiətlidir, mürəkkəb dinamik hərəkətlərin ifadəli, məzmunlu icrasını oynadığı personajın bədii-psixoloji məziyyətləri ilə həssaslıqla əlaqələndirməyi bacarır. Vəziyyət komediyası janrında hazırlanan tamaşalarda xalq oyunlarının əlvan ifadə vasitələrindən zövq və bacarıqla bəhrələnə bilir.

Elxan Ağabala oğlu Quliyev 2 noyabr 1952-ci ildə Bakıda doğulub. 1970-ci ildə ölkəmizin paytaxtındakı 18 saylı orta məktəbin onuncu sinfini qurtarıb. Həmin il Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub.

Onların kursuna aktyor sənəti ixtisasını xalq artisti, məşhur rejissor və aktyor Rza Təhmasib tədris edib. 1974-cü ildə ali savadlı aktyor diplomu alan Elxan Quliyev təyinatla Akademik Milli Dram Teatrına göndərilib və sentyabr ayının 16-da qocaman kollektivin aktyor truppasına ştata götürülüb. Noyabr ayında hərbi xidmətə çağırılıb və bir ildən sonra Bakıya qayıdaraq 18 noyabr 1975-ci ildən yenə Akademik teatrın səhnəsində aktyorluq fəaliyyətinə başlayıb.

Zəhmətkeş və bacarıqlı aktyor Elxan Quliyev yaradıcılıq fəaliyyəti dövründə Akademik Milli Dram Teatrının səhnəsində milli və dünya klassiklərinin, çağdaş Azərbaycan dramaturqlarının pyeslərinin, tərcümə əsərlərinin tamaşalarında xeyli bədii obraza nıaraqlı səhnə həyatı verib.

**Üçüncü qardaş.** “Yatmış gözəl və yeddi qardaş”, Aleksandr Puşkin.

**Səftər.** “Əks-səda”, Nəbi Xəzri.

**Döyüşçü.** “Qılınc və qələm”, Məmməd Səid Ordubadinin eyniadlı romanı əsasında Tofiq Kazımovun işləməsi.

**Oğlan.** “Vəkil neyləsin?..”, Ramiz Fətəliyev.

**Zəncirvuran.** “Dəli yığıncağı”, Cəmil Məmmədquluzadə.

**Çapar.** “Heç nədən hay-küy”, Vilyam Şekspir.

**Birinci qulam.** “Fitnə”, Abdulla Şaiq.

**Laldinməz polis.** “Səhra yuxuları”, Anar.

**Xidmətçi.** “Şərqli diş həkimi”, Akop Paronyan.

**Kaytens.** “Maqbet”, Vilyam Şekspir.

**Abovyan.** “Mirzə Şəfi Vazeh”, Nəbi Xəzri.

**Üçüncü kəndli.** "Bəxtsiz cavan”, Əbdürrəhim bəy Haqverdiyev. Kiçik səhnədə.

**Qıran.** “Atabəylər”, Nəriman Həsənzadə.

**Cakob.** “Üç quruşluq opera”, Bertolt Brext və Kurt Vayl.

**Ata.** “Anamın kitabı”, Cəlil Məmmədquluzadə.

**Kinto.** “Xanuma”, Avkisenti Saqareli.
**Alman oğlu.** “İnsan”, Səməd Vurğun.
**Cabir, Zeynal, Oqtay.** “Günəbaxanlar”, Rafiq Səməndər. Kiçik səhnədə.
**Sərkərdə və Teymur.** “Vaqif”, Səməd Vurğun.
**Aşbaz Abbas.** “Sehrli alma”, Yozef Lada.
**Kəramət.** “Fəryad”, Bəxtiyar Vahabzadə.
**Tahir.** “Səadət sorağında”, Xalid Əlimirzəyev. Kiçik səhnədə.
**Dördüncü ərəb və Toğrul.** “Od gəlini”, Cəfər Cabbarlı.
**Jurnalist.** “Şeyx Xiyabani”, İlyas Əfəndiyev.
**Böyükağa.** “Günah”, Rəhman Əlizadə.
**Ağa Bəşir.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə. İki müxtəlif quruluşda.
**Qarğış.** “Qızıl teşt”, Seyran Səxavət.
**Məmmədağa.** “Yayda qartopu oyunu”, Vaqif Səmədoğlu.
**Birinci kişi.** “Hara gedir, bu dünya?”, Bəxtiyar Vahabzadə.
**Oyunbaz.** “Qədr gecəsi”, Eldar Baxış.
**Şahid.** “Müəmmalı bir qətlin üç versiyası”, Ryunesko Akultaqava. Kiçik səhnədə.
**Osvald.** “Kral Lir”, Vilyam Şekspir.
**Ergin.** “Özümüzü kəsən qılınc” (“Göytürklər”), Bəxtiyar Vahabzadə.
**Yarqıtay.** “Dar ağacı”, Bəxtiyar Vahabzadə.
**Pedro.** “Kəllə”, Nazim Hikmət.
**Mirzə Cəlil Məmmədquluzadə.** “Hərənin öz payı”, Xeyrəddin Qoca.

Elxan Quliyev teatrda işləməklə yanaşı, Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Ənvər Məmmədxanlının “Şərqin səhəri” (Bayram), İlyas Əfəndiyevin “Sarıköynəklə Valehin nağılı” (Rövşən), Anton Çexovun, “Altıncı palata” (Vanya), Nazim Hikmətin “Şöhrət və ya unudulan adam” (Fotoqraf), Mixael Cavaxaşvilinin “Günahsız Abdulla” (Gözətçi), Mirzə Fətəli Axundzadənin “Hacı Qara” (Səfər bəy), Anatoli Dudarevin “Astana” (Sərxoş) əsərlərinin tamaşalarında oynayıb.

“Azərbaycanfilm” kinostudiyasında çəkilmiş “Sevinc buxtası” (Elxan), “Ani dönüş” (Oqtay), “Pəncərə” (Sahə müvəkkili), “İstintaq” (Milis mayoru), “Musiqi ilə xaş” (Aşbaz), “Gözəl, gözəl, gözəl dünya” (Əlibala), “Bəyin oğurlanması” (Mərahim) filmlərində müxtəlif səpkili rollar oynayıb.

Elxan Ağabala oğlu Quliyev teatr sənətindəki fəaliyyətinə görə 24 dekabr 2002-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.



**Sevil XƏLİLOVA**
**Əməkdar artist**

Əvvəllər dramatik və lirik dramatik səpkili sevgili qəhrəman qız rollarını oynayıb. Tədricən xarakterik, psixoloji baxımdan çoxqatlı, bir qədər mürəkkəb səciyyəli personajları ifa edir. Səhnədə həmişə canlı və çevik görünür. İşində səliqəli və səriştəlidir.

Sevil Rza qızı Xəlilova 1953-cü il yanvar ayının 10-da Bakıda doğulub. Paytaxtımızın Yasamal rayonundakı 31 saylı məktəbi 1970-ci ildə bitirərək Mirzağa Əliyev adına Azərbaycan Dövlət Incəsənət İnstitutunun təzə açılan sırf kino aktyorluğu fakültəsinə daxil olub. Hələ tələbə ikən Akademik Milli Dram Teatrında türk ədibi Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" psixoloji dramını tamaşaya hazırlayan Həsənağa Salayevin dəvətilə bu əsərdə Professorun qızı rolunu ifa edib. Tamaşanın premyerası 23 dekabr 1973-cü ildə göstərilib. Bu rol tələbə-aktrisaya müəyyən Populyarlıq gətirib. Ona görə də 1974-cü ildə dahi rejissor, o dövrdə "Azərbaycanfilm" kinostudiyasının direktoru olan Ədil İsgəndərovun kursunu bitirən Sevil Xəlilova təyinatla Akademik teatrda işləməyə göndərilib. Aktrisa həmin il sentyabr ayının 16-dan aktyor truppasının üzvüdür və ötən illər ərzində milli və dünya klassiklərinin, çağdaş Azərbaycan və əcnəbi dramaturqların əsərlərinin tamaşalarında oynayıb. Əsas rollarını aşağıdakı sistemlə sıraya düzmək illərin ardıcıllığına əsaslanır.

**Qız.** "Şöhrət və ya unudulan adam", Nazim Hikmət.

**Gözəl.** "Qılınc və qələm", Məmməd Səid Ordubadinin eyniadlı romanı əsasında Tofiq Kazımovun işləməsi.

**Çeşmə.** "Kölgələr pıçıldaşır", Seyfəddin Dağlı.

**Vera.** "Vəkil neyləsin?", Ramiz Fətəliyev.

**Denna Anna.** "Bəşərin komediyası, yaxud Don Juan", Mirzə İbrahimov.

**Qumru.** "Şəhərin yay günləri", Anar.

**Vasilka.** "Qızıldan qiymətli", Dmitri Arsenov.

**Zəvvar.** "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə.

**Ursula.** "Heç nədən hay-küy", Vilyam Şekspir.

**Fitnə.** "Fitnə", Abdulla Şaiq.

**Qaraçı.** "Cehizsiz qız", Aleksandr Ostrovski.

**Humay.** "Əliqulu evlənir", Sabit Rəhman.

**Məlahət.** "Kimdir haqlı?", Bəxtiyar Vahabzadə.

**Qadın.** "Sizi deyib gəlmişəm...", Anar.

**Mələk.** "İblis", Hüseyn Cavid.

**Səadət.** "Büllur sarayda", İlyas Əfəndiyev.

**Gülqız.** "Torpağa sancılan qılınc", Nəbi Xəzri.

**Mədinə.** "Təhminə və Zaur", Anar.

**Kitti.** "Üç quruşluq opera", Bertolt Brext və Kurt Vayl.

**Nisə.** “Gecə döyülən qapılar”, Nəbi Xəzri.
**Bədidə.** “Qanlı Nigar”, Sadıq Şendil.
**Nərgiz.** “Qanqın böyük dalğası”, Cahan Əfruz.
**Qadın.** “Ox, qadınlar, qadınlar”, Marat Haqverdiyev.
**Zivər xanım.** “Anamın kitabı”, Cəlil Məmmədquluzadə.
**Zərifə.** “Nişanlı qız”, Sabit Rəhman.
**Gülnar.** “Vaqif”, Səməd Vurğun.
**Gözəl.** “Məhəbbət yaşadır”, Nahid Hacızadə.
**Miziya.** “Darıxma, ana!”, Nodar Dumbadze.
**Çinarə.** “Əks-səda”, Nəbi Xəzri.
**Reyhan.** “Yağışdan sonra, Bəxtiyar Vahabzadə.
**Vera.** “Sevgi... sevgi...”, Emil Baraqinski və Eldar Ryazanov.
**Sona.** “Nakam qız”, Aleksandr Şirvanzadə.
**Sara.** “Solğun çiçəklər”, Cəfər Cabbarlı.
**Klavdiya Vasilyevna.** “Şadlıq sorağında”, Viktor Rozov.
**Enona.** “Fedra”, Jan Rasin.
**Züleyxa.** “Ah, Paris... Paris!..” Elçin.
**Züleyxa.** “Poçt şöbəsində xəyal”, Elçin.
**Mələk.** “Köhnə ev”, Əli Əmirli.
**Xacə Məsud Qara.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.
**Xədicə xala.** “Hərənin öz payı”, Xeyrəddin Qoca.
**İlçay.** “Afət”, Hüseyn Cavid.

Aktrisa Azərbaycan Dövlət Televiziyasında müxtəlif teletamaşalarda çəkilib. Bunlarda Süleyman Sani Axundovun “Laçın yuvası” (Pəricahan), Mirzə Fətəli Axundzadənin “Hacı Qara” (Sona), OHenrinin (Uilyam Sidni Parter) “Sehrbazlar hekayəsi” (Della), Cəfər Cabbarlının “Firuzə” (Firuzə), İlyas Əfəndiyevin “Atayevlər ailəsində” (Mehrican), Vidadi Babanlının “Xeyirxahlıq” (Sənubər), Ənvər Məmmədxanlının “Şərqin səhəri” (Nataşa), Altay Məmmədovun “Kişilər” (Səlimə), Karlo Haldoninin “Mehmanxana sahibəsi” (Dayaniya), Şərəf Rəşidovun “Qaliblər” (Ayqız), Anton Çexovun “Yubiley” (Nataşa), Zeynal Babayevin “İliçin qəbulunda” (Jenya Kerr), Raus Kaşkauasın “Yağışlı gecə” (Auşra), Anarın “Ötən ilin son gecəsi” (Gülarə), Əlibala Hacızadənin “Yad qızı” (Naciyə), Hacıbala Mirələmovun “Güllələnmiş heykəllər” (Gövhər ağa), Vardiges Petrosyanın “Son gecə” (Həkim), Ruhəngiz Qasımovanın “Yollar görüşəndə” (Raidə), Mirvarid Dilbazinin “Partizan Aliyə” (Özbək qız), Aslan Qəhrəmanovun “Müsabiqə” (Sevinc) pyeslərinin teletamaşalarında oynadığı rollar daha maraqlıdır.

Sevil Rza qızı Xəlilova teatr sənətindəki xidmətlərinə görə 1986-cı il iyun ayının 23-də Naxçıvan Muxtar Respublikasının əməkdar artisti, 24 dekabr 2002-ci ildə isə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adlarına layiq görülüb.



**Telman ADIGÖZƏLOV**
**Əməkdar artist**

Milli xalq-oyun tamaşalarının estetik prinsiplərinə əsaslanan, məzhəkə və məsxərə ifadə vasitələrindən şirələnən fərdi oyun ifadələrinə malik aktyordur. Şirəli və təbii, dadlı və duzlu, ifadəli və əlvan, cazibəli və ürəkoxşayan yumor oynadığı rollara səhnədə emosional təravət, dinamik coşğunluq, estetik vüsət verir. Sadə, ancaq mənalı, tipik və xarakterik ştrixlərdən oynadığı obrazların xarakterlərinə uyğun tərzdə məharətlə istifadə edir. Zərif və çoxmənalı, aydın və məna tutumlu plastikası var. Qroteksli, məsxərəli epizodlarda yüksək improvizə bacarığı göstərə bilir.

Telman Abbasqulu oğlu Adıgözəlov 17 iyul 1953-cü ildə Balakən rayonunda doğulub. İbtidai sinifləri orada oxuyub və ailəsi Bakıya köçdüyünə görə paytaxtdakı 7 saylı məktəbi bitirib. Orta məktəbin yeddinci sinfindən Dövlət televiziyasının “Yasəmən” televiziya teatrında və digər uşaq verilişlərində çıxışlar etməyə başlayıb. Eyni zamanda burada populyarlıq qazanandan sonra “Azərbaycanfilm” kinostudiyasının nəzdində qüdrətli teatr xadimi Ədil İsgəndərovun rəhbərlik etdiyi üçillik kino aktyorluğu kursunu bitirib. 1971-1975-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda kino aktyorluğu fakültəsində təhsil alıb. Kurs rəhbəri yenə Ədil İsgəndərov olub. Tələbə ola-ola “Mən dəniz sahilində böyümüşəm” bədii filmində maraqlı rola çəkilib.

1975-ci ilin noyabrından 1976-cı ilin noyabrına kimi hərbi xidmətdə olub. Oradan qayıtdıqdan sonra Bakının Zabrat qəsəbəsindəki mədəniyyət evinin xalq teatrına rəhbərlik edib. 1978-ci ildə İncəsənət İnstitutunun Tədris teatrının rəhbəri Vaqif İbrahimoğlunun (Həsənovun) təşəbbüsü ilə həmin kollektivə daxil olub. Burada Vaqif İbrahimoğlunun quruluş verdiyi, müxtəlif janrlarda hazırladığı Anarın “Qaravəlli” (Əvəz Əvəzov), Cəfər Cabbarlının “Yaylağa gedir” (Əhməd), Rəsul Rzanın şerləri əsasında kompozisiya qurulmuş “Güney-quzey” (Uşaq), Rəhman Əlizadənin “Diqqət, başlayırıq!” (Pinəçi) əsərlərinin tamaşalarında oynayıb.

Telman Adıgözəlov 22 sentyabr 1980-ci ildə Akademik Milli Dram Teatrının aktyor truppasına qəbul olunub. Fitri istedad sahibi olan aktyor indiyə kimi aşağıdakı rollara səhnə ömrü verib.

**Xinko.** “Qızıldan qiymətli”, Dmitri Arsenov.
**Zəncir vuran.** “Dəli yığıncağı”, Cəlil Məmmədquluzadə.
**İkinci şahid.** “Səhra yuxuları”, Anar.
**Levon.** “Şərqli diş həkimi”, Akop Paronyan.
**Daşdəmir.** “Xurşid banu Natəvan” İlyas Əfəndiyev.
**Flins.** “Maqbet”, Vilyam Şekspir.
**Abırlı.** “Mirzə Şəfi Vazeh”, Nəbi Xəzri.

**Üçtel.** “Sizi deyib gəlmişəm...”, Anar.
**Mixail.** “Gecənin sirri”, Anatoli Safronov.
**Xanəhməd.** “Közərən ocaqlar”, Mirzə İbrahimov.
**Şeypurçu.** “İblis”, Hüseyn Cavid.
**Çingiz.** “Bəxtsiz cavan”, Əbdürrəhim bəy Haqverdiyev. Kicik səhnədə.
**Rəhman.** “Mahnı dağlarda qaldı”, İlyas Əfəndiyev.
**Təlxək.** “Vaqif”, Səməd Vurğun.
**Namiq.** “Şəhərin yay günləri”, Anar.
**Fəriş.** “Qarabağ əfsanəsi”, Qeybulla Rəsulov.
**Murad.** “Səadət sorağında”, Xalid Əlimirzəyev. Kiçik səhnədə.
**Kabus və Alyoşka.** “Həyatın dibində”, Maksim Qorki.
**Filaks.** “Böyük Romul”, Fridrix Dürrenmatt.
**Uoltet.** “Üç quruşluq opera”, Bertolt Brext və Kurt Vayl.
**Laz.** “Qanlı Nigar”, Sadıq Şendil.
**Oyunbaz.** “Qədr gecəsi”, Eldar Baxış.
**Əhməd.** “Ah, Paris... Paris!..”, Elçin.
**Professor.** “Mənim sevimli dəlim” (“Diaqnoz “D”), Elçin.
**Professor.** “Mənim ərim dəlidir”, Elçin.
**Qumarbaz.** “Hələ “sevirəm” deməmişdilər...”, Ramiz Novruz.

İstedadlı və populyar aktyor Telman Adıgözəlov Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Vaqif Səmədoğlunun “Yaşıl eynəkli adam” (Ayrobika müəllimi), Üzeyir bəy Hacıbəyovun felyetonları əsasında “Ordan-burdan” (Rəqs müəllimi), Əhməd Orucoğlunun “Qonşular” (Səlim), Cəlil Məmmədquluzadənin hekayələri əsasında Anarın işlədiyi “Nigarançılıq” (Hüseyn), Məcnun Vahidovun “Yarımştat” (Zaman), Anarın “Evləri köndələn yar” (Kamil) əsərlərinin teletamaşalarında xarakterik rollar oynayıb.

“Azərbaycanfilm” kinostudiyasında “Dörd bazar günü” (Şamil), “Nəsimi” (Hürufı), “1001-ci qastrol” (Telman), “Üzü küləyə” (Murad), “Çətirimiz buludlardır (Çoban), “Qırmızı qatar” (Oğlan), “Qurama” (Telman), “Mən dəniz sahilində böyümüşəm” (Kiçik qardaş) filmlərinə çəkilib.

Telman Abbasqulu oğlu Adıgözəlov 28 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.



**Şükufə YUSUPOVA**
**Əməkdar artist**

Psixoloji teatr estetikasının prinsiplərində cəsarətli axtarışlar aparmağı xoşlayan aktrisadır. Zərif və lətafətli səhnə plastikası var. Səs imkanlarını məhdudlaşdıraraq oynadığı obrazı hərəkətlər kompleksi və əlvan sifət ifadələrinin toplusu ilə canlandırmağa üstünlük verir. Teatr ilə bərabər kinoda da parlaq, yaddaqalan rollar oynayıb, parlaq nailiyyətlər qazanıb.

Şükufə Mühəddin qızı Yusupova 1954-cü il may ayının 30-da Bakıda doğulub. Paytaxtın Səbayil rayonundakı 51 saylı orta məktəbi 1971-ci ildə bitirərək Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Görkəmli rejissor Mehdi Məmmədovun rəhbərlik etdiyi kursda oxuyan tələbə-aktrisa sənət müəlliminin 1 mart 1974-cü ildə Akademik Milli Dram Teatrında hazırladığı Səməd Vurğunun "İnsan" dramının tamaşasında Tatyana rolunu ifa edib. O, 1975-ci ildə institut təhsilini başa vuraraq bütün kursla birlikdə Şəki şəhərində uzun fasilədən sonra bərpa edilən Dövlət Dram Teatrının truppa heyətinə göndərilib. Ancaq gənc aktrisa həmin ərəfədə "Azərbaycanfilm" kinostudiyasında "Tütək səsi" və "Xoşbəxtliyin qiyməti" filmlərinə çəkildiyinə görə təyinatdan azad edilib. Akademik teatrın baş rejissoru Tofiq Kazımov premyerası 19 mart 1976-cı ildə göstərilən "Qılınc və qələm" (Məmməd Səid Ordubadinin eyniadlı romanı əsasında özünün işləməsi) tamaşasını hazırlayanda Şükufə Yusupovanı Rəna roluna dəvət edib. Aktrisa 1976-cı il sentyabr ayının 1-dən Akademik Milli Dram Teatrına ştata götürülüb. 2002-ci ilin sentyabrından o, teatrın truppasında müqavilə ilə çalışır.

Aktrisa Bakıda dramaturq Rüstəm İbrahimbəyovun təşkil etdiyi "İbrus" antrepriza teatrında "Şirə bənzər" (Rüstəm İbrahimbəyov) tamaşasında Solmaz rolunu Azərbaycan və rus dillərində oynayır.

Şükufə Yusupova illərin ardıcıllığı ilə Akademik Milli Dram Teatrında aşağıda təqdim olunan rolları ifa edib.

**Tatyana.** "İnsan", Səməd Vurğun.

**Polye.** "Meşşanlar", Maksim Qorki.

**Rəna.** "Qılınc və qələm", Məmməd Səid Ordubadinin eyniadlı əsəri əsasında Tofiq Kazımovun işləməsi.

**Mahirə.** "Vəkil neyləsin?..", Ramiz Fətəliyev.
**Anyuta.** "Daşqın", Anatoli Safronov.
**Müttəhimin arvadı.** "İstintaq", Rüstəm İbrahimbəyov.
**Cəmil.** "Quşu uçan budaqlar", Əkrəm Əylisli. Oğlan roludur.
**Kekel.** "Pepo", Qabriel Sundukyan.
**Təhminə.** "Xurşid banu Natəvan", İlyas Əfəndiyev.
**Fatma. "**Mirzə Şəfi Vazeh", Nəbi Xəzri.
**Həmidə xanım.** "Sizi deyib gəlmişəm...", Anar.
**Xavər.** "İblis", Hüseyn Cavid.
**Sədaqət.** "Büllur sarayda", İlyas Əfəndiyev.
**Gülnar.** "Vaqif", Səməd Vurğun.
**Pırpız Sona.** "Dəli yığıncağı", Cəlil Məmmədquluzadə.
**Süsən Sünbül.** "Adamın adamı", Anar.
**Qorxaq qadın.** "Kreml saatı", Nikolay Poqodin.
**Radmila.** "Biganələr oteli", Rüstəm İbrahimbəyov.
**Laura.** "Şüşə heyvanxana", Tennessi Uilyams. Kiçik səhnədə.
**Anna.** "Həyatın dibində", Maksim Qorki.
**Yuliya.** "Böyük Romul", Fridrix Dürrenmatt.
**Polli Piçem.** "Üç quruşluq opera", Bertolt Brext və Kurt Vayl.
**Şölə xanım.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.
**Sosialist əməyi qəhrəmanı.** "Qızıl teşt", Seyran Səxavət.
**Zara xanım.** "Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev.
**Lüsi.** "Dəfn edilməmiş ölülər", Jan Pol Sartr. Kiçik səhnədə.
**Qadın.** "Müəmmalı bir qətlin üç versiyası", Ryunesko Akutaqova. Kiçik səhnədə.
**İkosta.** "Şah Edip, yaxud alın yazısı" ("Şah Edip"), Sofokl.
**Zəhra xanım.** "Köhnə ev", Əli Əmirli.

Aktrisa Azərbaycan Dövlət Televiziyasında Jan Pol Sartrın "Dəfn edilməmiş ölülər" (Lüsi), Nahid Hacızadənin "Yaşa, ey haqq" (Ümbül banu), Jan Koktonun "İnsan səsi" (Qadın), Marşa Normanın "Gecən xeyrə qalsın, ana!" (Qız) əsərlərinin teletamaşalarında oynayıb.

Akademik teatrın aktrisaları arasında kinoya ən çox çəkilən sənətkarlardan biri də Şükufə Yusupovadır. O, 1974-cü ildən başlayaraq "Dörd bazar günü" (Ustanın qızı), "Tütək səsi" (Tutu), "Xoşbəxtliyin qiyməti" (Gülxar), 3 seriyalı "Vulkana doğru" (Lətifə), "Ad günü" (Rəna), "Şir evdən getdi" (Zürafə), "Belə lazımdır" (Qadın), "1002 gecə" (Şəhrizad), "Musiqi ilə xaş" (Qadın), "Qaladan tapılan mücrü" (Qonşu), "Asif, Vasif, Aqasif" (Ana), "Nar ağacı haqqında xatirələr" (Mədinə), "Gümüş göl əfsanəsi" (Səidə), "Avqust ayı gələndə" (Firuzə), "Bəyin oğurlanması" (Jurnalist), "Qəm pəncərəsi" (İzzət), "Başqa həyat" (İmanova), "Şəhərin yay günləri" (Qonaq), "İlk körpü" (Müəllimə), "Ümid" (Ana), "Etimad telefonu" (Şükufə) filmlərinə çəkilib.

Şükufə Mühəddin qızı Yusupova 1991-ci il may ayının 22-də Azərbaycan Respublikasının əməkdar arfisti fəxri adı ilə təltif olunub.



**Səidə QULİYEVA**
**Əməkdar artist**

Yaradıcılığının çoxşaxəli xüsusiyyətlərinə, bədii-estetik keyfiyyətlərinə görə realist aktyor məktəbinin nümayəndəsidir. Onun fərdi aktyorluq üslubu əsasən iki istiqamətində formalaşır. Aktrisa ciddi və mənalı yumor aşılanmış rollarda qazandığı populyarlığı uğurlu lirik və dramatik zəminli psixoloji obrazlarda da əldə edə bilir. Görkəmcə dolğun olsa da, plastikası elastik və zərif, hərəkətləri cəld və çevik əsaslar üzərində qurulub. Bu keyfıyyət oynadığı ekran surətlərində də parlaq təcəssümünü tapıb.

Səidə Əbülfəz qızı Quliyeva 1957-ci il martın 5-də Bakıda doğulub. Yasamal rayonundakı 199 saylı orta məktəbi bitirib və həmin il, yəni 1974-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Bacarıq və qabiliyyəti ilə institut illərindən rejissorlarda maraq doğurub. O, milli rejissuramızın klassiklərindən Ədil İsgəndərovun kursunu 1978-ci ilin yayında başa vurub. Ali akyor diplomu alandan sonra təyinatla Akademik Milli Dram Teatına göndərilib. Aktrisa 1978-ci il sentyabr ayının 1-dən hazırda yüz otuz yaşını keçmiş müqəddəs sənət ocağının aktyor truppasında çahşır. Böyük səhnədə debütü 10 mart 1979-cu ildə rejissor Əşrəf Quliyevin hazırladığı Vilyam Şekspirin “Heç nədən hay-küy” kodiyasında Hero rolu olub. Bundan sonra aktrisa teatrda müxtəlif rejissorların quruluşlarında aşağıdakı rolları oynayıb.

**Hero.** “Heç nədən hay-küy”, Vilyam Şekspir.
**Qadın.** “Yad adam”, Leonqard Frank.
**Xidmətçi qız.** “Şərqli diş həkimi”, Akop Paronyan.
**Bəyim.** “Xurşid banu Natəvan”, İlyas Əfəndiyev.
**İkinci kölgə.** “Maqbet”, Vilyam Şekspir.
**Pakizənin rəfiqəsi.** “Mirzə Şəfi Vazeh”, Nəbi Xəzri.
**Qadın və Şərəf.** “Sizi deyib gəlmişəm...”, Anar.

**Kəniz.** “Atabəylər”, Nəriman Həsənzadə.
**Lalə.** “İlham pərisi”, Cahan Əfruz. Kiçik səhnədə.
**Sevinc.** “Sənsiz”, Şıxəli Qurbanov.
**Nastya.** “Həyatın dibində”, Maksim Qorki.
**Tamara.** “Vaqif”, Səməd Vurğun.
**Çin gözəli, Simruq quşu və Fransalı qonaq.** “Məlik Məmməd”, nağıl-tamaşa.
**Sədəf.** “Qarabağ əfsanəsi”, Qeybulla Rəsulov.
**Dilşad.** “Səadət sorağında”, Xalid Əlimirzəyev. Kiçik səhnədə.
**Ayqız.** “Torpağa sancılan qılınc”, Nəbi Xəzri.
**Birinci qız.** “Od gəlini”, Cəfər Cabbarlı.
**Luisi.** “Üç quruşluq opera”, Bertolt Brext və Kurt Vayl.
**Qaratel.** “Mənsiz dünya”, Nəbi Xəzri.
**Kama.** “Kərgədan buynuzu”, Maqsud İbrahimbəyov.
**Diliş.** “Qızıl teşt”, Seyran Səxavət.
**Mərmər.** “Yayda qartopu oyunu”, Vaqif Səmədoğlu.
**Əntiqə.** “Əcəb işə düşdük”, Şıxəli Qurbanov.
**Nilufər.** “Məhəbbət yaşadır”, Nahid Hacızadə.
**Səlimə xanım.** “Min illərin işığı”, Kamil Abdullayev.
**Qaraqoyunlu ana.** “Ağqoyunlular və Qaraqoyunlular”, Əli Əmirli.
**Firəngiz.** “Ah, Paris... Paris!..” Elçin.
**Həcər xanım.** “Eşq və intiqam”, Süleyman Sani Axundov.
**Qadın.** “Kəllə”, Nazim Hikmət.

Teatrda səmərəli fəaliyyət göstərən Səidə Quliyeva Azərbaycan Dövlət Televiziyasının hazırladığı tamaşalarda da maraqlı obrazlar yaradıb. Bunlardan İlyas Əfəndiyevin “Atayevlər ailəsində” (Reyhan), “Sarıköynəklə Valehin nağılı” (Reyhan), Ruhəngiz Qasımovanın “Yollar görüşəndə” (Çiçək), “Qonşu qonşu olsa” (Balacaxanım), Mövlud Süleymanlının “Kökdən düşmüş piano” (Gülər), Hüseyn Cavidin “Topal Teymur” (Melaça), Üzeyir bəy Hacıbəyovun felyetonları əsasında “Ordan-burdan” (Reyhan), Afaq Məsudun “Afaqın məhəbbəti” (Buta), “Cəza” (Səidə), Əli Əmirlinin “Bala-başa bəla” (İzzət Nəfisli), Mixael Cavaxaşvilinin “Günahsız Abdulla” (Fatma), Seyfəddin Dağlının “Sabiqlər” (Səidə), “Mən və mən” (Məleykə), Əhməd Oruclunun “Qaynana əməliyyatı” (Naza), Aqşin Babayevin “Nekroloq” (Elmira), “Dəvətnamə” (Məleykə) əsərlərinin tamaşaları daha maraqlıdır.

Aktrisa “Bizi bağışlayın” (Klara), “Yaramaz” (Gülya), “Fransız” (Səidə), “Əsrlə göy arasında” (Gəlin), “Milli bomba” (Əbdülqəninin qızı) filmlərinə çəkilib.

Səidə Əbülfəz qızı Quliyeva 28 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.



**Hicran NƏSİROVA**
***Əməkdar artist***

Emosional duyğularının müxtəlif çalarlarını ifa etdiyi obrazın xarakterinə uyğun tərzdə, məharətlə bir psixoloji zəmində cəmləşdirə bilir. Onun ehtiraslı dramatizmində də həlimlik, fikir etibarilə çoxqatlılıq var. Romantik səciyyəli klassik səhnə əsərlərinin tamaşasında oynadığı personajın fəlsəfi mahiyyətini psixologizmin realist prinsipləri ilə aça bilmir. Müəyyən ölçüyə əsaslanan şirin yumor aktrisanın ifasına təravət gətirir.

Hicran Fətəli qızı Nəsirova 1958-ci il mart ayının 11-də Bakının Əmircan qəsəbəsində dünyaya göz açıb. Şəhərin Suraxanı, keçmiş Orconikidze rayonundakı 114 saylı orta məktəbi 1975-ci ildə bitirib. Elə o il də Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğü fakültəsinə daxil olub.

Milli rejissuramızın klassik dühalarından olan Ədil İsgəndərovun kursunu 1979-cu ildə başa vurub və təyinatı oktyabr ayının 8-də ali məktəbin Tədris teatrına verilib. Gənc aktrisa teatrın bədii rəhbəri Vaqif İbrahimoğlunun səhnə quruluşu verdiyi Cəfər Cabbarlının "Yaylağa gedir" (Tibb bacısı), Antuan Sent Ekzüperinin "Təskinlik verməyi unutmayın" ("Balaca şahzadə". Balaca şahzadə), Səməd Vurğunun "Komsomol poeziyası" (Humay) əsərlərinin tamaşalarında oynayıb. Akademik teatrda Vaqif İbrahimoğlu nasir-dramaturq Anarın "Səhra yuxuları" psixoloji dramını hazırlayanda (28 fevral 1981) Hicran Nəsirova dəvətlə bu tamaşada Leyla rolunu ifa edib.

Bir müddət səhnədən ayrılan Hicran xanım Bakıdakı 26-lar rayonunda (indiki Səbayil rayonu) 1983-cü il fevralın 19-dan 1986-cı il oktyabr ayının 28-ə kimi müxtəlif komsomol işlərində çalışıb. Oradan çıxandan sonra bir ay yarım İncəsənət institutunda laborant olub və 10 dekabr 1986-cı ildən Akademik Milli Dram Teatrının aktyor truppasının üzvüdür. Yaradıcılıq ciddiyyətin, həmişə qoruyub-saxlayan aktrisa bu möhtəşəm sənət ocağında aktyor sənətkarlığı baxımından tamaşaçıların rəğbətini qazanmış rollar oynaya bilib.

**Leyla.** “Səhra yuxuları”, Anar.
**Nabat.** “Günah”, Rəhman Əlizadə.
**Dilənçi.** “Üç quruşluq opera”, Bertolt Brext və Kurt Vayl.
**Zöhrə.** “Gecə döyülən qapılar”, Nəbi Xəzri.
**Şayrobha.** “Qanqın böyük dalğası”, Cahan Əfruz.
**Xumar.** “Yalan”, Sabit Rəhman.
**Zərifə.** “Nişanlı qız”, Sabit Rəhman.
**Maqdalena və Dilənçi qadın.** “Dişi canavar”, Federiko Qarsia Lorka.
**Birinci rəfiqə.** “Qadın faciəsi”, Federiko Qarsia Lorka.
**İspan gözəli və Çin gözəli.** “Məlik Məmməd”, nağıl-tamaşa.
**Məlahət.** “Əcəb işə düşdük”, Şıxəli Qurbanov.
**Ağqoyunlu ana.** “Ağqoyunlular və Qaraqoyunlular”, Əli Əmirli.
**Reqana.** “Kral Lir”, Vilyam Şekspir.
**Məryəm.** “Fərhad və Şirin”, Səməd Vurğun.
**Havalı qadın.** “Ulduz, yaxud Ədirnə fəthi”, Cəfər Cabbarlı.
**Böyükxanım.** “Aydın”, Cəfər Cabbarlı.
**Həcər xanım.** “Eşq və intiqam”, Süleyman Sani Axundov.
**Kəklik.** “Tənha iydə ağacı”, İlyas Əfəndiyev.
**Çılğının xalası.** “Dar ağacı”, Bəxtiyar Vahabzadə.
**Züleyxa.** “Poçt şöbəsində xəyal”, Elçin.

Bir müddət Azərbaycan Dövlət Televiziyasının “Bayatılar”, “Klassik irsimizdən”, “Nəğməli sətirlər” verilişlərinin aparıcısı olub. Burada hazırlanmış Anarın “Evləri köndələn yar” (Reyhan), Bəxtiyar Vahabzadənin “Kimdir haqlı?” (Məlahət), Əhməd İsayevin “Torpağın da dərdi var...” (Mahirə), Mirzə İbrahimovun “Çandranın üsyanı” (Çandra), tərcümə edilib səhnələşdirilən “Qürbətdən gələn səda” (Qadın), Əlibala Hacızadənin “İtkin gəlin” (Dünya), Cəfər Cabbarlının “Almaz” (Yaxşı), “Gülər” (Gülər), “Lider” telekanalında Rafıq Səməndərin “Bir yay günü” (Məhbubə), Maarif Məmmədovun “Qara pişik” (Fərəh xanım) teletamaşalarında müxtəlif səpkili rollar ifa edib.

Hicran Fətəli qızı Nəsirova 28 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.



**İlham ƏSGƏROV**
**Əməkdar artist**

Uca boylu, yaraşıqlı səhnə görkəmi var. Yaradıcılığının başlıca istiqaməti baxımından realist dramatik, emosional lirik psixoloji və realist səpkili tarixi şəxsiyyətlərin məzmunlu səhnə obrazlarını bacarıqla oynayır. Daxili coşğunluğunu xaraktercə ən çılğın və ehtiraslı səhnə obrazlarının ifasında da cilovlamağı və ona bədii-estetik vurğular aşılamağı bacarır. Aydın, səlist, sirayətedici və məlahətli səhnə danışığı var.

İlham Təvəkkül oğlu Əsgərov 1958-ci il iyul ayının 16-da Masallı rayonunun Xoşçobanlı kəndində doğulub. Orta məktəbı 1975-ci ildə qonşu Təklə kəndində bitirib. Bakıya gəlib və alı məktəbə qəbul ola bilmədiyinə görə bir il ölkəmizin paytaxtında 1 saylı tikinti-quraşdırma idarəsində fəhlə işləyib. Axşamlar müxtəlif dram dərnəklərində həvəskar aktyorluq edən İlham Əsgərov 1976-cı ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə qəbul olunub. Dahi rejissor, SSRİ xalq artisti Ədil İsgəndərovun kursunu 1980-ci ildə başa vuran gənc aktyor həmin il avqust ayının 26-da Akademik Milli Dram Teatrının truppasına qəbul olunub. Bu il noyabrın 26-da hərbi xidmətə çağırılması ilə əlaqədar teatrdan çıxıb. O, 1 iyul 1982-ci ildən yenə Akademik Milli Dram Teatrının aktyorudur.

İstedadlı aktyor İlham Əsgərov Akademik teatrın ən sanballı tamaşalarında iştirak edib. Onun yaradıcılığının başlıca estetik mahiyyətini aşağıdakı rollar təşkil edir.

**Əli.** “Közərən ocaqlar”, Mirzə İbrahimov.
**Ərəb.** “İblis”, Hüseyn Cavid.
**Fərhad.** “Bəxtsiz cavan”, Əbdürrəhim bəy Haqverdiyev. Kiçik səhnədə.
**Həbib.** “Büllur sarayda”, İlyas Əfəndiyev.
**Zülfüqar.** “Vaqif”, Səməd Vurğun.
**Əbubəkr.** “Atabəylər”, Nəriman Həsənzadə.
**Araz.** “İlham pərisi”, Cahan Əfruz. Kiçik səhnədə.
**Loğman və Əmir.** “Fəryad”, Bəxtiyar Vahabzadə.
**Nicat. “**Mahnı dağlarda qaldı”, İlyas Əfəndiyev.

**Rövşən.** “Səadət sorağında”, Xalid Əlimirzəyev. Kiçik səhnədə.
**Yusif.** “Nişanlı qız”, Sabit Rəhman.
**İldırım.** “Qarabağ əfsanəsi”, Qeybulla Rəsulov.
**Polis rəisi və Zob.** “Həyatın dibində” Maksim Qorki.
**Qorxmaz.** “Od gəlini”, Cəfər Cabbarlı.
**Sarı Mərdan.** “Şeyx Xiyabani”, İlyas Əfəndiyev.
**Eddi.** “Üç quruşluq opera”, Bertolt Brext və Kurt Vayl.
**Qafqazlı.** “Tufandan əvvəl”, Arif Süleymanov.
**Narçin.** “Qanlı Nigar”, Sadıq Şendil.
**Anaşkin.** “Sevgililərin cəhənnəmdə vüsalı”, İlyas Əfəndiyev.
**İsmayılov.** “Gülüstanda qətl”, Cəmil Əlibəyov.
**Valeh.** “Qanqın böyük dalğası”, Cahan Əfruz.
**Doktor Altay.** “Tənha iydə ağacı”, İlyas Əfəndiyev.
**Aqnostos.** “Məhəbbət və azadlıq” (“Tülkü və üzüm”), Gilerma Fiqeyredu.
**Mirzə Məhəmmədəli.** “Anamın kitabı”, Cəmil Məmmədquluzadə.
**Atanm ruhu.** “Anamın kitabı”, Cəlil Məmmədquluzadə.
**Fransa kralı.** “Kral Lir”, Vilyam Şekspir.
**Məhəmməd xan.** “Hökmdar və qızı”, İlyas Əfəndiyev.
**Kairxan.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.
**Nemət Səmədzadə.** “Bu dünyanın adamları”, Hidayət.
**Dövlət bəy.** “Aydın”, Cəfər Cabbarlı.
**Sabutay.** “Dar ağacı”, Bəxtiyar Vahabzadə.
**Piri baba.** “Eşq və intiqam”, Süleyman Sani Axundov.

İlham Əsgərov radionun məşhur “Bulaq” verilişinin aparıcılarından biridir. Azərbaycan Dövlət Televiziyasında Vilyam Şekspirin “İki veronalı” (Valentin), İlyas Əfəndiyevin “Sarıköynəklə Valehin nağılı” (Valeh), Əlibala Hacızadənin “İnanmırsansa...” (Nüsrət), Aslan Qəhrəmanovun “Səndən xəbərsiz” (Fərrux), Mar Bayciyevin “Ər və arvad” (Əziz), Bəxtiyar Vahabzadənin “Kimdir haqlı?” (Fikrət), “İki qorxu” (Şair), Buta Sadıqovun “Afaqın məhəbbəti” (Nizami), Mixael Cavaxaşvilinin “Günahsız Abdulla” (Dustaq tələbə), Vladlen Dozortsevin “Qəbula gələn sonuncu adam” (Qəbula gələn), Mövlud Süleymanlının “Fatehlərin divanı” (Bilgə xaqan), Həsən Həsənovun (Əzizoğlunun) “Keçən əsrdən məktublar” (Müəllif), Zəlimxan Yaqubun “Yunis İmrə” (“Bir əli haqda, bir əli torpaqda”. Tapdıq İmrə), Hüseynbala Mirələmovun “Güllələnmiş heykəllər” (Bülbül), Məmməd Avdiyev və Anatoli Donetsin “İflas” (Mustafa), Adil Babayevin “O qızı hər gün görürsən” (Sərdar) teletamaşalarında müxtəlif xarakterli obrazlara səhnə ömrü verib. Cəfər Cabbarlı adına “Azərbaycanfilm” kinostudiyasında “Qəzəlxan” (Şair Azər Buzovnalı), “Əlahiddə vəziyyət” (Rəcəb) kinolentlərinə çəkilib.

İlham Təvəkkül oğlu Əsgərov 28 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.



**Sənubər İSGƏNDƏROVA**
**Əməkdar artist**

Məftunedici və sehrli, lətafətli və zərif, könülaçan və cazibəli səhnə görkəminə malikdir. Şahanə qamətlidir, füsunkar səhnə davranışı var. Yaradıcılıq qayələri, rejissor poetikaları müxtəlif olan sənətkarların üslublarını yaradıcılıqla qavraya bilir. Səhnə etikasını bütün davranış və yaradıcılıq məqamlarında zərifliklə qoruya bilir. Səhnə məlahətini pauzalardakı oyunlarda saxlamaq və onu baxış-ideya vasitələri ilə zənginləşdirmək, son məqamda bütün bunları obrazın psixoloji ovqatı ilə bağlamaq, lal baxışlarla böyük bir daxili monoloqu tamaşaçılara bəyan etmək qabiliyyətini aktyorluq yaradıcılığında ustalıqla formalaşdırıb.

Sənubər Sabir qızı İsgəndərova 25 oktyabr 1960-cı ildə Bakıda doğulub. Yasamal rayonundakı 173 saylı orta məktəbi 1977-ci ildə bitirib. O vaxtdan Azərbaycan Respublikasının Ət və Süd Sənayesi, Ali Təhsil nazirliklərində, Neft Akademiyasında, Akademik Milli Dram Teatrında kargüzar, kitabxana müdiri vəzifələrində işləyib. Bu illərdə “Kişi sözü” filmində Solmaz kimi maraqlı rola çəkilib. Kinodakı uğurlu yaradıcılıq debütündən sonra geniş tamaşaçı kütləsinin rəğbətini qazanan aktrisa 16 mart 1989-cu ildə Azərbaycan Dövlət Gənclər Teatrının truppasına daxil olub. Qısa fasilə ilə 15 yanvar 1997-ci ilə kimi bu kollektivdə məhsuldar və səmərəli yaradıcılıqla işləyib. Paralel olaraq filmlərə çəkilib, televiziya tamaşalarında oynayıb.

Sevimli və istedadlı aktrisa Sənubər İsgəndərova Dövlət Gənclər Teatrında aşağıdakı rolları ifa edib.

**Həlimə xanım.** “Qətl günü”, Yusif Səmədoğlu.

**Qız.** “Çarəsiz sərnişinlər”, Stanislav Stratsiyev.

**Tamara.** “Dadaşbala əməliyyatı”, Rəhman Əlizadə.

**Leyli.** “Leyli və Məcnun”, Məhəmməd Füzulinin eyniadlı poemasının motivləri əsasında.

**Qonaq.** “Qurbanəli bəy”, Cəlil Məmmədquluzadənin eyniadlı hekayəsinin motivləri əsasında.

**Yelena.** “Yay gecəsində yuxu”, Vilyam Şekspir.

**Aqrippina.** “Neron oynayır və ya İblisin komediyaları”, Mikolaş Xubai.

**Fərizə.** “Şəhidlər”, Rafıq Səməndər.

**Qarı.** “Vağzalı və ya yorğan-döşək”, Oruc Qurbanov.

**Bahar.** “Kimdir müqəssir?”, Əbdürrəhim bəy Haqverdiyev.

**Tomris.** “Yeddi məhbusə”, Əli Əmirli.

**Müğənni qız.** “Laləli düzən”, Rəhman Əlizadə.

Sənubər İsgəndərova 17 sentyabr 1997-ci ildən Akademik Milli Dram Teatrının aktyor truppasında çalışır. Aktrisa, yaradıclıq yolu üç əsrin illərindən keçən sənət ocağında qısa müddətdə möhtəşəm bədii tutumlu klassik və müasir rollar oynayıb.

**Siyan Şi.** "Özümüzü kəsən qıhnc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə.

**İcraçı.** "Şah Edip, yaxud alın yazısı" ("Şah Edip"), Sofokl.

**Burla xatun.** "Burla xatun", Nəbi Xəzri.

**Nisə xanım.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.

**Ulduz.** "Ulduz, yaxud Ədirnə fəthi", Cəfər Cabbarlı.

**Aysel.** "Cəzasız günah", Bəxtiyar Vahabzadə.

**Gertruda.** "Hamlet", Vilyam Şekspir.

**Firəngiz və Fransuaza.** "Brüsseldən məktublar", Həsən Həsənov (Əzizoğlu).

Sənubər İsgəndərovanın iştirak etdiyi televiziya tamaşalarında Nəriman Həsənzadənin "Kimin sualı var?" (Ağgül), Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" (Qadın), "Hər şeyə rəğmən" (Səbinə), Cəlil Məmmədquluzadənin "Qurbanəli bəy" (Xanım), Vaqif Səmədoğlunun "Yaşıl eynəkli adam" (Jalə), Mövlud Süleymanlının "Fatehlərin divanı" (Olğay Türkan xatun), Rəhman Əlizadənin "Şirin çay" (Aktrisa), Fyodor Dostoyevskinin "Bəyaz gecələr" (Nastya), Şahan Səfərovun "Qu quşunun məhəbbəti" (Gülər) əsərlərində oynadığı rollar daha maraqlı və yaddaqalandır.

Aktrisa "Kişi sözü" (Solmaz), "Şahid qız" (Rəna), "Fəryad" (Ana), "Təsadüfi görüş" (Tamara xanım) bədii kino lentlərinə və "Beşmərtəbəli evin altıncı mərtəbəsi" (Təhminə), "Leyli və Məcnun" (Leylinin anası) bədii televiziya filmlərinə çəkilib.

Sənubər Sabir qızı İsgəndərova 24 dekabr 2002-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.



**Sabir MƏMMƏDOV**
**Əməkdar artist**

Yaradıcılığının estetik səciyyələrinə görə realist aktyor məktəbinin estetik prinsiplərinə, poetika göstəricilərinə daha yaxındır. Gözəl plastikaya, cazibəli səhnə görkəminə, sərbəst səhnə davranışına malik aktyordur. Milli xalq oyunlarından şirələnən ləzzətli, şux və təravətli yumor vasitələrindən yeri gələndə məharətlə istifadə edə bilir. Səhnədə yöndaşları ilə münasibətlərdə diqqətcildir, aktyorluq imkanlarına texniki vərdişləri ilə dolğunluq gətirir.

Sabir Novruz oğlu Məmmədov 1961-ci il yanvar ayının 24-də Qazax rayonunun Poylu kəndində doğulub. Kənd orta məktəbini 1978-ci ildə bitirib, bir il mədəniyyət sahəsində çalışıb. Aktyorluq sənətinə məhəbbəti olduğuna görə 1979-cu ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna daxil olub. Dahi səhnə ustası Həsən Turabovun rəhbərlik etdiyi dram və kino aktyorluğu fakültəsini 1983-cü ildə bitirib. Sentyabr ayının 11-də təyinatla Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına göndərilib. Bir ay işləyib və oktyabr ayında hərbi xidmətə çağırılıb. 1985-ci il may ayının 25-də hərbi xidmətdən qayıdaraq yenidən Sumqayıt teatrının kollektivinə qəbul olunub.

İstedadlı və çalışqan aktyor olan Sabir Məmmədov dörd ildə Sumqayıt teatrında biri birindən maraqlı və dolğun dramatik obrazlara səhnə ömrü verib. Eyni zamanda bəzi tamaşalarda rejissor assistenti kimi də çalışıb. Onun ifa etdiyi əsas rollar bunlardır.

**Xoşbəxt adam.** “Park”, Rüstəm İbrahimbəyov.
**Baş mühəndis.** “Qəbul təxirə salınır”, Camal Yusifzadə.
**Xəzər.** “Mənim arxalandığım”, Nəbi Xəzri.
**Birinci ərizəçi.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.
**Dəli Domrul.** “Mərd körpüsü”, Sara Nəzərova.
**Hüseyn.** “Bəxt üzüyü”, Vaqif Səmədoğlu.
**Sabitcan.** “Əsrə bərabər gün”, Çingiz Aytmatov.
**Qaraşın.** “Diribaş adamlar”, Vasili Şukşin.
**Firuz.** “Bayramın birinci günü”, Nazim Hikmət.
**Toğrul.** “Uca dağ başında”, Vaqif Səmədoğlu.
**Şahəndə.** “Ən xoşbəxt adam”, Adil Babayev.
**Birinci adam.** “Dəyirman”, Mövlud Süleymanlı.
**Xəlil.** “Müvəqqəti ər”, Rəşad Nuri Güntəkin.

Sabir Novruz oğlu Məmmədov 1989-cu ilin mart ayının 30-da Sumqayıt teatrından işdən çıxıb və aprel ayının 1-dən Akademik Milli Dram Teatrının kollektivinə üzv olub. Aktyor tez bir zamanda kollektivdə populyarlıq qazanıb və repertuardakı əsərlərin əksəriyyətində müxtəlif rollar oynayıb.

**Səfər.** “Gecə döyülən qapılar”, Nəbi Xəzri.
**Kumar.** “Qanqın böyük dalğası”, Cahan Əfruz.
**Fərman.** “Yalan”, Sabit Rəhman.
**Şahmar.** “Dəlilər və ağıllılar”, İlyas Əfəndiyev.
**Polis nəfəri və Teymur bəy.** “Anamın kitabı”, Cəlil Məmmədquluzadə.
**Mirzə Ələkbər Sabir.** “Dindirir əsr bizi...”, Davud Aslan.
**Mahmudov.** “Ana intiqamı”, Vidadi Babanlı.
**Burqund hersoqu**. “Kral Lir”, Vilyam Şekspir.
**Saday bəy.** “Hökmdar və qızı”, İlyas Əfəndiyev.
**Şah.** “Şıltaq şahzadənin nağılı”, nağıl-tamaşa.
**Akkanad**. “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.
**İlus.** “Burla xatun”, Nəbi Xəzri.
**Teymur ağa.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.

**Novruz bəy.** “Aydın”, Cəfər Cabbarlı.
**Sarvan.** “Bu dünyanın adamları”, Hidayət.
**Çingiz.** “Eşq və intiqam”, Süleyman Sani Axundov.
**Şair.** “Kəllə”, Nazim Hikmət.
**Horatsio.** “Hamlet”, Vilyam Şekspir.
**Skapen.** “Skapenin kələkləri”, Jan Batist Molyer.
**Mirzə Ələkbər Sabir.** “Hərənin öz payı”, Xeyrəddin Qoca.
**Dulu Xaqan.** “Özümüzü kəsən qılınc”, Bəxtiyar Vahabzadə.
**Yavuz.** “Afət”, Hüseyn Cavid.

Aktyor Azərbaycan Dövlət Televiziyasında hazırlanmış bir sıra teletamaşalarda da oynayıb. Onlardan Cəlil Məmmədquluzadənin “Kamança” (Əbdüləli), Mövlud Süleymanlının “Fatehlərin divanı” (Sərkərdə), İlyas Əfəndiyevin “Qaçaq Süleyman” (Murad), Bəxtiyar Vahabzadənin “Yağışdan sonra” (Əmin), Kəmalə Ağayevanın “Apardı sellər saranı” (İgid), Ağarəhim Rəhimovun “Qırmızı qar” (Əsgər) pyeslərinin teletamaşaları bu gün də teleşirkətin arxivində qorunur.

“Babamın babasının babası” (Tapdıq), “Təzə evlənənlər” (Rüstəm) bədii filmlərinə çəkilib.

Aktyorluq sənətində qazandığı nailiyyətlərə görə Sabir Novruz oğlu Məmmədov 24 dekabr 2002-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adı ilə təltif olunub.



**Mətanət ATAKİŞİYEVA**
**Əməkdar artist**

Həyatda nə qədər mülayim, sadədil, səmimidirsə səhnədə bir o qədər coşqun, hərəkət və davranışlarında qaynar təbiətlidir. Ehtiraslı və romantik rolları ehtiraslı temperamentlə oynayır. Lirik, emosional, psixoloji rollara da cazibəli və ürəyəyatımlıdır. Məlahətli səhnə görkəmi sirayətedicidir və oynadığı obrazlara mərhəmlik gətirir.

Mətanət Ağazair qızı Atakişiyeva 1962-ci il may ayının 16-da Bakının Buzovna qəsəbəsində doğulub. 1979-cu ildə 125 saylı orta məktəbi bitirib. Həmin il Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Ali məktəbdə rejissor Zəminə Hacıyevanın kursunu 1983-cü ildə başa vurub və təyinatla Akademik Milli Dram Teatrına göndərilib.

Sentyabr ayının 1-dən bu kollektivin aktyor truppasının üzvüdür. Tələbəlik illərində institutun Tədris teatrında Nazim Hikmətin "Məhəbbət əfsanəsi" (Məhmənə banu), İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər" (Anjel) pyeslərinin tamaşalarında oynayıb.

Burada müəyyən səhnə təcrübəsi toplayan gənc aktrisa Mətanət Atakişiyeva 1983-cü il sentyabr ayının 1-dən Akademik Milli Dram Teatrının truppasına daxil olub. Kollektivdə işlədiyi illər ərzində milli və tərcümə pyeslərinin tamaşalarında xeyli rol ifa edib.

Qaraçı. "İblis", Hüseyn Cavid.
Kəniz. "Atabəylər", Nəriman Həsənzadə.
Dayə. "Sehrli alma". Yozef Lada.
Qəmər. "Nişanlı qız", Sabit Rəhman.
İkinci qız. "Od gəlini", Cəfər Cabbarlı.
Gülər xanım. "Ah, Paris... Paris!..", Elçin.
**Gülnar.** "Vaqif", Səməd Vurğun.
**Qaraçı qız.** "Iblis", Hüseyn Cavid.
**Qönçəqız.** "Torpağa sancılan qılınc", Nəbi Xəzri.
**Səhər.** "Şeyx Xiyabani", İlyas Əfəndiyev.
**İspan gözəli, Gülçin və Nağılçı.** "Məlik Məmməd" nağılı, nağıl-tamaşa.
**Qaratel.** "Mənsiz dünya", Nəbi Xəzri.
**Xumar.** "Yalan", Sabit Rəhman.
**Kleya.** "Məhəbbət və azadlıq" ("Tülkü və üzüm"), Gilerma Fiqeyredu.
**Fitnə.** "Fərhad və Şirin", Səməd Vurğun.
**Mələk.** "Özümüzü kəsən qılınc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə.
**Qısırca yengə**. "Burla xatun", Nəbi Xəzri.
**Səkinə.** "Bu dünyanın adamları", Hidayət.
**Havalı qadın.** "Ulduz, yaxud Ədirnə fəthi", Cəfər Cabbarlı.
**Qaraqoyunlu bibi.** "Ağqoyunlular və Qaraqoyunlular", Əli Əmirli.

Gözəl xanım. "Hərənin öz payı", Xeyrəddin Qoca.

Tubu xanım Axundova. "Brüsseldən məktublar", Həsən Həsənov (Əzizoğlu).

Aktrisa Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Əlibala Hacızadənin "İnanmırsansa" (Arzu), Üzeyir bəy Hacıbəyovun felyetonları əsasında "Ordan-burdan" (Rəna), Aqşin Babayevin "Dəvətnamə" (Firuzə), Zəlimxan Yaqubun "Yunus İmrə" (Fatma) əsərlərinin teletamaşalarında maraqlı rollar oynayıb.

"Azərbaycanfilm"in istehsal etdiyi "Gümüşgöl əfsanəsi" (Nərgiz) filmində çəkilib.

Mətanət Ağazair qızı Atakişiyeva 24 dekabr 2002-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.

**Sevinc ƏLİYEVA**
**Əməkdar artist**



İrihəcmli xarakterik rolları, təzadlı daxili quruma malik bədii personajları daha həvəslə oynayır. Yaradıcılığının ifadə vasitələri həm dramatik, həm də komik aktyorluq xüsusiyyətləri ilə seçilir. Uşaq tamaşalarında da maraqlı surətlər ifa edib, qəhrəman sevgililər rollarını oynayıb.

Sevinc Əli qızı Əliyeva 1965-ci il yanvar ayının 15-də Bakıda doğulub. Nizami rayonundakı 70 saylı məktəbdə oxuyub. Səkkizinci sinfı 1980-ci ildə qurtararaq üç saylı texniki-peşə məktəbinin kitab satıcısı şöbəsində oxuyub. 1983-cü ildə oranı bitirərək 4 saylı tikinti idarəsində, "Nizami" kinoteatrında işləyib. İki ildən sonra, 1985-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Xalq artistləri Şəfiqə Məmmədova ilə Fuad Poladovun rəhbərlik etdikləri kursu 1989-cu ildə bitirərək avqust ayının 20-də tınppası təzə-təzə formalaşan Dövlət Gənclər Teatrına daxil olub.

On ildən çox bu gənc kollektivdə çalışan Sevinc Əliyeva teatrda 29 oktyabr 2000-ci ilə kimi repertuardakı əsərlərin əksər qismində rollar ifa edib. Aktrisanın Dövlət Gənclər Teatrında çıxışları təqdim olunan ardıcıllıqdadır.

**Qaranquş.** "Əriməyən ürək", Oskar Uayld.

**Leyli.** "Leyli və Məcnun", Məhəmməd Füzulinin eyniadlı poeması əsasında səhnələşdirmə.

**Pişik.** "Hamam hamam içində", Rəhman Əlizadə.

**Rəqqasə.** "Laləli düzən", Rəhman Əlizadə.

**Zöhrə.** "Dadaşbala əməliyyatı", Rəhman Əlizadə.

**Bolşevik nəvəsi.** "Şeytan tələsi", Əkrəm Əylisli.

**Məleykə ana.** “Sultanqulu körpüsü”, İsi Məlikzadə.
**Zəritə.** “Arvadının əri”, Georgi Xuqayev.
**Zara.** “Meydan”, Əli Əmirli.
**Tıq-tıq xanım.** “Tıq-tıq xanım”, Rəhman Əlizadə.
**Zarita.** “Qadın ilan”, Karlo Qotsi.
**Ana.** “Şəhidlər”, Rafıq Səməndər.
**Holland səfiri.** “Ox və hədəf”, Mirzə Fətəli Axundzadənin “Aldanmış kəvakib” povesti əsasında Fərhad Ağamalıyevin işləməsi.
**Arvad.** “Ağıllı adam”, Firuz Mustafayev.
**Siyasətçi qadın.** “Düyün”, İlham Məhərrəmov.
**Ana.** “Hərənin öz ulduzu”, Əli Səmədli.
**Fatma.** “Gəl, gəl, a yaz günləri”, Rəhman Əlizadə.
**Qurbanəli bəyin arvadı və Xanım.** “Qurbanəli bəy”, Cəlil Məmmədquluzadə. Səhnələşdirəni Hüseynağa Ağakişiyev.
**Nina.** “Axır zaman”, Valentin Rasputin.
**Aqrenina.** “Neron oynayır və ya İblisin komediyaları”, Mikolaş Xubai.
**Titaniya, Kəpənək və İbbolita.** “Yay gecələrinin yuxuları”, Vilyam Şekspir.
**Məşədi Orucun anası.** “Ölülər”, Cəlil Məmmədquluzadə.
**Madonna.** “Qorxaq pişik”, Rəhman Əlizadə.
**Ofeliya.** “Hamlet”, Vilyam Şekspir.
**Ana.** “Yeddi məhbusə”, Əli Əmirli.
**Viola.** “Açar”, İmir Məmmədli.
**Şəngülüm.** “Şəngülüm, Şüngülüm, Məngülüm”, Mikayıl Müşfıq.
**Müxbir.** “Varlı qadın”, Əli Əmirli.
**Düşmən.** “Karmen”, Presper Merime.
**Dalila.** “İntihar”, Vaqif Səmədoğlu.

Şekspir kimi dünya klassikinin faciə və komediyalarından tutmuş çağdaş dram əsərlərinin, uşaq pyeslərinin tamaşalarına kimi müxtəlif janrlı tamaşalarda iştirak etmiş Sevinc Əliyeva Dövlət Gənclər Teatrından çıxandan iki gün sonra, 1 noyabr 2000-ci ildə müqavilə ilə Akademik Milli Dram Teatrına aktrisa götürülüb. 2001-ci il sentyabr ayının 1-dən isə Akademik teatrın aktyor truppasının ştatındadır. Aktrisa bu kollektivdə repertuarda olan bir neçə tamaşada xarakterik rola əlavə ifaçı kimi daxil edilmiş və həmçinin təzə səhnə surətləri oynamışdır.
**Reyhan.** “Dəlilər və ağıllılar”, İlyas Əfəndiyev.
**Xanım.** “Mənim ərim dəlidir” (Diaqnoz “D”), Elçin.
**Şölə xanım.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.
**Fahişə.** “Kəllə”, Nazim Hikmət.

Aktrisa Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Valentin Rasputinin “Halallıq” (Ninka), Elçinin “Mənim dayım ol” (Katibə), Nazim Hikmətin “Olum-ölüm və ya hər şeyə rəğmən” (Doktor) pyeslərinin teletamaşalarında oynayıb.
“Qara Volqa” (Paxanın qızı) filminə çəkilib.

Sevinc Əli qızı Əliyeva 2000-ci il oktyabr ayının 28-də Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.



**Mehriban XANLAROVA**
**Əməkdar artist**

Dramatik aktrisadır. Yaradıcılığa kinoda başlayıb və ali məktəbə daxil ola bilmədiyi illərdə "Təkcə sən" ("Sarıköynəklə Valehin nağılı") və "Sahəsiz gecə" filmlərində Sarıköynək və Zibeydə rollarına çəkilib.

Mehriban Aslan qızı Xanlarova 1967-ci il avqust ayının 12-də Bakıda anadan olub. Yasamal rayonundakı 190 saylı orta məktəbi 1984-cü ildə bitirib. İki il Bakıdakı uşaq oyuncağı fabrikində işləyib. 1986-cı ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. 1990-cı ildə görkəmli aktyor, xalq artisti Məlik Dadaşovun rəhbərlik etdiyi kursu qurtarıb.

Bir müddət azad sənətkar kimi teletamaşalarda oynayıb, "Azərbaycanfilm" kinostudiyasında "Kənar adamlar" (Flora), "Qəzəlxan" (Katibə), "Xoşbəxtlər" (Müğənninin arvadı) filmlərinə çəkilib. Türkiyənin TRT-1 televiziya kanalının dəvətilə orada "Bizim məhəllə" (Səda) və "Cinlər və pərilər" (Leyla) telefilmlərində əsas rolları ifa edib.

Mehriban Xanlarova 1998-ci il yanvar ayının 1-də Akademik Milli Dram Teatrının aktyor truppasına aktrisa qəbul olunub. İndiyə qədər bu qüdrətli sənət ocağının səhnəsində aşağıdakı rolları oynayıb.

**İkinci rəfiqə.** "Qadın faciəsi", Federiko Qarsia Lorka.
**İsmena.** "Şah Edip, yaxud alın yazısı" ("Şah Edip"), Sofokl.
**Şiranə**. "Burla xatun", Nəbi Xəzri.
**Şəmsa.** "Ulduz, yaxud Ədirnə fəthi", Cəfər Cabbarlı.
**Qız.** "Kəllə", Nazim Hikmət.

**Şadxəbər.** “Varlı qadın”, Əli Əmirli.
**Altunsaç.** “Afət”, Hüseyn Cavid.

Aktrisa teatrda işlədiyi illərdə Azərbaycan Dövlət Televiziyasında İlyas Əfəndiyevin “Məhv olmuş gündəliklər” (Anjel) teletamaşalarında oynayıb.

“Azərbaycanfilm”in “Debüt” studiyasında “Sifarişçi” (Qadın) filminə çəkilib.

Mehriban Aslan qızı Xanlarova 24 dekabr 2002-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülüb.



**Məzahir CƏLİLOV**
**Aktyor**

Əsasən tipik, xarakterik və münaqişə xəttində müəyyən rol oynayan ikinci dərəcəli epizodlarda çıxış edib. Müəyyən klassik əsərlərdə, eləcə də bəzi çağdaş mövzulu pyeslərin tamaşalarında əsas obrazları oynayıb. Çevik, cəld hərəkətləri, rəqsli davranışı olan dinamik personajlarda daha səylə çalışır.

Məzahir Yədulla oğlu Cəlilov 1946-cı il iyulun 15-də Masallı rayonunun Şərəfə kəndində doğulub. Kənddə səkkizinci sinfi bitirib və 1961-ci ildə Bakıya gələrək texniki-peşə məktəbinə qəbul olub. Rəngsaz-usta ixtisasına yiyələnərək Bakıda müxtəlif idarə və müəssisələrdə işləyib. 1965-ci ilin mayından 1968-ci il iyun ayının əvvəllərinə kimi hərbi xidmət borcunu verib. Yeniyetmə vaxtlarından rəssamlığa meyl göstərən, özfəaliyyət kollektivlərində həvəskar aktyorluq edən Məzahir Cəlilov 1970-ci il fevral ayının 1-də yenicə yaranan Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına yardımçı aktyor götürülüb. Burada bir neçə tamaşada kiçik epizod rolda səhnəyə çıxıb. Nəcəf bəy Vəzirovun “Müsibəti Fəxrəddin” faciəsində Mahmud bəyi oynayıb.

1970-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Buna görə avqustun 25-də teatrdan işdən çıxıb. Əvvəllər gündüz şöbəsində oxuyub, ancaq təhsilini 1975-ci ildə axşam şöbəsində başa vurub. Təhsil ala-ala institutun Tədris teatrında əvvəlcə fəhlə işləyib, sonra aktyor. Bu gənc kollektivdə bir neçə epizod rol oynayıb. O cümlədən Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq” (Səlim bəy), Mixail Lermontovun “İki qardaş” (Aleksandr), Hüseyn Cavidin “Şeyda” (Qara Musa), Əbülfəz Hüseynin “Mən bu cahana sığmazam...” (Qəmbər) pyeslərinin tamaşalarında iştirak edib.

O, burada müəyyən səhnə təcrübəsi keçəndən və ali təhsilli aktyor diplomu almaq ərəfəsində (12 mart 1975) Lənkəran şəhərində yenidən həyata vəsiqə alan Dövlət Dram Teatrına aktyor işləməyə gedib. Bu kollektivdə üç il səmərəli çalışıb

və yadda qalan xeyli rol ifa edib. Aktyor 6 yanvar 1977-ci ildə oradan işdən çıxandan sonra bir müddət Masallı rayon Mədəniyyət evində müdir işləyib. Aktyorun Lənkəran Dövlət Dram Teatrında oynadığı rollar bunlardır.

**Oqtay.** "Oqtay Eloğlu", Cəfər Cabbarlı.

**İbrahim xan.** "Vaqif", Səməd Vurğun.

**Daşdəmirov.** "Yaşıl qapı arxasında qadın", Rüstəm İbrahimbəyov.

**Rüstəm.** "Bayramın birinci günü", Nazim Hikmət.

**İbrahim kişi.** "Toy", Sabit Rəhman.

**Leont və Birinci əyan.** "Qış nağılı", Vilyam Şekspir.

**Ober leytenant Dub.** "Əsgər Şveykin", Yaroslav Kaşak.

Məzahir Cəlilov 1980-ci il sentyabr ayının 11-dən Akademik Milli Dram Teatrının kollektivində çalışır. O, bu şöhrətli sənət ocağında xeyli rol oynayıb.

**Vəkil Vadenbirn.** "Yad adam", Leonqard Frank.

**Barmen və Dördüncü polis.** "Səhra yuxuları", Anar.

**Qasid.** "Maqbet", Vilyam Şekspir.

**Naçalnik.** "Sizi deyib gəlmişəm...", Anar.

**Sərkis.** "Közərən ocaqlar", Mirzə İbrahimov.

**Papas.** "İblis", Hüseyn Cavid.

**Hacı Səməd ağa.** "Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev. Kiçik səhnədə.

**Piri baba.** "Sehrli alma", Yozef Lada.

**Şeyx Alı.** "Vaqif", Səməd Vurğun.

**Şükür bəy.** "Kimdir haqlı?", Bəxtiyar Vahabzadə.

**Ezop.** "Məhəbbət və azadlıq", Gilerma Fiqeyredu. Kiçik səhnədə.

**Çalpapaq.** "Fəryad", Bəxtiyar Vahabzadə.

**Sıldırım.** "Torpağa sancılan qılınc", Nəbi Xəzri.

**Mirzə Tağı.** "Şeyx Xiyabani", İlyas Əfəndiyev.

**Dilənçi.** "Üç quruşluq opera", Bertolt Brext və Kurt Vayl.

**Həbsxana gözətçisi.** "Tufandan əvvəl", Arif Süleymanov.

**Qaraçı.** "Cehizsiz qız", Aleksandr Ostrovski.

**Sərkərdə.** "Qılınc və qələm", Məmməd Səid Ordubadinin eyniadlı romanı əsasında Tofiq Kazımovun işləməsi.

**Kəlbəli xan.** "Hökmdar və qızı", İlyas Əfəndiyev.

**İldırım.** "Od gəlini", Cəfər Cabbarlı.

**Həmzə bəy.** "Solğun çiçəklər", Cəfər Cabbarlı.

**Birinci qaçaq.** "Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev.

**Rəhim bəy.** "Mirzə Şəfi Vazeh", Nəbi Xəzri.

**Əhməd.** "Mənsiz dünya", Nəbi Xəzri.

**Məlikov.** "Qızıl teşt", Seyran Səxavət.

**Afşar Hüseyn.** "Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev.

**Marvar.** "Qanqın böyük dalğası", Cahan Əfruz.

**Qoca.** "Hara gedir bu dünya?", Bəxtiyar Vahabzadə.

**Oyunbaz məsxərəçi.** "Qədr gecəsi", Eldar Baxış.

**Qurban.** "Anamın kitabı", Cəlil Məmmədquluzadə.

**Dərviş.** "Min illərin işığı", Kamil Abdullayev.

**Molla Nağı.** “Dindirir əsr bizi...”, Davud Aslan.
**Mərdan.** “Ana intiqamı”, Vidadi Babanlı.
**Ağqoyunlu dayı.** “Ağqoyunlular və Qaraqoyunlular” Əlı Əmirli.
**Həkim.** “Kral Lir”, Vilyam Şekspir.
**Bələdçi.** “Pompeyin Qafqaza yürüşü”, Nəriman Həsənzadə.
**Ergin.** “Özümüzü kəsən qılınc” (“Göytürklər”), Bəxtiyar Vahabzadə.
**Zəncirvuran.** “Dəli yığıncağı”, Cəlil Məmmədquluzadə.
**Umud.** “Qisas qiyamətə qalmaz”, Nahid Hacızadə.
**Ağsaqqal.** “Dar ağacı”, Bəxtiyar Vahabzadə.
**Piri baba.** “Eşq və intiqam”, Süleyman Sani Axundov.
**Saray əyanı.** “Fərhad və Şirin”, Səməd Vurğun.
**Tirezi.** “Şah Edip, yaxud alın yazısı” (“Şah Edip”), Sofokl.
**Ya O.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingız Aytmatov və Muxtar Şahanov.
**Hacı Salah.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.
**Sənusi.** “Ulduz, yaxud Ədirnə fəthi”, Cəfər Cabbarlı.
**Keşiş.** “Hamlet”, Vilyam Şekspir.
**Məmur.** “Kəllə”, Nazim Hikmət.

Məzahir Yədulla oğlu Cəlilov Dövlət televiziyasında hazırlanmış Əfqanın “Nişan üzüyü” (Kolxoz sədri), Ruhəngiz Qasımovanın “Ömrün yolları” (Mühəndis), Mixael Cavaxaşvilinin “Günahsız Abdulla” (Kişi), Kəmalə Ağayevanın “Apardı sellər Saranı” (Çoban), Elçin Mehrəliyevin “Yurd yeri” (Əhməd), Onore de Balzakın “Polkovnik Şaber” (Südçü) əsərlərinin teletamaşalarında oynayıb.

“Azərbaycanfilm”də istehsal edilmiş “Musiqili xaş” (Mühasib Hüseyn), “Birinci gün gecə yarısı” (Rezident), “Əlavə iz” (Biznesmen) rollarına çəkilib.



**Əlvida CƏFƏROV**
**Aktyor**

Zəhmətkeş, sənəti sevən, teatra məbəd kimi baxan aktyordur. Bilavasitə tipik səciyyəli, epizod xarakter, ikinci dərəcəli rollar oynayır. Sadə kənd əhlinin, xeyirxah, qayğıkeş insanların obrazlarının ifasında daha səmimi və təbii, real və inandırıcı görünür.

Əlvida Məhərrəm oğlu Cəfərov 1947-ci il fevral ayının 17-də Cəbrayıl rayonunun Qaracallı kəndində doğulub. Yeddinci sinfə qədər öz kəndlərində oxuyub və orta məktəbi 1965-ci ildə Bilyand kəndində bitirib. Bakıya gəlib, ali məktəbə qəbul imtahanlarında müfəvvəq qiymət ala bilməyib, ancaq

doğma el-obaya da qayıtmayıb. Bakıdakı 2 saylı evtikmə kombinatında, Binəqədi rayon elektrik şəbəkəsində, yaşıllaşdırma idarəsində fəhlə işləyib. Eyni zamanda müxtəlif dram dərnəklərində məşğul olub.

Aktyorluq sənətinə get-gedə daha çox maraq göstərən Əlvıda Cəfərov 1966-cı ildə Mirzağa Əliyev adına Azərbaycan Dovlət Teatr İnstitutunun axşam şöbəsinə qəbul olunub. Dram və kino aktyorluğu fakültəsinin yuxarı kurslarında Akademik Milli Dram Teatrının tamaşalarında kütləvi səhnələrə çıxıb, sözsüz epizod rollar oynayıb. 26 may 1970-ci ildə institutu bitirərək  teatrın yardım heyətinə qəbul edilib. 1971-ci ilin mayında hərbi xidmətə çağırılıb. Oayıtdıqdan sonra 1 iyun 1972-ci ildə yenidən Akademik teatrın truppasının yardım qrupuna götürülüb və bir müddətdən sonra aktyor ştatına keçib. Həmin dövrdən fasiləsiz olaraq müqəddəs və milli teatrımızda, ən qədim sənət məbədində çalışır.

Əlvida Cəfərov teatrda işlədiyi bu illər ərzində repertuarın əksər tamaşalarında iştirak edib. Onun yaradıcılığında dünya və Azərbaycan klassiklərinin faciə və komediya, çağdaş milli dramaturqralarımızın dram, satira əsərlərinin, tərcümə pyeslərinin tamaşalarındakı maraqlı rolları xüsusi yer tutur.

**Krutiskinin nökəri.** “Müdriklər”, Aleksandr Ostrovski.

**İdmançı.** “Şöhrət və ya unudulan adam”, Nazim Hikmət.

**Alman zabiti.** “İnsan”, Səməd Vurğun.

**Altıncı qardaş.** “Yatmış gözəl və yeddi qardaş”, Aleksandr Puşkin.

**Xəfiyyə.** “Knyaz”, Hüseyn Cavid.

**Fəhlə.** “Əks-səda”, Nəbi Xəzri.

**Sərkərdə, İkinci gürcü  və Zülfüqar**. “Vaqif”, Səməd Vurğun.

**Polis.** “Xanuma”, Avkisenti Saqareli.

**Proşka və Yoldan ötən.** “Kreml saatı”, Nikolay Poqodin.

**Xidmətçi.** “Qılınc və qələm”, Məmməd Səid Ordubadinin eyniadlı əsəri əsasında Tofıq Kazımovun işləməsi.

**Nəzərli.** “Kölgələr pıçıldaşır”, Seyfəddin Dağlı.

**Qurban.** “Solğun çiçəklər”, Cəfər Cabbarlı.

**Milis işçisi.** “Vəkil neyləsin?..”, Ramiz Fətəliyev.

**Zəncirvuran.** “Dəli yığıncağı”, Cəlil Məmmədquluzadə.

**Birinci cavan.** “Quşu uçan budaqlar”, Əkrəm Əylisli.

**Birinci gözətçi.** “Heç nədən hay-küy”, Vilyam Şekspir.

**İştirakçı.** “Adamın adamı”, Anar.

**Cavan kəndli.** “Fitnə”, Abdulla Şaiq.

**Qaraçı.** “Cehizsiz qız”, Aleksandr Ostrovski.

**Qiqoli.** “Pepo”, Qabriel Sundukyan.

**Kamal və Qarmonçalan.** “Əliqulu evlənir”, Sabit Rəhman.

**İkıncі polis.** “Səhra yuxuları”, Anar.

**Şahnıar.** “Xurşid banu Natəvan”, İlyas Əfəndiyev.

**Litavraçı.** “Maqbet” Vilyam Şekspir.

**Molla.** “Mirzə Şəfı Vazeh”, Nəbi Xəzri.

**Çavuş.** “Sizi deyib gəlmişəm...”, Anar.

**Mühafiz.** “Medeya”, Jan Anuy. Kiçik səhnədə.

**İkinci qaçaq.** “İblis”, Hüseyn Cavid.

**İkinci kəndli.** “Bəxtsiz cavan”, Əbdürrəhim bəy Haqverdiyev. Kiçik səhnədə.

**Aydoğdu.** “Atabəylər”, Nəriman Həsənzadə.

**Həkim və Heydər.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.

**Cəlal və Şikayətçi.** “Ölülər”, Cəlil Məmmədquzadə.

**Gözətçi.** “Mahnı dağlarda qaldı”, İlyas Əfəndiyev.

**Sübhan.** “Fəryad”, Bəxtiyar Vahabzadə.

**Porxomenka.** “Darıxma, ana!”, Nodar Dumbadze.

**Ümid.** “Qəribə oğlan”, İlyas Əfəndiyev.

**Cümü.** “Bizim qəribə taleyimiz”, İlyas Əfəndiyev.

**Murad.** “Səadət sorağında”, Xalid Əlimirzəyev. Kiçik səhnədə.

**Odoğlu.** “Torpağa sancılan qılınc”, Nəbi Xəzri.

**Üçüncü ərəb.** “Od gəlini”, Cəfər Cabbarlı.

**Hacı Bağır.** “Şeyx Xiyabani”, İlyas Əfəndiyev.

**İkinci milis.** “Gecə döyülən qapılar”, Nəbi Xəzri.

**Dilənçi.** “Üç quruşluq opera”, Bertolt Brext və Kurt Vayl.

**Dördüncü şikayətçi, İkinci ərizəçi və Heydər**. “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə. İki quruluşda.

**İkinci molla**. “Mənsiz dünya”, Nəbi Xəzri.

**Hakim**. “Kərgədan buynuzu”, Maqsud İbrahimbəyov.

**Bülbül**. “Yayda qartopu oyunu”, Vaqif Səmədoğlu.

**Oyunbaz**. “Qədr gecəsi”, Eldar Baxış.

**İkinci hambal**. “Anamın kitabı”, Cəlil Məmmədquluzadə.

**Dərviş.** “Min illərin işığı”, Kamil Abdullayev.

**Teymur.** “Dindirir əsr bizi...”, Davud Aslan.

**Zadəgan.** “Kral Lir”, Vilyam Şekspir.

**Vəzir.** “Şıltaq şahzadənin nağılı”, nağıl-tamaşa.

**Bekan**. “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.

**Vasili**. “Ulduz, yaxud Ədirnə fəthi”, Cəfər Cabbarlı.

**Cəbi**. “Eşq və intiqam”, Süleyman Sani Axundov.

**Həkim**. “Hələ “sevirəm” deməmişdilər...”, Ramiz Novruz.

**Üçüncü aktyor** (Lüsiyana). “Hamlet”, Vilyan Şskspir.

**Gözətçi**. “Kəllə”, Nazim Hikmət.

**Müxalifətçi oğlan.** “Hərənin öz payı”, Xeyrəddin Qoca.



**Tofiq HÜSEYNOV**
**Aktyor**

Mürəkkəb psixologiyalı, tipik xarakterli, satirik səciyyəli, mayası yumorla yoğrulan personajları səhnədə xüsusi məharət və bacarıqla canlandırır. Koloritli sifət çöhrəsi, zəngin və əlvan ifadə vasitələri, çoxçalarlı səhnə danışığı, məzəli hərəkətlər toplusu, diqqətçəkən görkəmi var. Ciddi və çoxqatlı yumoru xoşlayır və özünün daxili hərarəti, dinamik ritmi, ehtirasının realist ahəngi ilə oynadığı personajlara cazibədarlıq, yapışıqlıq və estetik təravət gətirir. Həssas musiqi duyumu olduğuna görə rollarının, rəqs epizodlarını və müxtəlif tərənələr altında müşayiət edilən dialoqlarını şövqlə, sirayətedici ilhamla oynayır.

Tofiq Əbdürrəhim oğlu Hüseynov 25 may 1949-cu ildə Bakı şəhərinin Xırdalan qəsəbəsində anadan olub. Qəsəbədəki 1 saylı orta məktəbin on birinci sinfini 1966-cı ildə bitirərək Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Sonra təhsil prosesində ixtisasını musiqili komediya aktyorluğu fakültəsinə dəyişib. Ali təhsilini 1971-ci ildə başa vuraraq iyul ayının 1-də Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı kollektivinə aktyor götürülüb. O, 23 oktyabr 1972-ci ilə qədər burada çalışıb.

Tofiq Hüseynov 1972-ci ilin noyabr ayından 1973-cü ilin sentyabrına kimi Uzaq Şərqin Amur vilayətindəki Blaqoveşensk şəhərində hərbi xidmətdə olub. Ordudan tərxis edildikdən sonra Azərbaycana qayıdıb və dörd il (1 aprel 1974-11 may 1978) Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrının truppasında aktyorluq edib. Bu kollektivdən ayrılaraq dörd ay Azərbaycan Dövlət İncəsənət İnstitutunun Tədris teatrında işləyib (6 oktyabr 1978-23 yanvar 1979). Onun yaradıcılığının ən uzun və qaynar dövrü Gənc Tamaşaçılar Teatrı (GTT) ilə bağlıdır. O, 3 oktyabr 1979-cu ildən 1 sentyabr 2001-ci ilə qədər bu teatrın səhnəsində coşğun və səmərəli fəaliyyət göstərib. 1992-1993-cü illərdə GTT ilə paralel olaraq Bakı Bələdiyyə Teatrında da aktyoluq edib. Aktyor 1 sentyabr 2001-ci il ildən Akademik Milli Dram Teatrının aktyor truppasının üzvüdür.

Tofiq Hüseynovun Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında oynadığı rollar.

**Polad.** “Arvadımın əri”, Georgi Xuqayev.
**Rza bəy.** “O olmasın, bu olsun”, Üzeyir bəy Hacıbəyov.
**Hacı Kərim.** “Molla İbrahimxəlil kimyagər”, Mirzə Fətəli Axundzadə.
**Uzun.** “Toy kimindir?”, Məhərrəm Əlizadə.
**Samson.** “Ana ürəyi aldatmır”, Marten Fərzəliyev.

Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrının səhnəsində ifa etdiyi obrazlar.
**Fərid.** “Həmyerlilər”, Altay Məmmədov.
**Arif.** “Ana məhəbbəti”, Yəhya Məmmədov.
**Əzrayıl.** “Bu meydan, bu şeytan”, Firudin Aşurov.
**Aptekçi oğlu.** “Demoklisin qılıncı”, Nazim Hikmət.
**Mərd Məzarov.** “Adamın adamı”, Anar.
**İsgəndər.** “Duel”, Mar Bayciyev.
**Polis rəisi.** “Dost əli”, Mehriban Nəzərov.
**Usta.** “Poladəridənlər”, Gennadi Bokarev.
**Knyaz Zvezdiç.** “Maskarad”, Mixail Lermontov.

Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Tədris teatrında yaratdığı səhnə surətləri.
**Balaqədeş və Əhməd Əhmədov.** “Qaravəlli”, Anar.
**Lətif bəy.** “Ac həriflər”, Əbdürrəhim bəy Haqverdiyev.
**Lord Avqust.** “Lord Avqust vəzifə başında”, Bernard Şou.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Tofiq Hüseynov aşağıdakı rollarla özünün aktyor yaradıcılığını zənginləşdirib.
**İtalyan.** “Sənin dostun, düşmənin”, Əfqan Əsgərov.
**Div.** “Sehrli xalça”, Əli Səmədli.
**Külək.** “Qar qız”, Teymur Elçin.
**Hacı Saleh.** “Tamahkar”, Süleyman Sani Axundov.
**Cəbi və Hacı Salman.** “Hacı Qəmbər”, Nəcəf bəy Vəzirov.
**General Vetsel.** “Kiçik torpaqda üç gün”, Şamil Xurşud.
**Hacı Namazlı.** “Danabaş kəndinin məktəbi”, Cəlil Məmmədquluzadə.
**Tülkü.** “Cücələrim”, Tofiq Mütəllibov.
**Şükür bəy.** “Qonşu qonşu olsa kor qız ərə gedər”, Rəşid bəy Əfəndiyev.
**Doktor.** “Məhəbbət, şeytan və lambada”, Marat Haqverdiyev.
**Mirzəqulu.** “Sevirdim, çox sevirdim”, Hidayət Orucov.
**Babaxan.** “Pul dəlisi”, Əhməd Orucoğlu.
**Polis.** “Məhəbbət bir bəladır”, Əhməd Orucoğlu.
**Müsavat zabiti.** “26-lar”, İsgəndər Coşqun.
**Zilber.** “Ölüm hokmü”, Elçin.

Bakı Bələdiyyə Teatrında aktyorluq fəaliyyəti göstərdiyi müddətdə cəmi iki rolda çıxış edib.
**Şah Kreon.** “Medeya”, Jan Anuy.

**Vəzir Zəban.** “Tomris”, Oqtay Altunbay.

Akademik Milli Dram Teatrında Tofiq Hüseynov yaradıcılıq fəaliyyətinə təzə başlayıb.

**Komisyonçu.** “Kəllə”, Nazim Hikmət.
**Qriqol Orbeliani.** “Brüsseldən məktublar”, Həsən Həsənov (Əzizoğlu).
**Əlvan.** “Varlı qadın”, Əli Əmirli.

Tofıq Hüseynov Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Aleksandr Vampilovun “Metranpaj” (Kamayev), Musa Qocayevin “Üç mollanın sərgüzəşti” (Molla Vəli), Aleksandr Xaytın “Şkafda adam” (Ər), Vadim Yeftimiunun “Qurbağa müfəttişi” (Nitse) pyeslərinin, Molla Nəsrəddinin lətifələri əsasında eyniadlı əsərin (Nəsrəddin) tamaşalarında oynayıb.

“Mosfilm”də “Marş” (Komandir), “Azərbaycanfilm”də “Dəvətnamə” (Briqadir), “O dünyadan salamlar” (“Ölülər”. Əli bəy), Polşa studiyasında “Bahar ərəfəsində” (Direktor) rollarına çəkilib.



**İradə AĞASIBƏYLİ**
**Aktrisa**

“Ağasıbəyli” onun səhnə təxəllüsüdür. Əvvəllər lirik sevgili qəhrəman obrazlarının ifasında uğurlar qazanıb. Tədricən xarakter rolları oynamaqda püxtələşib. Əsasən dramatik aktrisadır və yeri gələndə sarkazmlı satirik və məişət ruhlu komik personajları da bacarıqla oynayır. Ehtiraslı rolların ifasında daxilindəki dramatizmi faciə elementləri ilə cilalaya bilir.

İradə Aslan qızı Həsənova (Ağasıbəyli) Gəncə şəhərində doğulub. Şəhərin yaxınlığında yerləşən Ağasıbəyli kənd orta məktəbini 1973-cü ildə bitirib. Bakıya gələrək Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirərək təyinatla Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına göndərilib və iyul ayının 10-da kollektivə aktrisa ştatına götürülüb. Burada işlədiyi müddətdə klassik, əsasən milli və əcnəbi çağdaş dramaturqların psixoloji pyeslərinin tamaşalarında uğurlu rollar yaradıb. Onun Sumqayıt teatrının səhnəsindəki yaradıcılıq fəaliyyətinin şəbəkə səcərəsi aşağıdakı nizamdadır.

**Almaz.** “Almaz”, Cəfər Cabbarlı.
**Səriyyə.** “Vəfalı Səriyyə”, Cəfər Cabbarlı.
**Kama.** “Bağdada putyovka var”, Əkrəm Əylisli.
**Həlimə.** “Doğmalar”, Əkrəm Əylisli.
**Kəmalə.** “Bir cüt bədmüşk ağacı”, Əkrəm Əylisli.
**Məryəm.** “Xor-xor”, Sultanməcid Qənizadə.
**Gülnaz.** “Tamahkar”, Süleyman Sani Axundov.

**At Balaxanım.** “Adamın adamı”, Anar.
**Zəritə.** “Elbrus evlənir”, Georgi Xuqayev.
**Nelli.** “Uca dağ başında”, Vaqif Səmədoğlu.
**Aytən.** “Bayramın birinci günü”, Nazim Hikmət.
**Stella.** “Arzu tramvayı”, Tennessi Uilyams.
**Gəlin.** “Dəyirman”, Mövlud Süleymanlı.
**Zəripə.** “Əsrə bərabər gün”, Çingiz Aytmatov.
**İlçay.** “Afət”, Hüseyn Cavid.
**Zərifə**. “Yaxşı adam”, Mirzə İbrahimov.
**Məlakə.** “İlahi komediya”, İsidor Ştok.
**Anjelino.** “Sərbəst mövzu”, Aleksandr Çxaidze.
**Klava.** “Poladəridənlər”, Aleksandr Bokarev.
**Aparıcı.** “Bütün Şərq bilsin”, Nəriman Həsənzadə.
**Sevil Qazıyeva.** “Mənim arxalandığım”, Nəbi Xəzri.
**Xalidə Yunusova.** “On üçüncü sədr”, Azat Abdulin.
**Bonka.** “Dörd əkiz”, Panço Pançev.
**Məhbus.** “İtirilmiş məktub”, İvaç Karaçali.
**Şəngülüm.** “Şəngülüm, Şüngülüm, Məngülüm”, Firuz Məmmədov.
**Porsuq.** “Xoruz və çalağan”, Firudin Ağayev.
**Xanım.** “Maskarad”, Mixail Lermontov.
**Sədəf.** “Muradın kələkləri”, Tofiq Kazımov.

Sumqayıt teatrında kifayət qədər təcrübə toplayan İradə Ağasıbəyli 1989-cu il sentyabr ayının 1-də kollektivdən ayrılıb və həmin gün Dövlət Gənclər Teatrının truppasına daxil olub. Burada Rober Tomanın “Arvadımın qatili” dramının tamaşasında Tibb bacısı rolunu oynayıb. 1990-cı il iyul ayının 21-də bu kollektivdən də ayrılan aktrisa kimi həmin il sentyabrın 16-dan Akademik Milli Dram Teatrının aktyor truppasındadır. İradə Ağasıbəyli bu qüdrətli sənət ocağında aşağıdakı tamaşalarda müxtəlif rollarda səhnəyə çıxıb.
**Ameliya.** “Dişi canavar”, Federiko Qarsia Lorka.
**Zivər xanım.** “Anamın kitabı”, Cəlil Məmmədquluzadə.
**Qaraqoyunlu bibi.** “Ağqoyunlular və Qaraqoyunlular”, Əli Əmirli
**Nərgiz.** “Hara gedir bu dünya?”, Bəxtiyar Vahabzadə.
**Banu Çiçək.** “Özümüzü kəsən qılınc” (“Göytürklər”), Bəxtiyar Vahabzadə.
**Səadət.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.
**İnci.** “Ulduz, yaxud Ədirnə fəthi”, Cəfər Cabbarlı.
**Falçı.** “Hərənin öz payı”, Xeyrəddin Qoca.
**Paulina.** “Kəllə”, Nazim Hikmət.

Aktrisa Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Şahin Səfərovun “Qu quşunun məhəbbəti” (Tünzalə), Elçin Mehrəliyevin “Yurd yeri” (Cəfərin arvadı), Nazim Hikmətin “Şöhrət və ya unudulan adam” (Qadın), Ağarəhim Rəhimovun “Qırmızı qar” (Əsir qadın) əsərlərinin tamaşalarında iştirak edib.

“Azərbaycanfilm”də “Kişi sözü” (Ağca), “Gözəl, gözəl, gözəl dünya” (Qadın) bədii və “Cəfər Cabbarlı” (Almaz) bədii-sənədli kino lentlərinə çəkilib.



**Abbas QƏHRƏMANOV**
**Aktyor**

Dramatik aktyor üçün səhnə psixologizminin estetik mahiyyətini, fəlsəfi tutumunu dərindən bilən aktyordur. Faciə əsaslı, mürəkkəb konfliktlər burulğanında çırpınan, xaraktercə ziddiyyətli, zaman və cəmiyyət məhvərində gərdişdə olan obrazları şövqlə, ecazkar cazibədarlıqla oynayır. Daxilən ehtiraslı, emosional duyğularında alovlu, psixoloji dəyişmələrdə ahəngdar ritmli olmağı bacarır. Eyni zamanda çox şirəli, həmişə təzətər görünən yumor qabiliyyətinə malikdir.

Abbas Əhməd oğlu Qəhrəmanov 25 avqust 1960-cı ildə İrəvan şəhərində doğulub. Bakının Binəqədi qəsəbəsindəki 30 saylı məktəbi 1977-ci ildə bitirib. Həmin il Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsinə daxil olub. Rejissor Fikrət Sultanovun kursunu 1981-ci ildə bitirərək təyinatla Akademik Milli Dram Teatrına göndərilib (22 sentyabr 1981). Bir ay sonra hərbi xidmətə çağırılıb və 1983-cü ilin mayında Vətən qarşısında borcunu verərək Bakıya qayıdıb. Sentyabr ayının 1-də yenidən Akademik teatrın truppasına qəbul edilib. Altı il bu kollektivdə işləyib və 1989-cu ildə istedadlı rejissor Hüseynağa Atakişiyev Dövlət Gənclər Teatrını yaradanda Abbas Qəhrəmanov aprel ayının 1-dən etibarən həmin dəstəyə qoşulub. Burada 1991-ci il avqust ayının 26-na kimi işləyən Abbas Qəhrəmanov kifayət qədər sanballı rollarla öz yaradıcılığını zənginləşdirə bilib.

**Xəstə və Şair.** “Qətl günü”, Yusif Səmədoğlu.
**Virtuoz.** “Avtobus” (“Çarəsiz sərnişin”), Stanislav Stratiyev.
**Mirzağa.** “Dadaşbala əməliyyatı”, Rəhman Əlizadə.
**Sultanqulu.** “Sultanqulu körpüsü”, İsi Məlikzadə.
**Neron.** “Neron oynayır və ya İblisin komediyaları”, Mikloş Xubai.

İstedadı həmişə diqqət mərkəzində olan Abbas Qəhrəmanov 29 oktyabr 1991-ci ildən yenidən Akademik Milli Dram Teatrının aktyor heyətindədir. Arada Rüstəm İbrahimbəyovun "İbrus" antrepriza teatrında bu dramaturqun özünün "Şirə bənzər" dramının tamaşasında Murad rolunu oynayıb. Hətta həmin tamaşa ilə bir sıra xarici ölkə şəhərlərində qastrol səfərlərində olub. Bununla belə, Abbas Qəhrəmanovun əlvan və kifayət qədər sanballı yaradıcılığının əsas dövrü Akademik teatrla bağlıdır. Aktyorun burada ifa etdiyi rollar janr, üslub və məzmununa, psixoloji ölçülərinə görə çox müxtəlifdir. Onun oynadığı rolların siyahısını təqdim etməmişdən əvvəl xatırladım ki, aktyor işlədiyi kollektivdə yeni il şənliklərində uşaqlar üçün "Qış nağılı" və "Şıltaq şahzadənin nağılı" tamaşalarını hazırlayıb, bir neçə əsərdə rejissor köməkçisi olub.

**Sərkərdə.** "Atabəylər", Nəriman Həsənzadə.
**Nəzər.** "Sehrli alma", Yozef Lada.
**Mərvan.** "Fəryad", Bəxtiyar Vahabzadə.
**Anri.** "Səməndər quşu", Firudin Ağayev. Kiçik səhnədə.
**Rasim.** "Çahargah fantaziyası", Kərim Kərimov.
**Əli bəy.** "Vaqif", Səməd Vurğun.
**Çinar.** "Qarabağ əfsanəsi", Qeybulla Rəsulov.
**Sezar Puf və Aşbaz.** "Böyük Romul", Fridrix Dürrenmatt.
**Dönməz və Birinci ərəb.** "Od gəlini", Cəfər Cabbarlı.
**Jurnalist.** "Şeyx Xiyabani", İlyas Əfəndiyev.
**Nağılçı.** "Məlik Məmməd", nağıl-tamaşa.
**Küçə müğənnisi.** "Üç quruşluq opera", Bertolt Brext və Kurt Vayl.
**Səməd bəy.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.
**Əkbər.** "Mənsiz dünya", Nəbi Xəzri.
**Yavər.** "Tufandan əvvəl", Arif Süleymanov.
**Prokuror.** "Kərgədan buynuzu", Maqsud İbrahimbəyov.
**Qara.** "Qızıl teşt", Seyran Səxavət.
**Fransua.** "Dəfn edilməmiş ölülər", Jan Pol Sartr. Kiçik səhnədə.
**Oyunbaz.** "Qədr gecəsi", Eldar Baxış.
**İlqar.** "Əcəb işə düşdük", Şıxəli Qurbanov.
**Edin Kebot.** "Qarağaclar altında ehtiraslar", Yucin ONil.
**Dərviş.** "Min illərin işığı", Kamil Abdullayev.
**Ər.** "Müəmmalı bir qətlin üç versiyası", Ryunesko Akutaqava. Kiçik səhnədə.
**Aparıcı.** "Şıltaq şahzadənin nağılı", nağıl-tamaşa.
**Şöklü Məlik.** "Burla xatun", Nəbi Xəzri.
**Sahib.** "Köhnə ev", Əli Əmirli.
**Andronik.** "Hələ "sevirəm" deməmişdilər...", Ramiz Novruz.

Aktyor Azərbaycan Dövlət Televiziyasında hazırlanmış bir sıra teletamaşalarda da oynayıb. Onlardan Andrey Rasputinin "Rudolfio" (Rudolf), Şahin Səfərovun "Nişan üzüyü" (Şahin), İlyas Əfəndiyevin "Mənim günahım" (Xansu), Anton Çexovun "Altıncı palata" (Raqin), Elçin Mehrəliyevin "Yurd yeri"

(Üçüncü qardaş), “Dədəm Qorqudun Kitabı” dastanının Dirsə xan oğlu Buğac xanın boyu əsasında “Dirsə oğlu Buğac” (Dirsə xan), Anatoli Dudarevin “Astana” (Draqun), İsi Məlikzadənin “Hədiyyə” (Rasim) əsərlərinin tamaşalarında iştirak edib.

Abbas Qəhrəmanov müxtəlif illərdə “Ailə” (Ər), “Vahimə” (Xəstə), “Odla qol-boyun” (Bəy) filmlərinə çəkilib.



**Almaz AMANOVA**
**Aktrisa**

Səhnə plastikasının zərifliyi, hərəkətlərinin emosional cazbəsi, daxili ehtirasının hərarəti ilə seçilən aktrisadır. Vaxtilə Sumqayıt teatrında maraqlı bədii obrazlar oynayıb. Eyni zamanda uşaq tamaşalarında nağıl qəhrəmanlarının və kiçikyaşlı məktəblilərin, dəcəl yeniyetmələrin obrazlarının məharətli ifaçısı olub. Dinamik və ritmik realist surətləri oynayanda bacarıq və qabiliyyətinin yaradıcılıq səciyyələri daha qabarıq tərzdə nəzərə çatır.

Almaz Hüseyn qızı Amanova 29 noyabr 1965-ci ildə Sumqayıt şəhərində fəhlə ailəsində anadan olub. 1983-cü ildə Sumqayıtdakı 17 saylı məktəbi bitirib. Həmin ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Əməkdar incəsənət xadimi, rejissor Əşrəf Quliyevin kursunu 1987-ci ildə bitirən Almaz Pənahova təyinatla Sumqayıt Dövlət Dram Teatrına aktrisa göndərilib. 1987-ci ilin 1 sentyabrından teatrın aktyor ştatına qəbul olunan aktrisa 1997-ci il oktyabr ayının 17-ə kimi Sumqayıt teatrında silsilə rollar oynayıb.

**Nəzifə.** “Uca dağ başında”, Vaqif Səmədoğlu.
**Bonka.** “Dörd əkiz”, Panço Pançev.
**Ayatın anası.** “Dəyirman”, Mövlud Süleymanlı.
**Sonka.** “Diribaş adamlar”, Vasili Şukşin.
**Pişik.** “Öz xoşuna yaşayan pişik”, Reyhard Kiplinq.
**Mələk.** “Müvəqqəti ər”, Rəşad Nuri Güntəkin.
**Arinina.** “Uşağa bir “3” yazın”, Aleksandr İvaşenko.
**Mehran.** “Qınamayın məni”, Şamo Arif
**Gülnarə müəllimə.** “Dərs”, Rafiq Səməndər.
**Saimət.** “Varlı ev”, Georgi Xuqayev.
**Gülçöhrə.** “Arşın mal alan”, Üzeyir bəy Hacıbəyov.
**Həlimə.** “Yanmış evin nağılı”, Akif Həsənoğlu.
**Şərəfnisə.** “Müsyö Jordan və dərviş Məstəlişah”, Mirzə Fətəli Axundzadə.
**İ kinci aktyor.** “Sabir Rüstəmxanlı. Portret cizgiləri”. Kompozisiya müəllifi Ağalar İdrisoğlu.

**Ceyran xanım.** "Xacə şah", Jan Kevrin eyniadlı romanı və Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" faciəsi əsasında işləyəni Çingiz Ələsgərli.

**Bahar**. "Kimdir müqəssir?", Əbdürrəhim bəy Haqverdiyev.

**Nisə xanım.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.

**Sevinc.** "Krallar", Aqşin Babayev.

**Qəndab.** "Subaylarınızdan görəsiniz", İsi Məlikzadə.

Almaz Amanova 1997-1999-cu illərdə Akademik Milli Dram Teatrında müqavilə ilə (çıxış hesabı) aktrisa işləyib. 1999-cu il sentyabr ayının 3-dən isə truppanın aktrisa ştatındadır.

Onun Akademik teatrda oynadığı rollar.

**İkinci qız.** "Sokratı anma gecəsi" ("Eşşək dərisi üzərində məhkəmə"), Çingiz Aytmatov və Muxtar Şahanov.

**Şiranə və Çiçək.** "Burla xatun", Nəbi Xəzri.

**Zulya.** "Bu dünyanın adamları", Hidayət.

**Rəqqasə.** "Aydın", Cəfər Cabbarlı.

**Arikiya.** "Fedra", Jan Rasin.

**Siyan Şi.** "Özümüzü kəsən qılınc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə.

**Müxalifətçi qız**. "Hərənin öz payı", Xeyrəddin Qoca.

**Brüsselli qadın.** "Brüsseldən məktublar", Həsən Həsənov (Əzizoğlu).

Almaz Amanova müxtəlif illərdə "Sürəyya" (Gülçöhrə), "Hücum" (Hamilə qadın), "Mənim ağ şəhərim" (Nərgiz), "Ağ dünya" (Ana) bədii və televiziya filmlərinə çəkilib.



**Kazım HƏSƏNQULİYEV**
**Aktyor**

Çılğın və dramatik aktyordur. Təbiətən romantik aktyor məktəbinin vacib sayılan yaradıcılıq xüsusiyyətlərinə malikdir. Ona görə də romantik monumental səpkili tamaşalarda pafosla danışmağa, daxili ehtirasını dramatik gərginliyə çatdırmağa, haqqında söhbət gedən məktəbin poetika göstəricilərini öz qabiliyyəti dairəsində sınağa çəkməyə çalışır. Lirik-psixoloji janrl tamaşalarda da həvəslə oynayır. Adətən belə rollarda emosional ifadə vasitələrini, lirik səmimiyyəti, psixoloji danışıq tərzini ön plana çəkir.

Kazım Feyruz oğlu Həsənquliyev 12 aprel 1968-ci ildə Bakının Pirşağa qəsəbəsindəki 2 saylı sovxozda anadan olub. 1985-ci ldə Sabunçu rayonundakı 188 saylı orta məktəbi bitirib. Bir il anadan olduğu sovxozun fermasında işləyib. 1986-1988-ci illərdə hərbi xidmətdə olub və qayıtdıqdan sonra ayaqqabı tikişi sexində

ülgüçü ustaya şagird durub. 1989-cu ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə qəbul olunub. Bacarıq və qabiliyyəti diqqəti cəlb edən Kazım Həsənquliyev tələbəlik illərində "Mənim ağ şəhərim" (Rövşən) filminə çəkilib və Əlibala Hacızadənin "İtkin gəlin" (Yusif), Orxan Kamalın "Yad qızı" (Haldun), İlyas Əfəndiyevin "Qaçaq Süleyman" (Qaçaq Rəşid) silsilə televiziya tamaşalarında oynayıb.

1994-cü ildə təhsilini başa vurub ali savadlı aktyor diplomu alan Kazım Həsənquliyev teatr sənətində müəyyən təcrübə toplaya bildiyinə görə sentyabr ayının 1-də Akademik Milli Dram Teatrının kollektivinə işə götürülüb. Teatrda işlədiyi illər ərzində o, həm klassik, həm də çağdaş milli və əcnəbi dramaturqların pyeslərinin tamaşalarında xeyli dram obrazına səhnə həyatı verib. İlk səhnə surəti Elcanın ("Məhəbbət yaşadır", Nahid Hacızadə) məşqlərinə isə son kursda oxuyanda başlayıb. Tamaşanın premyerası isə 18 sentyabr 1994-cü ildə göstərilib.

Beləliklə, Kazım Həsənquliyevin 1994-cü ildən üzü bəri Akademik Milli Dram Teatrında ifa etdiyi rolların siyahısı illərin ardıcıllığı ilə belə sıralanır.

**Elcan.** "Məhəbbət yaşadır", Nahid Hacızadə.

**Erməni əsgəri.** "Ana intiqamı", Vidadi Babanlı.

**İkinci fərraş.** "Anamın kitabı", Cəlil Məmmədquluzadə.

**Fərid.** "Ağoyunlular və Qaraqoyunlular", Əli Əmirli.

**Rövşən.** "Qisas qiyamətə qalmaz", Nahid Hacızadə.

**Əli.** "Dindirir əsr bizi...", Davud Aslan.

**Əbülfət xan.** "Hökmdar və qızı", İlyas Əfəndiyev.

**Arslan.** "Özümüzü kəsən qılınc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə.

**Polinik.** "Şah Edip və yaxud alın yazısı" ("Şah Edip"), Sofokl.

**Kafir.** "Burla xatun", Nəbi Xəzri.

**Rövşən.** "Dəlilər və ağıllılar", İlyas Əfəndiyev.

**Nökər.** "Kral Lir", Vilyam Şekspir.

**Şəmsi bəy.** "Eşq və intiqam", Süleyman Sani Axundov.

**Oğlan.** "Şıltaq şahzadənin nağılı", nağıl-tamaşa.

**Cinner.** "Ulduz, yaxud Ədirnə fəthi", Cəfər Cabbarlı.

**Altay.** "Dar ağacı", Bəxtiyar Vahabzadə.

**Oğlan.** "Hərdən mənə mələk də deyirlər....", Kamal Abdulla.

**Voltimand.** "Hamlet", Vilyam Şekspir.

**Oktav.** "Skapenin kələkləri", Jan Batist Molyer.

Kazım Həsənquliyev Bəxtiyar Vahabzadənin "Yağışdan sonra" (Rüstəm), Ağarəhim Rəhimovun "Canavar balası" (Rövşən) televiziya tamaşalarında iştirak edib. "Həqiqət anı" (Nizami Şahmuradov), "Sifarişçi"(Killer) filmlərinə çəkilib.



**Aslan ŞİRİNOV**
**Aktyor**

Realist aktyor məktəbinin estetik prinsiplərini özünün ifadə vasitələrində, oyun tərzində, tapdığı ştrixlərdə daha qabarıq verməyə çalışır. Yumorlu obrazların ifasına daha meyllidir və milli xalq oyun-tamaşalarından məsxərənin üslub vasitələrindən geniş istifadə etməyə çalışır.

Aslan Adil oğlu Şirinov 25 aprel 1969-cu ildə Bakıda anadan olub. Ölkəmizin paytaxtındakı 248 saylı orta məktəbi 1986-cı ildə bitirib. Beş il Metropolitendə usta işləyib. 1991-ci ildə Azərbaycan Dövlət İncəsənət Universitetinin teatr və kino aktyorluğu fakültəsinə daxil olub və oranı 1996-cı ildə bitirib. O, 1 sentyabr 1998-ci ildə Akademik Milli Dram Teatrına aktyor götürülüb. Akademik teatrda ilk rolunu isə 1997-ci ildə oynayıb. Onda truppada çıxış hesabı işləyirdi. Bir neçə rolda qabiliyyətini göstərəndən sonra aktyor truppasının ştatına daxil olub.

Aktyor teatr fəaliyyəti ilə yanaşı, müğənni kimi də çalışır. Çəkildiyi kliplər müxtəlif televiziya kanallarında göstərilir.

Aslan Şirinov Akademik teatrın repertuarındakı əsas tamaşalarda çıxış edir. Aktyor kollektivə qəbul olunduğu gündən aşağıdakı rolları oynayıb.

**Aparıcı.** "Ah, Paris... Paris!..", Elçin.
**Aparıcı.** "Şıltaq şahzadənin nağılı", nağıl-tamaşa.
**Şeytan.** "Özümüzü kəsən qılınc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə.
**Hoqqabaz.** "Mənim sevimli dəlim", Elçin.
**Oğul.** "Mənim ərim dəlidir" ("Diaqnoz "D"), Elçin.
**Səkinənin əri.** "Bu dünyanın adamları", Hidayət.
**Rəhman.** "Dar ağacı", Bəxtiyar Vahabzadə.
**Aktyor və Ozrik. "**Hamlet", Vilyam Şekspir.
**Heydər.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.
**Cəllad.** "Sokratı anma gecəsi" ("Eşşək dərisi üzərində məhkəmə"), Çingiz Aytmatov və Muxtar Şahanov.
**Xor dirijoru**. "Hərənin öz payı", Xeyrəddin Qoca.
**Leandr.** "Skapenin kələkləri", Jan Batist Molyer.
**Qara.** "Varlı qadın", Əli Əmirli.

Aslan Şirinov Azərbaycan Dövlət Televiziyasında hazırlanan Aqşin Babayevin "Dəvətnamə" (Həmid), Rafiq Səməndərin "Bir yay günü" (Əhmədağa) əsərlərinin teletamaşalarında oynayıb.

"Azərbaycanfilm"in istehsal etdiyi "Ümid" (Ağamirov) kinolentinə çəkilib.



**Mətləb ABDULLAYEV**
**Aktyor**

Dramatik aktyordur, ancaq müxtəlif janrlı əsərlərdə ciddi yumorlu səhnə obrazlarında da çıxış edib. Boylu-buxunludur və diqqəti cəlb edən səhnə görkəmi var. Hələlik ikinci dərəcəli rollarda oynayıb. Obrazın psixoloji bədii xüsusiyyətlərini inandırıcı, real və təbii cizgilərlə təcəssüm etdirməyə çalışır.

Mətləb Fətəli oğlu Abdullayev 2 avqust 1969-cu ildə Ordubad rayonunun Üstüpü kəndində doğulub. Kənd orta məktəbini 1986-cı ildə bitirib və bir il Rusiyanın Tümen vilayətində işləyib. 1987-ci ilin payızından 1989-cu ilin payızına qədər hərbi xidmətdə olub. Ordudan qayıtdıqdan sonra bir il doğma kəndinin daxil olduğu sovxozda çalışıb. Mətləb Abdullayev 1991-ci il Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsinə daxil olub. Oranı ali savadlı aktyor ixtisası ilə 1996-cı ildə qurtarıb.

Tələbə-aktyor hələ 1995-ci ildən Akademik Milli Dram Teatrının tamaşalarında kütləvi səhnələrə çıxıb, sözsüz epizod rollar oynayıb. O, 1996-cı il dekabr ayının 16-da Akademik teatrın aktyor truppasına götürülüb.

Gənc aktyor Mətləb Abdullayevin Akademik teatrın səhnəsində ifa etdiyi obrazların il ardıcıllığı belədir.

**Qaraxan.** “Ana intiqamı”, Vidadi Babanlı.

**Carçı.** “Kral Lir”, Vilyam Şekspir.

**Hüseynqulu xan.** “Hökmdar və qızı”, İlyas Əfəndiyev.

**Şəhər əhli.** “Ah, Paris... Paris!..”, Elçin.

**Topal.** “Fərhad və Şirin”, Səməd Vıırğun.

**Şahzadə Tiqran.** “Pompeyin Qafqaza yürüşü”, Nəriman Həsənzadə.

**Birinci çapar və Birinci carçı.** “Özümüzü kəsən qılınc” (“Göytürklər”), Bəxtiyar Vahabzadə.

**Cangüdən və Can.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.

**Dördüncü ərizəçi.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.

**Əbdürrəhman. “**Ulduz, yaxud Ədirnə fəthi”, Cəfər Cabbarlı.

**Qurban.** “Aydın”, Cəfər Cabbarlı.

**Səfi bəy.** “Eşq və intiqam”, Süleyman Sani Axundov.

**Halaypozan.** “Hələ “sevirəm” deməmişdilər...”, Ramiz Novruz.

**Rozenkrans.** “Hamlet”, Vilyam Şekspir.

**Birinci cangüdən.** “Varlı qadın”, Əli Əmirli.

**Qaplan.** “Afət”, Hüseyn Cavid.

Mətləb Abdullayev-Azərbaycan Dövlət Televiziyasında lentə alınmış Elçin Mehrəliyevin “Yurd yeri” (Ordu əsgəri), Əmir Pəhləvanın “Sağ ol!” (Satıcı),

Ağarəfi Rəhimovun "Qırmızı qar" (Suren) əsərlərinin teletamaşalarında da oynayıb.



**Rövşən KƏRİMDUXT**
**Aktyor**

Uca boyu, xoşagəlimli çöhrəsi, yüksək səhnə mədəniyyətini və teatr etikasını öyrənməsi onun yaradıcılıq bacarığına geniş imkanlar açıb. Səmimi və emosional rollardakı çıxışları öz təbiiliyi ilə seçilir. Çılğın təbiətli rolların ifasında daxili ehtiraslarını psixoloji realizmlə yoğurmağa çalışır. Yöndaşlarına qarşı diqqətcildir. Yumor qabiliyyəti də var və istedadının həmin cəhətlərindən daha geniş şəkildə istifadə etməsi səmərəli olar.

Rövşən Ramazan oğlu Kərimduxt 24 oktyabr 1969-cu ildə Sumqayıt şəhərində doğulub. Uşaqlığı Zaqatala rayonunda keçib və xəstələndiyinə görə məktəbə getməyib. Ailələri yenidən Sumqayıta köçüb və o, 1978-ci ildə birinci sinifə getdiyi 27 saylı orta məktəbi 1988-ci ildə bitirib. Üç il oradakı Böyük Kimya Zavodunda elektrik köməkçisi və ustası işləyib. 1991-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə qəbul olunub. İxtisas təhsilini xalq artisti Əliabbas Qədirovdan alıb. Beşillik təhsildən sonra 1996-cı ildə universiteti qurtaran Rövşən Kərimduxt həmin il sentyabr ayının 10-da Akademik Milli Dram Teatrının yaradıcı heyətinə aktyor götürülüb. İlk rolu İlyas Əfəndiyevin "Hökmdar və qızı" tamaşasında Hüseynqulu xan obrazı olub. Rejissor Mərahim Fərzəlibəyovun quruluş verdiyi bu tamaşanın premyerası 15 dekabr 1996-ci ildə göstərilib. Aktyor "Gözəl, gözəl, gözəl dünya" (Qardaş) bədii filminə çəkilib.

İstedadlı gənc aktyor Rövşən Kərimduxt Akademik Milli Dram Teatrının səhnəsində məhsuldar çalışaraq xeyli bədii obraza səhnə ömrü verib.

**Hüseynqulu xan.** "Hökmdar və qızı", İlyas Əfəndiyev.

**Şəhər əhli və İsgəndər.** "Ah, Paris... Paris!..", Elçin.

**Roma əsgəri.** "Pompeyin Qafqaza yürüşü", Nəriman Həsənzadə.

**Oğlan.** "Şıltaq Şahzadənin nağılı", nağıl-tamaşa.

**İkinci çapar və carçı.** "Özümüzü kəsən qılınc" ("Göy-türklər"), Bəxtiyar Vahabzadə.

**Gennadi.** "Şadlıq sorağında", Viktor Rozov.

**Hoqqabaz.** "Mənim sevimli dəlim", Elçin.

**Cığatay və Cangüdən**. "Sokratı anma gecəsi" ("Eşşək dərisi üzərində məhkəmə"), Çingiz Aytmatov və Muxtar Şahanov.

**Oğul və Cangüdənlərin rəisi.** "Mənim ərim dəlidir" ("Diaqnoz "D"), Elçin.

**Üçüncü kafir.** "Burla xatun", Nəbi Xəzri.

**Riza bəy.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.
**Dmitri.** “Ulduz, yaxud Ədirnə fəthi”, Cəfər Cabbarlı.
**Skripkaçı.** “Poçt şöbəsində xəyal”, Elçin.
**Yarqıtay**. “Dar ağacı”, Bəxtiyar Vahabzadə.
**Aram.** “Hələ “sevirəm” deməmişdilər...”, Ramiz Novruz.
**Qildenstern.** “Hamlet”, Vilyam Şekspir.
**Təlimçi.** “Kəllə”, Nazim Hikmət.
**Silvestr.** “Skapenin kələkləri”, Jan Batist Molyer.
**Əlvan.** “Varlı qadın”, Əli Əmirli.
**Qorxmaz.** “Afət”, Hüseyn Cavid.



**Münəvvər ƏLİYEVA**
**Aktrisa**

Emosional və həssas aktrisadır. Cazibəli plastikası, ifadəli daxili duyumu, musiqili səsi var. Dinamik və çılğın, ehtiraslı və mürəkkəb xarakterli, realist tipli lirik psixoloji rollarda maraqla baxılır. “Xəsisliklə” istifadə etdiyi ştrixlərdə sərt, ancaq qabarıq nəzərəçarpan ifadə vasitələrindən bəhrələnməyə üstünlük verir. İmzası bəzi proqram və afişalarda “Münəvvər Sabirqızı” kimi yazılıb.

Münəvvər Sabir qızı Əliyeva 25 may 1971-ci ildə Sumqayıt şəhərində doğulub. Oradakı 32 saylı orta məktəbi 1988-ci ildə bitirərək həmin il Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub. Ağakişi Kazımovun rəhbərlik etdiyi kursu 1992-ci ildə başa vurub və sentyabr ayının 1-dən bir müddət “Yuğ” Dövlət Teatrında aktrisa işləyib. Burada məşhur şair Ramiz Rövşənin şerləri əsasında görkəmli rejissor, “Yuğ”un bədii rəhbəri Vaqif İbrahimoğlunun hazırladığı “Gəl gedək...” tamaşasında Afrodita rolunda çıxış edib.

Aktrisa 16 iyun 1994-cü ildə “Yuğ” Dövlət Teatrından çıxıb və 20 iyul 1994-cü ildən Akademik Milli Dram Teatrının aktrisasıdır. O, bu teatrda müasir və klassik dramaturqların əsərlərinin tamaşalarında oynayıb.

**Fərəh.** “Dindirir əsr bizi...”, Davud Aslan.

**Səltənətbəyim.** "Hökmdar və qızı", İlyas Əfəndiyev.
**Antiqona.** "Şah Edip, yaxud alın yazısı" ("Şah Edip"), Sofokl.
**Cana.** "Köhnə ev", Əli Əmirli.
**Sona.** "Hələ "sevirəm" deməmişdilər...", Ramiz Novruz.
**Selcan.** "Pompeyin Qafqaza yürüşü" Nəriman Həsənzadə.
**Alagöz.** "Afət", Hüseyn Cavid.

Aktrisa Azərbaycan Dövlət Televiziyasında hazırlanmış Arturo Rafin "İblis qadın" (İblis qadın), Zəlimxan Yaqubun "Didərginlər" (Ruh), Afaq Məsudun "Cəza" (Katibə) televiziya tamaşalarında oynayıb.

Münəvvər Əliyeva "Azərbaycanfilm" kinostudiyasında çəkilmiş "Sarı gəlin" (Sarı gəlin, Erməni qızı və Azəri türkü) filmində oynayıb.



**Dilarə NƏZƏROVA**
**Aktrisa**

Qroteskli, satirik yumorlu, xaraktercə dəyişkən, həyat davranışı açıq-saçıq obrazları daha bacarıqla oynayır. Səhnə gorkəmincə nisbətən əndamlı olsa da, səhnədə cəld və çevikdir, plastik mürəkkəb hərəkətləri yüngülcə ifa edə bilir. Səhnənin həyatla müqayisədə təzadlı tələblərinə həvəs və ilhamla əməl edir. Çılğın ehtiraslı rollarda oyunu baxımlı və ifadəlidir.

Dilarə Şamil qızı Nəzərova 13 yanvar 1974-cü ildə Bakıda doğulub. 1999-cu ildə Qaradağ rayonundakı 106 saylı orta məktəbi bitirib. Mədəniyyət və İncəsənət Universiteti nəzdində ikiillik "Xalq incəsənəti universiteti" kursunu bitirib. Üç il işləyəndən sonra, 1993-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsinə daxil olub. Orada beş il təhsil alıb.

Aktrisalıq sənətinə orta məktəb illərindən maraq göstərən Dilarə Nəzərova on altı yaşından “Nəsimi” folklor teatrında, Sumqayıt Dövlət Musiqili Dram Teatrında aktrisalıq edib. Sumqayıt səhnəsində tamaşaya qoyulmuş Akif Zeynalovun “Yanmış evin nağılı” (Həlimə), Fərman Kərimzadənin romanı əsasında İdris Ağalaroğlunun səhnələşdirdiyi “Çaldıran döyüşü” (Taclıbəyim), Kukla teatrında Mirzə Fətəli Axundzadənin “Müsyö Jordan” (Şərəfnisə), “Dədə Qorqud” dastanının motivləri əsasında işlənmiş “Dəli Domrul” (Əzrayıl), Cəlil Məmmədquluzadənin “Dəli yığıncağı” (Pırpız Sona), Rəhman Əlizadənin “Ay dəli” (Dilarə), Aleksandr Puşkinin “Qızıl xoruz” (Şamaxı gözəli) əsərlərinin səhnə təcəssümündə müxtəlif səpkili və başqa-başqa xarakterli rollar oynayıb. Şamaxı gözəli rolunu Akademik teatrda işləyəndə dəvətlə ifa edib.

Adları çəkilən müxtəlif janr-üslublu sənət ocaqlarında müəyyən təcrübə toplayan Dilarə Nəzərova 1996-cı il oktyabr ayının 2-də Akademik Milli Dram Teatrına aktrisa görürülüb. O, truppada işlədiyi müddətdə bu qədim və möhtəşəm sənət məbədinin səhnəsində bir sıra rollar ifa edib.

**Güllər.** “Ah, Paris... Paris!..”, Elçin.

**Kəniz.** “Özümüzü kəsən qılınc” (“Göytürklər”), Bəxtiyar Vahabzadə.

**Susanna.** “Aydın”, Cəfər Cabbarlı.

**Səkinə.** “Bu dünyanın adamları”, Hidayət.

**Papopa.** “Fedra”. Jan Rnsin.



**Rəşid SƏMƏNDƏR**
**Aktyor**

Görkəmli aktyor, əməkdar artist, qırx bir yaşında dünyasını dəyişmiş Səməndər Rzayevin oğludur. Həm faciə, həm dram, həm də dramatik yumorlu obrazlara maraqlı səhnə həyatı vermək üçün potensial imkanları var. Səsi qəltanlı, cingiltili və xaraktercə çoxçalarlıdır. Daxilən coşğundur və alovlu ehtiraslı, romantik səpkili əsərlərdə çıxış etməyə əsas verir. Lirik və emosional ifadə vasitələrindən istifadədə də bacarıqlıdır.

Rəşid Səməndər oğlu Rzayev (Rəşid Səməndər) 8 oktyabr 1975-ci ildə Bakıda doğulub. Uşaq yaşlarından Bakının müxtəlif teatrlarının tamaşalarına maraq göstərib. 1992-ci ildə Bakının Binəqədi rayonundakı 144 saylı orta məktəbi bitirərək Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə daxil olub. Məşhur rejissor Nəsir Sadıqzadənin rəhbərlik etdiyi kursda təhsil alıb və 1997-ci ildə ali savadlı dram və kino aktyoru diplomuna yiyələnib.

Hələ tələbə ikən Akademik Milli Dram Teatrına dəvət olunub və Nahid Hacızadənin “Qisas qiyamətə qalmaz” dramının tamaşasında Nurlan rolunu oynayıb. Tamaşanın premyerası 24 may 1995-ci ildə oynanılıb. Bu roldakı uğuruna görə Rəşid Səməndər universitetin son kursunda oxuyanda, 1 oktyabr 1996-cı ildə

Akademik teatrın truppasına aktyor götürülüb. Bir il sonra isə təhsilini fərqlənmə diplomu ilə başa vurub.

İstedadlı gənc aktyor Rəşid Səməndərin Akademik Milli Dram Teatrında oynadığı səhnə obrazları bunlardır.

**Nurlan.** "Qisas qiyamətə qalmaz", Nahid Hacızadə.

**Yan Çunq.** "Özümüzü kəsən qılınc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə.

**Kreont.** "Şah Edip, yaxud alın yazısı" ("Şah Edip"), Sofokl.

**Andranik.** "Hələ "sevirəm" deməmişdilər...", Ramiz Novruz.

Gənc yaşlarında sənətdə qazandığı nailiyyətlərə görə 2001-ci ildə Azərbaycan Dövlət Gənclər, İdman və Turizm Nazirliyinin təsis etdiyi "İlin ən yaxşı gənc aktyoru" mükafatına layiq görülüb.

İstedadlı aktyor Rəşid Səməndər Dövlət Televiziyasında hazırlanan Aqşin Babayevin "Dəvətnamə" (Biznesmen Qurban) əsərinin tamaşasında oynayıb.

"Azərbaycanfilm"də çəkilən "Hacı Qara" (Əsgər bəy), telefilmlərdən "Itkin gəlin" (Şahin), "Leyli və Məcnun" (İbn Sələm) əsərlərinə çəkilib.



**Anar HEYBƏTOV**
**Aktyor**

Səhnədə çevik və dinamikdir. Zərif yumoru zəngin xalq folklorundan, məzhəkə və məsxərə oyun-tamaşalarından şirələnir. Aydın diksiyası, sərbəst səhnə davranışı və cazibədar görkəmi müxtəlif janrlı mürəkkəb rolların ifasında məzmun və forma ahəngi yaradır. Müxtəlif televiziya kanallarında musiqili-şou verilişlərini məharətlə aparır.

Anar Mithət oğlu Heybətov 25 sentyabr 1976-cı ildə Bakı şəhərində anadan olub. 1983-cü ildə Bülbül adına orta ixtisas musiqi məktəbinə gedib və 1994-cü ildə xalq çalğı alətləri şöbəsinin tar sinfini bitirib. Bir il Bakı zərgərlik zavodunda işləyib. İncəsənətə maraq göstərib və 1995-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsinə daxil olub. Tələbəlik illərində müxtəlif televiziya verilişlərində iştirak edib, "Yeddi oğul, yeddi qız" verilişini aparıb. 1999-cu ildə xalq artisti, görkəmli rejissor Azər Paşa Nemətovun rəhbərlik etdiyi kursu bitirərək ali savadlı aktyor diplomu alıb. Əvvəlcə sənət müəlliminin dəvətilə Akademik Milli Dram Teatrında Elçinin "Mənim ərim dəlidir" satirik komediyasının tamaşasında Cangüdən rolunu oynayıb. Tamaşanın premyerası 28 may 1998-ci ildə göstərilib. 1 sentyabr 2001-ci ildən isə Akademik teatrda müxtəlif səpkili rollar oynayıb.

**Cangüdən.** "Mənim ərim dəlidir", Elçin.

**Qumarbaz.** "Hələ "sevirəm" deməmişdilər...", Ramiz Novruz.

**Fortenbrans və Laert.** "Hamlet", Vilyam Şekspir.

**Qara.** "Varlı qadın", Əli Əmirli.

**Meyxanaçı Ələkbər.** "Hərənin öz payı", Əli Əmirli.

Anar Heybətov Dövlət Televiziyasında hazırlanmış Maarif Məmmədovun "Qeyri-adi müştəri" (Oğlan), "Qara pişik" (Musiqiçi), "Olacağa çarə yoxdur" (Bəhlul) dram əsərlərinin teletamaşalarında çıxış edib.

Moskvanın çəkdiyi çoxseriyalı "Dranqo" (Ramazan) filmində oynayıb.



**Şəlalə ŞAHVƏLƏDQIZI**
**Aktrisa**

Cazibəli səhnə görkəmi var, səsinin vokal keyfiyyətlərindən istifadə edə bilir. Daxili dinamikasını oynadığı obrazların çılğınlıqları və ehtirasları ilə uzlaşdırmaqda səyləri uğurlu alınır. Rol üzərində ciddi işləməyi bacarır, cəsarətli axtarışlar aparmaqdan çəkinmir. Əsasən "Şəlalə Şahvələdqızı" imzası ilə çıxışlar edir.

Şəlalə Şahvələd qızı Quliyeva 23 yanvar 1977-ci ildə Mingəçevir şəhərində doğulub. Orada üç saylı rus məktəbini 1994-cü ildə bitirib. Bir il Bakıda tikinti idarəsində işləyib. 1995-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsinə daxil olub. Sənət müəllimi, kursun rəhbəri, görkəmli rejissor Azər Paşa Nemət nasir-dramaturq Elçinin "Ah, Paris... Paris!.." satirik komediyasını Akademik Milli Dram Teatrında tamaşaya hazırlayanda tələbə aktrisaya da rol verdi. Gülbəniz rolunun məşqlərinə inamla başlayan Şəlalə Quliyeva 10 oktyabr 1996-cı ildə Akademik teatra aktrisa götürülüb. Həmin ildən başlayaraq Şəlalə Şahvələdqızı teatrda yaşına və səhnə qabiliyyətinə uyğun rollar oynamağa başlayıb. 1999-cu ildə universitet təhsilini başa vuraraq işlədiyi kollektivin ali savadlı aktrisası olub. Həm dramatik, həm də komediya janrlı tamaşalarda oynadığı rolların ümumi siyahısı belədir.

**Gülbəniz.** "Ah, Paris... Paris!..", Elçin.

**Mələk.** "Özümüzü kəsən qılınc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə.

**Fira.** “Şadlıq sorağında”, Viktor Rozov.

**Şəfqət bacısı.** “Mənim sevimli dəlim”, Elçin.

**Birinci alov.** “Sokratı anma gecəsi” (“Eşşək dərisi üzərində məhkəmə”), Çingiz Aytmatov və Muxtar Şahanov.

**Çiçək.** “Burla xatun”, Nəbi Xəzri.

**Qız.** “Mənim sevimli dəlim” (“Diaqnoz “D”), Elçin.

**Müxbir.** “Hərənin öz payı”, Xeyrəddin Qoca.

**Tələbə.** “Brüsseldən məktublar”, Həsən Həsənov (Əzizoğlu).

**Qız.** “Kəllə”, Nazim Hikmət.

Aktrisa Dövlət Televiziyasında hazırlanmış Aqşin Babayevin “Dəvətnamə” (Katibə) pyesinin tamaşasında oynayıb.



**Elşən CƏBRAYILOV**
**Aktyor**

Ucaboylu, mütənasib bədənli, dramatik səpkili aktyordur. Elşən Şahin oğlu Cəbrayılov 12 iyun 1977-ci ildə Bakıda doğulub. Atası Şahin Cəbrayılov uzun illər Akademik Milli Dram Teatrında aktyor və truppa müdiri işləyib. Elşən orta təhsilini Bakının Yasamal rayonundakı 35 saylı məktəbdə başa vurmuşdur. Həmin il Azərbaycan Dövlət İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsinə qəbul olunub. 1999-cu ildə xalq artisti, rejissor Cənnət Səlimovanın rəhbərlik etdiyi kursu bitirib.

İncəsənət Universitetində təhsil ala-ala Musiqili Komediya Teatrında əvvəl balet artisti, sonra xor aktyoru işləyib. İkinci kursda oxuyanda Akademik Milli Dram Teatrına dəvət olunaraq Nahid Hacızadənin “Qisas qiyamətə qalmaz” əsərinin tamaşasında Nurlan rolunu ifa edib. Üçüncü kursda isə Cənnət Səlimovanın quruluş verdiyi Səməd Vurğunun “Fərhad və Şirin” mənzum məhəbbət dramının tamaşasında Şiruyə obrazını oynayıb.

Elşən Cəbrayılov 16 sentyabr 1999-cu ildə Akademik teatrın truppasına aktyor qəbul olunub. O, Milli Dram Teatrında aşağıdakı rolları oynayıb.

**Nurlan.** “Qisas qiyamətə qalmaz”, Nahid Hacızadə.
**Şiruyə.** “Fərhad və Şirin”, Səməd Vurğun.
**Üçüncü ərizəçi.** “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə.
**İlyas.** “Aydın”, Cəfər Cabbarlı.
**İkinci aktyor və Kapitan.** “Hamlet”, Vilyam Şekspir.
**Patrik.** “Brüsseldən məktublar”, Həsən Həsənov (Əzizoğlu).
**Vəkil.** “Varlı qadın”, Əli Əmirli.



**Fidan AXUNDOVA**
**Aktrisa**

Teatrın ən gənc aktrisalarındandır. Cazibəli və şirin sifət cizgiləri, məlahətli səhnə görkəmi var. Hələlik axtarış yollarındadır. Oynadığı dramatik səpkili və yumor səciyyəli rollarda səmimi görünür.

Fidan Elmar qızı Axundova 18 sentyabr 1977-ci ildə Bakıda ziyalı ailəsində doğulub. 1994-cü ildə Bakının Nəsimi rayonundakı 44 saylı məktəbi bitirib. Həmin il ölkəmizin paytaxtındakı 2 saylı tibb məktəbinə daxil olub. İkiillik təhsilini uğurla başa vuran Fidan 1998-ci ilə qədər müxtəlif səhiyyə ocaqlarında tibb bacısı işləyib. 1998-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsinə daxil olub. Tələbə ola-ola Akademik Milli Dram Teatrına dəvət olunaraq Nəbi Xəzrinin “Burla xatun” dramının tamaşasında Banu Çiçək rolunu oynayıb. Tamaşanın premyerası 19 iyun 1999-cu ildə göstərilib. Tələbə-aktrisanın qabiliyyət və bacarığı nəzərə alınaraq 9 sentyabr 1999-cu il tarixdə Akademik teatrın truppasına götürülüb. 2002-ci ildə təhsilini başa vuran Fidan Axundova əsas iş yerini dəyişməyib.

Fidan Axundova Akademik Milli Dram Teatının səhnəsində təravətli və gözoxşayan rollar ifa edib. Ən əsası isə odur ki, gənc aktrısaya öz həmyaşıdlarının

obrazlarını oynamaq tapşırılır. Bunu təqdim olunan siyahıdan da açıq-aydın görmək olur.

**Banu Çiçək. "Burla xatun", Nəbi Xəzri.**
**Qəmər. "Eşq və intiqam", Süleyman Sani Axundov.**
**Aktrisa. "Hamlet", Vilyam Şekspir.**
**Müxbir və Narkoman qız. "Kəllə", Nazim Hikmət.**
**Zerbinetta. "Skapenin kələkləri", Jan Batist Molyer.**

Hələ tələbə vaxtlarından özəl Azad Azərbaycan Televiziyasında (ATA) səhər musiqili-əyləncəli verilişinin aparıcısıdır. Müxtəlif özəl şirkətlərin çəkdikləri "Qız qalası" (Fidan), "Şərəf" (Jalə) telefilmlərində oynayıb.



**Samir QULAMOV**
**Aktyor**

Ucaboyludur, təbiətən sakitdir və maraqlı səhnə görkəmi var. Yaradıcılıq imkanları baxımından realist teatr məktəbinin poetika göstəricilərinə daha yaxındır.

Samir Ceyhun oğlu Qulamov 21 oktyabr 1977-ci ildə Bakıda doğulub. Yasamal rayonundakı 263 saylı məktəbin birinci sinfinə 1984-cü ildə gedib və doqquzuncu sinifdən texniki-peşə məktəbində təhsil alıb. Paralel olaraq 30 saylı musiqi məktəbində nağara sinfində oxuyub. 1995-ci ildə texniki-peşə məktəbini bitirərək Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatr və kino aktyorluğu fakültəsinə daxil olub. Üçüncü kursda bir il təhsildən uzaqlaşıb və sonra yenə universitetə qayıdaraq 2001-ci ildə ali savadlı aktyor diplomu alıb. Üçüncü kursda rejissor Eldar Quliyevin "Gözəl, gözəl, gözəl dünya" bədii kinolentində və dördüncü kursda Ramiz Həsənoğlunun çəkdiyi çoxseriyalı "Dədə Qorqud" telefilmində epizod rollara çəkilib. Ali məktəbdə sənət müəllimləri xalq artistləri rejissor Azər Paşa Nemət və aktyor Əliabbas Qədirov olublar.

Akademik Milli Dram Teatrının aktyor ştatına hələ tələbə ikən, 6 sentyabr 2000-ci ildə götürülüb. Samir Qulamovun peşəkar aktyor kimi oynadığı rollar illərin ardıcıllığı ilə verilir.

**Gözətçi.** "Dar ağacı", Bəxtiyar Vahabzadə.
**Səfi bəy.** "Eşq və intiqam", Süleyman Sani Axundov.
**Fortenbrans və Bernardo.** "Hamlet", Vilyam Şekspir.
**Müxbir.** "Kəllə", Nazim Hikmət.
**Gülməmməd.** "Hərənin öz payı", Xeyrəddin Qoca.
**Tələbə.** "Brüsseldən məktublar", Həsən Həsənov (Əzizoğlu).
**Oyunçu.** "Skapenin kələkləri", Jan Batist Molyer.
**İkinci cangüdən.** "Varlı qadın", Əli Əmirli.
**Oqtay.** "Afət", Hüseyn Cavid.

Samir Qulamov "Atillanın atlıları" (Sərkərdə), "Bəyaz həyat" (Akif) telefilmlərinə çəkilib.



**Məsmə ASLANQIZI**
**Aktrisa**

Sısqa bədəni olmasına baxmayaraq, səhnədə diri görünür, cəld və çevikdir. Ən çətin plastik hərəkətləri asanlıqla, oynadığı obrazın psixoloji xarakterinə uyğun tərzdə tənzimləyə bilir. Zəhmətkeşdir və rol üçün xarakterik ştrixlər tapmağı xoşlayır. Səhnədəki vəziyyətin psixoloji ovqatına uyğun olaraq obrazın dəyişmə prosesini aydın, ifadəli və inandırıcı göstərməyi bacarır. Bəzi afişa və proqramlarda adı "Məsməxanım" kimi yazılıb. Atasının adını özünə səhnə təxəllüsü götürüb.

Məsmə Aslan qızı Ağaverdiyeva 11 fevral 1978-ci ildə Bakıda doğulub. Orta təhsilini Yasamal rayonundakı 158 saylı məktəbdə alan Məsmə oranı 1994-cü ildə bitirib və həmin il Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsinə daxil olub. Kurs rəhbəri, görkəmli rejissor Azər Paşa Nemət Akademik Milli Dram teatrında nasir-dramaturq Elçinin "Ah, Paris... Paris!.." satirik komediyasını tamaşaya hazırlayanda Məsməni bu əsərdə Nurbəniz roluna dəvət edib. Teatrın bədii rəhbəri və direktoru Həsən Turabovun təklifi ilə o, 10 oktyabr 1996-cı ildə kollektivin aktyor truppasına aktrisa götürülüb. "Ah, Paris... Paris!.." tamaşasının premyerası isə bir qədər sonra, 1997-ci il fevral ayının 1-də göstərilib.

Satirik, komik və məsxərəli səhnə obrazlarını duzlu şövqlə oynayan aktrisa eyni zamanda Vilyam Şekspirin "Hamlet" faciəsində Ofeliya kimi psixoloji, dramatik, lirik və emosional xarakterli rolu da məharətlə ifa edib. Onun yeni-yeni inkişaf edən yaradıcılıq yolunda artıq müəyyən sanballı səhnə surətləri var.

**Nurbəniz.** "Ah, Paris... Paris!..", Elçin.

**Şahzadə.** "Şıltaq şahzadənin nağılı", nağıl-tamaşa.

**Vera Tretyakova.** "Şadlıq sorağında", Viktor Rozov.

**Katibə.** "Mənim sevimli dəlim", Elçin.

**İkinci alov və Nuri.** "Sokratı anma gecəsi" ("Eşşək dərisi üzərində məhkəmə"), Çingiz Aytmatov və Muxtar Şahanov.

**Səhəriyyə.** "Burla xatun", Nəbi Xəzri.

**Falçı Ağabacı.** "Mənim ərim dəlidir" ("Diaqnoz "D"), Elçin.

**Böcək.** "Köhnə ev", Əli Əmirli.

**Ofeliya.** "Hamlet", Vilyam Şekspir.

**Pioner qız.** "Hərənin öz payı", Xeyrəddin Qoca.

**Qiastina.** “Skapenin kələkləri”, Jan Batist Molyer.

Məsmə Aslanqızı bir sıra özəl telekanallarda əyləncəli və musiqili-şou verilişlərin aparıcısı olub.



**Rəşad BƏXTİYAROY**
**Aktyor**

Rəşad Bəhram oğlu Bəxtiyarov 25 dekabr 1978-ci ildə Bakıda doğulub. Nərimanov rayonundakı Mehdi Hüseynzadə adına 37 saylı məktəbdə doqquzuncu sinifə qədər oxuyub. Orta təhsilini isə 1995-ci ildə 193 saylı məktəbdə başa vurub. Həmin il də Bakı Mədəni Maarif Texnikumunun cizgi filmləri rejissoru fakültəsinə daxil olub. Bir ildən sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsinə daxil olduğuna görə texnikum təhsilini yarımçıq qoyub.

Universitetin ikinci kursundan Akademik Milli Dram Teatının tamaşalarında kütləvi səhnələrdə çıxıb, sözsüz rollar ifa edib. 2000-ci ildə təhsilini başa vurduğuna görə bir il hərbi xidmətdə olmuşdur. 26 oktyabr 2001-ci ildən müqavilə ilə Akademik teatrın truppasına işə götürülüb. İndiyədək burada müqavilə ilə çalışan Rəşad Bəxtiyarov teatrın səhnəsində müəyyən epizod rollar oynayıb.

**Şəmsi bəy.** “Eşq və intiqam”, Süleyman Sani Axundov.
**Müxbir.** “Kəllə”, Nazim Hikmət.
**Qəzetsatan.** “Hərənin öz payı”, Xeyrəddin Qoca.
**Kinto, Qarson və Rəssam**. “Brüsseldən məktublar”, Həsən Həsənov (Əzizoğlu).
**Silvestr.** “Skapenin kələkləri”, Jan Batist Molyer.
**Bədxəbər.** “Varlı qadın”, Əli Əmirli.
**Orxan.** “Afət”, Hüseyn Cavid.

Rəşad Bəxtiyarov “Həqiqət işığında” (Mirzəyev) və “Bəyaz həyat” telefilmlərində (Sonanın oğlu) rollarına çəkilib.

**Saleh BAĞIROV**
**Aktyor**



Cazibəli səhnə görkəmi, Cucaboyu,yapışıqlı sifət ifadələri var. Dramatik və lirik psixoloji aktyorluq ifadə vasitələri onun ilk axtarışlarında daha canlı görünür.

Saleh Ramiz oğlu Bağırov 10 mart 1981-ci ildə Bakıda doğulub. Səbail rayonundakı 132 saylı orta məktəbi 1997-ci ildə bitirib. Həmin il Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsinə daxil olub. O, 2001-ci ildə universitetin bokalavr üzrə tam kursunu bitirib. Sonra isə ikiillik magistratura şöbəsinə qəbul edilib.

Saleh Bağırov 25 sentyabr 2001-ci ildə Akademik Milli Dram Teatrına aktyor götürülüb. Gənc aktyor qocaman kollektivdə illərin ardıcıllığı ilə aşağıdakı rolları ifa edib.

**Səməd bəy.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.

**Qəzetsatan və Kommunist.** "Hərənin öz payı", Xeyrəddin Qoca.

**Aktyor.** "Hamlet", Vilyam Şekspir.

**Birinci çapar.** "Özümüzü kəsən qılınc" ("Göytürklər"), Bəxtiyar Vahabzadə.

**Tələbə.** "Brüsseldən məktublar", Həsən Həsənov (Əzizoğlu).



**Sərdar RÜSTƏMOV**
**Aktyor**

Hələlik kiçik epizod rollar oynayır. İlk addımlarından nəzərə çarpan cəhət odur ki, tipik dramatik və məsxərə özüllü yumorlu rollara uyğun xarakterik cizgilər tapmağa çalışır.

Sərdar Mənsur oğlu Rüstəmov 20 avqust 1981-ci ildə Şamaxı rayonunun Göylər kəndində doğulub. 1998-ci ildə doğma kəndlərindəki 2 saylı orta məktəbi bitirib. Həmin il Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsinə daxil olub. Bakalavr pilləsi üzrə xalq artisti, görkəmli sənətkar Həsən Turabovun kursunu 2002-ci ildə bitirib. Hazırda öz ixtisasını magistraturada davam etdirir.

Tələbə vaxtlarından Akademik Milli Dram Teatrının tamaşalarında kütləvi səhnələrdə və sözsüz epizod rollarda çıxış edıb, eyni zamanda 15 oktyabr 1998-ci ildən burada səhnə fəhləsi işləyib. Çalışqanlığına və bacarığına görə teatrın direktoru və bədiı rəhbəri Həsən Turabovun təşəbbüsü ilə onu 11 dekabr 1999-cu ildə Akademik teatrın aktyor truppasına götürüblər. Sərdar Rüstəmov bu ulu sənət ocağında müəyyən rollar oynayıb.

**Mədənçi.** "Aydın", Cəfər Cabbarlı.
**Şikayətçi.** "Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə.
**Rəhman.** "Dar ağacı", Bəxtiyar Vahabzadə.
**Çapar,** Aktyor və Kornelli. "Hamlet", Vilyam Şekspir.
**Təlimçi.** "Kəllə", Nazim Hikmət.
**Birinci oğlan.** "Hərənin öz payı", Xeyrəddin Qoca.
**Qəzetsatan.** "Brüsseldən məktublar", Həsən Həsənov (Əzizoğlu).

## İNZİBATİ İŞÇİLƏR

**Natiq GÜLMƏMMƏDOV**
Baş inzibatçı

**İlham ƏSGƏROV**
Bədii quruluş hissə müdiri

**Kamal ŞIXƏLİYEV**
Dekorçu rəssam, əməkdar mədəniyyət işçisi

**Hüseyn MƏLİKOV**
Butaforçu rəssam, əməkdar mədəniyyət işçisi.

**Rasimə MƏMMƏDOVA**
Geyim sahəsinin rəisi, əməkdar mədəniyyət işçisi

**Cabbar CABBAROV**
Rekvizit sahəsinin rəisi, əməkdar mədəniyyət işçisi

**Rafael HƏSƏNOV**
İşıq sahəsinin rəisi

**Yekaterina MQALOVLİŞVİLİ**
Radio sahəsinin rəisi

**Telman YUNİSOV**
Rəssam qrimçi, əməkdar mədəniyyət işçisi

**İradə HEYDƏROVA**
Qrimçi

**Nəcəf HƏSƏNZADƏ**
Rejissor assistenti, əməkdar mədəniyyət işçisi

**Rəfiqə MUSAYEVA**
Rejıssor assistenti, əməkdar mədəmyyət işçisi

**Dilbər İSMAYILZADƏ**
Rejissor assistenti

**Xanım HƏSƏNOVA**
Rejissor assistenti

**Yaqut ƏZİMOVA**
Kadrlar şöbəsinin rəisi

**Vəfa KAZIMOVA**
Redaktor

KİTABIN İÇİNDƏKİLƏR


Akademik Milli Dram Teatrı............................................... 3

**Rəhbərlik**
Əliabbas Qədirov................................................... 24
Ədalət Vəliyev...................................................... 28
İlham Rəhimli....................................................... 29
Nazim Bəykişiyev ...................................................... 31
Cavanşir Quliyev.................................................... 36
İsmayıl Məmmədov................................................,... 39
Məmmədşah Atayev..................................................41

**Rejissorlar**
Ağakişi Kazımov ................................................... 42
Azər Paşa Nemət .................................................. 48
Mərahim Fərzəlibəyov........................................... 52
Əsgər Əsgərov ..................................................... 56
Bəhram Osmanov .................................................. 59
Mehriban Ələkbərzadə ........................................... 63

**Aktyorlar**
Səyavuş Aslan ...................................................... 65
Rafiq Əzimov......................................................... 71
Həsən Turabov....................................................... 75
Kamal Xudaverdiyev............................................... 80
Həsən Məmmədov.................................................. 84
Safurə İbrahimova.................................................. 87
Elxan Ağahüseynoğlu............................................. 90
Ramiz Məlik............................................................ 95
Hacı İsmayılov........................................................ 99
Zərnigar Ağakişiyeva...............................................104
İlham Namiq Kamal................................................ 108

Yaşar Nuriyev............................................................... 113
Ramiz Novruzov............................................................. 118
Nurəddin Mehdixanlı........................................................ 122
Zemfira Nərimanova......................................................... 125
Firəngiz Mütəllimova........................................................ 128
Bəsti Cəfərova............................................................... 131
Laləzar Mustafayeva......................................................... 134
Məleykə Əsədova............................................................. 136
Bürcəli Əsgərov.............................................................. 138
Firuz Xudaverdiyev........................................................... 142
Sadıq İbrahimov.............................................................. 145
Rafael Dadaşov............................................................... 149
Telman Əliyev................................................................. 152
Əli Nur......................................................................... 157
Kübrabəyim Əliyeva.......................................................... 161
Pərviz Bağırov................................................................ 164
Cəfər Namiq Kamal.......................................................... 167
Elxan Quliyev................................................................. 170
Sevil Xəlilova................................................................. 173
Telman Adıgözəlov........................................................... 176
Şükufə Yusupova............................................................. 179
Səidə Quliyeva............................................................... 182
Hicran Nəsirova.............................................................. 185
İlham Əsgərov................................................................ 188
Sənubər İsgəndərova........................................................ 191
Sabir Məmmədov............................................................. 194
Mətanət Atakişiyeva......................................................... 197
Sevinc Əliyeva................................................................ 199
Mehriban Xanlarova......................................................... 202
Məzahir Cəlilov............................................................... 204
Əlvida Cəfərov................................................................ 208
Tofiq Hüseynov............................................................... 211
İradə Ağasıbəyli.............................................................. 214
Abbas Qəhrəmanov.......................................................... 217
Almaz Amanova............................................................... 220
Kazım Həsənquliyev......................................................... 222
Aslan Şirinov.................................................................. 224
Mətləb Abdullayev........................................................... 226
Rövşən Kərimduxt............................................................ 228
Münəvvər Əliyeva............................................................ 230
Dilarə Nəzorova.............................................................. 232
Rəşid Səməndər.............................................................. 234
Anar Heybətov................................................................ 236
Şəlalə Şahvələdqızı.......................................................... 238
Elşən Cəbrayılov............................................................. 240

Fidan Axundova……………………………………………………242
Samir Qulamov……………………………………………………244
Məsmə Aslanqızı…………………………………………………...246
Rəşad Bəxtiyarov………………………………………………….. 248
Saleh Bağırov………………………………………………………250
Sərdar Rüstəmov…………………………………………………... 251
İnzibati işçilər……………………………………………………253

İlham ƏZİZ oğlu RƏHİMLİ
**AKADEMİK MİLLİ DRAM TEATRI**

Naşiri
**Qoşqar İsmayıloğlu**

RƏSSAMl
Tərlan Qorçu,
BƏDİİ REDAKTORU
İlham İsmayılov,
TEXNİKİ REDAKTORU
Akif Dənzizadə,
OXUCULAR
Cavid Rəhimli,
Daşqın Həmzəyev,
KORREKTORLARI
Gülər Məmmədova,
Rəfiqə Qənbərqızı,
OPERATORU
Məlahət Qurbanova,
ÇAPA MƏSUL
Sərraf Mürsəlov,
Anar Abdullayev,
Azər Yunusov.

Yığılmağa verilmiş 10.1.2001,
çapa imzalanmış 16.6.2003,
formatı 60x90 l/16, fiziki ç.v. 16,5,
şərti ç.v. 16,5, ofset kağızı № l,
tayms qarnituru, sifariş 54, sayı 500.

Kitab
**“QAPP-POLİQRAF”** Korporasiyasının
Nəşriyyatında nəşrə hazırlanmış və
**“QAPP-POLİQRAF”** Korporasiyasının
mətbəəsində çap olunmuşdur.

370025. Bakı şəhəri, N. Rəfiyev küçəsi, 24.
Tel.: **902757, 989555, 937255**